# *SAXTA HƏDİSLƏRİN YARANMASI*

**Seyyid ƏbdülHüseyn Şərəfuddin Amili**

**Bismillahir-rihmanir-rəhim**

## MÜƏLLİFİN HƏYATINA QISA BİR BAXIŞ

Bu gün İslam dünyası öz bərəkətli ömrünü müsəlmanların ümumi mənafeyi yolunda vəqf edən böyük şəxsiyyət-Seyyid ƏbdülHüseyn Şərəfuddinin adını əzəmətlə yad edir. Onun şəxsiyyəti nə qədər ki, sağ idi, hamının nəzərində əzəmətli idi. Dövrün keçməsi onun həyat səhifəsini vərəqlədi. Amma onun elmi, ondan qalan dəyərli əsərlər, xeyriyyə müəssisələri, Allah və din yolunda etdiyi böyük xidmətlərin qapısı hələ də açıqdır. O, öz iftixarlı həyatında heç vaxt mübarizədən əl çəkməzdi. özünün gözəl xitabələri ilə, çoxlarının iştirak etdiyi məclislərdə, həmçinin yazdığı kitablarda daim müsəlmanları, öz cərgələrində vəhdət yaratmağa, nəzəriyyələrdə yekdil olmağa və yersiz təəssüblərdən uzaq olmağa çağırırdı. Müəllifin təqribən yarım əsr bundan qabaq yazdığı ilk kitab **"Əl-füsulül-mühimmətu"** kitabı idi.

Mərhum Şərəfuddin İslam ümmətinin ittihadı yolunda qarşılaşdığı problemləri bu kitabında qəlmə almış, aydın bəyan və qət"i sübutlarla onu aşkar etmiş, heç kəs üçün şəkk və tərəddüd yeri qoymamışdır. Bu kitab elə həqiqətlərdən söhbət açır ki, müəllif özünün dərin elmi, söz ustalığı (fəsahət və bəlağəti), ədəbi və nurani üslubu ilə müsəlmanları ittihad və vəhdət bayrağı altında birləşdirmək üçün o həqiqətləri aşkar etmişdir.

İncə təfəkkür tərzi, dolğun mənalı ibarələrlə və çox aydın şəkildə yazılan bu kitab o gündə İslamı mütaliələr ətrafında yazılaraq camaatın ixtiyarına qoyulan ilk kitab idi. Bu kitabın nəşr olunmasından iki il sonra əziz müəllif Misrə səfər etdi ki, özünün dəqiq və gözəl xitabələri ilə müsəlmanların vəhdəti yolunda təsirli addımlar atmış olsun. Misirdə onunla "Əl-əzhər" universitetinin rektoru (sünnü məzhəblidir) arasında müəyyən müzakirələr və yazışmalar olmuşdur. (Bu müzakirələr sonradan "Əl-muraciat" adlı kitab şəklində çap olunmuşdur.) Müəllif "Əl-muraciat" kitabının əvvəllərində iki sünnü və şiə alimi arasında olan müzakirələri son dərəcədə gözəlliklə qələmə almışdır və o, bu işi İslamı daha yaxşı təqdim etmək, müsəlmanların birliyi yolunda daha da irəliləmək üçün lazım və zəruri bilirdi.

Elə görkəmli müəllif ömrünün sair dövrlərində də bu böyük əndişə əsasında əməl edirdi. Bu da onun ömrü boyu daimi apardığı İslam cihadından ibarət idi. Gördüyümüz kimi, müsəlmanların müxtəlif qrupları ona hörmət qoyur, onun

adını hər yerdə ehtiramla yad edirlər, müxtəlif çapxanalar onun dərin təfəkkürlü və faydalı əsərlərini rəğbətlə qarşılayıb camaatın ixtiyarına qoyurlar.

İndi son dərəcədə ixtisarla, öz həyatını müsəlmanların mənafeyinin qorunub-saxlanması, aralarında ittihad yaranması, ayıqlıq, qardaşlıq ideyasının yaranması üçün sərf edən bu böyük alimin iftixarlı həyatını əziz oxuculara çatdırırıq.[1]

## *TƏVƏLLÜDÜ VƏ ALİLƏSİ*

Müəllif 1290-cı hicri qəməri ilində (1869) dini şəhər olan Kazimeyndə Əli (əleyhis-salam)ın nəslindən olan bir ata-anadan dünyaya gəlmişdir. Atası böyük alim Əllamə Seyyid Yusif Şərəfuddin, anası isə Ayətullah mərhum Hacı Seyyid Sədrin qızı Zəhra idi. (Ayətullah mərhum Seyyid Hadi Sədr məşhur mərcəyi-təqlid Seyyid Həsən Sədrin atasıdır.)

Bu böyük seyyidin ata və ana tərəfdən nəsli 7-ci İmam Həzrət Musa Kazim (əleyhissalam)-a gedib çatır. Digər tərəfdən, bu sülalənin Birinci Məhəmməd adı ilə tanınan ilk övladı–böyük müctehid Seyyid İbrahim Şərəfuddin "Sədr" və "Şərəfuddin" ailələrinin babasıdır. Hər iki ailə o dövrdə "Hüseyn Qəti"i sülaləsi" adı ilə məşhur böyük şiə alimləri Seyyid Mürtəza və Seyyid Rəzi onların nəslindəndir.

Seyyid Şərəfuddin öz babasının evində dünyaya göz açmışdır. Babası onu hamıdan çox əzizləyir və nəvaziş göstərirdi. Dayısı Seyyid Məhəmməd Hüseyn Sədr onunla eyni yaşda olan, bir yerdə dərs oxyan, bir yerdə böyüyüb boya-başa çatan dostlarından idi.

## *TƏLİM-TƏRBİYƏSİ*

Seyyid Şərəfuddin 8 yaşında olarkən atası öz dərslərini təkmilləşdirdikdən və İraqın böyük fəqihlərindən ictihad icazəsini aldıqdan sonra Cəbəl Amilə (Livanın cənubundadır) qayıdır.

Kiçik yaşlı Əbdül Hüseyn atasının ünsiyyət bağladığı diyarda ərəb dilinin müqəddimati dərslərini, bəlağəti, fiqh və üsulu atasından öyrənir. O, həmin dövrlərdə yaşıdlarının içərisində son dərəcədə fitri istedadı ilə məşhur idi. Dərsdə yaranan çətin sualları və müşkül məsələləri müəllimlərindən, xüsusilə babası Hacı Seyyid Sədrdən soruşurdu.

17 yaşına çatarkən atası onu əmisinin qızı ilə evləndirir, sonra İraqa göndərir ki, təhsilini davam etdirsin və dərin elmə yiyələnib kamala çatsın. O, ali təhsilini başa vurduqdan sonra böyük fəqih və mərcəyi-təqlidlərdən olan Ayətullah Xorasani, Şeyxuş-Şəri"ə İsfahani, Seyyid Məhəmməd Kazim Yəzdi, Seyyid İsmail Sədr, öz dayısı Ayətullah Seyyid Həsən Sədr və başqa müctehidlərin elmi dərslərində iştirak edir.

---

[1]Müəllifin həyatının müxtəsər şərhini cənab Ayətullah Sədr 36 səhifədə yazmışdır ki, biz ixtisarla həmin yerdən iqtibas edirik. ***(Mütərcim)***

32 yaşına çatmamış şərəfli ictihad məqamına yetişir. O zaman Nəcəf şəhərində Cəbəl Amil ruhaniləri içərisində onun fəzilət və şöhrətinə çatacaq və ümumxalq tərəfindən bu qədər hörmətə layiq görüləcək bir kəs yox idi.

Onun bu dövrdəki təhsili Nəcəfi-Əşrəfdəki təhsili ilə xülasələnmirdi; o həm də Kazimeyn, Samirra, Kərbəla şəhərlərinə gedir, bu şəhərlərin böyük alimlərinin elmindən faydalanırdı. Onun adı bu şəhərlərin elmi yığıncaqlarında məşhur idi, hər elmi-ədəbi məclisdə özünə yer tutmuşdu.

O, özünün dərin biliyindən əlavə, əsrinin görkəmli şairi də hesab olunurdu. Yazdığı şerlər riqqətli, dərin mənalı olub söz gözəlliyi ilə zinətlənmişdi.

## *LİVANA QAYITMASI*

Seyyid Əbdül Hüseyn Şərəfuddin təhsilini başa vurub ictihad icazəsini aldıqdan sonra Cəbəl Amilə qayıdır və öz alim atası və qardaşı Seyyid Məhəmməd Əli Şərəfuddin ilə bir yerdə (o, "Əbu Talib–Şeyxul Əbtəh" kitabının müəllifidir) yaşamağa başlayır.

Onların ailəsində vaxtaşırı alim ata və oğlanlar arasında müxtəlif sahələrdə elmi müzakirələr və bəhslər davam etməkdə idi. Hər üçü sanki "ailəvi hövzə" təşkil etmişdilər. Amma çox keçmədən Seyyid Əbdül Hüseyn əvvəlcə atasını, az sonra isə qardaşını əldən verdi və dərin qəm-qüssəyə, kədərə batdı.

Şərəfuddin öz dayısının və əmi oğlanlarının vətəni, habelə özünün təvəllüd məkanı olan İraqa daha çox rəğbət bəsləyirdi. Amma İraqın böyük alimləri onun Cəbəl Amilə getməsi üçün israr edib deyirdilər ki, Cəbəl Amildə onun kimi böyük müctehidə daha çox ehtiyac duyulur. Buna görə də onların sözlərini qəbul edərək ana vətəninə qayıtdı.

Onun Cəbəl Amilə daxil olması tarixi günlərdən biridir. Camaatın müxtəlif təbəqələri Livanın cənubundakı Əl-cəbəl məntəqəsinə yığışaraq Seyyidin pişvazına çıxdılar və onu təntənəli şəkildə Sur şəhərinə qədər müşayiət etdilər.

Livanın cənubunda yaşayayn şiələr onu xüsusi ehtiramla qarşıladılar. O da zamanın ötüb keçməsi ilə insanların qəlbinə nüfuz edə bildi, özünün elmi-əxlaqi məziyyətləri ilə tez bir zamanda hər yerə səs saldı.

Əvvəlcə atasına ehtiram əlaməti olaraq camaatın şəri suallarına cavab verməkdən çəkinirdi. Camaat da fətva almaqda və hökmlərin icrası üçün məcburən atası ilə kifayətlənirdi. Camaat Şəqra məntəqəsində Livanın mərcəyi-təqlidi olan Seyyid Əli Əminə müraciət edirdilər. Amma sonralar o, Seyyid Yusif Əminə bir məktub yazıb bildirdi ki, oğlun Seyyid Əbdül Hüseyn mütləq və adil müctehiddir, bu gün Cəbəl Amil müctehidləri arasında heç kəs onun misli ola bilməz.

Beləliklə, camaat yavaş-yavaş şəri hökmləri almaqda Seyyid Əbdül Hüseynə müraciət etməyə başladılar. Hətta atası da müşkül məsələ və hökmlərdə ona müraciət edirdi. Çox keçmədən onun şöhrəti hər yerə səs saldı və bütün müsəlmanların mərcəyi-təqlidi oldu. Hamı fətva almaqda ona müraciət edirdi.

## *MİSRƏ SƏFƏR*

O, Misrə iki dəfə səfər etmişdi: Birinci dəfə 1901-ci ildə, ikinci dəfə isə 1920-ci ildə. İkinci dəfə o zaman səfər etmişdi ki, Suriya və Livanı işğal edən fransız müstəmləkəçilərinə qarşı cihad hökmü vermişdi və fransızlar da onu edama məhkum etmişdilər.

Birinci səfərində Seyyid Şərəfuddin Misrin "Əl-Əzhər" universitetinin o zamankı rektoru Şeyx Səlim Bişri ilə elmi-tarixi müzakirələr aparmışdı. Sonralar bu müzakirələr məktublaşma şəklində davam etmiş və "Əl-muraciat" adlı kitab şəklinə salınmışdır. Onun 8-ci çapı dünyada yayılmaqdadır.[1]

İkinci dəfə isə fransalıların onun Livanda mövcudluğunu özlərinin mənfur istismarçı-müstəmləkəçi siyasətlərinin qarşısında böyük bir əngəl görürdükdə bu vəziyyətdən Misrə pənah aparmışdı. Bu səfərdə Misrin islami ziyalıları, ədiblər və alimlər (birinci səfərində onun elmi məqamını tanıdıqları üçün) pişvazına çıxıb ehtiramla qarşıladılar.

Orada bütün müsəlmanları yadellilərin müqabilində müttəfiq olmağa dəvət edərək buyurdu: "Sünnü ilə şiəni siyasət bir-birindən ayırmışdır və elə siyasət də onları bir yerə yığmalıdır."[2]

Seyyid Rəşid Rza bu cümlələri özünün "Əl-mənar" jurnalında çap etdirmişdir.

## *VƏTƏN YOLUNDA CİHAD*

Seyyid Əbdül Hüseyn Şərəfuddinin Osmanlı dövründəki cihadı yalnız dini cihad idi. Çünki Livanın dövləti müsəlman dövləti idi və İslam şüarlarına ehtiram qoyurdu. Amma fransız müstəmləkəçiləri Suriyanı işğal etdikdən sonra ölkəni fəsada, əxlaqsızlığa çəkdilər, dini hökmləri ləğv etdilər, camaata o qədər təzyiq göstərdilər ki, hamının səbir kasası doldu.

Bu zaman Seyyid Şərəfuddin işğalçılara qarşı cihad (mübarizə) bayrağını qaldırdı, camaatda, xüsusilə ruhani təbəqəsində vətənpərvərlik, müstəmləkəçilər əleyhinə mübarizə ruhiyyəsini həyəcanlandıraraq işğalçılar əleyhinə qiyamın vacib olduğunu hamıya xatırlatdı.

Bu məqsədlə Vadil-Hüceyrdə konfrans təşkil edərək Livanın bütün alimlərini oraya dəvət etdi. Bütün tayfalardan olan ruhanilər, qəbilə başçıları onun dəvətini qəbul edib həmin yerə toplaşdılar. Seyyid Şərəfuddin o mühüm konfransda fransız müstəmləkəçiləri əleyhinə cihad hökmünü verdi, konfransa gələnlərin

[1]Bu kitab indiyə qədər 15 dəfə təkrar çap olunmuşdur.

[2]Onun məqsədi budur ki, yadellilərin hiylələri və məkrli müstəmləkəçi siyasətləri İslami firqələri, o cümlədən sünnü və şiəni bir-birindən ayırdığı kimi indi İslami siyasət müştərək düşmənə qarşı onları birləşdirməlidir ki, zərbə dəydiyi yerdən düşmənə zərbə endirsinlər. (Mütərcimdən.)

hamısı bu hökmü təsdiqlədilər. Sonra konfrans iştirakçılarının hamısı öz şəhərlərinə qayıtdılar və Fransanın əleyhinə mübarizəyə başladılar.
Seyyid Şərəfuddinin evinə gediş-gəliş günbəgünə artmaqda idi; onlar uzun siyahılar təşkil edərək fransızların təşkil etdiyi hökumətin ləğv edilməsini, ölkənin tam istiqlaliyyətə nail olmasını istəyirdilər.
Fransalılar bu məsələdən agah olduqdan sonra Sovr əhalisindən olan ibnil Həccac adlı bir məsihini Şərəfuddinin evinə göndərirlər ki, evini işğal edib özünü də tutsun, habelə orada Livanın istiqlaliyyətini tələb edən bütün siyahıları özü ilə gətirsin.
Mərhum Şərəfuddin belə bir vəziyyəti əvvəlcədən ehtimal verdiyinə görə, dərhal bütün sənədləri anasına təhvil vermiş, o da bütün bunları gizlətmişdi. Odur ki, ibnil Həccac heç bir şey əldə etmədən, rüsvayçılıqla geri qayıtdı.

Camaat Seyyid Şərəfuddinin evinin işğal olunmasından agah olduqdan sonra Livanın cənubundan Sovr şəhərinə axışmağa başladı. Seyyid Şərəfuddin də onlara təşəkkür edib bu işlərini təqdirəlayiq hesab etdi, onların yüksək milli ruhiyyəsini təriflədikdən sonra təkid etdi ki, hamısı öz vətənlərinə qayıdıb növbəti hökmün verilməsini gözləsinlər. Camaat dağılışdıqdan sonra fransalılar Seyyidin məqsədindən agah oldular. Ona görə də qüvvələrinin bir qismini Şəhur şəhərinə göndərdilər, (çünki Seyyid ora getmişdi.) Orada Seyyidin evini yandırdılar. Bundan əvvəldə onun Sovr şəhərindəki evini yandırmış, ən dəyərli kitablarını qarət etmişdilər. Amma Seyyid fransız qüvvələrinin Şəhur şəhərinə daxil olmasından xəbərdar olub, dərhal şəhərdən çıxdı və yaxınlıqdakı mağaraya sığındı və bütün günü orada qaldı.
Fransızların şəhərdən çıxıb getdiklərini yəqin etdikdən sonra gecə ikən mağaradan çıxıb Şəhura qayıtdı, gecəni qalıb sonra paltarını dəyişərək Şama getdi. Orada Suriyanın padşahı Məlik Feysələ qonaq oldu, padşah əziz qonağını bağrına basdı və yaxşı yer verdi.
Seyyid Şərəfuddin bir müddət Şamda qaldıqdan sonra öz ailəsini və qohum-əqrəbasını Şama dəvət etdi. Elə burada da öz vəzifəsini davam etdirməyə başladı, (o zamanlar Seyyidin şöhrəti hər yerə yayılmışdı) münasib fürsətlərdə ümumxalq təfəkkürünü aydınlaşdırmaqda, camaatı cihad üçün hazırlamaqda sə”y edirdi.

Fransalılar Şamı işğal etdikdən sonra o, Fələstinə gedib ailəsini və qohum-əqrəbasını Cəbəl Amilin əmin-amanlıq məntəqəsində yerləşdirdikdən sonra Misrə gedir. Bu, onun Misrə ikinci səfəri idi.
1338-ci hicri ilinin axırlarında Misirdən çıxıb, vətəni yaxın olsun deyə, bir daha Fələstinə gəldi (o zamanlar Fələstini ingilislər işğal etmişdi) və Cəbəl Amilə yaxın olan Üləma məntəqəsində məskunlaşdı. Sovrdakı evində olduğu kimi, Üləmadakı evi də camaatın və qonaqların gediş-gəliş mərkəzinə çevrildi.

Ehtiyacı olanlar ona üz gətirir, o da camaatın çox olduğu yerlərdə iclaslar təşkil edərək elm, ədəb, siyasət və s. kimi işlərdən söz açırdı.
Təsadüfi hadisələrdən biri də bu idi ki, Seyyid Əbdül Hüseyn Şərəfuddin Fələstinin Üləma kəndinə fransız işğalçılarının əlindən qaçmışdı. Onun dayısı oğlu Seyyid Məhəmməd Sədr isə ingilislər tərəfindən təqib olunurdu və Livanda yaşayırdı. Hər iki dini rəhbər müstəmləkəçilərə və işğalçılara qarşı vuruşurdu, hər ikisi də edama məhkum olunmuşdu.
Seyyid Şərəfuddin bir müddətdən sonra dayısı oğlunun vasitəçiliyi ilə Livana qayıtdı. Onun Livana qayıdışını cənubda yaşayan əhali son dərcə hərarətlə qarşıladılar; onu qarşılamağa çıxanların sayı və keçirdikləri həyəcan hissləri Livan tarixində misilsiz idi.
İndi artıq Seyyid Əbdül Hüseyn Şərəfuddin Livan əhalisinin dini və milli rəhbəri, hamının mərcəyi-təqlidi, şiələrin rəşadətli fətva verəni idi. Onun mübarizə tarixi, vətənindən uzaq düşməsi, habelə elm və əməl baxımından nüfuzlu şəxsiyyət olması ona gözəl bir mövqe bəxş etmişdi.

## *HƏDİS ELMİNDƏ DƏRİN BİLİYİ*

Seyyid Şərəfuddin təkcə Peyğəmbər və onun pak Əhli-beytindən nəql olunan rəvayətlərdə deyil, həm də sünnü alimlərinin təriqi ilə nəql olunan hədislərdə dərin elmə malik idi. Bunlar sadəcə iddialar deyil, əksinə, elə mətləblərdir ki, hər kəs onun yazdığı kitablara baxsa, onu əyani surətdə görəcək və etiraf edəcəkdir.

Sünnü məzhəblərindən onun icazəsi ilə fətva məqamına çatanlar çoxdur. O, özünün "Səbtül-əsbat fi silsilətir-rovat" adlı qiymətli kitabında onların hamısının adını qeyd etmişdir. Mən inanıram ki, onun şiə məzhəbinin haqq olmasını isbat etmək üçün yazdığı kitablar məhz sünnü hədislərindən istifadə edilmiş və bizim əsrimizdə misilsiz kitablardır.

Onun qələmə aldığı son əsər ömrünün 80-cı ilində yazdığı "Ənnəssu vəl-ictihad" kitabıdır. Əziz oxucular onu mütaliə etdikdən sonra mütləq etiraf edəcəklər ki, o böyük alim təfəkkür və bəyan qüdrətinin son zirvəsində olmuş, hədis və münazirədə dərin biliyə sahib olmuşdur. Həmçinin görəcəksiniz ki, onun təfəkkürü və gözəl ibarələrindən, təhqiq üslubu və mətləbə əhatəliliyindən əsla qocalığı hiss olunmur.

## *TARİXİ MƏKTUBLARI, NƏSR, XİTABƏ VƏ ŞERLƏRİ*

Onun bə`zən Nəcəfi-Əşrəfdə oğluna, habelə müxtəlif padşahlara, dövlət başçılarına, siyasi rəhbərlərə, məs"uliyyətli şəxslərə yazdığı məktublar son dərəcədə bəlağətli və gözəl söz üslubuna malik olmuş, aydın hədəfli, elmə, ədəbə, vəhdətə çağırış, fiqhi məsələlər, tarixi öyüd-nəsihət və moizə ilə doludur. Onun Hicazın əmiri Şərif Hüseynə yazdığı məktub onun ərəb dilində ən gözəl söz ustalığı ilə yazılan məktubudur (məktub onun vəhhabilər tərəfindən hakimiyyətdən salınmasından sonra yazılmışdı).

Bu məktub çox genişdir və Əhli-beyt yolu ilə gəlib çatan tarixi sənədləri və müsibətləri əhatə edir. Şərif Hüseynin cavabı da son dərəcə minnətdarlıq və təşəkkürlə doludur. O, öz məktubunu bu şerlə başlayır.

***"Qəbilənin şərafətliləri məndən razı olanda,***
***Onun rəzilləri həmişə mənə qarşı qəzəblidir."***

Onun mühüm tarixi məktublarının bəziləri əmioğlusunun, həmçinin xüsusi katibi Seyyid Əli Şərəfuddinin vasitəsi ilə üzündən köçürülərək yadigar saxlanmışdır.

Bunların hamısı o böyük şəxsiyyətin dəyərli əsərlərindəndir, nə vaxtsa çap olunacaq, kitabxanalar onun parlaq ədəbi üslubu ilə zinətlənəcəkdir.

Seyyid Şərəfuddinin yazdığı nəsr əsərləri son dərəcədə dolğun, parlaq, möhkəm və bir-biri ilə qırılmaz şəkildə bağlı idi. Belə ki, hətta ən qüdrətli yazıçılar belə onun bir kəlməsini dəyişdirə bilməzdi. Çünki o, yazmamışdan əvvəl çox fikirləşir, seçdikdən sonra bəyan edir və ya yazırdı.

Onun nəsr əsərləri elə əhatəlidir ki, agah oxucu ibarələrinə baxan kimi dərhal Şərəfuddinin yazısı olduğunu ayırd edə bilir. O bu əsərləri son dərəcədə dolğun mənalı və söz ustalığı ilə yazmışdır və bu məziyyət onun əsərlərindən aşkar şəkildə görünməkdədir.

Böyük alim söz bəyanı baxımından da çox güclü və mahir idi. O hər vaxt xütbəyə qabaqcadan hazırlaşmadan başlayar, son dərəcə dolğun və gözəl mənalarla, məharətli söz ustalığı ilə bəyan edərdi. Onun xitabələri və yazıları söz ustalığı baxımından adi danışıq terminlərindən xali idi.

Onun gözəl əxlaqi xasiyyəti, misilsiz nəfsani və batini xüsusiyyətləri sözündə və əməlində gözəl şəkildə sezilirdi. Mən 1350-ci hicri qəməri ilində Livana səfər edəndə o, məhərrəmliyin ilk on günündə həmişə axşam çağı "Came məscidində çıxış edirdi. Hər günkü çıxışında "Ali-Muhəmməd... və Ali-Muhəmməd kimdir" adı altında Qur"an və sünnədən Peyğəmbər Əhli-beytinin əzəmətini şərh edirdi. "Aşura" gününü Həzrət İmam Hüseyn (əleyhissalam)-a həsr edir, onun qiyamının əsas səbəblərini araşdırır, hədəflərinin böyüklüyünü və o Həzrətin İslamın böyük və əzəmətli saxlanılması, dinin möhkəmləndirilməsi yolundakı misilsiz xidmətlərini bəyan edirdi. Çıxışı adətən 3 saat davam edirdi. Əgər bu çıxışlar bir yerə toplanarsa, Əhli-beyt əleyhimussalamın fəzilətlərini bəyan edən böyük bir kitab olar.

Onun Beyrut, Dəməşq, Fələstin və Misirdəki tarixi xitabələri heç vaxt unudulmaz. Onların çoxu elə həmin vaxtlar müxbirlər tərəfindən yazılıb bəyan olunmuşdur, bəziləri isə onun xüsusi katibinin yanındadır və məktublarına əlavə olunubdur. Qeyd etdiyimiz kimi, əziz müəllifin şerin təhlil edilməsi və onun incəliklərinin dərk olunması sahəsində dəqiq nəzəriyyələri vardı. Yaxşı şerlərdən çoxunu əzbər bilirdi. Hər bir ədəbi mövzu ilə əlaqədar olaraq şer

oxuyur, özü də şer qoşurdu. Onun qoşduğu şerlər dərin duyğulardan və ülvi hisslərdən nəş”ət tapır və əsas etibarı ilə cavanlıq vaxtlarını xatırladırdı.

## *USTADIN GÖZƏL ƏXLAQİ SƏCİYYƏLƏRİ*

Seyyid Şərəfuddin gözəl əxlaqlı, səxavətli bir insan idi; həm böyüklərə, həm də kiçiklərə ehtiram qoyur, kasıblara, yoxsullara əl tuturdu. Ona pislik edənlərə güzəştə gedir, nalayiq əməllərinə göz yumur, günahlarını bağışlayırdı.
Bütün iftixarlı həyatı boyunca–cavanlıq yaşlarından qocalıq vaxtlarına qədər bu gözəl xüsusiyyətləri əməli olaraq icra edirdi. Onun nəfsinin paklığı və şəxsiyyətinin böyüklüyü həyatının bütün dövrlərində gözə çarpmaqdadır. Bu mənanı onunla bir yerdə olanlar etiraf edir və bu barədə müxtəlif hadisələri nəql edirlər.

Elm və qələm əhlini ehtiramla yad edir, onlara hörmət edilməsində son dərəcə çalışırdı. Yaranan hər fürsətlərdə alimləri, elm əhlini, qələm sahiblərini və müəllifləri tərifləyərək onların məqamlarını yüksək tutur, şəxsiyyətlərini dəyərləndirirdi.

## *ƏSƏRLƏRİ*

Seyyid Şərəfuddin özündən sonra çoxlu qiymətli (fikri və ideoloji) əsərlər yadigar qoymuşdur ki, hər biri onun böyük elmi şəxsiyyətinin göstəricisi olub əsrlər boyu insanların xatirələrində canlanacaqdır. İndi onların bəzilərinin adını qeyd edirik:

1-”Əl füsulül-mühimmətu fi təlimil-ümməti”;

Müəllif bu əsəri müsəlmanlar arasında ittihad və yekdillik yaratmaq məqsədi ilə yazmışdır. İki dəfə Livanda və iki dəfə Nəcəfi-Əşrəfdə çap olunmuşdur.[1]

2-”Əl-muraciat”;

Bu, müəllifin misilsiz və öz növbəsində möcüzəli nəsr əsərlərindən biridir. Müəllifin sağlığında iki dəfə, vəfatından sonra isə 4 dəfə (həmçinin cənab Sədrin məqaləsindən sonra bir neçə dəfə) çap olunmuş, fars, ingilis ordu, azərbaycan dillərinə tərcümə olunmuşdur.

3-”Əcvibətu Musa Carullah”;

Bu kitab, sünnü alimi Musa Carullahın 20 sualına cavabıdır və Seyda şəhərində çap olunmuşdur.

4-”Əl-kəlimətul-ğərrau fi təfziliz-Zəhra (əleyha salam)”;

Bu, Həzrət Zəhra əleyha salamın yüksək məqamını və sair qadınlardan üstünlüyünü isbat edən kitabdır. Əvvəlcə “Əl-füsulül-mühimmətu” kitabının ikinci çapına əlavə olunmuş, sonradan ayrıca kitab şəklində çap edilmişdir.

5-”Əl-məcalisul-faxirətu fi məatimil-itrəti”;

---

[1]Müəllifin bu və sair kitabları, xüsusilə “Əl-muraciat”, “Ənnəssu vəl-ictihad”, “Əl-füsulül-mühimmətu” o vaxtdan indiyə qədər on dəfədən artıq çap olunmuşdur.

Bu kitab (onun müqəddiməsi Seyda və Nəcəf şəhərlərində çap olunmuşdur) Həzrət İmam Hüseyn (əleyhissalam)ın qiyamının sirlərini, habelə bu qiyamın İslam və müsəlmanlar üzərində olan haqqını bəyan edir.
6-"Əbu Hüreyrə"; (Bu kitab Azərbaycan dilinə də tərcümə olunmuşdur.)
Bu, Əbu Hüreyrə barəsində yazılmış çox maraqlı və misilsiz bir kitbadır. (Əbu Hüreyrə sünnülərin məşhur rəvayətçisidir.) Seyda və Nəcəf şəhərlərində çap olunmuşdur.
Bu kitabların nəşr olunmasından sonra Misrin məşhur sünnü alimi Mahmud Əbu-riyə Əbu Hüreyrə barəsində "Şeyxul Məzirə" adlı başqa bir kitab yazaraq mətləbi lazımınca çatdırmışdır.
7-"Fəlsəfətul-misaqi vəl-vilayət";
Bu iki dəfə Seydada çap olunmuşdur. Kiçik həcmli olmasına baxmayaraq, son dərəcədə mənalı kitabdır.
8-"Məsailul-fiqhiyyə;
Bu fiqhi-müqarindir (yəni sünnü məzhəbləri və şiəlik arasında fiqhi məsələləri müqayisəli şəkildə araşdırır) və müəllifin son dərəcədə məlumatlı olmasını, elmi qüdrətini bəyan edir. Seydada, Misirdə və Beyrutda çap olunmuşdur.
9-"Hovlər-rö"yə;
Bu kitab Allah-taalanın gözlə görünməsinin heç vaxt mümkün olmadığını bəyan edir. Kitab Seydada "Fəlsəfətul-misaq vəl-vilayət" kitabı ilə bir yerdə çap olunmuşdur.
10-"İləl-məcməil-elmiyy";
Bu, şiələrə atılan böhtanları və onların cavablarını əhatə edir. Seydada çap olunmuşdur.
11-"Səbtul-əsbat fi silsilətir-rovat";
İki dəfə Seyda şəhərində çap olunmuşdur.
12-"Zeynəbi Kubra (əleyha salam)";
Bu kitab müəllifin Həzrət Zeynəb əleyha salamın məqbərəsinin yanında və elə o Həzrətin barəsində söylədiyi xütbənin şərhindən ibarətdir ki, Seydada çap olunmuşdur.
13-"Ənnəssu vəl-ictihad" (hazırkı kitabın ərəbcə mətni);
Bu hazırkı əsrdə ən dərin və ən ətraflı İslami bəhsləri əhatə edir. İndiyə qədər üç dəfə: əvvəlcə müəllifin sağlığında Nəcəfi-Əşrəfdə, sonra müəllifin oğlunun vasitəsi ilə və atasının tərəfindən edilən əlavələrlə birlikdə, üçüncü dəfə isə Nəcəfdə "Darun-Nö"man" müəssisəsi tərəfindən çap olunmuşdur.
14-"Büğyətür-rağibin" (əl yazma); Bu, Sədr sülaləsinin alimlərinin həyatından bəhs edir.

### *TƏLƏF OLMUŞ KİTABLARI*

Qeyd olunduğu kimi, Fransanın işğalçı qoşunları Seyyidin evini və kitabxanasını yandırmış, çox dəyərli və nəfis kitablarından bir neçəsini tamamilə

məhv etmişlər. Müəllif həmişə bu kitabları yad edəndə son dərəcə təəssüf hissi keçirir, narahat olurdu. İndi biz həmin kitabların adının müəllifin həyat tarixinə düşməsi üçün qeyd edirik. Müəllifin özü də “Əl-kəlimətul-ğərra” kitabının haşiyəsində onları belə sadalayır:
1-”Şərhut-təbsirə”; Bu, istidlali fiqhdə yazılmış və dörd cilddən ibarətdir ki, təharət, qəza, şəhadət və irsin hökmlərini bəyan edir.
2-”Təliqətun ələl-istishab”; Bu, böyük fəqih Şeyx Ənsarinin bir cildli kitabına yazılan təliqədir.
3-”Risalətun fi münəccizatil-məriz”;
4-”Səbilil-mömínin”;
Bu, imamət barəsində yazılan üç cildlik kitabdır. Müəllifin mənə buyurduğu kimi, bu onun bərəkətli qələmi ilə yazılan ən mühüm kitablardan idi.
5-”Ənnüsusül-cəliyyə; Bu kitabda imamət barəsində sünnü və şiə alimlərinin hər birindən 40 hədis nəql etmişdir.
6-”Tənzilul-ayatil-bahirə”; Bu, imamlarımız barəsində 100 Qur”an ayəsi və mötəbər rəvayətləri ehtiva edir.
7-”Töhfətul-mühəddisin fi ma xərəcə fihis-sünnətu minəl-müzə”əfin”;
8-”Töhfətul-əshab”; Əhli-kitabın hökmləri barəsin-dədir.
9-”Əzzəri”ətu fir-rəddi ələl-bədi”ə”;
Nəbhaninin “Əl-bədi”ə” kitabına cavab yazmışdır.
10-”Əl-məcalisul-faxirə”; 4 cildlik kitabdır ki, 1-ci cildi Peyğəmbərin, 2-ci cildi Həzrət Əli, Həzrət Zəhra və İmam Həsənin, 3-cü cildi İmam Hüseynin və 4-cü cildi sair İmamların (əleyhimussalam) həyatı barəsindədir.
11-”Müəllifuş-şiəti fi sədril-İslam”;
Bu kitabın bəzi fəsilləri “İrfan” jurnalında çap olunmuşdur.
12-”Buğyətul-faiz fi nəqlil-cənaiz”;
Bu kitabın da əksər hissəsi “İrfan” jurnalında çap olunmuşdur.
13-”Sirru buğyətis-sail ən ləsmil-ənamil”; Bu, sünnü və şiə təriqi ilə nəql olunan 80 hədisə şamildir.
14-”Zəkatul-əxlaq”; Onun bəzi hissələri “İrfan” jurnalında nəşr olunmuşdur.
15-”Əl-fəvaidu vəl-fəraid”;
16-”Təliqətun əla “Səhihi Buxari”;
17-”Təliqətun əla “Səhihi-Muslim”;
Bu iki kitab müəllifin bütün hədis mənbələrinə olan əhatəsini və güclü mühakimə istedadını göstərir.
18-”Əl-əsalibul-bədiətu fi ruchani məatimiş-şiə”. Bu, şiə aləmində əzadarlıq məsələsinin müstəhəb bir iş olduğunu, habelə onun əqli və nəqli dəlillərini araşdırır.

Seyyid Şərəfuddinin özü bu barədə deyirdi: *“övlad itkisindən yaranan qəm-qüssə aradan gedir, amma yeni təfəkkürlərin itirilməsindən yaranan qəm-qüssə ömrün axırına qədər davam edir.”*
Amma müəllif sonrakı kitabları ilə bunların əvəzini çıxmış, çox dəyərli və qiymətli əsərlər yazaraq həmişəlik yadigar qoymuşdur.

## *XEYRİYYƏ MÜƏSSİSƏLƏRİ*[1]

Seyyid Şərəfuddin buyururdu: “Yoldan azmaq hansı vasitə ilə başlayırsa, hidayət vasitələri də elə həmin vasitə ilə hazırlanmalıdır.” Bu cəhətdən də o, böyük elmi və dini şəxsiyyət kimi öz sə”yi ilə müəyyən işlər görərək ümumxalq mənfəəti olan müəssisələr təsis etmişdir. O cümlədən:

1-”Əl-mədrəsətul-Cə”fəriyyə; Bu mədrəsəni yeniyetmə şiə övladlarının maariflənməsi, habelə cavanların təfəkkürünün formalaşdırılması, məlumat səviyyələrinin yüksəldilməsi məqsədilə tikmişdir. Hal-hazırda isə “Əl-kulliyyətul-Cə”fəriyyə adlı böyük institut kimi fəaliyyət göstərir.

2-”Nadil-İmam Sadiq (əleyhissalam)”; (Yəni İmam Sadiq (əleyhissalam) adına salon.) Dini-mədəni bayramların və iclasların keçirilməsi üçün tikmişdir.

3-Bu mədrəsə və salonun yaxınlığında bir məscid də tikmişdir ki, şagirdlər öz dini vəzifələrini yerinə yetirib dini vacibləri vaxtlı-vaxtında yerinə yetirmək ruhiyyəsində böyüsünlər.

4-”Cəm”iyyətul-birri vəl-ehsan” (yaxşılıq və ehsan cəmiyyəti); Bu xeyriyyə cəmiyyətinin təsis olunmasında məqsəd yoxsullara kömək, habelə ölülərin dəfn-kəfən işlərini təşkil etməkdir. Buna görə də Sovr şəhərində çox az hallarda kasıb tapmaq olar.

Bu xeyirxah, mədəni və ümumxalq əhəmiyyətə malik olan müəssisələrin tikilişində Seyyidin oğlanlarından Seyyid Sədrəddin (“Ən-nəhc” məcəlləsinin baş redaktoru) və Seyyid Cə”fər (Sovr şəhəri üzrə dövlət parlamentində nümayəndə, həm də atasının müavini idi) bu müəssisələrin genişləndirilməsində ciddi sə”y edirdilər.

## *İRAQDA VƏ İRANDA İMAMLARIN MƏZARININ ZİYARƏTİ*

Seyyid Şərəfuddin 1355-ci hicri qəməri ilində İraqda məsum imamların müqəddəs şəhadət yerlərini ziyarət etdi və öz qohum-əqrəbaları ilə görüşdü. Alimlərdən, nazirlərdən, hökumət adamlarından, İraqın parlament nümayəndələrindən çoxu Cəsr Fluce şəhərində onun pişvazına çıxdılar. O, öz dayısı oğlu mərhum Seyyid Məhəmməd Sədrin evində gəldi (o, İraqın Ali Məclisinin sədri idi və böyük şiə alimlərindən sayılırdı).

---

[1]Bu müəssisələri biz Livanın Sovr şəhərində yaxından müşahidə etdik. Həmin müəssisələr hörmətli alim Seyyid Musa Sədrin tərəfindən təkmilləşdirilərək genişləndirilmiş və müxtəlif formalara salınmışdır. Seyyid Musa Sədr Qumun Elmiyyə Hövzəsinin alimlərindən olub. O, Mərhum Ayətullah Sədrin oğlu və mərhum Şərəfuddinin xalasının oğludur. O mərhumun vəfatından sonra Sovr şəhərinə dəvət olundu.

Allahın köməyi ilə yaxın gələcəkdə “İmam Musa Sədr” adlı kitab da nəşr olunacaqdır.

Bu evdə böyük elmi şəxsiyyətlər və hökumət adamları onun görüşünə gəldilər. Seyyid Sədr onun iftixarına üç gün təntənəli ziyafət verdi. Sonra Kazimeyn, Samirra və Kərbəla şəhərlərinə getdi və hər yerdə alimlərin və camaatın alqışları ilə qarşılandı.

Sonra əziz cəddi Həzrət Əmirəl-Möminin Əli (əleyhissalam)ın məqbərəsini ziyarət etmək məqsədi ilə Nəcəfi-Əşrəfə getdi. Orada Nəcəfin mərcəyi-təqlidlərindən sayılan öz xalası oğlu mərhum Şeyx Məhəmməd Ali-Yasinə qonaq oldu. Bu evdə Nəcəfin böyük alimləri, mərcəyi-təqlidlər, fazil tələbələr, habelə müxtəlif siniflərdən olan şəxslər onun görüşünə gəlirdilər. Nəcəf şəhərinin ədəbi rabitə cəmiyyəti də onun bu şəhərə gəlişini əzizləmək məqsədilə bayram şənlikləri təşkil etdi, bütün elmi şəxsiyyətər və adi camaat orada iştirak etdi.

Sonra Həzrət İmam Riza (əleyhissalam)ın qəbrini ziyarət etmək üçün İrana yola düşdü, Qumda xalası oğlu mərhum Ayətullah Sədrin qonağı oldu. (Ayətullah Sədr Qum Elmiyyə hövzəsinin böyük alimlərindən və elmi rəhbərlərindən sayılırdı.) O, Qumda mərcəyi-təqlidlər və sair alimlərlə tarixi görüşlər keçirdi və onların arasında elmi müzakirələr başlandı. İranın sair şəhərlərində də alimlər və müsəlman kütlələr tərəfindən rəğbətlə, hörmətlə, hərarətlə qarşılandı.

## *VƏFATI*

Seyyid Şərəfuddin ömrünün axırlarını İraqda–öz doğulduğu yerdə keçirmək istəyirdi ki, həm təhsil illərini yad edib, ömrünü qohumlarının arasında başa vursun, həm də öz cəddi Əmirəl-möminin Əli (əleyhissalam)ın qəbrinin yanında dəfn edilsin. Amma ilahi təqdir belə idi ki, o, ömrünün axırıncı saniyələrini əsl vətənində–Livanda keçirsin.

1377-ci hicri qəməri ilinin cəmadiyəs-saninin 8-də (1957) o şö"ləli çıraq söndü. Həmişə haqqı müdafiə edib batili dəf edən dəyərli əllər işdən dayandı. Nəfis və misilsiz əsərlər yazıb yaradan barmaqlar hərəkətdən düşdü.

Onun vəfat xəbəri yayılan kimi Livanın cənubunun əhalisi paytaxta–Beyruta tərəf axışmağa başladılar ki, özlərinin böyük dini rəhbərləri ilə vidalaşsınlar. O günlərdə Beyrutda ağır hüzn və həyəcanlanma var idi. dini alimlər, siyasi-dövlət rəhbərləri, bir sözlə, bütün cəmiyyət təbəqələri dövlət işçiləri və ruhanilər öndə hərəkət etməklə bu alimin dəfn mərasimində iştirak etdilər və cənazəni Bağdada yola saldılar.

Xüsusi təyyarə onun cənazəsini Bağdada gətirdi. Bağdadda müxtəlif siniflərdən olanlar onun yolunu gözləyirdilər. Bağdad və Kazimeyn əhalisi cənazəni müşayiət etdilər və gecə ikən Kərbəlaya daxil oldu. Kərbəlaya qədər yol boyu hamı cənazənin dəfn mərasimində iştirak etmək üçün özünü hazırlamışdı. Kərbəlada da vida mərasimi sona çatdı. Günəşin qüruba enməsindən bir az əvvəl cənazə Nəcəfi-Əşrəfə gətirildi. Nəcəfin bütün sakinləri: alimlər, ədiblər, böyük

şəxsiyyətlər, cəmiyyətin müxtəlif təbəqələri dərin hüznə, kədərə qərq olan halda Əllamə Seyyid Şərəfuddinin pak cəsədini müşayiət edirdilər. Nəcəf şəhəri o vaxta qədər böyük mərcəyi-təqlidlərin, fəqih və müctehidlərin vəfatında təntənəli dəfn mərasimlərinin şahidi olmuşdu. Lakin Seyyid Şərəfuddin Həzrətlərinin cənazəsinin dəfn mərasimində iştirak edənlərin sayı-hesabı yox idi.

Beləliklə, o cənabın pak cəsədi 1377-ci il, cəmadiyəssani ayının 10-da, çərşənbə günü dərin qəm-kədər içərisində Həzrət Əmirəl-möminin Əli (əleyhissalam)ın mübarək məqbərəsinin həyətində dəfn edildi.

***BİSMİLLAHİR-RƏHMANİR-RƏHİM***

# ***ÖN SÖZ***

Qarşınızdakı kitab Peyğəmbər (s)-in səhabələrindən olub, o həzrətdən hədis nəql etməkdə ifrata varmış bir şəxs barəsindədir. Sünnü məzhəbinin istinad etdiyi "Səhiheyn" (iki səhih–"Səhihi-Buxari" və "Səhihi-Müslüm") və "Müsnəd" kitablarının müəllifləri ondan çox saylı hədis nəql etmişlər.

Biz qeyd olunan hədislər barəsində geniş və ətraflı təhqiqat və araşdırma aparmaq fikrində deyilik. Sadəcə olaraq bu işin kökünü və mənşəyini araşdırmaq istəyirik. Bunun da səbəbi həmin hədislərin birbaşa bizim dini və əqli həyatımızla bağlı olmasıdır. Əgər bu hədəf olmasaydı, o işi başqalarına həvalə edər və onlara baxmağın ağırlığına tab gətirə bilməzdik.

Bu hədislər "üsuliddin" və "füruiddin" məsələlərinə də sirayət etmişdir. Buna görə də sünnülərin şəriət və kəlam alimləri dini hökmləri araşdırdıqları zaman həmin hədislərə istinad edir və onlardan dəlil kimi istifadə edirlər. Əlbəttə, istisnasız olaraq bütün səhabələri mütləq şəkildə ədalətli və nöqsansız bildikləri üçün, onların bu işində təəccüblənmək lazım deyildir. Onların söylədikləri bu sözlərin batil olması ilə yanaşı, artıq sübut olunmuşdur ki, belə bir əqidə tamamilə səhv və əsassızdır. Amma həddini aşmış bu şəxs və onun "üsuliddin" və "füruiddin" məsələləri barəsində nəql etdiyi hədislərin kəmiyyət və keyfiyyəti haqqında danışmaq zəruridir. Çünki dini əhkamları Qur"anla uyğun gələn ən mötəbər hədis və rəvayətlərdən əxz etməli və gündəlik həyatımızda vəzifələrimizi məhz bu əsasda yerinə yetirməliyik.

Bizim apardığımız araşdırmalarda haqla-batil bir-birindən ayrılmış və əsl həqiqət oxuculara çatdırılmışdır.

Buna görə Allaha həmd-səna edirəm.

Tezliklə Əbu Hüreyrənin həyat tarixi və kimliyi ilə tanış olacaqsınız. Biz onun əsl-nəcabətini və şəxsiyyətini dəqiq şəkildə araşdırdıq ki, onun kimliyini tanıyıb həqiqəti dərk edəsiniz.

Şükr olsun Allaha ki, bizi bu işdə müvəffəq etdi!

Onun nəql etdiyi hədislər və onların miqdarı barədə də çox tədqiqat apardıq və belə bir nəticəyə gəldik ki, onların bir çoxu yalan və iftiradır. Gələcək bəhslərdə siz özünüz bunun şahidi olacaq və biləcəksiniz ki, bizdən çox-çox əvvəl onun müasirləri belə bir nəticəyə gəlmişlər.

Əbu Hüreyrənin nəql etdiyi hədislərin sayı dörd xəlifənin (Əbu Bəkr, Ömər, Osman və Əli(ə)), Peyğəmbər(s)-in həyat yoldaşlarının (onların sayı doqquz nəfər olmuşdur) və Bəni Haşim böyüklərinin nəql etdikləri hədislərdən təqribən iki dəfə çoxdur. Hansı azad düşüncəli insan və sağlam əql sahibi onun nəql etdiyi hədislərə istinad edə bilər?! (14-cü fəslə müraciət et.)

Necə ola bilər ki, islamı bir çoxlarından gec qəbul edib Peyğəmbər(s)-in yalnız bəzi söhbətlərində iştirak etmiş savadsız bir şəxs bu ilahi dini hamıdan tez qəbul etsin?! Eləcə də, Peyğəmbər(s)-in ən yaxın səhabələrindən belə çox hədis əzbərləyib, sonradan onu başqalarına nəql etmiş olsun?! Əgər bu məsələyə elmi meyarlarla yanaşsaq, mütləq onun nəql etdiyi hədislərin bir çoxunu rədd edib səhih və mötəbər hədislər sırasından xaric etməli olacağıq. Şübhəsiz, Peyğəmbər(s)-in sünnəti ilahi hikmət üzərində qurulduğu üçün ən ali xüsusiyyətlərə malikdir. Bəlağət (söz ustalığı) alimləri, nəzər sahibləri və sair mütəxəssislər, malik olduqları elmlər sayəsində bu mətləbi çox asanlıqla dərk edir və onu digər hədis və rəvayətlərdən ayırd edirlər. Onlar sünnədən hər hansı bir şey oxuduqda və ya eşitdikdə, hansının Peyğəmbər(s)-ə aid olduğunu, hansının isə yalan və iftira olduğunu çətinlik çəkmədən təyin edə bilirlər. Sünnənin üstünlüyü də məhz bundadır. Onda "yabanı tikanlar" göyərməz və Əbu Hüreyrə kimi ünsürlər düşüncə və vicdanlı nəzər sahiblərini nəzərə almadan Peyğəmbər (s) və onun ümməti haqqında nalayiq sözlər deməyə cəsarət etməzlər.

Bir sözlə, "Sünnə" islamın haqq və aşkar yolu, bəşəriyyətin həyatını nurlandıran qanunlar toplusudur. İslamın əxlaqi, etiqadi, ictimai, ədəbi və başqa göstərişləri məhz ondan əxz edilmişdir.

Heç bir məntiq insanlara azadlıqdan üz çevirib xurafata yönəlməyə islamın həqiqət cövhərini təhlükəyə salan bu zülm və fəsadın müqabilində susmağa icazə vermir.

Əbu Hüreyrənin nəql etdiyi hədislərin bir çoxu əqli qanunlara zidd olmaqla yanaşı, ondan başqa ikinci bir şəxs tərəfindən də nəql edilməmişdir. Təəssüflər olsun ki, "Səhih" və "Müsnəd" kimi dəyərli hədis mənbələri Əbu Hüreyrənin nəql etdiyi bu dastanlarla doludur. Bilirəm, bəziləri mənim bu sözlərimdən narazı qalıb məndən üz döndərəcəklər. Bəzi irsi xüsusiyyətlər, yanlış təlim-tərbiyə və sağlam olmayan mühit insanın haqdan uzaqlaşmasına səbəb olur. Bunun əsas səbəblərindən biri də Peyğəmbər(s)-in səhabələrinin hamısını istisnasız olaraq ədalətli bilib, söz və əməllərini ümmət arasındakı ümumi meyarla ölçmələri olmuşdur. Onlar belə düşünürlər ki, "səhabə olmaq" müqəddəs bir hərəmə daxil olmaq deməkdir. Bu hərəmə daxil olan hər bir şəxs gördüyü işdən asılı olmayaraq bütün günah və xətadan uzaq olar. Əlbəttə, bu, əql və məntiqlə zidd və həqiqətdən uzaq bir əqidədir. Həqiqət budur ki, "səhabə olmaq" fəzilət və üstünlükdür, amma heç də günah və xətadan uzaq olmaq demək deyil. Səhabələrin içində rəhbər və alim olan övliyalar, ədalətli, pak və sadiq insanlar olduğu kimi, şəxsiyyəti naməlum, cinayətkar, münafiq və üsyançı şəxslər də tapılırdı.

Allah-təala Qur"ani-kərimdə bu həqiqəti açıqlayaraq buyurur: "Mədinə əhalisi içərisində iki üzlülüyü özlərinə peşə etmiş münafiqlər vardır. Sən onları tanımazsan, biz isə onları tanıyırıq"
Ədalətli və həqiqi Peyğəmbər səhabələrini hamı tanıyır. Amma naməlum və şəxsiyyəti bilinməyən səhabələr barəsində araşdırma və təhqiqat aparmaq lazımdır. Təbiidir ki, belə cinayətkar və günah işlərə adət etmiş şəxslərin nə özlərinin, nə də nəql etdikləri hədislərin dəyəri ola bilməz.

Bu bizim səhabə olub-olmamasından asılı olmayaraq hədis nəql edənlər barəsindəki nəzər və əqidəmizdir. Biz hədis uyduranları səhabə olmalarına baxmayaraq günahsız hesab etmirik. Çünki, əgər onları səhvsiz bilsək, Allaha və Onun Peyğəmbər(s)-inə xəyanət etmiş olarıq. Peyğməbər (s) öz nəslindən olan əməli saleh şəxslərin və ona sadiq olan səhabələrin öz ümməti üçün Qur"andan sonra örnək və nümunə olduqlarını vurğulamışdır. Bu səbəbdən də biz şəxsiyyəti məlum olmayan səhabələrə heç bir ehtiyac duymuruq.

Beləliklə, müqəddimədə əhli-sünnət ilə aramızda ixtilaf olmasına baxmayaraq nəticədə müttəfiq və həmrəy"ik. Onlar Əbu Hüreyrə, Sümrət ibni Cündəb, Müğeyrə, Müaviyə, İbni As, Mərvan və bu kimi başqa səhabələri, Peyğəmbər(s)-in bəzən onların haqqında xoş sözlər dediyi üçün günahdan uzaq və xətasız hesab edirlər. Biz də Allahın Peyğəmbər(s)-i və onun sünnəti haqqında uydurulan iftiraları aradan götürmək üçün (tarixə nəzər salaraq) həqiqəti aşkara çıxarmağa sə"y edirik. Sağlam düşüncəli nəzər sahibləri aparılan araşdırmalardan sonra haqqı batildən asanlıqla ayırıb həqiqəti dərk edərlər.

(Biz belə qərara gəldik ki, Peyğəmbər(s)-in dilindən bihudə və ağla zidd sözlər, fikirlər söyləyən şəxsin sözlərini əsasında) təkzib etmək, o həzrətə boş-boşuna təzim etməkdən daha yaxşıdır və bu iş Peyğəmbər(s)-in şəriət təbliğatçılarından və ümmətin alimlərindən gözlədiyi məntiqi elmə daha uyğun və münasibdir. Peyğəmbər (s) hələ öz sağlığında əshaba hədis dəllallarının çoxalacağından dair xəbər verərək onların özlərini (hədis dəllallarını) düçar olacaqları İlahi əzablarla qorxurdur və ciddi xəbərdarlıq edirdi. Bu xəbərdarlıqlar da xüsusi deyil, ümumi xarakter daşıyırdı.

Biz Allah Peyğəmbərinə mənsub olan sünnədəki həqiqəti üzə çıxarıb belə bir təhqiqat işi apardıq və indi onu siz əziz oxuculara təqdim edirik.

*"O (Peyğəmbər) kefi istəyəni (həvayi nəfs üzündən) danışmır."*[1]

Həmçinin, bizim ən ümdə məqsədimiz sağlam düşüncəyə və düzgün əqidəyə malik olmaqdır. Çünki, elmi və əqli qanunlar Peyğəmbər(s)-in adından yalan sözlər deyən hər hansı bir şəxsə ehtiram etməyin əleyhinədir. Bunu da qeyd etmək lazımdır ki, elmi və əqli meyarlar səhabələrin məhz səhabə olduqları üçün

[1] "Ən-Nəcm" surəsi, ayə:3

xətadan uzaq olduqlarını təsdiqləməyir və Peyğəmbər sünnətinə hörmətsizlik edən bir şəxsin nəql etdiyi hədis və rəvayətləri qətiyyətlə rədd edir. Bütün bunlar Həzrəti Məhəmməd(s)-in müqqəddəsliyini və paklığını yaxından dərk etmək üçün hamıya köməklik edir. Çünki o həzrət (təkcə müsəlmanlar üçün deyil, əksinə) bütün bəşəriyyət üçün Peyğəmbərliyə göndərilmişdir. Onun peyğəmbərliyi (və gətirdiyi din) zühur etdiyi gündən qüvvədə olub və qiyamət gününə qədər də sabit olaraq qalacaqdır.

Bunu da qeyd edək ki, bizim elmi təhqiqat və araşdırmalarımızın səmərəsi olan bu kitaba görə kimsə bizdən üz dördərməməlidir.

Biz təfəkkür və düşüncəni hər şeydən üstün tuturuq və belə hesab edirik ki, saf əqidə və düşüncəyə yiyələnmək, xurafata aludə olmaqdan və mövhumatçı müqəddəslik hasarları çərçivəsində qalmaqdan daha məqsədə uyğundur. Biz heç kimi narahat edib, qan-qaraçılıq yaratmaq fikrində deyilik. İstəyimiz yalnız budur ki, hər hansı bir şəsx qondarma təqlid və yanlış adət-ən”ənələrlə qarşılaşdığı zaman onları azad və sağlam düşüncə ilə özündən uzaqlaşdırıb bu kitabı diqqətlə, ağıl gözü ilə mütaliə etsin.

*“Ey Peyğəmbər! O bəndələrimə müjdə ver ki, sözü eşidib onun ən yaxşısına tabe olarlar. Onlar həmin kəslərdir ki, Allah onları hidayət etmişdir və məhz onlar əql sahibləridir.”*[1]

Allah özü şahiddir ki, bizim bu kitabı yazmaqda məqsədimiz mövcud şəraitdə müsəlmanlar arasındakı vəhdətə zərbə və ziyan vurmaq deyil; əsas məqsəd bu vəhdəti möhkəmlətmək və onu sağlam fikir və düzgün əqidə üzərində qurmaqdır. Və yalnız bundan sonra biz haqq yola hidayət olub yalnız Allah-Təalanın istək və iradəsi ilə işlrimizdə müvəffəq ola bilərik.

Allaha təvəkkül edib bu işdə bizə kömək etməsini istəyirəm, hər şeyin əvvəli və axırı odur, və axır dönüş məhz Onun dərgahına tərəfdi.

Ağıl-kəramətli Allah öz bəndələrinə əta etdiyi ən ali nemətlərindəndir. Saf düşüncəli aqil insanlar mal və can bahasına olsa belə, bu məqama çatmaq üçün ömürlərini bu yolda fəda edirlər. Çünki, bu kəramət, insanları ən ali məqamlara çatdırmaqla yanaşı, onlar arasında birliyin və ittihadın yaranmasına səbəb olur.

Amma, yaxşı olar ki, din qardaşlarımızdan bəziləri təəssüb və məğrurluq hissindən əl çəkib, bu kitabı diqqətlə mütaliə edərək araşdırılmış bəhslər haqqında dərindən götür-qoy etsinlər. Belə etsələr, Allahın köməyi ilə, çətinliklərə sinə gərərək sözdə və əməldə vəhdət yaratmaq üçün daha çox sə”y etmiş olarıq.

*“Uca və əzəmətli Allahdan başqa heç bir güc və qüdrət sahibi yoxdur.”*

---

[1] “Zumər” surəsi, ayə:17-18

Bizim mülahizələrimiz Əbu Hüreyrənin nəql etdiyi hədis və rəvayətlərin bəzilərinə şamil olur.
Onun söylədiyi hədislərin bəziləri ağıl, bəziləri də əqidə ilə tamamilə ziddiyyət təşkil edir.
Bu hədis və rəvayətlərin bir qismi təbii qanunlarla, bir qismi isə öz aralarında bir-biri ilə müxalifdir. Əbu Hüreyrənin nəql etdiyi hədis və rəvayətləri mütailə etdikdə onların dini qanunlar ilə də zidd olduğunun şahidi oluruq. Onun nəql etdiyi hədislərin bir qismi siyasi xarakter daşıyırdı, bunuda mövcud şərait tələb edirdi. Bəni Üməyyə sülaləsinə yaxınlaşmaq və onların diqqətini özünə cəlb etmək üçün bu ən əlverişli üsul idi.
Biz isə Əbu Hüreyrənin elm və əql ilə zidd olan hədislərini araşdıraraq yetkin bir nəticəyə gəlmək fikrinə düşdük və bu hədislərin bəzilərinin əsassız və batil olduğunu yəqin etdik.
Aşağıdakı misallara diqqət yetirin.
1-Mələkul Movt (can alan mələk-Həzrəti Əzrail) Musa(ə)-dan qabaq açıq-aşkar camaat arasında görünərdi. Amma elə ki, o Musa(ə)-ın yanına gəldi, Musa (ə) onun üzünə möhkəm bir zərbə vuraraq gözünü kor etdi və onu Allah-Təalanın dərgahına qaytardı. Bu əhvalatdan sonra həzrəti Əzrail camaat arasına gizlincə gəlməyə başladı.
2-Musa (ə) və daş arasında baş vermiş (qaçış) yarışı. Əbu Hüreyrənin rəvayətdə deyilir: Musa paltarlarını soyunub suyun kənarındakı daşlardan birinin üzərinə atdı. O, camaatdan uzaq bir yerdə idi, (o çimməkdə ikən) daş onun paltarını götürüb qaçmağa başladı.
Musa (ə) da onu təqib etməyə başladı Bəni-İsrail qövmunun yanına gəldi və onlara sübut etdi ki, onların Musa (ə) haqqında düşündükləri tamamilə yalandır və onun övrətində heç bir nöqsan yoxdur. (Çünki Bəni İsrail arasında belə bir şayiə yayılmışdı ki, Musa(ə)-ın övrətində (cinsi orqanında) xəstəlik vardır).
Musa (ə) isə elə hey daşın ardınca qaçır və qışqırırdı: Ay daş! Paltarlarımı ver, ay daş, paltarlarımı ver! Nəhayət daş dayandı. O artıq öz vəzifəsini yerinə yetirmişdi. Musa (ə) əsası ilə o yazıq daşı vurmağa başladı və onu bir neçə yerdən yaraladı. (Əbu Hüreyrə deyir:) Daş altı və ya yeddi yerdən yaralanmışdı.
Maraqlı hallardan biri də budur ki, Əbu Hüreyrə daşın yaralarının sayında şəkk etmişdir.
Sanki onun nəql etdiyi hədis yüz faiz doğru və mötəbərdir. Çünki bunu onun təqvası və pərhizkarlığı tələb etmişdir! Belə ki, bir şey Əbu Hüreyrə üçün gün kimi aydın olmasaydı, onu qələmə alaraq nəql etməzdi.
3-Həzrəti Əyyub çimərkən birdən ətrafı qızıl çəyirtkələr ilə dolur. Əyyub (ə) dərhal onları paltarlarının içinə yığmağa başlayır...

4-Adət və təbiət qanunlarının pozulmasına heç bir zərurət olmadığı bir yerdə (yəni möcüzəyə heç bir ehtiyac olmadığı yerdə) yeni doğulmuş körpənin danışaraq qeyb aləmindən xəbər verməsi...
5-Başqa bir hədisdə Əbu Bəkr və Ömərin fəzilətini bəyan etmək üçün inək və canavarın (möcüzəyə ehtiyac olmadığı bir yerdə) danışmaları deyilir...
6-Şeytanın (yoxsul bir şəxs cildinə girərək) onun yanına gəlməsi! Rəvayətdə deyilir: Şeytan üç gecə dalbadal Əbu Hüreyrənin yanına gəlib onun gözləri önündə yemək şeylərini yığıb ac olan əhl- əyalı üçün aparır. Çox təəccüb ediləsi bir rəvayətdir!
7-Bəni-İsrail kənizlərindən biri yoxa çıxır. Onu arayıb-axtardıqdan sonra belə məlum olur ki, kəniz (Allah-Təalanın qəzəbinə gələrək) siçana dönübmüş. Onun qarşısına dəvə südü qoyduqda imtina edər, qoyun südü qoyduqda isə iştaha ilə içərdi.
8-Əbu Hüreyrə başqa bir hədisdə iddia edir ki, Ə”la və onun dörd minlik qoşunu ilə birlikdə səfər zamanı kimsənin keçə bilmədiyi bir dənizə rast gəlir! Ə”la atının yüyənini tutub dənizin üzərindən ötüb keçməyə başlayır, qoşunda onun ardınca hərəkət edir. Əbu Hüreyrə rəvayəti nəql edərkən deyir: And olsun Allaha! Dənizi keçərkən heç bir heyvanın dırnağı və kimsənin başmağı suda islanmadı....
9-Başqa bir hədisdə “bərəkətli xurcun” barəsində danışaraq deyir: Xurcunun içində cəmi bir neçə xurma var idi, amma buna baxmayaraq, bütün qoşun ondan yeyib doydu, xurmalardan yenə də artıq qaldı. Əbu Hüreyrə belə iddia edir ki, o həmin bir neçə dənə xurmanı Peyğəmbərin, Əbu Bəkrin, Ömər və Osmanın zamanında yemiş və Allah-Təalanın ona bəxşiş etdiyi bu ruzidən uzun müddət bəhrələnmişdir. Amma onun bu sevimli xurcunu Osman öldürüldükdən sonra məhv olub yoxa çıxır...
10-Davud (ə) və onun Qur”anı çox az bir zamanda oxuyub qurtarması. Əbu Hüreyrənin dediyinə görə, Davud (ə) minik heyvanını yəhərləmək istədiyi zaman Qur”an oxumağa başlayar və heyvanı yəhərləyib qurtarmazdan öncə onu bir dəfə oxuyub xətm edərmiş. Buda dünyanı adi toyuq yumurtasının içinə yerləşdirməyə bənzəyir!
***
Əbu Hüreyrə, nəql etdiyi hədislərin bir neçəsində bəzən həddini aşaraq Allah-Təalanı müxtəlif surətlərdə (şəkillərdə) təsvir etmişdir. Aləmlərin Rəbbi olan Allah isə onun söylədikləri xurafatlardan çox-çox uca və münəzzəhdir. Onun bu barədə nəql etdiyi hədislərin bir neçəsinə diqqət yetirin.

1-Allah, Adəmi öz surətində yaratdı, onun uzunluğu 60 zira[1], eni isə 7 zira idi.

[1]Zira–dirsəkdən barmaqların ucuna qədər olan məsafədir, təqribən 45-50 sm.

Bəzən də bunun tam əksinə olaraq deyir: “Biri digəri ilə dava edərkən onun surətinə (üzünə) hörmətsizlik etməsin, çünki Allah-təala Adəmi öz surətində yaratmışdır” (yəni onu özü kimi xəlq etmişdir).
Başqa bir yerdə isə deyir: “Bir-biriniz ilə dava edərkən rəqibinizin üzünə vurmaqdan (və ya təhqir etməkdən) çəkinin və heç vaxt Allah sənin və sənin kimilərin üzünü qara etsin” kəlməsini dilinizə gətirməyin. Çünki Allah insanı öz surətində xəlq etmişdir. Bəzən də deyir: İnsanın surəti (üzü) Rəhman Allahın üzü kimi yaradılmışdır.
Bu xurafat və mövhumatın (yəni Allah və Adəmin surət baxımından birliyinin) ardınca elə şeylər gəlir ki, əgər onları islam dininə aid etsək, çox maraqlı və təəccüblü məsələlər meydana gələcəkdir. Eyni zamanda həm gülməli, həm də ağlamalı məsələdir.
2-”Allah qiyamət günü elə bir surətdə olacaqdır ki, ümmət (insanlar) Onu tanıma-yacaqdır.
Allah onlara tərəf gəlib deyəcək: Mənəm sizin Allahınız! Onlar isə Onu inkar edərək deyəcəklər: Səndən öz Allahımıza pənah aparırıq. Biz Allahımız gələnə qədər elə buradaca qalacağıq. Əgər o gəlsə, dərhal tanıyacağıq. Sonra Allah ümmətin Onu tanıdıqları surətdə gəlib deyəcək: Mənəm sizin Allahınız. Bundan sonra insanlar onun ardınca gedəcək.”
Bu sözlər uzun-uzadı və mövhumatçı bir dastanın içində gəlmişdir. Əbu Hüreyrənin nəql etdiyi bu kəlami dastanlarda Allahın müxtəlif surətlərə düşməsi və bu surətlərin insanlar tərəfindən tanınmadığı bəyan edilir. Hədislərin bəzilərində Allah insanların yanına gedib onlarla söhbət edir, və onları aldadır! Bəzən təəccüblü bir şey olmadığı yerdə gülür!
Göründüyü kimi Əbu Hüreyrənin nəql etdiyi bu xurafatla dolu hədislər islam dini ilə tamamilə ziddiyyət təşkil edir. Deməli, belə bir əqidə (Allahı cismani təsəvvür etmək) batil və əsassızdır.
3-”Allah ayağını cəhənnəmə qoydu.” Bu (cümləyə) biz Əbu Hüreyrənin uydurduğu hədislərdən birində rast gəlirik. Orada deyilir:
“Cəhənnəm onda olan təkəbbürlü insanlarla fəxr edib öyünər, cənnət isə özünün əldən düşmüş sakinlərinə baxıb xəcalət çəkər.”
4-Allah hər axşam asimandan yerə nazil olub belə xitab edər: “Kimdir Məni çağıran, onun duasını qəbul edim!”
Əlbəttə, bizim iman gətirib itaət etdiyimiz Allah, Əbu Hüreyrənin təsvir etdiyi Allahdan, daha dəqiq desək əfsanəvi bir varlıqdan çox-çox uca və daha əzəmətlidir.
Əbu Hüreyrənin bu qəbildən olan digər xurafatçı hədisləri islam aləmində yeni bir məzhəbin “təcəssüm məzhəbinin” yaranmasına və bu hədislərin cəmiyyətdə geniş şəkildə yayılmasına səbəb oldu.
***

Əbu Hüreyrə özünün bir sıra başqa hədislərində İlahi peyğəmbərlərə hörmətsizlik olaraq onları, məsumluqlarına zidd olan xüsusiyyətlərlə vəsf etmişdir. Məsələn:
1-O, qiyamətin qorxulu səhnələrini vəsf edərkən insanların Adəm, Nuh, İbrahim, Musa və İsa(ə)-a pənah apardıqlarını bəyan edir. Bu Ulul-əzm peyğəmbərlər, Əbu Hüreyrənin nəzərincə, günahkar olduqları üçün onların yanına şəfaət üçün gələnləri əli boş geri qaytarmış və onlara belə cavab vermişlər: “Gördüyüm filan iş üçün Allah-təala mənə bərk qəzəbləndi və onun bu günə qədər belə qəzəbli olduğunu görməmişdim.”

Hədisin sonunda isə insanlara Həzrəti Məhəmməd (s) tərəfindən şəfaət olunması bəyan edilir. Görünür, Əbu Hüreyrə İslam Peyğəmbər (s)-inin məqamını uca tutmaq üçün digər ulul-əzm peyğəmbərlər haqqında yalan iftiralara əl atmağı daha məqsədə uyğun bilmişdir.

2-Əbu Hüreyrə başqa bir hədisdə Həzrəti İbrahim Xəlilin (ə) hekayətinə işarə edərək onun şəkk etdiyini söyləmişdir. Zaman ki, İbrahim (ə) Allaha müraciət edərək demişdi:
“Ey Rəbbim! ölüləri necə diriltdiyini mənə göstər. Allah-təaladan belə xitab gəlir: Məgər iman gətirməmisənmi?
O bu hədis barəsində Həzrəti Məhəmməd(s)-i şəkk etməkdə İbrahim(ə)-dan daha haqlı bilir, səbr etməkdə isə Həzrəti Yusif(ə)-ı ondan üstün tutur. Həmçinin, Həzrəti Nuh (ə) barəsində “yaxud möhkəm bir arxaya söykənərəm” – dediyi üçün xoşa gəlməz sözlər söyləmişdir!
3-Həzrəti Süleyman haqqında uydurduğu hədisdə deyir: Süleyman (ə) tez-tez atası Davud(ə)-ın itaətindən çıxaraq onun sözünü yerə salırdı. Onun nəql etdiyi bu əfsanədə deyilir:
“İki qadın hər biri bir körpənin onun özünü olduğuna iddia edərək dalaşır və şikayət üçün həzrəti Davud(ə)-ın yanına gəlir. Davud (ə) məsələdən agah olduqdan sonra yaşca böyük olan qadının xeyrinə hökm verir. Onlar sonra Süleyman(ə)-ın yanına gedib onun da rə”yini öyrənmək istəyirlər. Həzrət Süleyman (ə) onları dinlədikdən sonra buyurur: Bıçaq gətirin! Mən uşağı sizin aranızda iki yerə böləcəyəm! Yaşca kiçik qadın (övladına ürəyi yandığı üçün) tez deyir: Yox, belə etmə! Uşaq onundur Həzrəti Süleyman (ə) işi bu yerdə görüb atasının verdiyi hökmün əksinə olaraq yaşca kiçik olan qadının xeyrinə hökm verir.”
Axı necə ola bilər ki, iki eyni əqidəli Allah peyğəmbəri onlara müraciət olunan şəri məsələlərdə iki müxtəlif və bir-biri ilə tamamilə zidd olan hökm verirlər. Əbu Hüreyrə and içərək təkidlə deyir ki, o günə qədər (sikkin) bıçaq kəlməsini işlətməyibmiş və onun yerinə (mudyə) bıçaq kəlməsindən istifadə edərmiş! (Gələcək fəsillərdə bu “hədislər” ilə geniş şəkildə tanış olacaqsınız.)

4-O başqa bir yerdə Həzrəti Süleyman(ə)-ın dilindən deyir: "Bu axşam mütləq qadınla-rımın yüzü ilə də yaxınlıq edəcəyəm. Qoy onların hər biri mənim üçün Allah yolunda cihad edən bir oğul doğsun." Mələk onun yanına gəlib deyir: "Ey Süleyman! İnşallah" (əgər Allah istəsə) de! Amma Süleyman (ə) bu sözü deməyib həmin gün qandınlarının hamısı ilə yaxınlıq etdi. Müəyyən müddət keçdi, amma arvadlarının heç biri doğmadı. Yalnız biri doğdu, o da əlil!"
5-Günlərin biri bir qarışqa Musa(ə)-ı dişləyir. O da qəzəblənərək həmin ərazidə olan bütün qarışqaları yandırıb məhv etməyi əmr edir. Allahdan ona vəhy gəlir: Ya Musa! Səni yalnız bir qarışqa dişlədi, sən isə Allaha zikr edən bu qədər canlı heyvanı yandırıb məhv etdin!
6-Uydurduğu hədislərin biri də İslam Peyğəmbər(s)-i barəsindədir. O deyir: Həzrəti Məhəmməd (s) qəzəbləndiyi zaman günahsız şəxsləri incidər, söyər, təhqir edər və hətta şallaqla da vurardı. Onun bu işi həmən şəxslərin gördükləri günah işlərin kəffarəsi (cəriməsi) hesab olunurdu.
Görəsən bu işi tarixin ən böyük zülmkarı olan Fir''ona aid etmək olarmı?
O zaman Peyğəmbər (s) bağışlanma haqqı olmayan bəzi şəxsləri lə''nətləyibsə, görəsən onlar da Əbu Hüreyrənin fətvasına əsasən sevilib, əzizlənməli, saleh və xeyirxah şəxslər kimi başqalarından üstün tutulmalıdırlarmı?
Onun bu maraqlı meyarından sonra, görəsən, daha hansı düzgün meyar qalır?
7-Şeytan Həzrəti Məhəmməd(s)-in namazını pozmaq üçün onun yanına gəlir. Peyğəmbər (s) onu tez tutub boğur və sübh namazı vaxtı hamı onu görsün deyə məscidin sütunlarından birinə bağlamaq istəyir. Amma birdən Süleyman(ə)-ın dediyi "İlahi! mənə elə bir mülk və padşahlıq ver ki, məndən sonra kimsəyə nəsib olmasın" söz yadına düşür və şeytanı buraxır.
8-Həzrəti Məhəmməd (s) haqqında uydurduğu başqa bir hədisdə deyir: "Peyğəmbər yuxuya qalaraq sübh namazını qəzaya verdi..."
Onun nəql etdiyi bu kimi saxta və yanlış hədislər bir çoxlarında belə bir fikir yaratdı ki, Peyğəmbər də sair insanlar kimi səhvə, günah işlərə yol vermiş və bəzən məsum bir şəxsə rəva olmayan işlər görmüşlər. Bəziləri də peyğəmbərləri məsum bilməyib, səhv və yanlış əqidəyə əsaslandılar.

### *Əbu Hüreyrənin hədislərində ziddiyyətlər*

1-Əbu Sələmə, Əbu Hüreyrədən yoluxucu olmayan xəstəliklər barəsində bir-biri ilə zidd olan iki hədis nəql etmişdir. Əbu Hüreyrə, nəql etdiyi birinci hədisdə bu növ xəstəlikləri rədd edir, ikinci hədisdə isə belə xəstəliklərin mövcud olmasını təsdiqləyir. Əbu Sələmə bu barədə onunla mübahisə edərkən deyir: Ey Əbu Hüreyrə! Məgər bir qədər əvvəl demədinmi ki, heç bir xəstəlik yoluxucu deyil və onların insana heç bir təsiri yoxdur? Əbu Hüreyrə çıxılmaz vəziyyətdə qalaraq əvvəldə dediyi sözü inkar edir.
2-Onun nəql etdiyi saxta hədislərin birində həzrəti Süleymanın (ə) öz qadınları ilə yaxınlıq etməsi barədə ziddiyyətlərə rast gəlirik. Belə ki, Əbu Hüreyrə

onların sayını bəzən 100, bəzən 90, bəzən də 70 və s.. qeyd etmişdir. Bu rəqəmlərin hamısı əhli-sünnətin “Səhih” kitablarında nəql edilmişdir.
3-Onun mühacirət haqqında nəql etdiyi hədislərə diqqət yetirin: Müsəlmanlar Məkkədən Mədinəyə mühacirət etdikləri zaman Əbu Hüreyrə çox yoxsul və səfil bir ayan idi. O başqalarına nökərçilik edərək (bəzən də dilənərək) gündəlik çörək pulunu zorla qazanırdı. Amma bununla belə o keçmiş illəri xatırlayarkən şəxsi evindən və sahib olduğu quldan söhbət açırdı.
Müaviyənin zamanında nəql etdiyi rəvayətlərin birində deyir: “Mədinədə bey”ət üçün Peyğəmbər(s)-in hüzuruna getdiyim zaman yarı yolda qulum məndən aralanıb qaçdı.
Peyğəmbər(s)-ə bey”ət etdiyim zaman qulumu onun yanında gördüm. Peyğəmbər (s) məndən soruşdu: Ey Əbu Hüreyrə, bu qul sənindirmi? Cavab verdim: Bəli, ya Rəsuləllah. Mən onu Allah yolunda azad etdim.
4-Qeyd etdiyimiz kimi Əbu Hüreyrə çox yoxsul və fəqir bir şəxs olmuşdur. O, “Süffə” yoxsullarından idi Peyğəmbər (s) vəfat edən günə qədər orada yaşamışdır. Çünki, onun Mədinədə nə bir qohumu, nə də evi var idi. Onun boynundan (dizlərinədək) asdığı bitli parçadan başqa bir şeyi yox idi.
O parçanın iki ucunu bir-birinə bağlayardı ki, övrəti görünməsin. Bəzən acından Peyğəmbər(s)-in minbəri ilə Ayişənin otağı arasında huşunu itirərək yerə yıxılardı.
Görəsən belə bir acınacaqlı həyat tərzi sürən bir şəxs mühacirət etdikdən sonra Mədinədə yaşadığı evi haradan və necə əldə etmişdir?!
O, bu evə anasının Peyğəmbər(s)-in duası ilə müsəlman olduğunu nəql edərkən işarə etmişdir. Bunu da qeyd edək ki, Əbu Hüreyrə bu rəvayəti Şamda olarkən (Müaviyənin zamanında) nəql etmişdir.
5-Onun nəql etdiyi ziddiyyətli hədislərə, gətirdiyi dəlillərə diqqət yetirsəniz, onların həddən artıq əsassız və mənasız olduqlarına özünüz şahid olacaqsınız. Əbu Hüreyrənin nəql etdiyi hədislərin bir çoxu insanda istər-istəməz ikrah hissi yaradır və dinləyici onun belə maraqsız əfsanələrindən tez bir zamanda yaxa qurtarmağa çalışır.
Əbu Hüreyrə ona etiraz edən şəxslərə, adətən belə cavab verərdi: “Əbu Hüreyrə öz parçasını (əbasını) Peyğəmbər(s)-in qarşı-sında yerə saldı, O həzrət də əli ilə ona ovuc-ovuc elm tökdü və sonra buyurdu: Onu özünə bağla! Mən də parçanı sinəmə bağlayıb yaddaşsızlıqdan bir dəfəlik yaxa qurtardım. Səhabələrin hamısından çox mən hədis hifz etdim və dünya onun sünnəti ilə doldu.”
Sanki Allah özü müxaliflərin cavabını vermək üçün bu sözləri Əbu Hüreyrənin ağzından çıxarmışdır.
Onun nəql etdiyi hədislər bir-birləri ilə zidd olamaqla yanaşı, həm də təkzib edicidir. Buna görə də biz dediklərimizlə kifayət-lənməyib mətləbi bir qədər geniş izah etmək istəyirik.

Əbu Hüreyrə dəfələrlə görmədiyi eşitmədiyi hadisələrin şahidi olduğunu iddia edərdi. Yeri gəldikcə, biz bu barədə geniş söhbət açacağıq.
Bu hədisə diqqət yetirin: Günlərin biri Peyğəmbər(s)-in qızı (Osmanın həyat yoldaşı) Rüqəyyənin yanına getdim. Onun əlində daraq var idi. Məni görüb dedi: Bir az bundan qabaq Peyğəmbər (s) burada idi, mən onun saçlarını daradım.
Bu hədisin bütünlüklə Əbu Hüreyrəyə aid olduğunu hamı təsdiqləyir və çox gözəl bilirlər ki, Rüqəyyə hicrətin üçüncü ilində, "Bədr" döyüşündən sonra vəfat etmişdir. Əbu Hüreyrə isə islamı hicrətin yeddinci ilində, yəni Xeybərin fəthindən sonra qəbul etmişdir. Bu hesabla, ey əql sahibləri! özünüz deyin, o vaxt Rüqəyyə, daraq harada idi?!

***Əbu Hüreyrənin elmi və nəql etdiyi hədislərin dini qanunlarla ziddiyyətliliyi***

Əbu Hüreyrə deyir: Günlərin biri Peyğəmbər (s) bizə belə bir göstəriş verdi: Əgər filan yerdə filan kəsləri tapa bilsəniz od vurub yandırın. Amma onunla vidalaşmazdan əvvəl buyurdu: "O iki nəfəri yandırmağı əmr etdim, amma yandırmaq yalnız Allaha məxsusdur və bu, Ona xas olan əzab növüdür. Siz onları başqa yol ilə öldürün."

Göründüyü kimi bu söz "əməl etmə vaxtı çatmadan edilən nəsxdir"[1] və belə bir iş Allah və Onun Peyğəmbəri üçün mahal və qeyri-mümkündür.
Əbu Hüreyrə əqlə zidd olan hədislər də nəql etmişdir. Məsələn: Həzrəti Davud(ə)-ın az vaxt ərzində Qur"an oxuması və s..
Bu rəvayətdə deyilir: Həzrəti Davud (ə) atını yəhərləyib qurtaranadək Qur"anı bir dəfə xətm edərdi.
Onun bu məzmunda uydurduğu başqa hədislər də vardır. Biz onlardan altısını on birinci fəsildəki qırx hədisin sonunda nəql etmişik.
Amma onun Bəni-Üməyyə sülaləsinə yaxınlaş-maq və camaat arasında rəğbət qazanmaq məqsədi ilə nəql etdiyi hədislər digər mövzularda söylədiyi hədislərdən daha çoxdur.
Biz onlardan bəzilərini kitabın beş, yeddi və doqquzuncu fəsillərində ətraflı bəyan edəcəyik. Əlbəttə, bu hədislərin özləri də növbənövdür. Onun nəql etdiyi hədəslərə yersiz təəssüb hissi olmadan diqqət yetirsəniz, görəcəksiniz ki, bu şəxs sanki özünü hədislə doydurmaq istəyən bir acdır və öz xəyalını həyatla doldurmaq istəyir.
O, özü etiraf edir ki, bir zamanlar fəqiranə və dözülməz həyat tərzi keçirmişdir. Amma az bir vaxtdan sonra hədis uydurmaqla aclığı dəf edə bilmiş və qənaətbəxş həyat tərzi əldə etmişdir. Belə olduğu bir halda onun nəql etdiyi hədis və rəvayətləri dəlil kimi qəbul etmək olarmı? Əgər bu iş düzdürsə, onda

---

[1] "Nəsx"-verilən hökmə əməl etmədən geri götürmək.

qoy Əbu Hüreyrə və onun havadarları kor-koranə təqlid siyasətini özləri üçün ən münasib yol bilib onunla hərəkət etsinlər. Biz də gözləyək, görək nə olur. Onlar öz məqsədlərinə çata biləcəklər, ya yox.

Mən bu işdə əlimdən gələni əsirgəmə-yəcəyəm, müvəffəq olub-olmamağımız isə yalnız Allahdan asılıdır. Allaha təvəkkül edib Ondan kömək gözləyirəm.

***

***Əbu Hüreyrə***

O, Peyğəmbər(s)-in adından həddindən artıq çox hədis nəql etmişdir. Altı "Səhih" kitablarının hamısı və digər "Müsnəd" kitabları da Əbu Hüreyrədən hədis nəql etməkdə ifrata varmışlar. Biz bu iki hədis toplumu müqabilində yalnız onların mənşəyindən söz açacağıq. Çünki, onun bizim dini və əqli həyatımızla birbaşa bağlılığı vardır. Əgər bu bağlılıq olmasaydı, onda o hədislərin mənşəyindən də söz açmazdıq və özümüzü bu çətinliklərlə qarşılaşdırmazdıq.

Bu hədislərin əhatə dairəsi o qədər genişdir ki, üsulidin və füruidin məsələlərinə də şamil olur. Necə ki, dörd sünnü məzhəbi əşairə və başqa şəriət və kəlam elminin alimləri ilahi hökm və qanunların bir çoxunda bu hədislərə istinad edərək onlardan geniş şəkildə istifadə etmişlər. Bu səbəbdən də Əbu Hüreyrə və onun nəql etdiyi hədislərin kəmiyyət və keyfiyyəti barəsində araşdırma aparmaq məcburiyyəti qarşısında qaldıq. Bəlkə bu yolla hədislərin, Allahın hökmlərinə aid olan hissəsini yaxşı tanıya bilək!

## *BİRİNCİ FƏSİL*

### *ADI VƏ NƏSƏBİ*

Əbu Hüreyrə əsil nəsəbi müəmmalı və naməlum olan şəxslərdəndir. Tarixçilər və başqa alimlər arasında onun atasının adı barədə çoxlu ixtilaflar vardır. Belə ki, cahiliyyət və sonrakı dövrlərdə onun adından heç bir əsər-əlamət yoxdur. Bu səbəbdən də onu hamı künyəsi ilə tanıyır. Bəziləri onu "Dus" qəbiləsinə aid edirlər. Bu qəbilənin kökü Dus ibni Ədnan ibni Abdullah ibni Zəhran ibni Kə"b ibni Haris ibni Malik ibni Nəzr ibni Əzd ibni Qəusa çatır.

Atasının adı barədə isə bəziləri deyirlər ki, o, Ümeyr ibni Əbd Zimişəra ibni Türeyf ibni Qiyas ibni Əbi Sə"b ibni Həniyyə ibni Sə"d ibni Sə"ləbə ibni Səlim ibni Fəhm ibni Qənəm ibni Dus olub.

Anası isə Səfih ibni Haris ibni Şabi ibni Əbi Sə"b ibni Qəniyyə ibni Sə"d ibni Sə"ləbə ibni Fəhm ibni Qəni ibni Dusun qızı Əmimə olmuşdur.

Əbu Hüreyrənin özünə gəldikdə isə ona "Hüreyrə" (kiçik pişik) ləqəbi verilmişdir. Deyilənlərə görə o, pişiyin vurğunu olmuşdur və bəlkə də elə buna görə Peyğəmbər (s)-dən pişik haqqında belə bir rəvayət nəql etmişdir.

Rəvayətdə deyilir: "Bir qadın pişiyi (həyət heyvanlarını yediyi üçün) iplə bağlayıb bir otağa saldı və onu orada bir neçə gün ac-susuz saxladı. Buna görə də Allah-təala onu cəhənnəm odu ilə cəzalandırdı."

Ayişə eşitdikdə Əbu Hüreyrə (qorxudan) bu hədisi təkzib etmişdir.

***

## *İKİNCİ FƏSİL*

### *Əbu Hüreyrənin böyüyüb İslamı qəbul etməsi və Peyğəmbər (s) ilə etdiyi yoldaşlıq*

O, Yəməndə doğulmuş və otuz yaşına qədər orada yaşamışdır. Əbu Hüreyrə cahil və heç bir elmə malik olmayan adi bir şəxs idi. Savadsızlıqla yanaşı, yoxsul və fəqiranə həyat tərzi keçirirdi. Bir sözlə, zəmanə ona yoxsulluq libası geyindirmişdi. O qarnını doydurmaq üçün ayaq yalın, başı açıq gecə-gündüz yaşadığı məntəqənin əhalisinə nökərçilik edirdi.[1] Bununla belə, o heç bir narahatçılıq və iztirab keçirmədən belə bir həyat tərzi ilə razılaşırdı. Amma Allah öz Peyğəmbərm (s)-inin Mədinədə dəvətini ucaltdıqdan və Bədr, Ühüd və digər müharibə və hadisələrdən sonra bu biçarə Peyğəmbər (s)-ə birləşməkdən başqa bir çıxış yolu tapmadı. Beləliklə o, Xeybərin fəthindən sonra islamı qəbul edərək Peyğəmbər (s) ilə bey"ət etdi. Tarixçilər yekdilliklə bu hadisənin hicrətin yeddinci ilində baş verdiyini qeyd etmişlər. O ki, qaldı onun Peyğəmbər

---

[1]"Ət-təbəqat", "Əl-İsabə, "Hilyətul-övliya" və s. Əbu Hüreyrə haqqında yazılan mənbələrə müraciət edə bilərsiniz.

(s) ilə birlikdə olmasına, Əbu Cürəyr özü "səhihi Buxari"-də nəql oluna hədisə əsasən, deyir ki, Əbu Hüreyrə, Peyğəmbər (s)-lə üç ildən artıq bir əsrdə olmamışdır.[1]

### *ÜÇÜNCÜ FƏSİL*

## *Peyğəmbər (s)-in zamanı*

Əbu Hüreyrə islamı qəbul etdikdən sonra "Süffə" yoxsullarına birləşdi. Onlar barə-sində Əbul Fəda öz (Tarix) kitabında yazır:

"Onlar ev və qəbiləsi olmayan yoxsul insanlar idilər. Peyğəmbər (s)-in zamanında məsciddə yatar və oranı özləri üçün sığınacaq edərdilər. Onların yeri məscidin eyvanı idi. Buna görə də onlara "Süffə" (eyvan) əhli deyərdilər. Peyğəmbər (s) hər axşam onlardan bir neçəsini şam yeməyinə dəvət edər, qalanlarını da şam üçün dəstə-dəstə səhabələrin arasında bölüşdürərdi. Əbu Hüreyrə Süffə əhlinin ən məşhur nümayəndələrindən biri idi.

Həmçinin Əbu Nəim İsfəhani özünün "Hilyətul-övliya" kitabında yazır:

"Əbu Hüreyrə "Süffə" əhlinin ən tanınmış şəxslərindən biri idi. O, Peyğəmbər (s)-in ömrünün sonunadək orada qalıb başqa bir yerdə yaşamamışdır. Əbu Hüreyrə, orada yaşayanları və sonradan oraya gələnləri çox yaxşı tanıyırdı.

"Səhihi-Buxari"nin əvvəlində deyilir: Əbu Hüreyrə, özü barəsində nəql etdiyi uzun bir hədisdə belə deyir: "Mən "Süffə" əhlindən biri idim.

Həmçinin "Səhihi-Buxari"-nin başqa bir yerində deyilir: "Mən Süffə əhlindən yetmiş kişinin üst paltarının olmadığını öz gözlərimlə gördüm. Onlar yalnız çiyinlərinə bir əba və ya parça atırdılar. Geyindikləri bu paltarlar onların dizlərinə güclə çatırdı. Belə ki, onlar övrətlərinin görünməməsi üçün daim əlləri ilə parçanın iki ucundan yapışardılar."

Həmin kitabda Əbu Hüreyrədən nəql olunmuş başqa bir rəvayətdə deyilir: "Əbu Hüreyrə qarnını doydurmaq üçün həmişə Peyğəmbər(s)-in yanında olardı." İbni Musəyyib və Əbu Sələmə Əbu Hüreyrədən belə bir hədis nəql edirlər: "Mən qarnımı doyuzdurmaq üçün çox vaxt Peyğəmbər (s)-in yanında olurdum."

Başqa bir yerdə o özü barədə belə deyir:

"Süffə əhlindən idim. Oruc tutmuşdum. Hava qaraldıqda qarnım ağrıdığı üçün ayaq yoluna getməli oldum. Qayıtdığım zaman yemək artıq qurtarmışdı. Qureyş əhlinin varlıları Süffə əhli üçün yemək göndərdilər. Orada olanlardan mən kimin yanına gedəcəyimi soruşdum. Onlar mənə Ömər ibni Xəttabı göstərdilər. Mən onun yanına gəldikdə o artıq namazını qılıb qurtarmışdı və dua edirdi. Ömər duasını oxuyub qurtardıqdan sonra dedim: Mənim üçün bir az Qur"an oxu. (Amma yeməkdən başqa heç nə istəmirdim.)

---

[1] "Səhihi-Buxari", 2-ci cild, səh.182; həmçinin "Əl-isabə, "Ət-təbəqat".

O, “Ali-İmran” surəsindən bir neçə ayə oxudu. Evinə çatdıqda məni çöldə qoyub özü içəri girdi və bir qədər gecikdi. Öz-özümə dedim: Yəqin ki, paltarını soyunduqdan sonra tapşıracaq ki, mənim üçün yemək gətirsinlər.

Amma heç nə gəlmədi. Çox gözlədikdən sonra durub yola düşdüm və yolda Peyğəmbər (s)-ə rast gəldim. Onunla yola düşərək evə gəldik. O, qara kənizini çağırıb buyurdu: O qabı gətir. O da gətirdi. Deyəsən arpa yeməyi idi, çünki yeyildikdən sonra qabın qıraqlarında bir az arpa qalmışdı. Qabı Peyğəmbər (s)-dən alıb doyunca yedim.

Əbu Hüreyrə çox vaxt özünü belə vəsf edərdi:

“Tək olan Allaha and olsun ki, dəfələrlə aclığın şiddətindən huşsuz halda yerə yıxılardım və aclığa tab gətirmək üçün qarnıma daş bağlayardım. Bir gün məscidin astanasında oturub camaatın çıxmağını gözləyirdim. Əbu Bəkr oradan keçdikdə ondan Qur”an ayələrindən biri haqda sual etdim, halbuki mənim istəyim yalnız özümü doyurmaq idi. O heç cavab vermədən ötüb getdi. Sonra Öməri görüb ondan da həmin sualı soruşdum. O da mənə əhəmiyyət vermədən ötüb keçdi. Bir qədər keçdikdən sonra Əbul Qasimin (Həzrəti Peyğəmbər) oradan keçdiyini gördüm. O, məni gördükdə təbəssüm edərək üz-gözümdən istəyimi başa düşdü. Buyurdu: Ey Əbu Hərr! Dedim: Bəli, ya Rəsuləllah! Buyurdu: Mənimlə gəl. Onunla birlikdə yola düşdüm. Evə çatdıqda mənə evə daxil olmağı təklif etdi. Evində bir qədər süd var idi. Peyğəmbər (s) südün haradan gətirildiyini soruşdu. Cavab verdilər ki, filan kəs gətirmişdir. Buyurdu: Ey Əbu Hərr! Dedim: Buyurun, ya Rəsuləllah. Buyurdu: Süffə əhlinin yanına get və onları mənim yanıma çağır. Onlar islamın qonaqlarıdırlar və pənah aparmağa kimsələri yoxdur.

Həzrəti Peyğəmbərin əlinə bir şey düşən kimi özünə heç nə götürmədən onu Süffə əhli üçün saxlayardı. Əgər kimsə o həzrətə hədiyyə göndərsəydi onları da o hədiyyədə şərik edərdi.

Əbu Hüreyrə deyir: Həzrətin bu sözlərindən narahat oldum və öz-özümə dedim ki, Süffə əhlinin buna nə aidiyatı var? Mən ondan içməyə hamıdan daha haqlıyam. Çünki ola bilsin, onlar gələndən sonra mənə bir şey çatmasın. Amma Allah və Onun Peyğəmbərinin əmrinə itaət etməyə məcbur idim. Beləliklə Süffə əhlinin yanına gedib onları çağırdım. Onlar da Peyğəmbər(s)-in dəvətini qəbul edərək mənimlə birlikdə yola düşdülər. Peyğəmbər(s)-in evinə çatdıqda daxil olmaq üçün icazə istədilər. Onlara icazə verildi. Hamısı daxil olub öz yerində oturdu. Həzrəti Peyğəmbər (s) üzünü mənə tutub buyurdu: “Ey Əbu Hərr! Qabı götür və onlara süd ver.” Mən də qabı götürüb orada olan hər bir kəsə doyunca süd verdim. Nəhayət növbə Peyğəmbər(s)-ə çatdı. Dedim: Ya Rəsuləllah, artıq hamı doymuşdur. Həzrət qabı təbəssümlə mənim əlimdən alıb buyurdu: Ey Əbu Hürerə! Biz ikimiz qalmışıq? Dedim: Bəli! Elədir. Buyurdu: Otur, iç. Mən hər dəfə qabı əlimdən yerə qoyarkən o mənə yenə içməyi təklif edirdi. Doyunca

içdikdən sonra o mənə yenə içməyi təklif etdi. Dedim: And olsun səni haqq olaraq Peyğəmbərliyə göndərən Allaha, artıq doymuşam. Sonra qabı ona verdim. Həzrət Allaha şükür etdikdən sonra südün qalanını içdi.

"Səhihi-Buxari"-də Əbu Hüreyrədən nəql olmuş rəvayətdə deyilir: Bir gün aclıqdan halsızlaşaraq Peyğəmbər(s)-in minbəri ilə Ayişənin otağı arasında yerə yıxıldım. Orada olanlar məni tapdalayaraq o tərəfə bu tərəfə keçir və belə güman edirdilər ki, mən dəli-divanəyəm. Halbuki, mən nə dəli idim, nə də divanə; və bunu aclığın şiddətindən edirdim.

Zül-cinaheyn Cə"fər ibni Əbi Talib (ə) yoxsul və fəqirlərə (zəiflərə) qarşı çox mehriban idi. O daim onlara əl tutar, yaxşılıq edərdi. O, Əbu Hüreyrəni yeməklə təmin edər, Əbu Hüreyrə də onu çox istəyərdi. Belə ki, "Əl-isabə kitabında Cə"fər barəsində deyilir: Əbu Hüreyrə Cə"fəri Peyğəmbər(s)-dən sonra hamıdan əziz və üstün tutardı.

Başqa bir yerdə deyilir: Əbu Hüreyrə deyir: "Camaat deyir ki, Əbu Hüreyrə Peyğəmbər(s)-in adından çox hədis nəql etmişdir. Bu bir həqiqətdir, çünki mən qarnımı doydurmaq üçün daim Peyğəmbər(s)-in yanında olardım və kimsəyə nökərçilik etməyim deyə, günümün əksər hissəsini o həzrətin yanında keçirərdim.

O vaxtlar aclıq mənə güc gəlməsin deyə qarnıma daş bağlayardım. Başqalarından hətta mənasını bildiyim ayə haqqında soruşurdum ki, bəlkə mənim vəziyyətimi dərk edib bir qarınlıq çörək versin. Bu vaxtlar yoxsullar üçün ən xeyirxah şəxs Cə"fər ibni Əbi Talib idi. O, bizim yanımıza gələr və gətirdiyi yemək-içməklə bizə qulluq edərdi.

Bəcəva Məcbəridən rəvayət nəql edərkən deyir: "Cə"fər ibni Əbi Talib yoxsulları çox sevirdi. Onlarla bir yerdə oturar, söhbət edər və onlara qulluq edərdi. Onlar da (yoxsullar) Cəfər ibni Əbi Talibə hörmət edərdilər. Bu səbəbdən də Peyğəmbər (s) onu "yoxsulların atası" adlandırmışdı.

Tirmizi, Nəsai və "Əl-isabə kitabının müəllifinin Əbu Hüreyrədən nəql etdikləri səhih hədisdə deyilir: "Peyğəmbər(s)-dən sonra kimsə Cə"fər ibni Əbu Talibdən çox ayaqqabı geyməmiş, minik heyvanına minməmiş və torpağa qədəm basmamışdır. (Yəni onlardan çox cəmiyyət üçün fəaliyyət göstərən ikinci bir şəxs olmamışdı.) O, gecə-gündüz Süffədə olar və orada olan yoxsulların dərdlərinnə şərik olardı. Peyğəmbər (s) dünyadan köçdükdən sonra onun Süffədən savayı başqa pənah yeri olmadı. Nəhayət, şəhadət şərbətini içdikdən sonra öz əziz dostuna (Peyğəmbər(s)-ə) qovuşdu.

Bundan qabaq Əbu Hüreyrənin qarnını doydurmaq üçün yol kənarında oturub gəlib-gedənlərdən yemək istəməkdən başqa bir işi olmayıb. O nə bir müharibədə, nə bir mühüm məmuriyyətdə və nə də hər hansısa sülhdə iştirak etməmişdir. Amma deyilənlərə görə, o yalnız Mutə döyüşündə iştirak etmiş və (müharibə başlamazdan əvvəl) düşmənin qorxusundan ordugadan qaçmışdır."

Bəziləri belə təsəvvür edirlər ki, o, Peyğəmbər(s)-in Əli (ə) ilə birlikdə Məkkə müşriklərinə bəraət hökmünü elan etmək üçün göndərdiyi dəstənin içində olmuş və böyük həcc (vacibi həcc) günü (hökmü elan etmək üçün) qışqırmaqdan səsi tutulmuşdur. Bu barədə Əbu Hüreyrənin özündən bir-birinə zidd olan iki hədis nəql edilmişdir. Oxucu bu hədisləri mütaliə etdikdən sonra hədis onun nəzərində dəyərsizləşərək etibarsız olur. Biz bu barədə gələcək bəhslərimizdə, söhbət açacağıq inşallah.

Bəziləri də belə xəyal edirlər ki, Peyğəmbər (s) ramazan ayının zəkatını qorumağı ona tapşırmışdır. Bu uzun və əsassız hədisə tezliklə onun batil hədisləri arasında rast gələcəksiniz.

***

## *DÖRDÜNCÜ FƏSİL*

# *Əbu Bəkr və Ömərin xilafəti zamanında*

Bu iki xəlifənin yaşadıqları dövranı araşdırarkən Əbu Hüreyrə barəsində çox da mühüm məsələyə rast gəlmədik. Diqqəti cəlb edən tək bu oldu ki, Ömər hicrətin 21-ci ilində onu Bəhreynə vali təyin etmiş, 23-cü ilində isə onu vəzifəsindən azad edərək yerinə Osman ibni Əbil Ası göndərmişdir. Əbu Hüreyrənin bu vəzifədən kənarlaşdırıl-masının əsas səbəbi onun vəzifəsindən sui-istifadə edərək beytül-maldan on min dinar pulu oğurlaması olmuşdur. Ömər xəlifə olduğu müddət ərzində bu məsələni nəyin bahasına olursa olsun, həll edib pulları beytül-mala qaytarmaq istəyirdi. Dəlil üçün İbni Əbdi Rəbbih Malikinin "Əlqdul-Fərid" kitabının birinci cildində Ömər barəsində dediyi sözlərə diqqət yetirin:

"Ömər Əbu Hüreyrəni yanına çağırıb dedi: özün yaxşı bilirsən ki, sən Bəhreynə vali təyin edildikdən sonra bir cüt çarığın belə yox idi. Amma indi eşidirəm ki, özün üçün min altı yüz dinarlıq bir neçə seçmə at alıbsan. Əbu Hüreyrə dedi: Atlar doğaraq artıblar. O ki, qaldı şəxsi əşyalara, onlar camaatın mənə verdiyi hədiyyələrdir. Ömər dedi: Mən əvvəlcədən sənin bütün xərcliyini vermişdim, deməli sənin ixtiyarında olan hər bir şey artıqdır və sən onları (beytül-mala) qaytarmalısan. Əbu Hüreyrə həyacənlı halda dedi: Yox, sən belə etməzsən. Ömər dedi: And olsun Allaha, bu işi görəcəyəm, hələ üstəlik sənə şallaq da vuracağam. Ömər dediyi işi də etdi: Əbu Hüreyrənin bədəni bir neçə yerdən yaralanana qədər ona şallaq zərbəsi vurdu. Sonra yenə malların qaytarılmasını tələb etdi. Əbu Hüreyrə dedi: Onların Allah yanından olduğunu hesab et. Ömər dedi: Əgər halal yol ilə alsaydın, dediyin kimi edərdim. Amma camaat onu sənin qarnın və gözün doymaq üçün yox, Allah yolunda (imkansız) bəndələri üçün vermişlər! Yoxsa sən uzaq yerdən gəlibsən? (Yəni hamı səni çox yaxşı tanıyır) Anan Əmimə səni eşşək otarmaqdan başqa bir iş üçün doğmayıb!"

İbni Əbdi Rəbbih Əbu Hüreyrədən belə nəql edir.

"Ömər məni Bəhreyn valiliyindən uzaqlaşdırdıqdan sonra dedi: Ey Allah və Qur"anın düşməni! Allahın malınımı oğurlayıbsan? Mən cavabında dedim: Mən nə Allahın, nə də Onun kitabının düşməniyəm. Mən yalnız sizin düşmənlərinizin düşməniyəm. Allahın malını da oğurlamamışam. Ömər soruşdu: Bəs bu on min dinarı haradan və necə əldə etmisən? Dedim: Bunlar doğaraq artmış atlar və ardıcıl mənə verilən hədiyyələrdir. Sonra Ömər onların hamısını məndən aldı. Mən də sübh namazından sonra dua edərək Allahdan Ömərin bağışlanmasını istədim."

İbni Əbil Hədid "Nəhcül-Bəlağə"-nin şərhinin üçüncü cildində Ömər barəsində danışarkən bu hadisəni nəql etmişdir.

İbni Sə"d "Ət-təbəqatul-kubra" kitabında Əbu Hüreyrədən danışarkən Məhəmməd ibni Sirinin Əbu Hüreyrədən nəql etdiyi sözləri belə bəyan edir: "Ömər mənə dedi: Ey Allah və Qur"anın düşməni! Allahın malınımı oğurlayıbsan?"

İbni Həcər Əsqəlani də özünün "Əl-isabə adlı kitabında Əbu Hüreyrənin həyatından danışarkən bu hadisəyə işarə etmişdir. O, Əbu Hüreyrənin tərəfini saxlayaraq alimlər arasında yekdil olan bir həqiqəti inkar edərək onlarla müxalif bir mövqedə durmuşdur. Amma o yaddan çıxarmışdır ki, o özünün bu əməli ilə Əbu Hüreyrəni cəzalandıraraq mənimsə-nilmiş malları beytül-mala qaytaran xəlifəyə böyük tənə vurmuş və onun məqamına xələl gətirən şeylər söyləmişdir.

## *BEŞİNCİ FƏSİL*

# *Osmanın xilafəti zamnı*

Əbu Hüreyrə bu dövrdə Əbul-As və Bəni Üməyyədən olan sairələri ilə daha sıx rabitə yaradıb onlarla səmimi dostluğa başladı. Xüsusilə Mərvan ilə sıx rabitə yaradıb Əbu Muyit tayfasına daha da yaxınlaşdı. Beləliklə onların yanında özü üçün xüsusi hörmət qazandı. Xüsusilə "Yovmud-dar" hadisəsindən sonra (o, Osmanla birlikdə mühasirəyə alınan-ların içində idi).

Əbu Hüreyrə bu tayfaların vasitəsi ilə kasıbçılığın daşını bir dəfəlik ataraq var-dövlət sahibi oldu.

"Yovmud-dar" hadisəsi onun üçün ən yaxşı fürsət oldu. Belə ki, o mühasirə olunanlara birləşərək onlara pənah apardı və özünü Əbu-As və Əməvi tayfasından olanları yanında əziz tutdu. Onlar da özlərinin Əbu Hüreyrəyə nə qədər ehtiyaclı olduqlarını çox gözəl dərk edirdilər. Çünki (yalan hədis və rəvayət nəql etməklə) onların ixtiyarında olan hökuməti yalnız Əbu Hüreyrənin vasitəsilə qüvvət-ləndirmək olardı. Bu səbəbdən də Əməvilər və onların havadarları yoxsulluq, acizlik və nadanlıq (şəxsiyyətsizlik) xüsusiyyətlərini ondan uzaqlaşdıraraq Əbu Hüreyrəni bütün məclislərdə tərifləyir və şə"nini ucaltmağa çalışardılar. Əlbəttə, onlar çox yaxşı bilirdilər ki, Əbu Hüreyrə xəlifə tərəfdar-larını müharibə və qan tökməkdən çəkindirərək sakitliyə dəvət etmiş və sonra mühasirə edilənlərə qoşularaq evə daxil olmuşdu.

Osman özünün və tərəfdarlarının canını təhlükədən qorumaq üçün belə də etdi. Əbu Hüreyrə də yaxşı bilirdi ki, qiyamçıların Osman və Mərvandan başqa heç kəslə işləri yoxdur. Bu səbəbdən də o cür"ətlənərək mühasirədə olanlara qoşuldu və bu fürsətdən səmərəli istifadə edərək ən əlverişli gəlir mənbəyi əldə etdi. Əməvilər belə bir faydalı şəxsi ələ gətirdiklərini görüb onun nəql etdiyi hədisləri yaymaq üçün əllərindən gələni əsirgəmədilər. Onlar bir şey danışarkən Əbu Hüreyrənin nəql etdiyi hədislərə istinad edərdilər. Əbu Hüreyrə də onlara tabe olub yalnız xilafətin istəyinə uyğun hədislər nəql edirdi.

Əbu Hüreyrənin Əməvi xilafəti üçün Peyğəmbər(s)-in dilindən nəql etdiyi bir neçə hədis:

1-"Hər peyğəmbərin öz ümmətindən bir dostu olar, mənim də dostum Osmandır."

2-"Osman o qədər həyalıdır ki, mələklər ondan həya edərək çəkinərlər."

3-"Hər peyğəmbərin cənnətdə bir dostu olar, mənim də oradakı dostum Osmandır."

4-"Cəbrayıl mənim yanıma gəlib dedi: "Allah belə əmr edir ki, Ummu Kulsumu və Rüqəyyənin mehriyyəsi ilə Osmana verməlisən."

5-Başqa bir yerdə deyir: Peyğəmbər(s)-in qızı Osmanın həyat yoldaşı Rüqəyyənin yanına getdim. Onun əlində bir daraq var idi. Məni gördükdə dedi: Bir az bundan qabaq Peyğəmbər (s) mənim yanımda idi və gördüyün bu daraqla onun saçlarını darayırdım. Sonra o Həzrət (Peyğəmbər) məndən soruşdu: Əbu Əbdillah (Osman) necə adamdır. (Sonra buyurdu:) Onun xətrini əziz tut, çünki o, əxlaq baxımından səhabələrim içində mənə hamıdan çox oxşayır."

Əbu Hüreyrə bəzən özünə cəsarət verərək Peyğəmbər(s)-in sözlərini tam əksinə nəql edərək zehnlərdə yanlış təsəvvür yaradardı.

Səhih və digər ravilər tərəfindən qəbul olunmuş bir xəbərdə (hədisdə) deyilir: "Məndən sonra çox tez bir zamanda (cəmiyyətdə) azğınlıq, fitnə-fəsad və (saysız-hesabsız) ixtilaflar yaranacaqdır." Səhabələrdən bəziləri soruşdu: Ya Rəsuləllah! Belə olduqda biz nə edək? Həzrəti Peyğəmbər (s) Əli(ə)-a işarə edərək buyurdu: Onun və tərəfdarlarının ardınca gedin.[1] Amma Əbul-As və Əbu-Süfyan tayfala-rına yaxınlaşmağa çalışan Əbu Hüreyrə bu hədisi nəql edərkən Peyğəmbər(s)-in Osmana işarə etdiyini vurğulamışdır.

Onlar da Peyğəmbər(s)-in sözünü bəyənib qəbul etdilər. Biz bu hədisi kitabın səkkizinci fəslində qeyd edəcəyik, inşallah.

***ALTINCI FƏSİL***

## *Həzrəti Əli (ə)-ın xilafəti zamanı*

Həzrəti Əli(ə)-ın xilafəti dövründə Əbu Hüreyrənin səsi bataraq əvvəlki vəziyyətə düşməyə başladı. O münafiqcəsinə Əli (ə)-a kömək etməkdən imtina edərək, yenicə qurulmuş ədalətli hökumətin əleyhinə çıxdı. Əbu Hüreyrə Əli (ə)-ın ədalətinə tabe olmaqdan boyun qaçırdı, onun düşmənlərinə qoşularaq onların maddi və mənəvi maraqlarını müdafiə etməyə başladı. Müaviyə onu Şamdan Nö"man ibni Bəşir ilə birlikdə Mədinəyə, Əli (ə)-ın yanına göndərdi və onlara belə bir göstəriş verdi ki, Osmanın qatillərini Əli (ə)-dan alıb onları cəzalarına çatdırsınlar.

Müaviyə çox gözəl bilirdi ki, Əli (ə) Osmanın qatillərini onlara təhvil verməyəcəkdir. O istəyirdi ki, qayıtdıqdan sonra onun öz əməllərinə don geydirərək Əli (ə)-a töhmət vursunlar. Müaviyənin başqa bir istəyi bundan ibarət idi ki, Nö"man və Əbu Hüreyrə onun onun üçün şəhadət verib (yəni onun ədalətli və Əli (ə)-ın ədalətsiz olduğuna) Şam camaatına onun Əli (ə) ilə apardığı müharibənin səbəblərini açıqlasınlar. Müaviyə onları Mədinəyə göndərməzdən əvvəl yanına çağırıb dedi: Əli, Osmanın qatillərinə sığınacaq

---

[1] "Kənzul-ümmal", 6-cı cild, 2635-ci hədis; həmçinin "Əl-istiyab" və "Əl-kəbir" kitablarında da bu hədis nəql edilmişdir. "Əl-kəbir"; "Əl-mustədrək", 3-cü cild, səh.122; "Müsnədi-Əhməd", 3-cü cild səh.33 və 82; "Hilyətul-övliya", 1-ci cild, səh.67 və bir sıra başqa kitablar.

verib, öz yanında saxlayır. Siz onun yanına gedib qatillərin təhvil verilməsini istəyin və sə"y edin ki, bizim aramızda müharibə başlamasın. Əgər o belə etməzsə, o halda siz özünüz bu işə şahidsiniz. Geri qayıdın, camaata bu barədə ətraflı məlumat verin.

Onlar Əli(ə)-ın yanına gəldilər. Əbu Hüreyrə birinci sözə başlayaraq dedi: Ya Əbəl-Həsən (Əli)! Allah səni islamda hamıdan şərəfli və üstün etmişdir. Sən Peyğəmbərin əmisi oğlu və ona ən yaxın səhabə olmusan. Bizi bura sənin əmin oğlu (Müaviyəni nəzərdə tuturdu) göndərib və səndən elə bir şey istəyib ki, onun vasitəsi ilə müharibə və qan tökmə təhlükəsi yata bilər. Allah bizi bir-birimizlə mehriban etsin. Sən Osmanın qatillərini bizə təhvil verməklə aramızda baş verə biləcək qanlı müharibənin və fitnə-fəsadın qarşısını ala bilərsən.

Sonra Nö"man da Əbu Hüreyrə kimi bu məzmunda bir neçə söz dedi.

Əli (ə) üzünü Nö"mana tutub dedi: Ey Nö"man! Heç olmasa bu barədə sən bir şey demə! Məgər tayfanızın ən əməli salehi və düz yolda olanı sənsənmi?

(Əli(ə)-ın tayfa deməkdən məqsədi "Ənsar" idi.) Nö"man dedi: Xeyr.

Sonra Əli (ə) buyurdu: Ənsar tayfasının üç-dörd nəfərindən başqa hamısı mənim tərəfimdə durmuşdur. Yoxsa sən də o bir neçə nəfərin sırasındasan?

Nö"man dedi: Allah köməyin olsun. Mən yalnız sizə Müaviyənin sözlərini çatdırmaq istədim. Mən sizinlə birləşmək istəyirdim və ümid edirdim ki, Allah sizinlə onun arasında birlik yaradacaqdır. Amma indi ki, siz belə deyirsiniz, söz sizindir və mən sizin yanınızda qalıram.

Hədislərdə deyilir: Əbu Hüreyrə cavab almadan Şama qayıtdı və hadisəni olduğu kimi Müaviyəyə bəyan etdi. Müaviyə vəziyyətlə tanış olduqdan sonra ona göstəriş verdi ki, hadisəni camaat arasında danışıb onları baş vermiş əhvalatdan agah etsin. Əbu Hüreyrə də öz əmirini sevindirmək üçün öz öhdəsinə düşən məs"uliyyətli vəzifəni lazımınca yerinə yetirdi.

Əbu Hüreyrə qayıtdıqdan sonra Nö"man bir müddət Əli(ə)-ın yanında qaldı. Amma sonra o da Şama qaçıb baş verənləri onlara danışdı.

Məsələ getdikcə ciddiləşir və müharibə alovu günbəgün şö"lələnməyə başlayırdı. Əbu Hüreyrə vəziyyəti belə gördükdə təşvişə düşərək günlərini nigarançılıq və iztirab içində keçirirdi.

O, əvvəlcə belə güman edirdi ki, Əli (ə) bu müharibədə qalib gələcəkdir. Bu səbəbdən də səhnədən qırağa çəkilərək özünü bitərəf göstərmək istədi. Amma bununla belə o öz çirkin niyyətlərini davam etdirərək camaatda Əli (ə) haqqında pis fikir yaratmağa və ona köməklik etməkdən çəkinməyə çağırırdı. Əbu Hüreyrənin həmin dövrdə uydurduğu hədislərdən biri də budur:

Peyğəmbər(s)-dən bu sözləri eşitdim: Tezliklə cəmiyyətdə fitnə-fəsad və qarşıqlıq yaranacaq. Belə bir zamanda yerində hərəkətsiz oturan (fəaliyyət etməyən) ayaq üstə olandan, ayaq üstə olan yol gedəndən və yol gedən zəhmət çəkərək bir işlə məşğul olandan daha faydalı olar.

Belə bir zamanda kim bir yer tapsa, ora pənah aparsın (və oradan çıxmasın).[1]

Xəvaric Əli (ə) ilə müxalifətçilik etməyə başlayana kimi vəziyyət belə davam etdi. Müaviyə Misir hökumətini ələ keçirib Məhəmməd ibni Əbu Bəkri öldürdü. Onun ordusu camaatı kütləvi şəkildə qıraraq var-dövlətlərini qarət etməyə başladı, Əli(ə)-ın hakimiyyəti altında olan ərazilər hücuma məruz qalaraq böyük hissəsi işğal edildi. Bütün bu cinayətlərlə qane olmayıb Əbu Hüreyrəni üç min nəfərlik ordu ilə Hicaza və sonra Yəmənə göndərdi. Onlar həmlə etdikləri məntəqələrdə camaatı kütləvi şəkildə qətlə yetirir, fitnə-fəsad törədərək müsəlmanların namusuna təcavüz edirdilər. Müaviyənin törətdiyi bu cinayətlərdən əsas məqsədi Allahın günahsız bəndələrini öldürmək, əsir edərək özünə tabe etmək və cəmiyyətdə ixtilaf və keşməkeş yaratmaq idi. O, başqalarına ibrət olsun deyə, öz çirkin niyyətlərini hər tərəfdə gücləndirir və özünün bu "qəhrəmanlığını" gələcək nəsillər üçün yadigar qoymaq istəyirdi.

Əbu Hüreyrə Hicaz və Yəməndə misli görünməyən ağır cinayətlər törətdikdən sonra oranın əhalisindən Müaviyə üçün bey"ət aldı. Bu illərdə o özünün iç üzünü tamamilə biruzə verdi və daxilində olan kin-küdurəti Busr ibni Ərtata dediyi sözlərlə bildirdi. Busr onda başa düşdü ki, onun Müaviyəyə həddən artıq rəğbəti vardır.

Sonra Əbu Hüreyrə Müaviyə tərəfindən Mədinəyə hakim təyin edildi və (Müaviyə) oradan qayıdarkən camaatı ona itaət etməyə dəvət etdi (daha dəqiq desək, əmr etdi). Əbu Hüreyrə də oranın pişnamazlıq (imamlıq) vəzifəsini öz öhdəsinə götürdü. Qüdamənin oğlu Cariyə Sə"di iki min nəfərlik qoşun ilə Əli (ə)-ın tərəfindən oraya gəlincə o elə fikirləşdi ki, oranın əhalisinin mütləq (əvəz edilməz) hökmdarı olacaqdır. Onlar Mədinəyə daxil olduqda Əbu Hüreyrə camaatla birlikdə namaz qılırdı. O belə bir qoşunun şəhərə daxil olduğunu eşitdikdə qaçıb aradan çıxdı. Cariyə şəhəri nəzarətsiz görüb dedi: Əgər pişiyin atasını (Əbu Hüreyrəni) görsəydim onu öldürəcəkdim. O hələ Hicazda olarkən Əli (ə)-ın Kufədə şəhadətə çatdığını eşidir və Mədinə əhalisindən İmam Həsən Müctəba (ə) üçün bey"ət alır. Bütün işlərini sahmana saldıqdan sonra Kufəyə qayıdır. Onlar şəhərdən çıxdıqdan sonra Əbu Hüreyrə yenidən camaat içinə çıxıb onlar üçün pişnamaz durur.

Göründüyü kimi Müaviyə hökuməti ələ aldıqdan sonra Əbu Hüreyrənin də məqamı ucalmış və xilafətin əziz adamlarından birinə çevrilmişdir.

## *YEDDİNCİ FƏSİL*

# *Müaviyənin xilafəti zamanı*

---

[1] "Əl-Müsnəd" (Əhməd ibni Hənbəl), 2-ci cild, səh.282; Bu hədis "Hucurat" surəsinin 9-cu ayəsinə əsasən batil və əsassızdır. Bu ayəyə müraciət edə bilərsiniz.

Müaviyənin xilafəti dövründə Əbu Hüreyrənin vəziyyəti xeyli yaxşılaşdı. Onun çoxdankı arzuları artıq həyata keçməyə başlayırdı. Daha münasib mövqe əldə etmək üçün Müaviyənin fəziləti və böyüklüyü haqqında onlarla hədis uydurdu və nəhayət Bəni-Üməyyənin razılığını əldə edə bildi.

Bu dövrdə (Bəni-Üməyyədən olan) hakim və rəhbərlərin fəzilətinə və Bəni-Haşimin əleyhinə Peyğəmbər (s) hələ öz sağlığında gələcəkdə öz ümməti arasında belə bir vəziyyətin yaranacağını xəbər vermişdi. Hədis nəql edənlərin və onları Peyğəmbər(s)-ə aid edən şəxslərin sayı bir çox şəhər və məntəqələrdə nəzərə çarpacaq miqdarda çoxaldı.

Onlar bir-birlərindən özlərinin bəzi xüsusiyyətləri ilə fərqlənirdilər. Hər kəs öz məqam və ictimai mövqeyinə uyğun tərzdə yalan hədis nəql edir və mümkün olduqca daha çox müştəri əldə etmək istəyirdi. Əbu Hüreyrə bu "sürünün" başçısı idi və yalan hədis nəql etməkdə ona çatan ikinci bir şəxs yox idi. O bu müddət ərzində heç kəsin inana bilmədiyi miqdarda müxtəlif mövzularda hədis nəql etdi. Biz bu fəsildə onlardan bir neçəsini qeyd edirik.

1-İbni Əsakir, İbni Udeyy, Məhəmməd ibni Aiz, Məhəmməd ibni Əbdus-Səmərqəndi, Məhəmməd ibni Mübarək Suru və Xətib Bağdadi Əbu Hüreyrədən belə nəql edirlər: Peyğəmbər(s)-in bu sözləri buyurduğunu eşitdim: "Allah üç nəfəri: məni, Cəbrayılı və Müaviyəni öz vəhyinin əmanətdarı təyin etmişdir."

2-Xətib Bağdadi başqa bir hədisdə Əbu Hüreyrədən belə nəql edir: "Bir gün Peyğəmbər (s) şəxsən özü Müaviyəyə bir ox verib buyurdu: "Al bunu! Bu oxun vasitəsi ilə sən cənnətdə mənim görüşümə gələcəksən."

3-Əbu Abbas və Vəlid ibni Əhməd Zuzəni "Şəcərətul-əql" kitabında iki mənbədən Əbu Hüreyrədən belə nəql edirlər: Peyğəmbər(s)-in bu sözləri buyurduğunu eşitdim: "Əbu Bəkrin ağ mirvaridən tikilmiş bir günbəzi vardır. Orada daim Allah-təalanın rəhmət küləyi əsər. Onun zahiri Allahın əfvi (bağışlaması), batini isə Allahın rizasıdır (razılığıdır). O, Allahı görmək istəyəndə oradan kiçik bir dəlik açılır və o, həmin dəlikdən Allaha tamaşa edir."

4-İbni Həbban Əbu Hüreyrədən belə nəql edir:

Peyğəmbər (s) mühacirət günü mağaranı tərk edib Mədinəyə getdiyi zaman Əbu Bəkr də onunla birlikdə idi. O, Peyğəmbər(s)-in dəvəsinin yüyənindən yapışıb qabaqda gedirdi. Bir qədər yol getdikdən sonra Peyğəmbər (s) buyurdu: Ey Əbu Bəkr! Sənə bir müjdə verməyimi istəyirsənmi? Əbu Bəkr dedi: Buyurun, ya Rəsuləllah. Peyğəmbər (s) dedi: Allah qiyamət günü hamı üçün ümumi surətdə təcəlli edər, (aşkar olar.) Amma sənin üçün ayrılıqda təcəlli edər!

5-İbni Həbban Əbu Hüreyrədən nəql etdiyi başqa bir rəvayətdə deyir: Peyğəmbər (s) Cəbrayılla birlikdə olarkən Əbu Bəkr onların yanından ötüb keçdi. Cəbrayıl dei: Bu, Əbu Bəkr Siddiqdir.

Peyğəmbər (s) soruşdu: Onu səndəmi tanıyırsan? Cəbrayıl cavab verdi: Bəli, tanıyıram. Çünki o asimanda yerdəkindən daha çox tanınır. Göydəki mələklər onu "Qureyşin ən səbirlisi" adı ilə tanıyırlar.

6-Xətib Bağdadi ondan nəql etdiyi hədisdə deyir: Əbu Bəkr dünyaya gələn gün mələklər bir-birinə müjdə verdilər və Allah-təala əbədi olan cənnətə gəlib dedi: "And olsun izzət və böyüklüyümə, bu şəxsi sevməyəni cənnətdən məhrum edərəm!"

7-İbni Udeyy Əbu Hüreyrədən (Peyğəmbərin dilində) belə nəql edir: "Mən meracda olduğum zaman keçdiyim bütün asimanlarda bu sözlərin yazıldığını gördüm: "Məhəmməd Allahın peyğəmbəri, Əbu Bəkr isə insanların ən sadiqidir (ən düz danışanıdır)."

8-Əbul Fərəc ibni Cövzi Əbu Hüreyrədən belə nəql edir: Bir gün Peyğəmbər(s)-in yanında olduğum zaman mənə belə bir əhvalat nəql etdi: Günlərin birində cənnət və cəhənnəm bir-birinin qarşısında özlərini öyürdülər. Cəhənnəm cənnətə deyir: Mən səndən üstünəm, çünki mən özümdə fir"onları, zalım sitəmkarları və zülmkar padşahları və onların övladlarını yerləşdirərək cəzalandırıram. Bu vaxt Allah-təala cənnətə vəhy edərək ona belə cavab verməyi əmr etdi. (De:) "Xeyr! Mən səndən üstünəm, çünki Allah-təala məni Əbu Bəkrin vücudu ilə zinətləndirmişdir."

9-Xətib Bağdadi Əbu Hüreyrədən nəql etdiyi hədisdə deyir: Peyğəmbər Əliyə söykənmiş halda (məsciddən) çölə çıxdı. Onlar orada Əbu Bəkr və Ömərlə qarşılaşdılar. Peyğəmbər Əlidən soruşdu: Ya Əli, bu iki nəfəri svirsənmi? Əli cavab verdi: Bəli, ya Rəsuləllah. Sonra Peyğəmbər buyurdu: Onları sev ki, cənnətə daxil ola biləsən.

10-Xətib Bağdadi özünün "Tarix" kitabında və İbni Şahin özünün "Sünən" kitabında Əbu Hüreyrədən belə nəql edirlər: Peyğəmbər (s) buyurmuşdur: "Asimanda səksən min mələk Allahdan, Əbu Bəkr və Öməri sevənlərin bağışlanmasını istəyirlər. İkinci qat asimanda isə Əbu Bəkr və Ömərin düşmənlərinə lə"nət oxuyurlar."

Bütün bu hədislərin puç və batil olduğu hamıya bəllidir. Bu həqiqəti hətta bu hədisləri nəql edən ravilər belə, etiraf etmişlər.

Məşhur ravi Süyuti də bu hədisləri əsassız və uydurulmuş hədislərin sırasında qeyd edərək onlara istinad etməməyi tövsiyə edir. Amma məsələ burasındadır ki, onlar Əbu Hüreyrəni, bu işlərinə görə əsla günahlandırmayırlar.

Onlar inanırlar ki, Əbu Hüreyrə Peyğəmbəri görmüş və ondan hədis nəql etmiş günahsız bir müsəlmandır. Deməli onlar Əbu Hüreyrənin özünü yox, bu hədisləri nəql edənləri müqəssir bilirlər. Onlar Əbu Hüreyrənin nəql etdiyi digər (əsassız) hədislər barəsində də danışmağa söz tapmayıb onların hərəsini bir cür yozmağa çalışmışlar.

Aşağıdakı hədislərə diqqət yetirin:

1-Peyğəmbər(s)-in bu sözləri buyurduğunu eşitdim:
"Bu, Cəbrayıldır. O, Allahdan mənə xəbər gətiribdir ki, Əbu Bəkr və Öməri mömin və pərhizkarlardan başqa heç kəs sevməz və onların düşmənləri yalnız nadan və münafiqlər olar."[1]
2-"Allah-təala məni öz nurundan, Əbu Bəkri mənim nurumdan, Öməri Əbu Bəkrin nurundan və ümmətimi də Ömərin nurundan yaratdı."[2]
3-"Əbu Bəkr və Ömər keçmiş və gələcək insanların ən xeyirxahlarıdırlar."[3]
4-"Mənim səhabələrim göydəki ulduzlar kimidirlər. Hər kim onlara iqtida edərsə (onların ardınca getsə), haqq yola hidayət olunar."[4]
5-"Mən və səhabələrimdən olan Əbu Bəkr, Ömər, Osman və Əli İncildə tumurcuqlayan çiçək kimi tanıtdırılmışıq."[5]

Əbu Hüreyrənin bu və bu kimi başqa hədisləri batil və əsassızdır. "Səhihi-Buxari" və "Səhihi-Müslüm" kitablarında bu qəbil hədislərə çox rast gəlmək olur. Biz 11-ci fəsildə onlardan bəzilərinə işarə edəcəyik.

### *SƏKKİZİNCİ FƏSİL*

## *Bəni-Üməyyənin Əbu Hüreyrəni himayə etməsi*

Əgər Əbu Hüreyrənin əməvilərdən əvvəl və sonrakı vəziyyətinə nəzər salsaq bu xilafətin onun üçün necə böyük nemət olduğunun şahidi olacağıq. Əməvi xilafətindən əvvəl o yoxsul, əhəmiyyətsiz və öz sözü ilə desək, paltarında bit gəzən bir şəxs idi.[6] Əməvilər hakimiyyəti ələ aldıqdan sonra Əbu Hüreyrəni də yerdən götürüb ona da özlərinin geyindikləri ipək və zərli paltarlar geyindirdilər. Belə ki, Əbu Hüreyrə kasıbçılığın daşını bir dəfəlik atdı.[7] Əməvilər ona qiymətli ipək və kətan parçalardan paltarlar geydirib[8] Əqiq məhəllə-sində onun üçün böyük bir qəsr tikdirdilər.

---

[1].Bu hədis Zəhəbinin "Mizanul-etiqad" adlı kitabında batil və əsassız hədislər sırasında qeyd edilmişdir.

[2].Bu hədis də Zəhəbinin "Mizanul-etiqad" adlı kitabında batil və əsassız hədislər sırasında qeyd edilmişdir.

[3]Bu hədis Zəhəbinin "Mizanul-etiqad" adlı kitabında batil və əsassız hədislər sırasında qeyd edilmişdir.

[4]Bu hədis Zəhəbinin "Mizanul-etiqad" adlı kitabında batil və əsassız hədislər sırasında qeyd edilmişdir.

[5]Bu hədis Zəhəbinin "Mizanul-etiqad" adlı kitabında batil və əsassız hədislər sırasında qeyd edilmişdir.

[6]"Hilyətul-övliya", 1-ci cild, səh.381

[7] "Ət-təbəqatul-kubra".

[8] "Səhihi-Buxari", 4-cü cild, səh.175".

Bu yolla Əbu Hüreyrə Əməvi xilafətinin müti nökərinə çevrilərək adı dillər əzbəri oldu. Sonra onu Peyğəmbər(s)-in şəhəri olan Mədinəyə vali təyin edib Qəzvan ibni Cabir ibni Vəhəb Mazinənin qızı Busrəni ona ərə verdilər. Əbu Hüreyrə bu evlənməni ağlına belə gətirməzdi və heç vaxt təsəvvür edə bilməzdi ki, o, bir gün belə bir kəsin qızı ilə ailə quracaqdır.

Çünki, bir neçə il bundan qabaq o, qarnını doydurmaq üçün bu qadının yanına gələr və ona nökərçilik edərək bir qarınlıq azuqə istəyirdi.[1] Məzarib ibni Covz deyir:

Axşam küçədə gəzişirdim. Birdən bir kişi nəzərimi cəlb etdi. O ardıcıl şəkildə təkbir deyirdi. Diqqət etdikdən sonra gördüm ki, bu şəxs Əbu Hüreyrədir. Soruşdum: Ey Əbu Hüreyrə, burada nə edirsən?

Cavab verdi: Allaha şükr edirəm ki, əvvəllər qarnımı doydurmaq üçün Qəzvanın qızı Busraya nökərçilik edirdim. O, dəvəyə minərkən su verər, düşdükdən sonra ona qulluq edirdim. Amma indi onunla ailə qurmuşam və mən atdan düşdükdən sonra gəlib mənə qulluq edir. O vaxtlar elə ki, bir düzənliyə çatırdıq, o mənə deyirdi: Mənə “kaci” halvası bişir ha! İndi isə “kaci” halvasını bişirməyi mən ona göstəriş verirəm.[2]

Əbu Hüreyrə Mədinənin valisi olarkən həmişə belə deyərdi: Cavanlığımı yetimlikdə keçirdim. Mühacirət etdiyim zaman yoxsul (aciz) və Busranın əlində əsir idim. Məni ölümdən saxlayacaq bir tikə çörəyə möhtac idim. Onlar evdə olanda qulluqlarında dururdum, dəvəyə minmək istədikləri zaman dəvələrin sakit durması üçün mahnı oxuyurdum. Amma indi Allah onu mənə arvad etmişdir. Şükr olsun Allaha ki, öz dinini gücləndirdi və Əbu Hüreyrəni pişnamaz və başçı qərar verdi.[3]

Bəzən də belə deyərdi: Bir tikə çörək üçün Qəzvanın qızına qulluqçuluq edirdim. O məni ayaqyalın, başı açıq halda bütün işlərə əmr edərdi. Amma bir müddətdən sonra Allah onu mənə arvad etdi. İndi mən ona göstəriş verirəm və o mənə qulluq edir.[4]

O, günlərin biri camaat namazı qılırdı. Salamları deyib qurtardıqdan sonra uca səslə dedi: Allaha şükr edirəm ki, öz dinini qüvvətləndirdi və Əbu Hüreyrəni bir

---

[1] “Tarixi Əbul Sirac”, “Əl-İsabə kitabları. “Əl-İsabə və “Məarif” (ibni Quteybə) və “Ət-təbəqatul-gubra.”

[2] “Əl-İsabə.

[3] “Ət-təbəqatul-kubra”, 4-cü cild, səh.53.

[4] “Ət-təbəqatul-kubra”, 4-cü cild, səh.53.

tikə çörəkdən ötrü Qəzvanın qızına qulluqçuluq etməkdən pişnamazlıq zirvəsinə (məqamına) ucaltdı.[1]

Mədinənin valisi olarkən bir gün Peyğəmbər(s)-in minbərinə çıxıb dedi: Allaha şükr olsun ki, mənə dadlı yeməklər yeməyi, ipək paltarlar geyməyi nəsib etdi, Qəzvanın qızını ona qulluqçuluq etdikdən sonra mənə arvad etdi. O mənə hökmranlıq etdiyi kimi, mən də ona hökmranlıq edirəm.

**_DOQQUZUNCU FƏSİL_**

## _Əbu Hüreyrə Əməvilərin ona göstərdikləri qayğıya görə onlara təşəkkür edir_

Əməvi xilafəti həqiqətən də Əbu Hüreyrəyə qayğı göstərməklə onu özlərinə qul etdilər və onun bütün ixtiyarlarını əlindən aldılar. Hətta onun gözü, qulağı və qəlbi onların ixtiyarında idi.

Əbu Hüreyrə də onların arzu və istəklərinə uyğun olaraq əsasında hərəkət edirdi.

Beşinci və yeddinci fəsillərdə dediyimiz kimi, Əbu Hüreyrə bəzən əməvi xilafətinin fəziləti haqqında Peyğəmbərdən hədis və rəvayət uydururdu. O həmçinin Müaviyənin və onun zalım ə"yanlarının ona göstərdikləri hörmətin müqabilində Əbu Bəkr və Öməri mədh edən hədislər uydururdu. Çünki, əməvi hakimləri xilafəti əldə saxlamaq üçün bir sıra işlər görməli idilər. Onlar belə güman edirdilər ki, Peyğəmbərin həqiqi canişini Əli (ə) və Əhli-beyti ilə müxalifət edərək Əbu Bəkr və Öməri hamıdan üstün qələmə verməklə bu istəklərini həyata keçirə biləcəklər. Beləliklə Əbu Hüreyrə bu və digər mövzularda hədis və rəvayət nəql etməyə başladı.

(Biz kitabın yeddinci fəslində o hədislərin bəziləri haqqında söhbət açdıq.)

O hədislərdən biri Əbu Bəkrin hicrətin doqquzuncu ilində Həcc karvanına başçılıq etməsi haqqında idi. Başqa bir hədisdə isə Ömərin mələklərlə söhbət etməsindən danışılırdı. Əməvi xilafəti Peyğəmbər(s)-in ailəsinə əziyyət vermək və onları ictimai səhnədən uzaqlaşdıraraq ev dustağına çevirmək üçün bu iki hədisin hər hansı yolla olursa olsun, yayılmasını məmurlardan tələb edirdi. Müaviyə və onun havadarları bu yolda əllərindən gələni edirdilər. Bu hədislər cəmiyyətdə o qədər geniş vüs"ət tapdı ki, bir çox şəri məsələləri onlarla müqayisə edir və onları özləri üçün meyar qərar verirdilər. Təəssüflər olsun ki, bu hədislər "Sihah" kitablarında da nəql edilmişdir. Biz kitabın 11-ci fəslində, inşalla, bu barədə geniş söhbət açacağıq.

Əbu Hüreyrə əməvilərin yürütdüyü siyasətə uyğun (yəni Əli(ə)-ın əleyhinə) və bu siyasətin tələblərinə cavab verən hədislərdə nəql edirdi:

[1] "Hilyətul-övliya", 1-ci cild, səh.379.

1-Peyğəmbər (s) buyurmuşdur: “Günəş Beytül Müqəddəsə getməkdə olan Yuşə ibni Nundan başqa heç kəs üçün öz əvvəlki yerinə çatmayıb və kimsənin əmri ilə hərəkətdən dayanmayıb.”

2-

*“Ən yaxın qohumlarını qorxut” ayəsi nazil olduqda həzrəti Peyğəmbər (s) buyurdu: “Ey Qureyş əhli...” Amma Əbu Hüreyrə əməvi xilafətinin yürütdüyü siyasətin tələbinə uyğun olaraq həqiqətdən üz döndərib baş vermiş əhvalatı təhrif etmişdir.*

3-Peyğəmbər (s) buyurmuşdur: “Məndən sonra mənim yerdə qalan var-dövlətim qohum-əqrəbam arasında bölüşdürülməməlidir.”

4-Peyğəmbər (ə) ölüm ayağında olan əmisi Əbu Talibə dedi: “La ilahə illəllah” de. Elə bu vaxt Allah-təala tərəfindən bu ayə nazil oldu:

*“Ya Məhəmməd, şübhəsiz ki, sən öz istədiyini doğru yola yönəldə bilməzsən. Amma Allah öz istədiyini doğru yola hidayət edər.”*[1]

Əbu Hüreyrənin bu məzmunda bir sıra başqa uydurma hədisləri də vardır ki, onları nəql etməkdə onun əsas məqsədi Peyğəmbər(s)-in həqiqi canişini olan Əli(ə)-ın məqamına xələl gətirib onu gözdən salmaq olmuşdur.

Əbu Cə”fər Əslafi deyir: Müaviyə səhabə və ona yaxın olan dostlarından bəzilərini başına yığıb Əli(ə)-a tənə vurmağa və o həzrət haqqında nalayiq sözlər yaymağa xüsusi göstəriş verərdi. Onlar da Müaviyənin istəklərini həyata keçirərək bunun müqabilində ondan “zəhmət haqqı”, xeyli var-dövlət və qiymətli hədiyyələr alardılar. Aşağıdakı şəxslər həmin dəstəyə (yəni Müaviyənin ravilərinə) aiddirlər:

Əbu Hüreyrə, Əmr ibni As, Müğeyrət ibni Şö”bə (bunlar səhabə idilər), Ürvət ibni Zübeyr və başqaları isə tabeinlərdən sayılırdılar.

Əbu Cə”fərdən nəql olunmuş başqa bir rəvayətdə deyilir: Müaviyə İraqa gəldiyi zaman Əbu Hüreyrə də onu müşayiət edirdi. Onlar Kufə məscidinə daxil olduqları zaman böyük insan kütləsi ilə qarşılaşdılar. Əbu Hüreyrə dizləri üstə çöküb başına vura-vura dedi: “Ey İraq camaatı! Yoxsa belə güman edirsiniz ki, Allah və Onun Peyğəmbər(s)-inə yalan qoşmaqla özümü cəhənnəm oduna atıram?! And olsun Allaha ki, Onun Peyğəmbəri (Həzrət Məhəmməd) belə buyurmuşdur:

“Hər peyğəmbərin müqəddəs bir məkanı olmuşdur, mənim də məkanım Mədinədir. Orada fitnə-fəsad törədən şəxsə Allahın, Onun mələklərinin və bütün insanların lə”nəti şamil olar.”

Sonra dedi: Mən Allahı şahid tuturam ki, Əli belə bir iş tutmuşdur!

---

[1] “Qəsəs” surəsi, ayə:56.

Müaviyə Əbu Hüreyrənin bu işindən olduqca razı qaldı və onu Mədinəyə vali (hakim) təyin etdi.

Əbu Hüreyrə bəzən Bəni-Üməyyə münafiq-lərini himayə edərək onların şə”ninə yalan hədislər qoşurdu. Halbuki, Allah və Onun Peyğəmbəri həmin münafiqlərə lə”nət oxumuş və ümmətə onlardan uzaq olmağı əmr etmişdir.

***“Peyğəmbər heç vaxt həvayi-nəfs üzündən danışmır. Onun dedikləri ona ilham olunan vəhydən başqa bir şey deyildir.”***

Əbu Hüreyrə Müaviyənin və camaatın nəzərində xoş təəssürat buraxıb, onların hörmətini qazanmaq üçün hədis nəql etdiyi zaman adətən deyərdi: Allah Peyğəmbərindən bu sözləri eşitdim: “İlahi! Məhəmməd də sair insanlar kimi bir bəşərdir. Bəzən qəzəblənərək kimisə vurmuş, kimisə acıqla təhqir etmişəm. Bütün bunları onların günahlarının kəffarəsi qərar ver (hesab et) və qiyamət günü onlara dərgahında yer ver.”

Mərvan və onun övladları belə yalan hədislərin sayını artırmaq məqsədi ilə Əbu Hüreyrə üçün istədiyi şəraiti yaradıb, uydurulmuş hədislərin islami məmləkətlərdə yayılmasında bütün imkanlardan istifadə edirdilər. İş o yerə çatmışdı ki, “Səhihi sittə[1] kitablarının müəllifləri də bu hədislərdən geniş şəkildə istifadə edərək öz kitablarında onlar üçün xüsusi bab (fəsil) ayırmaqdan belə çəkinməyirdilər.

Onlar Əbu Hüreyrənin məqamını ucaltmaq üçün onu ən təqvalı və ən pəhrizkar səhabə kimi qələmə verirdilər.

Məsələn, əməvi xəlifəsi Mərvan öz katibi Zuəyzəni elə bir yerdə oturdardı ki, onun yanına gələnlər katibi görə bilməyirdilər. Zuəyzə Mərvan ilə görüşən şəxslərin arasında olan söhbətləri olduğu kimi kağız üzərinə köçürərdi. Günlərin biri o, Əbu Hüreyrəni hüzuruna çağırıb ona bir neçə sual verdi. Əbu Hüreyrə cavabında Peyğəmbər(s)-dən hədis nəql etdi Zuəyzə Mərvan ilə Əbu Hüreyrə arasında olan söhbəti olduğu kimi yazıb xəlifəyə təqdim etdi.

Bir ildən sonra Mərvan Əbu Hüreyrəni yenə yanına çağırıb bir il əvvəl ondan soruşduğu sualları yenə təkrar soruşdu. Əbu Hüreyrə bir il əvvəl olduğu kimi, suallara cavab verdi. Mərvan katibinin köməyi ilə Əbu Hüreyrənin səhv və yalan ilə dolu olan cavablarını hədis adı ilə Şamda və sair məntəqələrdə yaymağa başladı. Hakim özünün “Əl-müstədrək” kitabında bu əhvalatı bəyan edərkən Əbu Hüreyrənin hiylələrini ifşa etmişdir.

Başqa bir yerdə deyilir: İmam Həsən Müctəba (ə) vəfat etdiyi zaman səhabələr onu cəddi Peyğəmbər(s)-in qəbrinin yanında dəfn etmək istəyirdi. Amma Mərvan bu işlə tam müxalif idi. O, Əbu Hüreyrəni yanına çağırıb bir çıxış yolu tapmağı istədi. Əbu Hüreyrə də nəyin bahasına olursa olsun, Mərvanın

---

[1] “Sihahi-sittə sünnü məzhəblərinin ən mötəbər sayılan altı hədis kitablarıdır.

məqamını ucaltmağa, onu Allah dininin qoruyucusu və Peyğəmbər(s)-in ən yaxın səhabələrindən biri kimi tanıtdırmağa ciddi cəhd edirdi.

Mərvan müxtəlif yalan hədislərə əsaslanaraq onu Təlhə, Zübeyr, Osman, Əli və Ömər kimi məşhur səhabələrlə eyni səviyyədə tutardı.

Əbu Hüreyrə Mərvanın məqamını ucaldır, o da öz növbəsində Əbu Hüreyrəyə böyük ən"amlar verərək onun üçün lazımı olan şəraiti tez bir zamanda hazır edirdi.

***"Vay o şəxslərin halına ki, öz əlləri ilə istədikləri kimi kitab yazıb sonra onun müqabilində bir az pul almaqdan ötrü "bu Allah tərəfidəndir!" deyirlər. öz əlləri ilə (təhrif olunmuş kitab) yazdıqlarına görə vay onların halına! Qazandıqları şey üçün vay onların halına."***[1]

## *ƏBU HÜREYRƏ TƏRƏFİNDƏN NƏQL OLUNMUŞ HƏDİSLƏRİN MİQDARI*

"Əl-isabə adlı kitabda Əbu Hüreyrənin tərcümeyi-halı geniş surətdə dərc edilmişdir. Oradan belə məlum olur ki, Əbu Hüreyrə səhabələr arasında ən çox hədis və rəvayət nəql edən şəxs olmuşdur.

Onun nəql etdiyi hədislərin sayı 5370-ə çatır. Təkcə "Səhihi-Buxari"də ondan 446 hədis nəql olunmuşdur. İlk dörd xəlifənin (Əbu Bəkr, Ömər, Osman və Əli (ə)) Peyğəmbərdən nəql etdiyi hədislər Əbu Hüreyrənin nəql etdiyi hədislərin yalnız 25 faizini təşkil edir. Yəni Əbu Bəkr Peyğəmbərdən 142, Ömər 537, Osman 146 və Əli (ə) 586 hədis (ümumən 1411) nəql etmişlər. Təkcə Əbu Hüreyrə isə Peyğəmbərdən 5374 hədis nəql etmişdir. Göründüyü kimi, 1411-5374-in yalnız 25 faizini təşkil edir.

Bir anlıq əshabın (xüsusilə, bu dörd xəlifənin) həyat tərzinə nəzər salaq. Onlar islam dininin zühur etdiyi ilk günlərdən əzablı və məşəqqətli həyat tərzi keçirmiş və illər boyu küfr ilə mübarizə etmişlər. Bu dörd səhabə 52 il ərzində Allah qarşısında böyük imtahan verib ən ağır şəraitdə imanlarını qoruyub saxlaya bilmişlər. Onlar iyirmi üç il Allah Peyğəmbəri(s)-nə xidmət etmiş və onun vəfatından sonra iyirmi doqquz il hakimiyyətdə olaraq dövlət işlərində fəaliyyət göstərmiş və islam dininin yayılmasında böyük rol oyna-mışlar. Allah-təala "Qeysər" və "Kəsra" mülklərini (İran və Roma imperatorluqlarını) onların əli ilə fəth etdi. Onların xilafəti dövründə bir çox ölkələr islamı qəbul etdi və Peyğəmbər(s)-in sünnəti bu ölkələrdə geniş surətdə yayılmağa başladı.

Bəs necə ola bilir ki, Əbu Hüreyrənin nəql etdiyi hədislər Peyğəmbər(s)-ə hamıdan yaxın olan bu dörd səhabənin nəql etdiyi hədislərdən çoxluq təşkil edir?

Bu suala hədis alimləri və nəzər sahibləri cavab verməlidirlər!

---

[1] "Bəqərə" surəsi, ayə:7.

Peyğəmbər(s)-in həyat yoldaşı Ayişə hədis nəql etməkdə bir çoxlarını üstələmişdi, amma bununla belə o, Əbu Hüreyrənin nəql etdiyi hədislərin yarısını belə nəql edə bilməmişdir. Bunu da qeyd etmək lazımdır ki, Ayişə Əbu Hüreyrə islamı qəbul etməzdən on il əvvəl Peyğəmbər(s)-ə ərə getmiş və 14 il vəhyin nazil olduğu, başqa sözlə desək, Cəbrayıl və Mikayıl(ə)-ın gəlib getdikləri bir yerdə yaşayırdı və o, Əbu Hüreyrədən sonra vəfat etmişdir.[1]

1-İbni Əbu Əkbər "Əl-İstiy"ab" adlı kitabda İbni Şilabdan nəql edərək yazır: Allah Peyğəmbəri (s) besətin onuncu ilində hicrətdən üç il əvvəl şəvval ayında Ayişə ilə əqd bağladı və hicrətdən 18 ay keçəndən sonra, şəvval ayında Mədinədə onu öz evinə gəlin apardı.

Deməli onun Peyğəmbər (s) ilə ailə qurması Əbu Hüreyrənin islamı qəbul etməsindən on il əvvəl baş vermişdir.

Hicrətin ilində Ramazan ayının 17-də Əbu Hüreyrədən bir neçə gün sonra vəfat etmişdir. Müaviyə tərəfindən Mədinəyə vali təyin olunmuş Vəlid ibni Utbətibni Əbi Süfyan göstəriş verdi, Əbu Hüreyrə Ayişə üçün meyyit namazı qıldı. Onlar da Əbu Hüreyrəyə ehtiram əlaməti olaraq (vəfatından sonra) onu "Bəqi" qəbiristanlığında dəfn etdilər.

Ayişənin zirəkliyi və dərrakəsi hamıya məlumdur. O, zəmanəsinin ən dərrakəli və ən zirək şəxsi idi. Onun qəlbi Peyğəmbər(s)-ə, qulaqlarından daha yaxın idi. O hər bir münasibətə uyğun gözəl məzmunlu və geniş mənalı şer yazar və onu başqaları üçün oxuyardı.

Urvədən nəql olunmuş bir rəvayətdə deyilir:

"Fiqh, təbabət, şer elmlərində. Ayişədən bilici ikinci bir şəxs görmədim."

Məşhur ravi Məsruq isə deyir: "Peyğəmbər(s)-in məşhur səhabələrinin arasında hamıdan bilikli və hazırcavab bir qadın gördüm. Hamı ondan müxtəlif mövzularda sual soruşur, o da onlara qane edici cavablar verirdi."

Onun mübəlliğləri hər tərəfə (xüsusilə Bəsrəyə) yayılıb şəri hökmləri yerli əhaliyə öyrədirdilər. Amma bütün bunlara baxmayaraq onun nəql etdiyi hədislərin sayı iki min iki yüz ondan artıq olmamışdır. Göründüyü kimi bu miqdar, Əbu Hüreyrənin nəql etdiyi hədislərin hətta yarısını belə təşkil etmir.

Ümmü Sələmə və həzrət Fatimə(ə)-ın nəql etdikləri hədisləri Ayişə və dörd xəlifədən nəql olunmuş hədislərə əlavə etsək, onların cəmi Əbu Hüreyrənin hədis məcmuəsindən yenə azlıq təşkil edəcəkdir. Qəribə hal burasındadır ki, Əbu Hüreyrə daim elə güman edirdi ki, Peyğəmbər bəzi hədisləri yalnız ona

[1] Məlum məsələdir ki, Peyğəmbərlə birlikdə yaşayan və onunla hamıdan çox həmsöhbət olan şəxs Əbu Hüreyrə deyil, məhz Ayişə olmuşdur. Bəs Peyğəmbərin buyurduqlarını daha yaxşı dərk edən kim olmuşdur: Ayişə, yoxsa Əbu Hüreyrə?

nəql etmiş və ondan savayı bir başqasına söyləməmişdir. O özünü böyük elm mənbəyi və Peyğəmbər(s)-dən nəql olunmuş hədislərin xəzinəsi təsəvvür edirdi. Bildiyiniz kimi, Əbu Hüreyrə çox sirr saxlayan və qapalı insan olmuşdur. Bu haqda o özü belə deyir:

1-Mən Həzrəti Peyğəmbərdən iki hədis xəzinəsi əxz etmişəm. Onlardan birini hamıya bəyan edər, digərini isə kimsəyə nəql etmədən sinəmdə gizli saxlayıram. Əgər bu gizli hədisləri kimsəyə nəql etsəm, dərhal boğazımı üzərlər.

2-Əgər bildiklərimin hamısını sizlərə bəyan etsəm camaat məni daş-qalaq edərək dəli hesab edərlər.

3-Əgər bildiklərimin hamısını sizlərə bəyan etsəm məni qırmancla vuraraq özünüzdən uzaqlaşdırarsınız.

4-Deyirlər: Ey Əbu Hüreyrə, nə çox danışırsan! Dedi: And olsun Allaha, əgər Peyğəmbər(s)-dən eşitdiklərimin hamısını sizlərə bəyan etsəm mənim başıma qapaz vuraraq özünüzdən uzaqlaşdırmaq istəyərsiniz.

5-Allah Peyğəmbərindən elə şeylər eşitdim ki, əgər indi onları sizə nəql etsəm məni daş-qalaq edərsiniz.

6-Allah Peyğəmbərindən (s) beş kisə (görünür, bu, Əbu Hüreyrəyə xas olan ölçü vahidi olmuşdur) hədis eşitdim. Onlardan yalnız iki kisəsini sizlər üçün nəql edirəm. Əgər qalanını da sizlərə nəql etsəm məni daş-qalaq edərsiniz.

Əbu Hüreyrə Peyğəmbər(s)-in nə vəliəhdi, nə də canişini olmamışdır. Çünki əgər Peyğəmbər (s) belə bir şey söyləsəydi, yalnız bu şəxslərə söyləyərdi. Deməli Əbu Hüreyrənin bu iddiası batil və əsassızdır.

Yoxsa Əbu Hüreyrə elə bir məqama çatmışdı ki, Peyğəmbər (s) ən yaxın səhabələrə söyləmədiyi şeyləri tək ona bəyan edirdi? Bu necə sirr idi ki, Peyğəmbər (s) o hədisləri öz əhli-əyalından (ailə üzvlərindən) gizli saxlayıb tək Əbu Hüreyrəyə bəyan etmişdir? Təbiidir ki, onlar Peyğəmbər(s)-ə hamıdan daha yaxın və daha əziz idilər. Çünki, onlar Peyğəmbər(s)-ə hamıdan tez iman gətirmiş və islam dininin yayılmasında böyük fədakarlıq göstərmişlər. Digər tərəfdən isə bəzi hədisləri tək Əbu Hüreyrəyə deyib başqa-larından gizli saxlamaq Peyğəmbər sünnətindən uzaq bir iş olardı.

Əgər o hədislər Əbu Hüreyrənin "sirli qəlbində qalacaqdırsa (və onun xeyri bir kəsə dəyməyəcəkdirsə) onu belə insana nəql etməyə dəyərdimi? Bir qədər əvvəl qeyd etdik ki, islamı Əbu Hüreyrədən əvvəl qəbul etmiş səhabələr Peyğəmbər (s) üçün hamıdan əziz və hamıdan əhəmiyyətli idi. O bütün müşkül məsələlərini onlar ilə həll edər və mühüm işlərdə onlarla məşvərət edərdi. Necə ki, Qur"ani Kərimdə bu haqda deyilir:

***"Bir də öndə olanlar, öndə olanlar! Bunlar Allaha və Onun Peyğəmbərinə hamıdan qabaq iman gətirənlərdir; yaxşı əməllər etməkdə hamını ötüb keçən, ömürlərini Allaha ibadətlə həsr edən, var-dövlətlərini isə Allah yolunda xərcləyən kimsələrdir. Onlar dünyada yaxşı işlər görməkdə hamıdan öndə***

***olduqları kimi, qiyamət günündə Allahın lütf və mərhəmətinə hamıdan qabaq nail olacaqlar."***

Cənnətin ən yüksək təbəqələri onlara məxsusdur. Mühacirlər və ənsar bu zümrəyə daxildir. Onlar necə də xoşbəxtdirlər! Bunlar (Allah dərgahına, Allahın lütfünə və mərhəmətinə) yaxın olanlardır.[1]

Bəzən də özü haqda deyərdi: "Əbu Hüreyrə kimsədən bir şey gizlətməyir və kağız (dəri) üzərinə heç nə yazmayır." Göründüyü kimi onun bu sözü bir qədər əvvəl dediyi **"**Mən Peyğəmbər(s)-dən iki hədis xəzinəsi əxz etmişəm (almışam). Onlardan birini hamıya bəyan edər, digərini isə kimsəyə nəql etmədən özümdə saxlaram. Əgər bu gizli hədisləri bir kəsə bəyan etsəm dərhal boynumu üzərlər**"** sözləri ilə tamamilə ziddir.

Biz üzümüzü bu barədə təhqiqat aparan şəxslərə tutub onlardan soruşuruq: Əbu Hüreyrənin gizli saxladığı sirlər Peyğəmbər(s)-in (xilafətlə bağlılığı olan) öz vəsisinə (nümayəndəsinə) tapşırdığı sirlər ilə əlaqədar idi, yoxsa digər məsələlər ilə?

Əgər xilafətə aid olubsa Əbu Hüreyrə onu gizli saxlamaqda çox böyük bir səhvə yol vermiş olur. Çünki Peyğəmbər(s)-dən sonra xilafət uğrunda böyük ixtilaflar meydana çıxdı və onun elə bir vaxtda hamıya bəyan etməsi zəruri idi. Əgər canının qorxusundan bunu gizli saxlayıbsa yenə də ona bəraət qazandırmaq olmaz. Çünki özünü islam uğrunda fəaliyyətlərini o qədər tərif edən şəxs özü haqqında bir an belə düşünməməli idi.

Məgər bu, Əbu Hüreyrənin dediyi sözlər deyildimi:

"Peyğəmbər (s) sübh namazını yatıb yuxuya qaldığı üçün qəza etdi."

"Şeytan onu namazdan ayırmaq üçün ibadətlə məşğul olarkən yanına gəlir."

"Peyğəmbər (s) dörd rükətli namazı iki rükət qıldı. Ondan "namazı qısa (şikəstə) qıldın, ya unutdun?" deyə soruşduqda, cavab verir: Nə unutdum, nə də qısa qıldım."

"Peyğəmbər (s) qəzəbləndiyi zaman günahsız şəxsləri döyər, təhqir edər və onlara lə"nət oxuyardı."

Onun Peyğəmbər (s) haqqında dediklərini nə ağıl qəbul edir, nə də şəriət.

Başqa bir yerdə Əbu Hüreyrə Peyğəmbər(s)-dən belə bir (yanlış) hədis nəql edir:

"Biz şəkk-şübhə etməkdə İbrahim(ə)-dan daha haqlıyıq." Başqa bir hədisdə Lut(ə)-ın imanının az olduğunu bəyan edir.

O həmçinin Adəm, Nuh, İbrahim, Musa və İsa (ə) haqqında da nalayiq sözlər deyib onların Peyğəmbər(s)-dən nəql olunduğunu iddia edərdi.

Məsələn həzrəti Musa (ə) haqqında belə deyir.

---

[1] "Vaqiə" surəsi, ayə:10-11

“Əzrayıl Musa (ə) Kəlimullahın canını almağa gələrkən Musa onun üzünə elə bir sillə vurur ki, zərbənin şiddətindən gözünün biri kor olur.”
“Musa (ə) lüt halda Bəni-İsrailin yanına gəlir və onlar onun övrətinə baxaraq məsxərə edirlər.”
“Həzrəti Süleyman(ə)-ı atası Davud(ə)-ın əmrindən çıxmaqda günahlandırmışdır. Çünki o, “inşallah” demədiyi üçün işləri tamamilə alt-üst olmuşdu.” O, peyğəmbərlər ilə kifayətlənməyib, Allah-Təala haqqında da bir neçə (yalanla dolu) hədis nəql etmişdir: O cümlədən:
1-”Allah ayağını cəhənnəmin ortasına qoymayınca, ora dolmayacaqdır.”
2-”Allah özünü insanların tanımadıqları surətdə salıb onlara deyər: Mən sizin Allahınızam. Onlar inkar edərək deyərlər: Səndən öz Allahımıza pənah aparırıq.” Allah-təala sonra özünün həqiqi surətinə çevrilərək onlara zahir olar (yəni görünər), təəccüblə soruşarlar: Sənsənmi bizim Allahımız?”
3-”İnsan Rəhman (Allah) surətində yaradılmışdır.”
4-”Allah-təala Adəmi öz surətində yaratdı. Onun uzunluğu altmış zira (otuz metr), eni yeddi zira (2,5 metr) idi!”

Bu sözlərə görə insanın boğazını üzsələr, yenə də azdır. Necə olur ki, dinə, Xaliqə, ümmətə bu qədər iftira atan və onların boynuna minnət qoyan bir şəxs daş-qalaq olunmayır və şallaqlanmayır?!

Əcəb insafsız bir ümmətin əlində giriftar olmuşuq!

***“Allah tərəfindən gəlmişik və axır dönüş Onun hüzurunadır.”***

Təhqiqatçılar bu mətləbə diqqət yetirməmişdirlər ki, Əbu Hüreyrə özü haqqında bəzən belə məlumat vermişdir: “Səhabələrdən Abdullah ibni Ömər və ibni Asdan başqa heç kim Həzrəti Məhəmməddən məndən çox hədis nəql etməmişdir. Çünki onlar nəql etdikləri hədisləri yazır, mən isə yazmırdım.”

O, Abdullahın ondan çox hədis nəql etdiyini iddia edir, halbuki, ondan bizlərə yeddi yüzə yaxın hədis gəlib çatmışdır və göründüyü kimi, onun nəql etdiyi hədislər Əbu Hüreyrənin nəql etdiyi hədislərin heç səkkizdə birini təşkil etməyir.

Deməli Əbu Hüreyrəni müdafiə edən alimlərə heç bir bəhanə yeri qalmayır. Amma İbni Həcər Qəstəlani və Şeyx Zəkəriyya Ənsari bu hədisi şərh edərkən belə bir bəhanəyə əl atırlar:

Abdullah ibni Ömər və ibni As Misirdə yaşadıqları üçün onlara müraciət edən şəxslər Mədinədə sakin olan Əbu Hüreyrəyə müraciət edənlərlə müqayisədə olduqca az idi. Bu səbəbdən də ondan bizə gəlib çatan hədislər azlıq təşkil edir. Amma Əbu Hüreyrə bunu etiraf etdiyi bir halda daha heç bir bəhanəyə yer qalmayır: “Abdullahdan başqa heç kim mənim qədər hədis nəql etməmişdir.”

“İrşadus-sari” və “Töhfətul-Bari” adlı kitablarda bu hədis belə şərh edilir:

“Abdullah ibni Ömərdən nəql olunmuş hədislər mənim nəql etdiyim hədislərdən daha çoxdur.” Əbu Hüreyrə bir həqiqəti etiraf etdiyi halda, daha

başqaları nə üçün canfəşanlıq edib onu müxtəlif bəhanələrlə müdafiə etməyə çalışırlar?
Abdullah Misirdə yaşadığı zaman oranın ən savadlı və ən hörmətli şəxslərindən biri hesab olunurdu və Misrin əhalisi şəriətə, Qur"ana və sünnətə dair sualları çox vaxt ondan soruşurdu.

Əbu Hüreyrə əshabın çox olduğu bir yerdə (Mədinədə), Abdullah isə xilafətdən uzaq bir yerdə (Misirdə) yaşayırdı. Göründüyü kimi, bu iki şəxsin arasında istər məqam və şan-şöhrət, istərsə də elm baxımından böyük fərq olmuşdur.

Camaat qarşılaşdıqları (şəri, ictimai, siyasi) məsələlərdə məşhur səhabələrə üz tutar və öz çətinliklərini onların vasitəsi ilə həll edərdilər. O ki, qaldı Əbu Hüreyrəyə, o məşhur səhabələrin sırasında olmaqla yanaşı, camaatın nəzərində mənfi obraz yaratmışdı. Mədinə camaatı onu Peyğəmbər(s)-in adından sui-istifadə edərək yalan hədislər uydurmaqda müttəhim edirdilər.Onlar Əbu Hüreyrəyə irad tutaraq deyirdilər:

Nə üçün ənsar və mühacirlər sənin söylədiklərini deməyirlər?

Bu məntiqə əsasən Əbu Hüreyrənin nəql etdiyi hədislərin sayı başqaları ilə müqayisə etdikdə azlıq təşkil etməli idi. Digər tərəfdən özünün etiraf etməsi və Abdullahın ondan çox yaşaması istər-istəməz Əbu Hüreyrənin nəql etdiyi hədislərin doğruluğuna şəkk və şübhə yaradır.

Əbu Hüreyrə bu sözləri işin əvvəllərində, yəni hədis nəql etməyə və ya daha dəqiq desək, hədis uydurmağa təzə başladığı zaman demişdir. Məlum olduğu kimi, o, öz fəaliyyətinə Müaviyənin zamanında başlamışdır. Elə bir vaxtda ki, Əbu Hüreyrə kimi ünsürlərə qarşı mübarizə aparan Əbu Bəkr və Əli (ə) artıq vəfat etmiş və mərkəzi xilafətdə (hakimiyyətdə) süstlük və qətiyyətsizlik yaranmışdı.
Növbəti fəsillərdə, yenidən bu mövzuya qayıdacağıq. İnşallah!

## *ON BİRİNCİ FƏSİL*

## *Əbu Hüreyrənin nəql etdiyi hədislər:*

### KEYFİYYƏTİ

Hədis elminə xas olan zövq Əbu Hüreyrənin nəql etdiyi hədislərin bir çoxunu qətiyyətlə rədd edir, əqli və nəqli meyarlar da bu hədislərin əksəriyyətini təsdiqləməyir. Dediklərimizi sübuta yetirmək üçün Əbu Hüreyrənin nəql etdiyi hədislərdən qırxını misal üçün siz oxuculara təqdim edirik.

Sizdən artıq dərəcədə xahiş edirik ki, bütün təəssüb və qərəzli fikirləri kənara qoyub azad və sərbəst götür-qoy edəsiniz və özünüz yetgin bir nəticəyə gəlib ədalətli hökm çıxarasınız.

## *1-ci hədis*

### *Allah-təalanın surəti: O, insanı özü kimi yaratdı*

Buxari və Müslüm[1] Əbdürrəzzaqdan, o da Müəmmərdən, o da Həmran ibni Münəbbəhdən, o da Əbu Hüreyrədən və o da Peyğəmbər (s)-dən nəql etdiyi hədisdə deyir:

"Allah insanı, özü kimi, altmış zira uzunluğunda yaratdı."

Əhməd özünün "İrşadus-sari" adlı kitabında[2] bu hədisi olduğu kimi qeyd etmiş və "eni yeddi zira" kəlməsini ona əlavə etmişdir.

Hədisin ardında deyilir: Onu yaratdıqdan sonra dedi: Get, orada yığılmış mələklərə salam söylə. Onlardan aldığın cavab sənin və ümmətinin bir-birləri ilə salamlaşmağı olacaqdır. İnsan (Adəm) onlara yaxınlaşıb dedi: "Səlamun ələykum". Mələklər cavab verdilər: "Səlamun ələykum və rəhmətullah" Və "və rəhmətullah" sözünü Adəm(ə)-ın salamına artırdılar. Behişdə daxil olan hər bir kəsin uzunluğu Adəm (ə) kimi altmış zira olacaqdır. O zamanlar bütün insanların boyu altmış zira idi, amma zaman keçdikcə qısalaraq hal-hazırkı vəziyyətə gəlib çıxmışdır.

Bu sözləri nə Həzrəti Məhəmməd(s)-ə, nə də digər peyğəmbərlərə aid etmək olmaz. Bəlkə də Əbu Hüreyrə bu hədisi həmkarı Kə"bul Əhbar ilə (və ya başqaları ilə) birlikdə yəhudi mənbələrindən götürmüşlər. Çünki bu hədis yəhudilərin "Əs-hah"ının (Əhdi qədim) 27-ci bölümündə olduğu kimi zikr edilmişdir. Orada deyilir:

***"Allah insanı öz surətində yaratdı. Kişi və qadın-hər ikisi Onun kimidirlər."***

Allah insanların təsəvvür etdikləri surət və quruluşdan uzaq və müqəddəsdir:

***"Allah onların dediklərindən çox uca və çox yüksəkdir."***[3]

Ola bilsin bəziləri bu hədisi "surətihi" (onun öz surəti) kəlməsindəki "o" şəxs əvəzliyini Adəmə (ə) aid etməklə başqa bir qayda ilə mənalandırmış olsunlar. Belə olduqda isə hədisin mənası tamamilə dəyişilir.

"Allah Adəm (ə)-ı altmış zira hündür-lüyündə və yeddi zira enində xəlq etdi.Onun yaradılışı sair insanlar kimi olmadı yəni əvvəl nütfə (sperma), sonra ələqə (laxtalanmış qan), muzğə (ət parçası) və daha sonra ətlə örtülmüş sümük mərhələlərini keçmədən, ani bir halda Allahın əmri ilə yarandı."

---

[1] "Səhihi-Buxari", 4-cü cild, səh.57; "Səhihi-Müslüm", 2-ci cild, səh.481; "Kitabul-Cənnəti və Nəimuha" "Behiştə o kəslər daxil olacaq ki, qəlbləri quş qəlbi kimi olsun"-fəsli; Həmçinin Əhməd ibni Hənbəl, "Əl-Müsnəd", 2-ci cild, səh.315;

[2] 1-ci cild, səh. 90 "Yaradılış" babı

[3] "İsra" surəsi, ayə:43

Əbu Hüreyrədən bu məzmunda digər hədislər nəql olunmasaydı (surətihi) kəlməsindəki (o) şəxs əvəzliyini Adəm(ə)-a aid etmək olardı.

Digər misal:

1- “İnsan Rəhman surətində yaradılmışdır.

2-Hədisdə deyilir: Həzrəti Musa (ə) əsanı qayaya vurdu və oradan su çıxdı. Sonra üzünü Bəni-İsrail camaatına tutub dedi: Ey eşşək camaat! İçin sudan. Vəhy gəldi: Ey Musa! öz surətimdə xəlq etdiyim insanlarımı uzunqulağa oxşadırsan?!

Bu hədisi bütün sünnü alimləri öz kitablarında (cüz”i fərqlərlə) qeyd etmişlər. Demək Əbu Hüreyrənin məqsədi Adəm (ə) deyil, Allah-təalanın üzüdür və buna daha heç cür bəraət qazandırmaq olmaz. Bu hədisə verilən başqa bir şərhdə deyilir: “Allah insanı öz surətində yaratmışdır.” və “Onları öz surətimdə yaratdım” cümlələrindən məqsəd budur ki, Allah-təala Adəmi və onun nəslini öz surətində yaratdı, çünki Allah-təala insanı özü kimi eşidən, danışan, görən, bilən və sair müştərək sifətlərdə yaratmışdır.

Əbu Hüreyrə, nəql etdiyi hədislərin bəzilərində müxtəlif ləfzlərdən istifadə etdiyi üçün onu müdafiə edən bəzi təəssübkeş “alimlər” həzər etdikləri şeyə (yəni müxtəlif mənalı söz və ibarətlərə) düçar oldular və indinin özündə də bu məsələni həll etməyə çətinlik çəkirlər. Əbu Hüreyrənin savadsızlıq üzündən gördüyü bu iş nəql etdiyi hədislərin daha da qəlizləşməsinə və mübhəmləşməsinə səbəb oldu. Məsələn:

1-Bundan əvvəl zikr olunan hədis.

2-”Sizlərdən biriniz öz qardaşlarınız (yoldaşlarınız) ilə dava etdiyiniz zaman onun üzünə qarşı durmayın (ona etiraz etməyin), çünki Allah Adəm(ə)-ı öz surətində xəlq etmişdir.”

3-”Biriniz digərinə həmlə etdiyiniz zaman rəqibinizin üzünə sillə vurmayın və “Allah üzünü qara etsin” kəlməsini ona deməyin. Çünki Allah insanın surətini (üz quruluşunu) öz surəti kimi yaratmışdır.” (Buxari, Əl-Ədəbul Mufrəd).

Bu əqidə (yəni insanın sifət quruluşunun Allah-təalaya oxşaması) tənzih alimləri tərəfindən batil hesab olunur. O ki qaldı bizlərə, (yəni Əhli-beyt davamçılarına) biz inanırıq ki, Allahın (materiya olmadığı üçün xarici görünüş baxımından) insanla oxşarlığı ola bilməz. Bizim bu etiqadımız yalnız Allah-təalanın sifət və zatını eyniyyətləndirir.

Tənzih alimləri Əbu Hüreyrə kimi şəxslərin əqidəsi ilə razılaşa bilmədikləri üçün naçar qalıb hədisi başqa yollar ilə yozmuşlar. Onlar bu batil əqidə meydana çıxarkən süstlük göstərərək öz etirazlarını kimsəyə bəyan etməmişlər və bu səbəbdən də hal-hazırda sünnət alimləri qarşısında dəlilsiz və cavabsız qalmışlar. Belə ki, “Səhiheyn”in “Səhihi-Müslüm” və “Səhihi-Buxari” müəllifləri bu hədisin şərhində deyirlər: “Hər şeyə alim olan Allah özü yaxşı bilir ki, bu hədislərdən məqsəd nədir!”

4-İmam Nüvəvi bu barədə deyir: “Bəzi alimlər belə hədislərin şərhini verməkdən çəkinirlər. Biz üzümüzü onlara tutub deyirik: “Biz o hədislərin həqiqiliyinə artıq yəqinlik hasil etdik.”
Onun batil mənaları zahiri mənalarından daha çox əhəmiyyət kəsb edir (və oxucu buna xüsusi diqqət yetirməlidir):
1-Uzunluğu altmış zira olan bir insanın eni yeddi zira yox, on yeddi tam onda bir zira olmalıdır. Eni yeddi zira olan insanın uzunluğu isə altmış zira yox, iyirmi dörd tam onda beş zira olmalıdır.
Çünki adi bir insanın uzunluğu eni ilə münasib, yəni uzunluğu yeddi tam onda iki olmalıdır. Buradan bir neçə sual meydana çıxır: Bəs nə üçün Əbu Hüreyrə Adəm(ə)-ın uzunluğunu altmış, enini isə yeddi zira qeyd etmişdir? Onun bədən quruluşu bu qədər eybəcər olsaydı Allah-təala onu Qur”ani kərimdə belə vəsf edərdimi?!
***“Biz insanı ən gözəl biçimdə yaratdıq.”***
2-Məlum olduğu kimi salamlaşmağın əsası İslam dinində qoyulmuşdur. Bu barədə bir neçə mötəbər hədis və rəvayət vardır. Peyğəmbər(s)-dən nəql olunmuş hədislərdən birində deyilir: “Yəhudilər sizin salamlaşmağınıza hamıdan çox həsəd aparırlar.”
Göründüyü kimi “salamlaşmaq” ilk gündən islam ümmətinə aid olmuşdur. Əbu Hüreyrə bunları bilə-bilə belə bir hədis uydurmaqda nəyi nəzərdə tutmuşdu? Onu bir Allah bilir!
Əbu Hereyrə həm də deyir: Allah-təala Adəm(ə)-ı yaratdıqdan sonra ona dedi: “Get, mələklərə salam söylə, onlardan aldığın cavab sənin və ümmətinin salamlaşmağı olacaqdır.”

## *2-ci hədis*

### *Allah-təala qiyamət günü (Məhşərdə) müxtəlif surətlərdə görünəcəkdir*

Müslüm və Buxari bu hədisi Əbu Hüreyrədən nəql edirlər. Hədisdə deyilir:
Müsəlmanlardan bir dəstə Həzrəti Peyğəmbər(s)-in yanına gəlib soruşur: Ya Rəsuləllah! Qiyamət günü biz Allahı görə biləcəyikmi?
Buyurdu: Günün qarşısında maneə (məsələn, bulud) olmadığı zaman onu görməkdə çətinlik çəkirsinizmi? Cavab verdilər: Xeyir! Buyurdu: Buludsuz və dumansız, saf bir gecədə 14 geçəlik ayı görməkdə çətinlik çəkirsinizmi? Cavab verdilər: Xeyr. Peyğəmbər (s) buyurdu: Qiyamət günündə Allahı, ayı və günəşi görə bildiyiniz kimi görəcəksiniz. O gün Allah-təala insanları bir yerə toplayacaqdır. Onlardan hər biri (dünyada) ibadət etdikləri əşyaların arxasında duracaqlar. Günəş pərəstlər günəşin, ay pərəstlər ayın və s. Zalimlər isə dünyada fitnə-fəsad törədən sitəmkarların arxasında durarlar. Bu dəstə münafiqlər (iki üzlülər) ilə birlikdə başqalarından (ayrılmaq üçün) kənarda durarlar. Allah-təala

insanların onu tanımadıqları bir şəklə düşüb özünü onlara zahir edib deyər: Mənəm sizin Allahınız! Onlar cavab verərlər: Səndən öz Rəbbimizə pənah aparırıq! Biz Onu lap yaxşı tanıyırıq, burada oturub Onun gəlişini gözləyəcəyik.

Sonra Allah-təala özünü, onların tanıdıqları bir şəklə salıb yenidən onların gözləri önündə canlanar və deyər: Mənəm sizin Allahınız! Onlar bunu görüb dərhal deyərlər: Bəli, Sənsən bizim Rəbbimiz. Sonra onun ardınca gedərlər. Cəhənnəm üzərinə körpü qoyular və oradan hamıdan əvvəl mən keçərəm. Peyğəmbərlər o gün belə dua edərlər: "İlahi! özün bizləri qoru. özün!"

Bilin ki, cəhənnəmdə muğilan (xurma ağacının tikanları) mövcuddur. Onun uzunluğu Allahdan başqa kimsəyə məlum deyildir. O gün (qiyamət günü) insanlardan iki cür hesabat (sorğu-sual) aparılacaqdır. Onlardan bir dəstə dərhal həlak olar, digərləri isə tikə-tikə doğranaraq cəhənnəm alovuna atılarlar (və bir müddətdən sonra oradan nicat taparlar). Allah öz bəndələrini mühakimə etdikdən sonra mələklərə əmr edir ki, (dünyada yalnız) Ona ibadət və pərəstiş etmiş möminləri alınlarındakı səcdə (möhür) yeri ilə ayırd edib cəhənnəm odundan nicat versinlər. Onlar cəhənnəm odundan çıxarılarkən bədənlərinin ətləri sümüklərindən ayrılaraq tökülməyə başlayar. Cənnətə aparılmaq üçün onların üzlərinə həyat suyu səpilər və onların bədənləri (ətlə sümüklər) yenidən birləşməyə başlayar. Orada yalnız bir nəfər qalar. O da cəhənnəmin üfunətli iyindən cana gəlib deyər: İlahi, bu dözülməz iy və bu qaynar məkan mənə çox əzab verir, özün mənə nicat ver.

Allah-təala deyər: Əgər istədiyini yerinə yetirsəm, sonra başqa şeylər də istəyəcəksən.

Deyər: And olsun Sənin izzət və cəlalına, bundan savayı Səndən heç bir şey istəməyəcəyəm.

Allah üzünü cəhənnəm alovundan çevirər və həmin şəxs oradan nicat tapar. İnsanları cənnətdə görüb deyər: İlahi! Məni cənnətə yaxınlaşdır.

Allah-təala deyər: Məgər demədin ki, başqa bir şey istəməyəcəgsən? Vay sənin halına, ey Adəm övladı, sən nə qədər də yalançı və hiyləgərsən!

Amma o, öz istəyini hey təkrar edir vö gördüklərinə nail olmayınca əl çəkməyirdi. Allah-təala deyər: Sənin bu istəyini də yerinə yetirsəm, başqa bir şey istəyəcəksən?

O deyər: And olsun Sənin izzət və cəlalına, bundan savayı daha Səndən başqa bir şey istəməyəcəyəm.

O, Allah-təala ilə buna dair əhd-peyman bağlayır və daha heç nə istəməyəcəyinə söz verir. Allah-təala ondan əhd-peyman aldıqdan sonra onu cənnətin qapısına yaxınlaşdırar. O, qapıya yaxınlaşıb bir qədər sakit durar və həsrətlə cənnətə baxar. Çox keçməz ki, yenə yalvarmağa başlayar: İlahi! Məni də öz cənnətinə daxil et.

Allah-təala deyər: Vay sənin halına, ey Adəm övladı! Sən nə qədər tüğyançı və zülmkarsan. Məgər Mənimlə daha bir şey istəməyəcəyinə dair əhd-peyman bağlamadınmı?
O deyər:
İlahi! Məni hər şeydən məhrum olmuş bəndələrindən qərar vermə. O hey yalvarar və istəyini dönə-dönə təkrar edər. O qədər yalvarar ki, Allahı gülmək tutub onun cənnətə daxil olmasına icazə verər. Cənnətə daxil olandan sonra ona deyərlər: Allahdan bir şey istə. O da istəyər, Allah-təala da onun istəyini yerinə yetirər. Sonra yenə deyərlər: Bir də istə. O hər dəfə Allah-təaladan bir şey istəyər. Allah-təala da onun bütün istəklərini yerinə yetirər. İstək və arzuları sona çatdıqda Allah-təala ona deyər: "İstədiklərinin iki bərabərini sənə əta edəcəyəm."
Müslüm bu hədisi azaçıq fərqlə və başqa bir sənədə isnad edərək nəql etmişdir. Orada deyilir:
"Allah-təala qiyamət günü xeyirxah və günahkar insanların gözünə tanımadıqları bir surətdə görünüb deyər: Mənəm sizin Rəbbiniz.
Onlar deyərlər: Səndən Allaha pənah aparırıq! Allah-təala onlardan soruşar: Siz onu hər hansısa bir əlamətləmi tanıyırsınız?
Cavab verərlər: O öz ayağını bizə göstərərdi. O, belə etdikdə hamı onun müqabilində səcdə edər. Onlardan xalisanə səcdə etməyənlərin üz və arxaları yerlə eyni olar. Onlar bu halda səcdə etmək istəyərlər, amma arxası üstə yıxılıb səcdələrini yerinə yetirə bilməzlər. Sonra səcdədən qalxıb Allahı əvvəlki tanıdıqları şəkildə (surətdə) görərlər.
Allah-təala onlara xitab edərək deyər: Mənəm sizin Rəbbiniz!
Onlar cavab verərlər: Bəli! Sənsən bizim Rəbbimiz!
Sonra cəhənnəm üzərinə körpü qoyular...... (hədisin sonuna qədər).
Bu hədisin həcmi çox böyükdür, amma Buxari öz kitabında "Nur" surəsini təfsir edərkən onu müxtəsər şəkildə nəql etmişdir.
Orada deyilir: Əbu Hüreyrə deyir:
"Peyğəmbərdən bu sözləri eşitdim: Allah-təala məhşərdə ayağını bir anlıq insanlara göstərər və möminlər (istər kişi olsun, istərsə də qadın) Onun müqabilində səcdəyə gedərlər. Yalnız dünyada riya məqsədi ilə səcdə edənlər səcdə etməkdən məhrum olarlar. Onların arxa və ön tərəfləri eyni (düz) olduğu üçün heç bir hərəkət edə bilməzlər."
Şəxsi mənfəət üçün belə yanlış hədislər nəql etmək Allah və Onun Peyğəmbərinə iftira yaxmaqdan başqa nə ola bilər?! Məgər Allah maddi bir varlıqdır ki, istədiyi vaxt bir yerdən başqa bir yerə hərəkət etsin, gülsün, hamı ilə danışsın və nəhayət öz ayağını məhşərdə insanlara göstərsin?!

Şübhəsiz ki, iman əhli bütün bunlara əhəmiyyət verməyir, onların istifadə etdikləri hədis və rəvayətlər Əbu Hüreyrə kimi iftiraçıların nəql etdikləri hədislərdən deyil, əksinə ən mötəbər mənbə və qaynaqlardandır.

***"Bu Peyğəmbər onlara əvvəllər haqq yoldan açıq-aşkar azsalar da– Allahın ayələrini onlara oxuyar, onları (günahlardan, şirk və küfr çirkabından) təmizləyər, onlara kitabı və hikməti öyrədər"[1].***

## *Allah-təalanın görünməsi neçə söz*

Bir çox cümhur alimləri belə bir əqidədədirlər ki, insanlar (möminlər) dünya və axirətdə Allah-təalanı görə bilərlər. Amma axirətdə bu iş mütləq baş verəcəkdir. Allahı yalnız möminlər görər və kafirlər bu feyzdən məhrum olarlar. Onlar (cümhur alimləri) deyirlər: Allah-təalanı bu dünyada da görmək mümkündür, amma bu iş heç vaxt baş tutmayacaqdır.

Bəzilərinin fikrincə Allah-təalanı qiyamət günü gözlə görmək bir o qədər də çətin olmayacaqdır. Onlar Əbu Hüreyrədən nəql olunmuş hədisə əsaslanaraq deyirlər: Bulud ayın və günəşin qarşısını tutmadıqda onları görmək çox asandır. Allah-təalanı da qiyamət günü görmək eynən belə olacaqdır.

İcma alimləri* əql və nəql (hədis) ilə müxalifətçilik edən ilk təriqət olmuşlar. Onlar dindən xaric olaraq islam dininin qəti hökmlərini inkar etmişlər.

Əş"əri təriqəti* ardıcılları deyirlər: Allah-təala özünü möminlərə göstərmək üçün onların gözlərinə xüsusi qüvvə verər. Belə olduqda onlar Allah-təalanı olduğu kimi görərlər. Ümumiyyətlə, möminlərin görmə qabiliyyəti sair insanlardan fərqli olacaqdır.

Əş"əri məzhəbinin bu əqidəsi qeyri-mümkündür və əql ilə dərk olunmayan bir məsələdir. Bunu yalnız təsəvvür etmək olar.

***3-cü hədis***

### *Allah ayağını Cəhənnəmə qoymayınca dolmayacaqdır*

Bu hədisi "Səhiheyn"in müəllifləri (Müslüm və Buxari) Əbdürrəzzaqdan, o da Müəmmərdən, o da Həmmamdan, o da Əbu Hüreyrədən və o da Həzrəti Peyğəmbər(s)-dən nəql etmişdir. Hədisdə deyilir:

"Cənnət ilə cəhənnəm bir-birləri ilə mübahisəyə başlayarlar. Cəhənnəmin şö"lələnən alovu (özünü öyərək) deyər: Mən səndən daha üstünəm. Çünki zalım və sitəmkar insanlar mənim odumda cəzalandırılacaqlar.

Cənnət bu sözləri eşidib çox narahat olar və xeyli gileylənər: Nə üçün zəif və düşgün insanlar yalnız mənə daxil olurlar?!

Allah-təala cənnətə deyər: Mən öz rəhmətimi istədiyim şəxsə şamil edərəm və onlar sənin təbəqələrində sakin olarlar. (Sonra cəhənnəmə deyər:) Sən isə

[1] "Cümə surəsi, ayə:2

Mənim bəndələrimə verdiyim cəza və əzablar məkanısan. Bəndələrimdən istədiyimi əzaba düçar edər və sənin atəşinə ataram.
Onların hər birisinin (cənnət və cəhənnəmin) müəyyən tutumu vardır. Amma Allah-təala ayağını cəhənnəmin ortasına qoyub "bəsdir!" deməyincə günahkar və zalım insanlar oraya atılarlar.[1]

Sanki Əbu Hüreyrənin yaşı artdıqca ağlı daha da azalırdı. O, elə güman edir ki, cəhənnəm o qədər böyük və genişdir ki, zalım və günahkarlar oraya atılmaqla dolmayacaqdır və onun dolmağı üçün mütləq Allah-təala ayağını oraya qoyub "bəsdir!" deməlidir. Bir halda ki, Allah-təala onun dolması haqqında Qur"ani kərimdə bizə belə xəbər verir:

***"Haqqa and içirəm və sözüm də haqdır: cəhənnəmi (kafir, inadkar və zalımlarla) dolduracağam."***

Əbu Hüreyrə belə işlərdə nə qədər zirək olsaydı da, Allah kəlamının həqiqətini dərk etməkdə çox aciz və biliksiz idi. O, Qur"anın bu ayəsini dəfələrlə oxumağına baxmayaraq öz şəxsi mənafeyi və yaxud başqa səbəblərə görə hədis uydurmağı hər şeydən üstün tutmuşdur.
O, bu ayə haqqında bir qədər düşünsəydi görərdi ki, Allah-təala cəhənnəmi bütün insanlarla deyil, yalnız şeytan və onun ardıcılları ilə doldurmağı və"də vermişdir və belə bir hədisi uydurmaq əbəs bir işdir.

Üumiyyətlə, belə bir hədisi qəbul etmək istər dini istərsə də əqli baxımdan qeyri-mümkündür. Allahı pak və münəzzəh bilən hər bir müsəlman Onun üçün əl-ayaq təsəvvür edə bilərmi? Hansı ağıl sahibi bu iddianı edə bilər ki, Allah cəhənnəmin dolması üçün mütləq ayağını onun ortasına qoymalıdır? Belə bir məntiqsiz sözün nə hikməti ola bilər? Cənnət və cəhənnəm bir-birləri ilə hansı dildə danışmışlar? (Daha doğrusu mübahisə etmişlər?) Zalım və sitəmkar insanlara özünün "əsfələssafilin" təbəqəsində əzab verən cəhənnəm hansı müsbət xüsusiyyətləri ilə özünü cənnətdən üstün tutmuşdur? Nəhayət, cənnət müttəqiləri, şəhidləri, peyğəmbərləri, əməli saleh insanları, alimləri və s.) zəif və düşgün adlandıra bilərmi?

## *4-cü hədis*

### *Allah hər axşam dünya asimanına enir*

Müslüm və Buxari bu hədisi İbni Şəhabdan, o da Əbu Əbdullah Əğərdən, o da Əbu Sələmə İbni Əbdürrəhmandan, o da Əbu Hüreyrədən və o da Həzrəti

---

[1] "Səhihi-Buxari", 3-cü cild, səh. 127, "Qaf" surəsinin təfsiri; "Səhihi-Müslüm", 2-ci cild, səh.482; "Zülmkarlar cəhənnəmə, zəif və düşgünlər isə cənnətə daxil olarlar" babı. Müslüm bu hədisi Əbu Hüreyrədən beş müxtəlif mənbədən nəql etmişdir. Əhməd ibni Hənbəl də bu hədisi özünün "Əl-Müsnəd" adlı kitabında 2-ci cild, səh. 3 14. cüz"i fərq ilə nəql etmişdir.

Peyğəmbər(s)-dən belə nəql etmişlər:[1] “Bizim Pərvərdigarımız hər gecə dünya asimanına enir və gecənin axıncı üçdə birində deyir: Məni çağıran şəxsin duasını qəbul edərəm!”

Bu hədisin Əbu Hüreyrə tərəfindən nəql edilməsi (uydurulması) islam aləmində “mücəssəmə adlı təzə bir firqənin yaranmasına səbəb oldu.

Onlar belə bir əqidədə idilər ki, Allah-təala cismi (maddi) bir varlıqdır. (Yəni insan kimi müxtəlif bədən üzvlərinə malikdir). Onların səbəbi ilə Hənbəli məzhəbinə etiqadı olanların bəziləri bid”ətçi olub və haqq və yoldan azmışlar. Xüsusilə İbni Teymiyyə cümə günü Dəməşqdəki Əməvi məscidinə gəlib minbərə çıxdı və belə bir xütbə oxudu: “Mən bu minbərə çıxdığım kimi Allah-təala da asimanın uca təbəqələrinə qalxır.” Sonra bir pillə aşağı düşdü. O bu hərəkəti ilə Allahın daimi hərəkətdə olduğunu (yəni yerini dəyişməsini) bildirmək istəyirdi. Orada olan və İbni Zəhra kimi tanınmış Fəqih Maliki onun bu sözləri ilə razılaşa bilməyib etiraz etdi. Camaat isə onu susdurmaq üçün ayaqlarındakı tərlikləri çıxarıb onun başına vurmağa başladılar. Bununla kifayətlənməyib onu hənbəlilərin məşhur qazilərindən olan İzuddin ibni Müslümün yanına apardılar. Qazi onun zindana salınmasını və orada bir neçə şallaq zərbəsi vurmağı əmr etdi.

## *5-ci hədis*

### *Süleyman Peyğəmbər öz atası Davud(ə)-ın hökmünü pozdu*

Buxari və Müslüm bu hədisi Əbu Hüreyrədən nəql etmişlər.[2] Hədisdə deyilir: “İki qadının hər birinin bir uşağı olur. Günlərin biri ehtiyatsızlıq üzündən uşaqlardan biri nəzarətsiz qalır və qurd onu parçalayıb yeyir. Onlardan hər biri öz uşağının sağ qaldığını və digərinin uşağının parçalandığını iddia edir, hər biri sağ qalmış uşağa yiyələnmək istəyir. öz aralarında məsələni həll edə bilməyib Davud(ə)-ın yanına gəlirlər. Davud (ə) onları dinləyib yaşca böyük olan qadının xeyrinə hökm çıxarır. Sonra onlar Süleyman(ə)-ın yanına gəlib baş vermiş əhvalatı ona da danışırlar. O, məsələnin nə yerdə olduğunu başa düşüb buyurur: Mənə iti bir bıçaq verin. Qadınlar təəccüblə ondan bıçaqla nə edəcəyini soruşduqda Süleyman (ə) cavab verir: Uşağı iki yerə bölüb hər birinizə uşağın yarısını verəcəyəm. Bunu eşidən (yaşca) kiçik qadın fəryad çəkərək dedi: Allah

---

[1] “Səhihi-Buxari”, 4-cü cild, səh. 68, “Kitabud-dəavat”, “nimeyi-Şə”ban” duası. Həmçinin, 1-ci cild, səh.136, “Kitabul-kusuf” (gecə namazının duası) babı; “Səhihi-Müslüm”, 1-ci cild, səh.258; Əbu Hüreyrədən nəql olmuş hədis.

[2] “Səhihi-Buxari”, 2-ci cild, səh.166;

“Biz Davuda Süleymanı bəxş etdik. Nə gözəl bəndə idi!” “İsra” surəsinin, 36-cı ayəsinin şərhi; “Səhihi-Müslüm”, 2-ci cild, səh. 57; “Kitabul-əqziyə ixtilaful-muctehidin” babı; “Əl-Müsnəd” (Əhməd ibni Hənbəl), 2-ci cild, səh.322.

xatirinə belə etmə, uşaq o qadınındır. Süleyman (ə) bu qadının uşağa olan mehr-məhəbbətini görüb atasının verdiyi hökmün əksinə yeni hökm çıxarır və uşağın kiçik qadına təhvil verilməsini əmr edir.”

Əbu Hüreyrə deyir: And olsun Allaha! O vaxta qədər bir kəsin bıçağa (sikkin) dediyini görməmişdim və bizlər bıçağa mədyə deyərik.

Bu hədisə dair bir neçə mühüm məsələ

1-Allah-təala Davud (ə)-ı peyğəmbərliyə təyin etdi. O, insanlarla xoş rəftar edər və qarşılaşdıqları çətin məsələlərdə ədalətlə hökm çıxarıb onlara kömək edərdi. Qur”anda onun haqqında belə buyurulur:

***“Ey Davud! Biz səni yer üzündə xəlifə, nümayəndə qərar verdik. İnsanlar arasında haqq və ədalət ilə hökm et.”***

Başqa bir ayədə Davud (ə) belə vəsf edilir:

***“Qüvvətli bəndəmiz Davudu yadına sal! Çünki o daim Allaha sığınan bir kimsə idi. Biz dağları ona ram etmişdik. Onlar axşam-səhər onunla birlikdə Allahı təqdis edib şə”ninə təriflər deyərlər. Biz quşları da toplu halında onun ixtiyarına vermişdik, hamı ona tabe idi. Biz onun mülkünü möhkəmləndirmiş, ona hikmət və düzgün hökm vermək qabiliyyəti bəxş etmişdik.”***[1]

***“Həqiqətən o, dərgahıma yaxın olacaq və onun qayıdıb gələcəyi yer də gözəl olacaqdır.”***[2]

***“Biz peyğəmbərlərin bəzisini digərindən üstün etdik və Davuda Zəbur verdik.”***[3]

Davud (ə) o şəxsdir ki, Allah-təala ona kitab vermiş və insanları haqqa hidayət etməyi (öz zamanında) məhz ona həvalə etmişdir. O, bütün günahlardan uzaq və pak bir insan idi. Ona xas olan (ilahi) xüsusiyyətlərdən biri də ədalət idi.

Davud (ə) daim insanların çətinlikləri ilə maraqlanar və mübahisəli məsələlərdə ədalətli hökm çıxarardı. Belə ki, Qur”ani-kərimdə bu haqda deyilir:

***“Hər kim Allahın nazil etdiyi (kitab və şəriət) ilə hökm etməsə, əlbəttə onlar zalımlardır”.***[4]

Oğlu Süleyman da (ilahi) elm və qəzavəti (hökm çıxarmağı) irs olaraq ondan almışdır. O heç vaxt atasının verdiyi hökmün əleyhinə hökm çıxarmamış və dediyi sözün ziddinə bir şey söyləməmişdir. O özü ilahi peyğəmbərlərdən biri idi və təbii ki, atasını hamıdan yaxşı tanıyırdı. Belə bir insan öz doğma atası ilə müxalifətçilik edə bilərdimi?!

---

[1] “Sad” surəsi, ayə:17-20

[2] “Sad” surəsi, ayə:25

[3] “İsra” surəsi, ayə:55

[4] “Maidə surəsi, ayə:45

Burada bir incə məsələyə toxunmağı məqsədə uyğun görürük.

O dövrün qaziləri (hakimləri) bir-birlə-rindən səhv tutmağa və ya digərinin haqsız olduğunu sübut etməyə cəhd göstərməyirdilər. Bu iş yalnız olduqca böyük əhəmiyyət kəsb edən məsələlərdə baş verə bilərdi. Amma o ki, qaldı ilahi peyğəmbərlərə, bu onların ismətindən kənar bir xüsusiyyətdir. Deməli Süleyman (ə) öz atasının verdiyi hökmün əleyhinə heç bir hökm çıxara bilməzdi. Çünki onun başqa bir hökm verməsi Allah-təalaya qarşı etiraz və atasına ehtiramsızlıq olardı.

2-Hədisdən belə məlum olur ki, Həzrəti Davud(ə)-ın şikayətçilərə verdiyi hökm həzrəti Süleyman(ə)-ın sonradan verdiyi hökm ilə tamamilə ziddiyyəti olmuşdur. Deməli onlardan biri haqlı, digəri isə haqsız olmuşdur. Bu da qeyri-mümkündür, çünki peyğəmbərlər nəinki qəzavədə, hətta adi işlərdə belə, səhvə yol verməzlər. Onların malik olduqları elm adi bəşər elmi deyil, ilahi elm olmuşdur. Bu elm onlara vəhy, mələklər və ilham yolu ilə verilmişdir. Belə nəticəyə gəlirik ki, peyğəmbərlərin (şəri məsələlərdə) səhvə yol verməsi və günah etmələri qeyri-mümkündür.

***"Hər kəs Allahın nazil etdiyi ilə hökm etməzsə, əlbəttə onlar fasiqdirlər (günah-kardırlar)."[1]***

3-Əbu Hüreyrənin dediyinə görə Davud (ə) sanki qadının böyüklüyünə görə onun xeyrinə hökm vermişdir. Belə bir işi Allah peyğəmbərindən yox, savadsız, səfeh və nadan insanlardan gözləmək olar. Allah bütün eyb və nöqsanlardan uzaq olduğu kimi, Onun peyğəmbərləri də günahsız və xətasız olmuşlar.

4-Həzrəti Süleyman(ə)-ın da yaşca kiçik qadının xeyrinə hökm verməsi qeyri-məntiqidir. Yuxarıda qeyd etdiyimiz kimi peyğəmbərlər yalnız ədalətə əsaslanaraq hökm verərlər və kiminsə və yaxud nəyinsə xatirinə haqqa göz yummazlar.

5-Əbu Hüreyrə hədisin sonunda deyir: O vaxta qədər bıçaq kəlməsini eşitməmiş-dim və biz həmişə ona (mədyə) deyərdik.

Ərəb dilindən xəbərdar olanlar çox gözəl bilirlər ki, ərəblər qədim zamanlardan indiyə kimi bıçağa (sikkin) demişlər və hal-hazırda da həmin sözdən istifadə edirlər. Mədyə kəlməsi isə ərəblərin bir çoxuna əsla məlum deyildir.

İstər ədəbiyyatda, istərsə də gündəlik danışıq dillərində ərəblər sikkin kəlməsindən istifadə edirlər və Əbu Hüreyrənin bu sözü o vaxta qədər eşitməməsi qeyri-mümkündür.

Maraqlıdır ki, görəsən Əbu Hüreyrə Qur"an oxuyarkən sikkin sözü olan bu ayəyə rast gəlməmişdimi?

***"O, hər qadına (meyvə kəsib soymaq üçün) bir bıçaq verdi".[1]***

---

[1] "Maidə surəsi, ayə: 47.

Əbu Hüreyrə Peyğəmbər(s)-dən nəql etdiyi hədislərdən birində məhz bu kəlmədən (yəni sikkin, bıçaq kəlməsindən) istifadə etmişdir. Hədisdə deyilir: “Camaat arasında qəzavət edən şəxs həqiqətən özünü onların yolunda bıçaqla deyil, öz əməli ilə qurban edir.”

***

Əbu Hüreyrənin bu iki ilahi peyğəmbər haqqında uydurduğu başqa bir hədisdə deyilir:

“Bir gecə bir şəxsin qoyunları başqa birisinin əkin yerinə girib oranı tamamilə bərbad vəziyyətə salır. Əkin sahibi şikayət üçün Davud(ə)-ın yanına gəlir və əhvalatı ona danışır. Davud (ə) onun şikayətini axıradək dinlədikdən sonra o vaxtın şəri qanunlarına əsasən belə bir hökm verir: “Əkin yerinə dəyən zərər qoyunların qiyməti ilə bərabər olduğu üçün qoyunlar əkin sahibinə verilməlidir.” Elə həmin anda Süleyman(ə)-a vəhy nazil oldu və hökmü belə çatdırdı: “Qoyunlar əkin sahibinə verilməli və əkin yeri qoyun sahibinin ixtiyarına keçməlidir. Əkin yeri özünün əvvəlki vəziyyətinə düşməyincə və zərər ödənilməyincə qoyunlar əkin sahibinin, əkin yeri isə (zərəri ödəmək üçün) qoyun sahibinin ixtiyarında qalmalıdır. Zərər ödənildikdən sonra hər kəs öz malına sahib olmalıdır.”

Allah-təala belə bir hökm verməklə əkin sahibinə icazə verir ki, qoyunlara malik olmadan onlardan bəhrələnib öz zərərini ödəyə bilsin. Qoyunların sahibi isə belə bir vəziyyətdə yenidən öz heyvanlarına malik olmaq üçün necə olursa olsun, dəyən ziyanı ödəməyə çalışacaqdır. Vəhy Həzrəti Süleymana nazil olduqdan sonra dərhal onu atasına (yəni Davud(ə)-a) bəyan etdi. Davud (ə) da tərəddüd etmədən bu əmri qəbul etdi. Çünki, bu Allah tərəfindən gəlmiş bir əmr idi.

Həzrəti Davud (ə) və Süleyman (ə) haqqında nəql olunmuş dastanın xülasəsi bu idi. Deməli hər iki əmr Allah tərəfindən nazil olmuşdur və onlar arasında heç bir ixtilaf ola bilməz. Sadəcə olaraq birinci hökm (Həzrəti Davud(ə)-ın verdiyi hökm) sonradan Həzrəti Süleymana nazil olmuş hökm ilə əvəz edilmişdir.

Aşağıdakı ayəyə diqqət yetirin:

***“(Ya Məhəmməd!) Davudu və Süleymanı yad et! O zaman ki, onlar bir tayfanın qoyunlarının girib xarab etdiyi bir əkin sahəsi haqqında hökm verirdilər və Biz də onların hökmünə şahid idik. Biz məsələnin hökmünü dərhal Süleymana anlatdıq. Və onların hər birinə hökm (hikmət, peyğəmbərlik) və elm verdik. Biz dağları və quşları Davudla birlikdə (Allahı)***

[1] “Yusif” surəsi, ayə: 31

***təqdis edib təriflәsinlәr deyә ona ram etdik. Bunları (sizә tәәccüblü görünsә dә Lövhi-mәhfuzdakı әzәli hökmümüzlә) Biz etmişdik".***[1]
Ayәdәki

***"Hәr birinә elm vә hikmәt verdik"*** cümlәsinә diqqәt yetirsәniz görәcәksiniz ki, hәr iki hökm ilahi qanunlar әsasında verilmişdir vә hәr şeyi bilәn Allah şübhәsiz ki, bu әhvalatdan da agah olmuşdur. Amma Әbu Hüreyrәnin fikir vә әqidәsinә әsasәn peyğәmbәrlәr dә ictihad* edәrәk hökm vermişlәr vә sair müctehidlәr kimi bәzәn onların da sәhvә yol vermәsi tamamilә mümkündür.

***"Onlar Allahı layiqincә tanımadılar".***[2]
Çünki, onlar zәnn vә gümana әsaslanaraq ictihad edәr, sonra isә öz әmәllәrini zәnnә әsasәn hәyata keçirәrdilәr. Onlar hәtta qәzavәt mәsәlәlәrindә belә sәhvә yol vermәyi caiz (mümkün) bilirlәr, yәni belә bir әqidәdәdirlәr ki, qazinin sәhvә yol vermәsi adi bir haldır vә bunun üçün onu cәzalandırmaq vә ya mühakimә etmәk lazım deyildir.
Amma Qur"ani Kәrim bizә bu haqda tam başqa bir mәlumat verir:

***"Hәr kәs Alllahın nazil etdiyi (kitab vә şәriәt) ilә hökm etmәzsә әlbәttә, kafirdirlәr".***[3]

Peyğәmbәrlәrin elmi yәqinә vә dәrin hikmәtә әsaslanmışdır. Onlar mәdrәsә oxumamış vә kimsәdәn dәrs almayan şәxslәr olmuşlar. Dәrs aldıqları mәktәb ilahi mәktәb, müәllimlәri isә Allah-tәalanın özü olmuşdur. Onlar ya mәlәyin (Hәzrәti Cәbrayıl(ә)-ın) vasitәsi ilә, ya da arada heç bir vasitә olmadan Allah ilә ünsiyyәtdә olmuşlar. Demәli onların sәhvә yol vermәsi qeyri-mümkündür. O ki, qaldı ictihada, bu, (müәyyәn vaxt әrzindә müxtәlif şәxslәrdәn dәrs almış) müctehidlәrә xas olan bir işdir. Bunu da qeyd edәk ki, onların elmi ilahi peyğәmbәrlәrin elmi ilә müqayisәdә çox naqis vә mәhduddur.
Әgәr peyğәmbәrlәrin ictihad etmәsi mümkün olsaydı, onda müctehidlәr ilә (bәzi şәri) mәsәlәlәrdә müxalifәtçilik edәr vә onlar ilә mübarizә aparardılar. Belә olduqda isә onların peyğәmbәrlik mәqamına xәlәl gәlmiş olardı. Yox әgәr müctәhidlәrdәn (vә yaxud adi insanlardan) biri bu fikrә düşsә, müsәlmanlar onu dindәn çıxmış vә kafir hesab edәrlәr.

Qur"an, Hәzrәti Mәhәmmәd (s) haqqında bizә belә xәbәr verir:
***"O hәvayi-nәfs üzündәn danışmır, bu, ancaq ona nazil olan bir vәhydir".***[4]

Bu ayәnin hökmü digәr peyğәmbәrlәrә aiddir.

## *6-cı hәdis*

---

[1] "Әnbiya" surәsi, ayә:77-78
[2] "Әn"am" surәsi, ayә:91
[3] "Maidә surәsi, ayә:44
[4] "Nәcm" surәsi, ayә:3-4

### *Bir gecədə həzrəti Süleymanın yüz qadınla yatması*

Bu hədisi Müslüm və Buxari Əbu Hüreyrədən və o da Peyğəmbər(s)-in adından nəql etmişdir. Hədisdə deyilir: "Bir gün Süleyman ibni Davud dedi: Bu gecə qadınlarımın yüzü ilə də yatacağam. Qoy onlar mənim üçün Allah yolunda cihad edən (vuruşan) yüz cəngavər dünyaya gətirsinlər. Mələk ona yaxınlaşıb dedi: İnşallah de! Amma Süleyman buna əhəmiyyət vermədi və "inşallah" demədən qadınlarının yanına gedib onlarla yaxınlıq etdi. Qadınlardan cəmi biri doğdu: o da əlil idi. Əgər o gecə Süleyman Mələyin sözünə qulaq assaydı (yəni inşallah desəydi) belə bir müsibət başına gəlməzdi və istəyinə də nail olardı."

Bu hədisdə də bir necə sual yaranır:

1-İnsan nə qədər güc və qüdrətə malik olsa belə, bir gecədə yüz qadınla cinsi əlaqədə ola bilməz. Əbu Hüreyrənin Həzrəti Süleymana aid etdiyi bu iş isə insan təbiətindən xaric və qeyri-mümkün bir işdir.

2-Həzrəti Süleyman kimi şərəfli bir insanın öz istəyini Allahın iradəsi ilə əlaqələndirməməsi (inşallah deməməsi) qeyri-mümkün və peyğəmbər xislətindən xaricdir. Əbu Hüreyrənin dediyinə görə Həzrəti Süleyman mələyin etdiyi xəbərdarlığa əhəmiyyət belə verməyib öz işini davam etmişdir.

Allah və Onun mələklərini yalnız nadan və cahil insanlar unudar və bir iş gördükləri zaman "inşallah" kəlməsini dillərinə gətirməyi belə özlərinə ar bilərlər. İnsanları haqqa hidayət edən Həzrəti Süleyman Allahdan qafil ola bilərdimi?! Əbu Hüreyrənin iftiralarından Allaha pənah aparıram!

3-Əbu Hüreyrə bu hədisi bir neçə yerdə nəql etmişdir və onların hər birində Həzrəti Süleyman(ə)-ın qadınlarının sayını müxtəlif rəqəmlərlə nəql etmişdir. Məsələn "Səhihi-Buxari"də yüz, doxsan, yetmiş, "Səhihi-Müslüm"də altmış və s. Çox maraqlıdır, Əbu Hüreyrənin bütün bu nöqsanlarını görən sadiq tərəfdarları onu nə üzlə müdafiə edirlər?! Çox dərinə getsək bəlkə də onlardan bu sözləri eşidəcəyik: Süleyman bu işi bir neçə dəfə görmüşdür, yəni bir dəfə yüz sonra doxsan və s. və hər dəfə mələk ona xəbədarlıq edir, amma o bütün bunları qulaq ardına vurur və öz bildiyinə davam edir. Güman etmirəm onlar belə bir söz desin, amma əgər (bunu özlərinə borc bilərək) demiş olsalar onda necə deyərlər "artıq onların kitabı bağlanmışdır."

El arasında belə bir misal var, deyərlər: "Yalançı unutqan olar."

## *7-ci hədis*

### *Musa (ə)-ın həzrəti Əzrail (ə)-a sillə vurması*

Buxari və Müslüm bu hədisi Əbu Hüreyrədən nəql etmişlər. Hədisdə deyilir:

"Əzrail (ə) Musa(ə)-ın ölüm ayağında olduğu zaman yanına gəlib deyir: Allahın dəvətinə cavab ver! Musa (ə) onun üzünə möhkəm bir sillə vurur və gözünün birini kor edir. Əzrail (ə) Allah-təalanın yanına gəlib gileylənərək deyir: (İlahi!) Məni elə bir bəndənin yanına göndərdin ki, ölümü əsla

arzulamayır. O, mənim sözlərimi eşidən kimi möhkəm bir sillə vurub gözümü kor etdi. Allah-təala onun gözünü yenidən özünə qaytarıb dedi: Get o bəndəmə de ki, əgər yaşamaq istəyirsə əlini erkək inəyin üzərinə qoysun. Onun bundan sonra yaşayacağı müddət əlinin altında qalan tüklər qədər olacaqdır.”

Bu hədis Əhməd ibni Hənbəlin “Əl-Müsnəd” kitabında da nəql edilmişdir. Amma orada bəzi fərqlər mövcuddur. Məsələn: Əzrail hamının yanına aşkar gələrdi, amma (o gün) Musanın yanına gizli gəldi və aldığı zərbədən gözü kor oldu. Hədisin bu hissəsi digər mənbələrdə nəql olunmamışdır.

Təbəri öz kitabının birinci cildində hədisi olduğu kimi nəql edir və hədisin sonunda deyir:

“Musa (ə) vəfat etdikdən sonra Əzrail camaat arasına gəldi.”

Biz bu hədisdə bir neçə müəmma ilə qarşılaşırıq:

1-Allah-təalanın peyğəmbərliyə təyin etdiyi şəxslər, ən ali insani (əxlaqi) xüsusiyyətlərə malik olmuşlar. Onlar Allahın əmrinə müt”i və tabe olan möminlər (ariflər) olmuşlar.

2-Peyğəmbərliyə təyin olunan şəxs kiçik günahlardan belə uzaq olardı və onların heç birindən kobud hərəkət gözləmək olmazdı.

Musa (ə) Ulul-Əzm* peyğəmbərlərdən və şəriət sahibi idi. Bəni-İsrailə Tövratı gətirib onlara (yeni İlahi) dini təlim verirdi.

Belə bir peyğəmbər, Allaha ən yaxın olan mələklərdən birinə sillə vuraraq gözünü kor edə bilərdimi?! O, ömrünün sonunadək Allaha bəndəlik edib Onun dəvətinə “ləbbeyk”dən savayı cavab vermədi.

3-Həzrəti Əzrail yalnız Allahın əmrinə tabe idi və məmuriyyət zamanı kimsə ilə məşvərət etməzdi. Məgər onun günahı nə idi ki, Musa (ə) ona sillə vuraraq gözünü kor etsin?!

Allah-təalanın zatı pak və müqəddəsdir, onun göndərdiyi peyğəmbər və mələklər də əziz (pak) və müqəddəs olmamışdırlar. Məgər biz gecə və gündüz peyğəmbərlə düşmənçilik edən “Fir”on”-lara və “Əbu Cəhl”-lərə lə”nət oxumuruqmu?! Buna əsas səbəb onların nadanlıq üzündən zehnlərdə yaratdıqları mənfi obraz olmadımı?!

Allah-təala yaratdığı bütün məxluqata müəyyən miqdarda güc vermişdir. İnsan da bu məxluqatın biri kimi təbii ki, müəyyən güc və qüdrətə malik olmalıdır. Amma onun mələyə sillə vuraraq kor etməsi qeyri-mümkündür. Ümumiyyətlə, mələyin nə vaxtdan gözü oldu ki, sonradan kor olmuş olsun?

Fərz edək ki, mələyin gözü var idi və həqiqətən də aldığı zərbədən kor olmuşdur. Bəs qisas necə, almaq lazım deyildimi? Çünki Musa(ə)-a nazil olmuş Tövratda qisas haqqında belə deyilir:

***“Biz Tövratda İsrail oğullarına yazıb hökm etdik ki, canın qisası can, gözün qisası göz, burnun qisası burun, qulağın qisası qulaq, dişinki diş və yaralarınkı yaralardır.”*[1]

Əgər qisas alınmasaydı mələyin haqqı tapdanmış olardı, bu isə ədalətdən uzaqdır. Digər tərəfdən isə Allah-təala Musa(ə)-ı cəzalandırmaq əvəzinə onu daha əziz tutdu və ömrünü (əlinin altındakı tük qədər) uzatdı.

Bilmirik, nə üçün məhz erkək inəyin tükü Musa(ə)-a deyilmişdir?!

Yalanla dolu olan bu (maraqsız) nağıllara aqil insan inana bilərmi? Təəssüflər olsun ki, Əbu Hüreyrənin qazdığı bu quyuya çoxları düşmüşdür. Təəssüb hissi onları haqqa göz yummağa və kor-koranə təqlidə vadar etmişdir. Ağılın qəbul edə bilmədiyi şeylərə müxtəlif don geydirmək hələ də onların heç bir müşkülünü həll etməmişdir.

## *8-ci hədis*

### *Musa (ə)-ın üzərinə paltarlarını qoyduğu daşın qaçması*

Buxari və Müslüm bu hədisi Əbu Hüreyrədən nəql etmişlər. Hədisdə deyilir: “İsrail övladları çimərkən tamamilə soyunar və fitədən istifadə etməzdilər. Onlar (çimərkən) bir-birlərinin övrətinə baxdıqları üçün Musa (ə) daim onlardan uzaqda çimərdi. Günlərin biri o su kənarına gəlib çimmək istədi.

Yəhudilər onu uzaqdan görüb dedilər: And olsun Allaha, bu kişinin övərtində (xayalarında) mütləq bir eyb (şiş) vardır, yoxsa o bizdən uzaqda çimməzdi!

Musa (ə) paltarlarını soyunub bir daşın üzərinə qoydu. Elə suya girmək istəyirdi ki, daş hərəkətə gəlib qaçmağa başladı. Daş qaçır, Musa (ə) da onu təqib edirdi. Bəni İsrail Musa(ə)-ın övrətinə baxıb deyirdilər: Allah bilir ki, biz onda heç bir eyb görmədik. O, tamamilə sağlamdır. Daş onların yanına çatıb dayandı. Musa (ə) paltarlarını geyinib daşı qəzəblə vurmağa başladı. Əbu Hüreyrə sonra deyir: And olsun Allaha ki, daş yeddi və ya səkkiz yerə bölündü.

Onun fikrincə “Əhzab” surəsinin 69-cu ayəsi bu hadisə baş verdikdən sonra nazil olmuşdur. Orada deyilir:

***“Ey iman gətirənlər! Musaya əziyyət verən kəslər kimi olmayın. Allah Musanı onların dediklərindən təmizə çıxardı. O, Allah yanında çox hörmətli qədir-qiymətli idi.”*[2]

Hədis məzmun baxımından ağıl ilə bir neçə cəhətdə ziddiyyətlik təşkil edir:

1-Böyük ismət sahibi Həzrəti Musanın dilsiz-ağızsız daşın ardınca qaçmağı şübhəsiz ki, onun məqamına xələl gətirə bilərdi.

---

[1] “Maidə surəsi, ayə:45

[2] “Əhzab” surəsi, ayə:69

2-Həzrəti Musanın cansız daşı vurması Bəni İsrail camaatında ona qarşı mənfi təsəvvür yarada bilərdi.
Fərz edək ki, daş həqiqətdə qaçmışdır. Belə olduqda Musa (ə) bunu ilahi möcüzə bilib daşı təqib etmək əvəzinə paltarlarının gətirilməsini gözləməli idi. Yuxarıda qeyd etdiyimiz kimi başqalarının onun övrətini görməsi peyğəmbərliyinə və ismətinə xələl gətirə bilərdi. O ki, qaldı daşın hərəkət etməsinə, belə bir hadisə yalnız mühüm işlərin sübuta yetməsi üçün baş verə bilərdi. Məsələn: Günlərin biri Məkkə müşrikləri Həzrəti Məhəmməd(s)-in yanına gəlib ondan bir möcüzə (xurma ağacını hərəkətə gətirməsini) göstərməsini istədilər. (Onlar Həzrəti Məhəmməd(s)-dən həqiqi peyğəmbər olduğuna dair tutarlı bir dəlil istəyirdilər.) Həzrəti Məhəmməd (s) ağaca hərəkət etməyi əmr etdi və ağac Allahın izni ilə yerindən çıxıb onlara tərəf yaxınlaşdı!

Həzrəti Musa (ə) çimdiyi vaxt necə, hər hansı bir möcüzəyə ehtiyac duyulurdumu? Onun peyğəmbərliyinə Bəni İsrail camaatı şəhadət vermiş və ondan kimsə möcüzə tələb etməyirdi.

Musa(ə)-ın övrətində eyb olub-olmamasına gəldikdə isə Bəni İsrail bunu başqa yol ilə də öyrənə bilərdilər. Məsələn, qadınlarından söz alaraq Musa(ə)-ın bu və sair sirlərinə agah ola bilərdilər.
İnsanın bədənində eyb və nöqsanın olması isə adi bir haldır.

Məsələn, Həzrəti Şüeybin gözləri ömrünün son illərində tutulmuş, Həzrəti Əyyub böyük müsibətə (xəstəliyə) düçar olmuş və s. Deməli, müvəqqəti xəstəliklər və bədən nöqsanları peyğəmbərlərin heç birinə xələl gətirməmişdir. Lakin insanların onlardan uzaqlaşmasına və nifət yaratmasına səbəb olan cismi nöqsanlar (məsələn: çirkinlik, yoluxucu xəstəliklər və s.) heç bir peyğəmbərdə müşahidə olunmamışdır. Əgər onlarda ciddi cismi nöqsan olsaydı ilahi qanunların (cəmiyyətdə) icra olunmasına böyük maneə törədərdi.

Bütün bunları qoyaq kənara. Əbu Hüreyrədən başqa bu hədis (Bəni İsrail camaatı haqqında) heç bir mühəddis və ravi tərəfindən nəql olunmamışdır. "Əhzab" surəsinin 169-cu ayəsində Bəni İsrailin həzrəti Musa(ə)-a etdikləri əzab-əziyyət haqqında deyilir:

***"Ey iman gətirənlər! Musaya əziyyət verən kəslər kimi olmayın. Allah Musanı onların dediklərindən təmizə çıxardı. O, Allah yanında çox hörmətli və qədir-qiymətli idi."***

Əli(ə)-dan və İbni Abbasdan nəql olunmuş hədisdə deyilir: "Bu ayə Bəni İsrail qövmü barəsində nazil olmuşdur. Onlar belə zənn edirdilər ki, Harunu Musa (ə) qətlə yetirmişdir, amma bu ayə nazil olduqdan sonra onun günahsız olduğu bir daha sübuta yetirildi."

Başqa bir hədisdə deyilir: Qarun Musa(ə)-ı zindana salmaq üçün müxtəlif bəhanələrə əl atırdı. Günlərin biri o bir qadını vadar edir ki, Musa(ə)-ı necə

olursa olsun, bir işdə müttəhim etsin. Amma çox keçmədən həqiqət həmən şəxsin dili ilə hamıya bəyan edilir.
Mühəddislərdən bəziləri deyir: "Misir camaatı başda Fir"on olmaqla Musa(ə)-ı sehr və cadugərlik kimi şeylərdə müttəhim edirdilər. Bu ayə nazil olduqdan sonra həqiqət aşkara çıxdı.

"Səhiheyn" müəlliflərinin nəql etdikləri təzadlı hədisləri (yəni məna baxımından bir-birləri ilə zidd olan hədisləri) mütaliə etdikdən sonra oxucuda onlara qarşı belə bir sual yaranır: Görəsən həm peyğəmbərlərin fəzilətləri və həm də şə"ninə xələl gətirən hədis nəql etməkdə onların nə məqsədi olmuşdur? Əgər bu iş Allah xatirinə idisə onda ən mötəbər saydıqları şəxslərin nəql etdikləri hədisləri yığmalı və (Əbu Hüreyrə kimi) hədis dəllallarının zəmanənin və siyasətin tələbatına uyğun nəql etdikləri hədisləri öz əsərlərində dərc etməməli idilər. Yox əgər şəxsi mənafeyləri üçün belə ediblərsə daha heç bir şey soruşmaq lazım deyildir!!!

### 9-cu hədis

***Qiyamət Günü insanlar şəfaət üçün Adəm, Nuh, İbrahim, Musa və İsa(ə)-ya pənah apararlar, amma onların əlindən heç bir iş gəlməz***

Buxari və Müslüm (həcm baxımından çox böyük olan bu hədisi) Əbu Hüreyrədən nəql etmişlər. Hədisdə deyilir: "Qiyamət günü Allah bütün insanları bir yerə (məhşərə) yığar. Günəş onlara o qədər yaxınlaşar ki, süstləşərək yerlərində hərəkətsiz qalarlar. Mələklər onlara yaxınlaşıb deyərlər: Bir görün başınıza nə müsibət gəldi! Əcəb bədbəxtçiliyə düçar oldunuz!
Onlardan (insanlardan) bəziləri deyər: Gərək Adəm(ə)-a pənah aparıb ondan şəfaət istəyək.

Belə də edərlər, Adəm(ə)-ın yanına gəlib deyərlər: Bütün bəşəriyyətin atası sənsən, Allah səni öz əli ilə yaratdı və öz ruhundan sənə üfürdü. O səni yaratdığı zaman mələklərə əmr etmişdi ki, qarşında səcdə etsinlər. İndi özün görürsən ki, necə böyük müsibətə düçar olmuşuq. Səndən xahişimiz budur ki, Allah-təaladan bizim üçün şəfaət istəyəsən.

Adəm (ə) onları dinlədikdən sonra deyər: Allahın bu günkü kimi qəzəbləndiyini hələ görməmişdim. O mənə bu ağacın meyvəsindən yeməməyi əmr etmişdi, biz (mən və zövcəm) isə onun əmrindən çıxıb meyvədən yedik. Vay halıma! Vay halıma! Başqa birisinin yanına gedin və ondan şəfaət istəyin.

Onlar Nuh(ə)-ın yanına gəlib deyərlər: Ey Nuh! Sən yer üzərindəki insanlar üçün göndərilmiş ilk peyğəmbərsən. Allah-təala səni çox şükr edən və qədir bilən bəndə adlandırmışdır. Səndən yalnız bir xahişimiz var: o da bundan ibarətdir ki, Allahdan bizim üçün şəfaət istəyəsən. Düçar olduğumuz bu böyük müsibəti özün görürsən.

Nuh (ə) da Adəm(ə)-ın dediklərini təkrar edərək deyər: Allah-təala hələ bu günə kimi belə qəzəblənməmişdi. Peyğəmbərlik etdiyim zaman öz qövmümə nifrin (qarğış) etdim və Allah-təaladan onlara bəla nazil etməsini istədim! Vay halıma! Vay halıma! İbrahimin yanına gedin, bəlkə o sizin üçün şəfaət edə bilsin.

Onlar İbrahim(ə)-ın yanına gəlib deyərlər: Ey İbrahim! Sən Allahın dostu (Xəlilullah) və elçisisən. özün görürsən ki, necə böyük bəlaya düçar olmuşuq. Allah-təaladan bizim üçün şəfaət istə.

İbrahim (ə) Nuh və Adəm(ə)-ın dediklərini eyni qaydada təkrar edər və sonra deyər: Peyğəmbərlik etdiyim müddət ərzində üç dəfə yalan danışdım, indi özüm Allaha pənah aparıb Ondan şəfaət istəyirəm. Vay halıma! Vay halıma! Ey kaş, yalan danışmayaydım! Musanın yanına gedin, bəlkə o sizin üçün şəfaət edə bilsin.

Onlar Musa(ə)-ın yanına gəlib deyərlər: Ey Musa! Sən Allahın (yer üzündəki) sevimli peyğəmbərlərindən biri olubsan. O sənin məqamını hamıdan uca tutmuş və səni özünün ən əziz bəndələrindən biri hesab edirdi. Bir anlıq bizə nəzər sal, gör necə böyük müsibətə düçar olmuşuq. Səndən xahişimiz budur ki, Allah-təaladan bizim üçün şəfaət istəyəsən.

Musa (ə) özündən əvvəlki peyğəmbərlərin dediklərini təkrar edib sonra deyər: (Peyğəmbərlik etdiyim zaman) Allah mənə öldürülməsini əmr etmədiyi bir şəxsi qətlə yetirdim. Vay halıma! Vay halıma! Başqa birisinin yanına gedin və ondan şəfaət istəyin. İsaya pənah aparın, bəlkə o sizin üçün şəfaət edə bilsin. Onlar əlacsız qalıb İsa(ə)-ın yanına gələrlər. Onu gördükdə deyərlər: Sən Allahın ruhusan (Ruhullah—İsa (ə)-ın ləqəbi idi). Hələ bələkdə ikən insanlar ilə söhbət edər, onları haqq yola dəvət edərdin. İndi bizim halımıza yanan bir adam lazımdır, səndən xahişimiz budur ki, Allahdan bizim üçün şəfaət istəyəsən. O da özündən əvvəlki peyğəmbərlərin dedikləri sözləri təkrar edər. Amma o başqalarından fərqli olaraq heç bir günahı etiraf etməz və buna baxmayaraq “Vay halıma! Vay halıma!” deyə-deyə onlardan uzaqlaşar. Gedərkən onlara Həzrəti Məhəmməd(s)-ə pənah aparmağı və ondan şəfaət istəmələrini məsləhət görər. Onlar hamılıqda Həzrət Məhəmməd(s)-in hüzuruna gəlib deyərlər: Ey Məhəmməd! Sən Allahın sonuncu peyğəmbərisən. Bütün ümmətinə (istər özündən əvvəl, istərsə də özündən sonrakılara) şəfaət edərsən. İndi sənə pənah gətirmişik, bizi öz şəfaətindən məhrum etmə!

Əbu Hüreyrə sonra deyir: Həzrəti Məhəmməd (s) onları dinlədikdən sonra deyər: Allahın ərşi altına gedib orada torpağa səcdə edəcəyəm. Bundan sonra Allah bütün həmd (şükr) qapılarını mənim üzümə açar və mənə belə bir xitab edər: Ey Məhəmməd! Ayağa qalx! İstədiyin hər bir şeyi sənə verəcəyəm və sənin bütün şəfaətini qəbul edəcəyəm. Sonra yerdən qalxıb deyəcəyəm: İlahi! Ümmətimi! Ümmətimi bağışla! Allahdan xitab gələr: İstədiyin hər bir şəxsi

cənnətə daxil et. Onlar bu nemətlərdən bəhrələnməkdə cənnət əhli ilə şərikdirlər.[1]

Göründüyü kimi bu hədisdə Ulul-Əzm peyğəmbərlər tənqid və təhqirə məruz qalmışlar. Ən dəhşətlisi isə budur ki, Əbu Hüreyrə bütün bunları hədis adlandırmış və onu Həzrəti Məhəmməd(s)-dən eşitdiyini iddia etmişdir.

Bir halda ki, dinsiz və müşrik insanlar onların (peyğəmbərlərin) kəramət və fəzilət-lərini etiraf edərək göstərdikləri möcüzələrin qarşısında diz çökmüşlər. Amma təəssüflər olsun ki, özünü müsəlman adlandıran Əbu Hüreyrə cür"ət edərək belə bir nalayiq işi özünə rəva bilmişdir.

Həzrəti Məhəmməd(s)-dən nəql olunan hədislərdə keçmiş peyğəmbərlərin tarixi, yaşadıqları cəmiyyət, göstərdikləri möcüzələr və s. haqqında dəqiq məlumatlar gəlib çatmışdır. O həzrətdən bizə miras qalan ikinci bir şey onun əxlaq və davranışıdır. Həzrəti Məhəmməd(s)-in məktəbindən bəhrələnmiş hər bir müsəlman Əbu Hüreyrənin uydurduğu hədisləri mötəbər mənbə kimi istifadə və etimad etməməlidir. Çünki onun nəql etdiyi hədislər məntiqsiz olmaqla yanaşı heç bir dəlil və sübuta əsaslanmayır. Bu hədislər nə Qur"anla, nə də sünnə ilə uyğun gəlməyir və bəzən ziddiyyətlik belə təşkil edir.

1-Qur"ani kərimdən məlum olur ki, Həzrəti Adəm (ə) onlara qadağan olunmuş meyvəni yedikdən sonra tövbə etmiş və onun tövbəsi Allah-təalanın (rəhmət) dərgahında qəbul olunmuşdur. Belə olduğu bir halda, Allah-təala yenidən ona qəzəblənə bilərdimi?!

2-Həzrəti Nuh (ə) kafirlərdən savayı kimsəyə nifrin (qarğış) etməmiş və Allah-təaladan onlardan savayı heç bir qövmü həlak etməsini istəməmişdir.

3-Həzrəti İbrahim bütün ömrü boyu bir dəfə də olsun yalan danışmadığı bir halda Əbu Hüreyrə utanmadan bu rəqəmi şişirdərək üçə çatdırmışdır! Ümumiyyətlə, yalan danışmaq peyğəmbərlərin xislətindən uzaq bir xüsusiyyətdir.

4-Həzrəti Musa (ə) Allahın əmr və göstərişini almadan bir kəsi öldürə bilməzdi. öldürdüyü şəxs isə qətli haram olan şəxslərdən deyildi, Musa (ə)-da onu səbəbsiz olaraq şəxsi qərəzlik üzündən qətlə yetirməmişdir. Bütün cüz"i məsələlərdə Allahdan əmr gözləyən peyğəmbərlər (o cümlədən Musa(ə)) gördükləri bütün xeyirli işlərin müqabilində Allah-təala tərəfindən layiqincə mükafatlandırılırdılar.

***"Yaxşılığın əvəzi ancaq yaxşılıqdır."*[1]**

---

[1] "Səhihi-Buxari", 3-cü cild, səh. 100; "Bəni-İsrail" surəsinin təfsiri "Nuhla birlikdə gəmiyə mindirib apardığımız kəslərin nəsli" babı.
"Səhihi-Müslüm", 1-ci cild, səh. 97, "Kitabul-İman", Şəfaətin isbatı fəsli; "Müsnədi-Əhməd ibni Hənbəl", 2-ci cild, Əbu Hüreyrədən nəql olunmuş hədislər.

Peyğəmbərlər Allah dərgahında bizim təsəvvür etdiyimizdən daha ali məqamlara sahibdirlər. Onlar Allah-təalanın ən kamil bəndələri və bəşəriyyəti haqqa hidayət edən şəxslər olmuşlar.
Qiyamət gününü isə Allah-təala Qur"anda belə vəsf edir:

***"O gün hər bir görpəsinə süd verən qadın əmizdirdiyi uşağı unudar. Hər bir hamilə qadın bari-həmliyini yerə qoyar (uşaq salar). İnsanları sərxoş kimi görərsən, halbuki onlar sərxoş deyillər, lakin Allahın əzabı şiddətlidir."***[2]

Belə bir şəraitdə məşvərət etməyə və məsləhətləşməyə vaxt tapmaq olarmı? Deməli Əbu Hüreyrənin nəql etdiyi bu hədis digər hədislər kimi həqiqətdən uzaq və məntiqsizdir. Çünki ana öz doğma südəmər körpəsini atdığı bir zaman insanların (məhşərdə) məsləhət-ləşərək bu peyğəmbərin yanından başqa bir peyğəmbərin yanına getmələri qeyri-mümkündür!

***"O gün insan öz qardaşından, anasından, atasından, zövcəsindən və oğullarından qaçacaq! O gün onlardan hər birinin istənilən qədər işi olacaqdır".***[3]

Peyğəmbərlər qiyamət günü sorğu-sual olunmadıqları üçün ərşdə olduqları bir halda yer üzünün sakinləri ilə necə rabitə bərqərar edə bilərlər?!

Hamıya məlumdur ki, həzrəti Məhəmməd(s)-in məqamı (Allah dərgahında) digər peyğəmbər-lərin məqamlarından daha üstündür. Onlar bunu bilə-bilə nə üçün ona deyil, digər peyğəmbərlərə pənah aparmış və əli boş qayıtmışlar?

Nə üçün o peyğəmbərlərdən yalnız həzrəti İsa (ə) Həzrəti Məhəmməd(s)-ə pənah aparmağı məsləhət gördü?
O biçarə insanlar Həzrəti Məhəmməd(s)-in ümməti idilər, yoxsa başqalarının?

Əgər onlar o həzrətin ümməti idilərsə, bəs nə üçün digər peyğəmbərlərə pənah aparmışlar?

Həzrəti Məhəmməd (s) (məhşərdə) təkcə öz ümmətinə (müsəlmanlara) deyil, digər ümmətlərə də (yəhudi, məsihi və s) şəfaət edəcəkdir və kimsəni Allahın izni olmadan şəfaətdən məhrum etməyəcəkdir.
Çünki o, təkcə müsəlmanların deyil, həm də bütün bəşəriyyətin elçisidir.

## *10-cu hədis*

### *Peyğəmbərlərin şəkk etmələri və Həzrəti Yusif ə)-ın Həzrəti Məhəmməd (s)-dən daha səbirli olmaması*

Buxari və Müslüm bu hədisi Əbu Hüreyrədən nəql etmişlər. Hədisdə deyilir: Peyğəmbər (s) buyurur:

---

1 "Ər-Rəhman" surəsi, ayə:60

2 "Həcc" surəsi, ayə:2

3 "Əbəsə" surəsi, ayə:34-37

"Biz şəkk etməyə İbrahim(ə)-dan daha haqlıyıq. Çünki günlərin biri Allaha dua edərkən Ondan ölüləri necə diriltdiyini bilmək istədi:
(İbrahim dedi:) Ey Rəbbim, ölüləri nə cür diriltdiyini mənə göstər! Allah-təala buyurdu: Məgər inanmırsanmı? İbrahim (ə) dedi: Bəli, inanıram, lakin ürəyim sakit olmaq üçün soruşdum."

Allah özü Lut(ə)-a rəhm etsin, çünki o, Allahın ona kömək edəcəyinə bir o qədər də arxayın deyildi. Əgər mən Həzrəti Yusif qədər zindanda qalsaydım, onu azadlığa buraxan şəxsə müsbət cavab verərdim.

Hədisin Əbu Hüreyrə tərəfindən uydurulduğu göz qabağındadır. Çünki:

1-Həzrəti İbrahim (ə) bir an olsun belə, şəkk edə bilməzdi. O, Allaha iman gətirmiş, ilahi imtahanlardan üzü ağ çıxmış bir şəxs idi. "Ənbiya" surəsinin 57-ci ayəsində onun haqqında deyilir:

***"Biz daha öncə İbrahimə də doğru yolu nəsib etmişdik."***

***"Beləcə İbrahimə göylərin və yerin mülkünü, səltənətini batini aləmini göstərdik ki, tam qənaətlə inananlardan olsun."[1]***

Məlum olduğu kimi, "yəqin" elmin ən ali mərhələsidir və bir şeydə yəqinlik hasil edən şəxsin şəkk və şübhə etməsi qeyri-mümkündür.

O ki, qaldı İbrahim(ə)-ın Allah-təalaya etdiyi duaya (istəyə),

"İbrahim dedi: Ey Rəbbim ölüləri nə cür diriltdiyini mənə göstər!" Yalnız bunu demək kifayətdir ki, İbrahim (ə) ölülərin dirilməsini yox, sadəcə olaraq bu işin necə baş verdiyini (keyfiyyətini) istəmişdi və bu da onun şəkk etməsinə əsla dəlalət etməyir. İbrahim (ə) (kəyfə) deyərək müraciət etmişdir, bu da yalnız bir şeyin necəliyinə dəlalət edir. Məsələn, birindən soruşanda ki, (Kəyfə Zeydun) Zeyd necədir? Məqsəd ya onun özünün sağlam olub olmaması, yaxud işlərinin nə yerdə olmasıdır. Yəni sağlamdır, ya yox; işləri öz qaydasındadır, ya yox.

Başqa bir misal:

Filan iş necə oldu? Yəni istənilən kimi oldu, ya yox?

İbrahim (ə) bu həqiqətə yəqin hasil etdikdən sonra onun necə baş verməsini bilmək istəyir və eyni zamanda ölülərin dirilməsinə zərrə qədər də olsun şübhə etməyirdi. Allah-təala ondan iman gətirməsini soruşduqda İbrahim (ə) belə cavab vermişdir: (Bəla) yəni: Bəli, elədir, iman gətirmişəm, lakin ölülərin necə dirilməsini görməklə qəlbimin sakitləşməsini istəyirəm. Onların öldükdən sonra yenidən dirilib hərəkət etmələrini görməklə özümdə yəqin hasil edər və qəlbi rahatlıq hiss edərəm.

2-Həzrət Peyğəmbər "Biz şəkk etməkdə İbrahimdən daha haqlıyıq" deməklə özünün və digər peyğəmbərlərin İbrahim(ə)-dan daha çox şəkk etdiklərini isbat etmiş olur.

---

[1] "Ən"am" surəsi, ayə:75

***"Allah pak və münəzzəhdir, bu isə böyük bir böhtandır."***
Təəssüflər olsun ki, İslam ümmətinin bir qolunu təşkil edən "icmaçılar" ağıln qəbul etmədiyi belə bir batil və məntiqsiz əqidəyə əsaslanırlar.

Elm, mərifət və əxlaqın ən ali dərəcələrinə yiyələnmiş Həzrəti Məhəmməd(s)-in İbrahim(ə)-dan daha çox şəkk etməsi bizim üçün hələ də qaranlıq qalır. Allah-təala onun məqamını hamıdan uca tutdu və kimsənin yiyələnmədiyi elm və mərifəti onun ixtiyarına qoydu.

Həzrəti Məhəmməd (s) Əli(ə)-ı özündən sonra canişinliyə təyin etdi və elm, mərifət və əxlaqın bütün qapılarını onun üzünə açdı, o həzrəti "elmin qapısı" adlandırdı:

"Mən elmin şəhəri, Əli isə onun qapısıdır."

Həzrəti Əli(ə)-dan nəql olunmuş hədisdə deyilir: "Əgər həqiqət pərdələri gözlərim önündən çəkilsə mənim (yəqin) elmimə bir şey əlavə olmaz."

Peyğəmbər(s)-in canişini (naibi) belə bir (İlahi) məqama çatdığı bir halda o həzrətin özünün şəkk etməsini təsəvvür etmək olarmı?!

3-"Allah özü Lut(ə)-a rəhmət etsin. O, Allahın ona kömək edəcəyinə bir o qədər arxayın deyildi."

Bütün bu iftiralardan Allaha pənah aparıram! Həzrəti Məhəmməd (s) Lut(ə)-ın məqamını hamıdan yaxşı dərk etdiyi bir halda onun haqqında belə xoşagəlməz və nalayiq sözlər deməsi böhtandan savayı başqa bir şey deyildir. And olsun Allaha ki, Məhəmməd(s)-in bütün dedikləri haqq idi və haqdan başqa bir şey deyildi.

4-"Əgər mən həzrəti Yusif qədər zindanda qalsaydım mütləq səbrim tükənər və məni azadlığa buraxmaq istəyən şəxsə "bəli" cavabını verərdim."

Hədisin məzmunundan Yusif(ə)-ın Həzrəti Məhəmməd(s)-dən üstün olduğu məlum olur. Belə bir əqidəni islam aləmində heç bir məzhəb və təriqət qəbul etməyir. Əbu Hüreyrə bu hədisi uydurmaqda nə məqsəd güdmüşdür? Onu bir Allah bilir! Bu sözü təcavüzkarlıq üzündən deyildiyinə dair müxtəlif bəhanələrə əl atsalar belə onun həqiqi və mötəbər olduğuna istinad etmək olmaz.

Çünki, belə bir iş həzrəti Məhəmməd(s)-in peyğəmbərliyinə xələl gətirə bilərdi.

Həzrəti Məhəmməd (s) Yusif(ə)-ın yerində olasaydı belə ondan artıq səbr edər və təqvanı hər şeydən üstün tutardı.

Hörmətli oxucular belə güman etməsinlər ki, biz Yusif(ə)-a qarşı qərəzli mövqe tutmuşuq və onun məqamını kiçiltməyə çalışırıq. Xeyr! Sadəcə olaraq biz həzrəti Məhəmməd(s)-ə vurulan ittihamları rədd edir və həqiqəti üzə çıxarmaq istəyirik.

Həzrəti Məhəmməd(s)-in həmin şəxsə "bəli" cavab verməsi isə qeyri-mümkündür. Həzrəti Yusif (ə) padşahın göndərdiyi şəxs onu azad etdiyi zaman dedi:

***“Öz sahibinin yanına qayıdıb soruş ki, əllərini kəsən o qadınların məqsədi nə idi? Həqiqətən Rəbbim onların məkrini biləndir. (Padşah həmin qadınları çağırtdırıb soruşdu:) Yusifi aldadıb yoldan çıxartmaq istədikdə məqsədiniz nə idi? Qadınlar: “Allah eləməsin! Biz onun barəsində bir şey bilmirik!” -deyə cavab verdilər. Əzizin zövcəsi (Züleyxa) dedi: “Artıq həqiqət bəlli oldu. Yusifi tovlayıb yoldan çıxartmaq istəyən mən idim. O şübhəsiz ki, doğru danışanlardandır!”***[1]

Yusif (ə) zindandan çıxdığı zaman onun günahsız olduğu artıq hamıya məlum idi və onun zindanda (qəsdən) qalmaqda məqsədi bu idi ki, onu əxlaqsızlıqda günahlandıran hər bir şəxs öz səhvlərini etiraf edib hamının qarşısında onun günahsız olduğunu iqrar etsinlər.

Həzrəti Məhəmməd (s) isə səbr, helm, dözümlülük və düzgünlüyü hər şeydən üstün tutar, haqq və ədaləti hər bir işdə meyar tutardı.

Yaxşı olardı ki, Əbu Hüreyrə belə bir iftiranın yerinə bu həqiqəti bəyan edəydi: “Əgər Həzrəti Məhəmməd (s) Yusif(ə)-dan çox zindanda qalsaydı, o da zindandan çıxmaz və onun kimi təvəssül* etməzdi.”

Yusif(ə)-ın əhvalatından belə məlum olur ki, o, zindanda olarkən sarayın iki xidmətçisi də onunla birlikdə olurlar. Onlar (xidmətçilər) zindandan çıxdıqları zaman Yusif (ə) onlardan belə bir xahiş edir:

***“(Yusif) bu iki nəfərdən nicat tapacağını yəqin etdiyi (şəxsə yuxuda şərab paylayana) dedi: “Ağanın yanında məni də yada sal!”***[2]

O şəxs (yuxuda şərab paylayan) zindandan çıxandan sonra şeytan Yusif(ə)-ın dediklərini onun yadından çıxarır.

***“Lakin Şeytan ona, ağasının yanında Yusifi yada salmağı unutdurdu.”***[3]

***“(Və buna görə də Yusif) bir neçə il (yeddi və ya on iki il) zindanda qaldı.”***[4]

Bu, Allah-təala tərəfindən Yusif(ə)-a edilən bir növ xəbərdarlıq idi. Çünki o hər şeyə qadir olan Allahdan yox, zəmanənin padşahından kömək gözləmişdi.

Bir anlıq Həzrəti Məhəmmədin (s) həyatına nəzər salsaq görəcəyik ki, o həzrətin başına gələn çətinlik və müsibətlər Yusif(ə)-ın qarşılaşdığı çətinliklərdən qat-qat ağır, çətin və daha dözülməz olmuşdur. Onun həyatda üzləşdiyi müsibətlər Həzrəti Əyyub(ə)-ın və Yəqub(ə)-ın qarşılaşdıqları çətinliklərlə müqayisə edilməz dərəcədə çətin və ağır olmuşdur.

Amma bütün bunlara baxmayaraq o, bir an olsun belə, bu çətinliklərin qarşısında süstləşməmiş, düşmənlərinin hiylə və məkrlərinə cəsarətlə sinə

---

[1] “Yusif” surəsi, ayə:50-51

[2] “Yusif” surəsi, ayə:42

[3] “Yusif” surəsi, ayə:42

[4] “Yusif” surəsi, ayə:42

gərmişdir. Həzrəti Məhəmməd (s) həyatla mübarizəsini hələ uşaq yaşlarından başlamışdır. Dünyaya gəlməzdən əvvəl atasını, sonra uşaqlıq dövründən gözünün ağı-qarası olan anasını, sonra ən yaxın hamisini-babası Əbdülmüttəlibi itirmişdir. Ailə qurduqdan sonra onun qövmü (yəni Haşimilər) Qureyş qəbiləsi tərəfindən (iqtisadi-ictimai) mühasirəyə düşür və üç il çəkən mühasirənin ən çətin günlərində ona təsəlli verən və yardımçısı olan zövcəsi Xədicə və əmisi Əbu Talib vəfat edir. Sonra təqibə məruz qalır və Allahın əmri ilə Məkkədən Mədinəyə mühacirət edir. Hələ özü sağ ikən Fatimə(ə)-dan başqa bütün övladları vəfat edir. Hicrətdən sonra baş vermiş müharibələrdə özünün ən yaxın sirdaşlarını (səhabələrini) itirir və dəfələrlə canı təhlükə ilə üzləşir.
İndi özünüz deyin, tarixdə Həzrəti Məhəmməd(s)-dən çox müsibət görən və çətinliklərlə üzləşən ikinci bir peyğəmbər olmuşdurmu? Ondan başqa bu müsibətlərə kim dözə bilərdi?
***“(Ya Məhəmməd!) Yadına sal ki, bir zaman kafirlər səni həbs etmək və ya öldürmək, yaxud da çıxarıb qovmaq üçün sənə qarşı hiylə qururdular.”[1]***
***“Əgər siz Peyğəmbərə kömək etməsəniz, (bilin ki,) Allah ona kömək etmişdir. O zaman ki, kafirlər onu Məkkədən iki nəfərdən biri olaraq çıxartdıqları, hər ikisi mağarada olduğu və öz yoldaşına (Əbu Bəkrə) “Qəm yemə, Allah bizimlədir!” -dediyi zaman göstərmişdi. O vaxt Allah ona (Peyğəmbərin qəlbinə) bir aramlıq nazil etmiş, onu sizin görmədiyiniz (mələklərdən ibarət) qoşunla müdafiə etmişdir.”[2]***
***“Siz dağa çıxdığınız və Peyğəmbər arxanızdan sizi çağırarkən heç kəsə baxma-dığınız zaman Allah sizin qəminizin üstünə qəm qoymaqla cəzalandırdı ki, əlinizdən çıxan şeylərə və uğradığınız fəlakətlərə təəssüf etməyəsiniz.”[3]***
***“Həqiqətən siz Bədrdə az və zəif olduğunuz halda Allah sizə yardım etdi.”[4]***
***“O zaman onlar üstünüzə-həm yuxarı, həm də aşağı tərəfdən hücum etmişdilər və gözünüz hədəqəsindən çıxıb ürəyiniz ağzınıza gəlmişdi. Allah barəsində də müxtəlif fikirlərə düşmüşdünüz. Məhz onda möminlər imtahana çəkilmiş və möhkəm sarsılmışdılar”.[5]***

---

[1] “Ənfal” surəsi, ayə:30.
[2] “Tövbə surəsi, ayə:40.
[3]“Ali-İmran” surəsi, ayə:153
[4]“Ali-İmran” surəsi, ayə:123
[5]“Əhzab” surəsi, ayə:10-11

***“Hüneyn günü çox olmağınız sizi valeh etsə də, bir faydası olmadı: yer üzü genişliyinə baxmayaraq sizə dar gəldi, sonra dönüb qaçdınız. Sonra da Allah öz Peyğəmbərinə və möminlərə arxayınçılıq nazil etdi.”***[1]

Qur”ani kərimdə bu mövzuya dair başqa ayələr də vardır. Biz yuxarıda qeyd etdiyimiz ayələrlə Əbu Hüreyrənin uydurduğu hədislərin müqabilində ondan və onu müdafiə edən təəssübkeş şəxslərdən məntiqi və möhkəm dəlillərə əsaslanan cavab tələb edirik.

Allahın salamı olsun Həzrəti Məhəmməd(s)-ə və bütün peyğəmbərlərə!

### *11-ci hədis*

***Əyyub (ə) qüsl aldığı zaman qızıl çəyirtkələr onun bədəninə daraşır, O, bu çəyirtkələri yığdığı üçün Allah-təala onu tənbih edir***

Buxari və Müslüm bu hədisi bir neçə mənbədən istifadə edərək Əbu Hüreyrədən nəql etmişlər. Hədisdə deyilir: Əyyub (ə) çimərkən (qüsl alarkən) qızıl çəyirtgələr onun bədəninə daraşır. O tez çəyirtgələri yığıb paltarlarının ciblərinə doldurur. Allah-təaladan ona belə bir nida gəlir: Ey Əyyub! Mən səni bütün bunlardan ehtiyacsız etməmişəmmi?

Əyyub (ə) dedi: Bəli! Ey mənim Rəbbim, elədir. Amma, and olsun Sənin izzəti cəlalına, bir an olsun belə, Sənin bərəkətindən ehtiyacsız olmamışam.

Bu hədisə istinad etmək üçün insan mənən kor və çox sadəlövh olmalıdır.

Qızıl çəyirtgələr yalnız qeyri-adi hallarda (məsələn, peyğəmbərlərin möcüzələrini sübuta yetirmək üçün) Allah-təala tərəfindən yaradıla bilər. Onun yaratdığı hər məxluqatda və gördüyü hər bir işdə dərin hikmət vardır. Yer üzündə hərəkət edən hər bir canlı təbii varlıq və baş verən hadisələr boş yerə yaradılmamış və müəyyən hədəf olmadan icra olunmayır (həyata keçirilməyir). İlahi peyğəmbərlərdən biri çimdiyi bir halda qızıl çəyirtgələri yaratmaqda və onları Əyyub(ə)-ın başına tökməkdə nə məqsəd ola bilərdi?

Ümumiyyətlə, sağlam əql bütün bunları nə dərəcədə düzgün qəbul edə bilər?!

Fərz edək ki, çəyirtgələr elə doğrudan da Əyyub(ə)-ın bədəninə daraşmışlar. Belə bir vəziyyətdə ilahi nemətə göz yummaq olarmı? Onları yığıb səmərəli şəkildə istifadə etmək hər bir aqil insana vacibdir. Deməli əgər Əyyub (ə) çəyirtgələri yığmış olsaydı belə, bu işdə heç bir nöqsan tutmaq lazım deyildir.

İlahi nemətlərdən səmərəli istifadə etmək hər bir insanın həyatda öhdəsinə düşən ən ümdə məs”uliyyətlərdən biridir. Onlara göz yummaq və ya şükrünü yerinə yetirməmək peyğəm-bərlər üçün küfr ilə bərabərdir və onlar bütün mənfi xüsusiyyətlərdən uzaq və münəzzəhdirlər.

Peyğəmbərlərə var-dövlət nəsib olduğu zaman onun hamısını (və ya əksər hissəsini) yaşadıqları cəmiyyətdə ehsan edərdilər və təbii ki, bu da yalnız

---

[1]“Tövbə surəsi, ayə:25-26.

Allahın razılığına səbəb ola bilərdi. Digər tərəfdən isə Allah öz bəndə-lərinin ehtiyaclarını onların özlərindən daha yaxşı bilir. Bu səbəbdən də onları mal-dövlət yığmaq üçün (Əyyub(ə)-a işarə edilir) heç vaxt danlayıb tənbih etməz.

***12-ci hədis***

***Qarışqaları yandırdığı üçün Musa (ə)-ın Allah-təala tərəfindən danlanması***

Buxari və Müslüm bu hədisi Əbu Hüreyrədən nəql etmişlər. Hədisdə deyilir: "Günlərin biri Musa(ə)-ın ayağını qarışqa dişləyir. O da qəzəblənərək ətrafda olan bütün qarışqa yuvalarına od vurub yandırmağı əmr edir. Allah-təaladan Musa(ə)-a belə bir vəhy nazil olur: Səni yalnız bir qarışqa dişlədi, sən isə ətrafdakı bütün qarışqaları yandıraraq məhv etdin?!"

Əbu Hüreyrə peyğəmbərlərə qəlbən vurğun olduğu üçün onlar haqqında belə qəribə, amma ürək ağrıdan dastanlar uydurardı.

Əli (ə) xütbələrinin birində buyurur:

"And olsun Allaha! Əgər yeddi iqlimi və onlarda mövcud olan bütün nemətləri mənə versələr qurumuş buğda qabığını belə qarışqanın ağzından almaram. Dünya mənim nəzərimdə çəyirtgənin ağzında çeynədiyi yarpaqdan daha dəyərsizdir."

Əli (ə) Peyğəmbər olmadığı bir halda bu sözləri söyləyirsə onda hər bir eyb və nöqsandan uzaq olan məsum İlahi peyğəmbərlərdən biri belə böyük səhvə yol verə bilərdimi?

Xətakar və cahil insanların peyğəmbərliyə seçilməsi qeyri-mümkündür. Allah və Onun peyğəmbərləri haqqında belə xurafi hədisləri uydurmaq isə səfeh və nadan insanların işidir. Əbu Hüreyrənin ilahi peyğəmbərlər haqqında nəql etdiyi bu hədisləri yığaraq kitab halına salan müəlliflərin bu işdən nə məqsəd güddükləri bizə hələ də qaranlıq qalır. Maraqlıdır, görəsən onlar qiyamət gününün sorğu-sualından qorxmurlarmı?! Məgər onlar bilməyirlər ki, yandırmaq yalnız Allaha xas olan cəza üsuludur və Onun peyğəmbərləri belə bir böyük səhvə yol verə bilməzlər?! Bu hamıya şamil olan ümumi şəri bir qanundur və onun icrası digər qadağan olunmuş işlər kimi günah sayılır.

***"Allahdan başqa od ilə əzab verən olmaz."***

Əbu Davud İbni Abbasdan, o da Peyğəmbər(s)-dən nəql etdiyi hədisdə deyir: "Qarışqanı, arını, şanapipiyi və qartalı öldürməkdən çəkinin."

***13-cü hədis***

***Həzrəti Məhəmməd (s) iki rük`ətli namazı unudur!***

Buxari və Müslüm kitablarının "Namazda səhv" bölümündə Əbu Hüreyrədən nəql etdikləri hədisdə belə bir mövzuya toxunmuşlar: "Günlərin biri Peyğəmbər (s) dörd rükətli günorta namazını iki rükət qılıb salamları deyərək namazı bitirdi. Sonra məsciddən eşiyə çıxıb əlini kənardakı kiçik dirəyin üzərinə qoyub dayandı. Əbu Bəkr və Ömər də namaz qılanların arasında idilər. Onlar

Peyğəmbər(s)-dən çəkinərək bir söz deməyə cəsarət etməyirdilər. Camaat tələm-tələsik Peyğəmbər(s)-in yanına gəlib ondan soruşdular: “Ya Rəsuləllah! Namazı özünüz (bilərəkdən) şikəstə (qısa) qıldınız?

Peyğəmbər(s)-in Zül-yədəyn adlandırdığı şəxs o Həzrəti səsləyib soruşdu: Ya Rəsuləllah! Yadından çıxdı, ya özün bilərəkdən iki rükətli qıldın?

Peyğəmbər (s) buyurdu: Nə yadımdan çıxdı, nə də unutdum.

Bir qədər keçdikdən sonra buyurdu: Yox, unutmuş idim.

Qalxıb yenidən iki rükət namaz qıldı. Salamları dedikdən sonra təkbir (Allahu əkbər) deyib səcdəyə getdi.”

Hədisə tutulan bir neçə irad:

1-Belə bir işi yalnız namaza əhəmiyyət verməyən və qəlbən namaza bağlılığı olmayan şəxslərdən gözləmək olar. Namaza əhəmiyyət verən və qəlbən özünü Allahın hüzurunda hiss edən şəxslərin belə bir səhvə yol verməsi qeyri-mümkündür.

Peyğəmbərlərin sonuncusu Həzrəti Məhəmməd (s) təkbir deyib namaza başlayarkən bu dünyadan ayrılıb Allahın dərgahına qovuşar, cismən və ruhən Allahın ixtiyarında olardı. Amma Əbu Hüreyrə bütün bunların üzərindən xət çəkir və heç nədən çəkinmədən Peyğəmbər(s)-i ibadətdə ikən səhlənkarlıqda ittiham edir.

2-Qeyri-mümkün olsa da bir anlıq belə fərz edək ki, bu hadisə elə belə də olmuşdur.

Məgər onun özü deməyirmi ki, “nə bilərəkdən şikəstə (qısa) qıldım və nə də unutqanlıq üzündən oldu!” Necə olur ki, bu sözləri öz dili ilə iqrar edən bir Allah Peyğəmbəri sonra özü bunu unutduğunu etiraf edərək deyir:

“Şikəstə qılmadım, sadəcə olaraq unutdum.”

Bütün müsəlman ümməti belə bir əqidədədir ki, Həzrəti Məhəmməd (s) məsum (günahsız) bir şəxs olmuşdur və onun şəri məsələlərdə belə bir səhvə yol verməsi qeyri-mümkündür. Biz Əbu Hüreyrəni canfəşanlıqla müdafiə edən “din alimlərinə” və “mühəddislərinə” belə bir sual veririk: Sizin müdafiə etdiyiniz ravi axı hansı əqidəyə sahib olmuşdur və bu onu belə məntiqsiz hədislər uydurmağa vadar edən hansı (xarici) amillər olmuşdur?

Peyğəmbər(s)-in eyni zamanda iki müxtəlif və ziddiyyətli söz deməsi onun ismətinə xələl gətirməzdimi? Biz müsəlmanlar bir tərəfdən Peyğəmbər(s)-in məsumluğunu sübut etməyə çalışırıq, digər tərəfdən isə onun adına müxtəlif iftiralar yaxaraq səhlənkarlıqda günahlandırmağa çalışırıq.

Vay Əbu Hüreyrənin halına! Vay ondan ağız dolusu (yalan hədislər) nəql edən şəxslərin halına!

3-Əbu Hüreyrənin nəql etdiyi bu hədisdə heç bir dəqiq mətləb nəzərə çarpmayır. O şikəstə qılınan dörd rükətli namazı bəzən “zöhr”, bəzən də “əsr”

adlandırmışdır. Məsələn, nəql olunmuş mənbələrdən birində deyilir: “Biz həzrəti Peyğəmbər (s) ilə əsr namazını qılırdıq və o həzrət əsr namazını iki rükət qıldı.” Başqa bir yerdə deyir: “Biz Peyğəmbər ilə zöhr namazını qılırdıq və o Həzrət...”

4-Peyğəmbər(s)-in namazından qalxıb əlini qapının tirinə qoyması, camaatın məsciddən tələm-tələsik çıxması və ondan namazı nə üçün şikəstə qılmasını soruşmaları, Zül-yədəyin Peyğəmbər(s)-dən etdiyi sual “Ya Rəsuləllah, namazı özünüz bilərəkdən iki rükət qıldınız, yoxsa yadınızdan çıxdı” və həzrəti Peyğəmbərin “nə unutdum, nə də şikəstə qıldım” deyərək cavab verməsi, sonra isə əshaba müraciət edərək “Zül-yədəyn düzmü deyir?” soruşması, onların da: Bəli demələri və s. kimi Əbu Hüreyrənin bu kimi uydurmaları[1] namazın həqiqi və əsli surətinin aradan getməsinə səbəb ola bilərdi. Halbu ki, müqəddəs İslam şəriətində sübuta yetirilibdir ki, namazın əsli surətinin pozulmasına səbəb olan hər bir şey namazın batil olmasına səbəb olur və belə olduğu bir halda namazın iki rükət qılınmasına əsaslanmaq olmaz. Yəni namaz batil olur və onu yenidən dörd rükət qılmaq lazımdır.

5-Hədisdə adı çəkilən “Zül-yədəyn” Bəni Zöhrə qəbiləsi ilə əhd-peyman bağlamış Əbu Əmrin oğlu Zül-Şəmaləyndir. O, hicrətin ikinci ilində Bədr döyüşündə şəhid olmuş şəxslərdən biridir və Bəni-Zöhrənin imamı idi Məhəmməd ibni Müslüm də öz əsərində bu mətləbə işarə etmişdir. “Əl-İstiyab” və “Əl-İsabə adlı kitablarda da bu məsələ geniş şəkildə şərh edilmişdir.

Zül-yədəyn və Zül-Şəmaləynin bir şəxsin adı olduğunu sübut etmək üçün Nəsayidən nəql olunmuş hədislərdən yalnız birinə işarə etmək kifayətdir. Hədisdə deyilir: Əbu Ömərin oğlu Zül-Şəmaləyn Peyğəmbər(s)-ə dedi: “Namazı özünüz (bilərəkdən) şikəstə qıldınız, yoxsa unutdunuz? Peyğəmbər (s) üzünü əshaba tutub soruşdu: Zül-yədəyn nə deyir?

Hədisin məzmunundan belə məlum olur ki, Zül-yədəyn elə həmən Zül-Şəmaləyn olmuşdur. Bu hədisi daha geniş şəkildə Əhməd ibni Hənbəl özünün “Əl-Müsnəd” adlı kitabında Əbu Sələmədən, o da atası Süleymandan və o da Əbu Xəysəmədən nəql etmişdir. Onların hər ikisi (yəni həm Əbu Ömər və həm də Əhməd ibni Hənbəl) bu hədisi Əbu Hüreyrədən nəql edərək deyirlər: “Həzrəti Peyğəmbər ya zöhr (günorta), ya da əsr (ikindi) namazını iki rükət qıldı.

Əbu Ömərin oğlu Zül-Şəmaləyn Peyğəmbər (s)-dən soruşdu: Ya Rəsuləllah! Namazı özünüz bilərəkdən iki rükət qıldınız, yoxsa yadınızdan çıxdı? Peyğəmbər (s) əshabdan soruşdu. Zül-yədəyn nə deyir? Onlar cavab verdilər: Bəli, o düz deyir, ya Rəsuləllah!

---

[1] Əbu Hüreyrə başqa bir yerdə belə rəvayət edir: “Həzrət Peyğəmbər öz hücrəsinə (otağına) daxil oldu, sonra camaat tərəfə gəldi.

Əbu Musa Cə"fər Mustəğfəridən bu hədisi belə nəql edir: "Əl-İsabə adlı kitabda Nəzlənin oğlu Əbu Əmrin şərhi-halını yazarkən Kəsirin oğlu Məhəmmədə, o da Ovzə"iyə, o da Zühəriyə, o da Müsəyyib oğlu Səid və həmçinin Abdullah oğlu Übeydullah və Əbu Sələməyə istinad edərək Əbu Hüreyrədən belə nəql edirlər: "Həzrəti Peyğəmbər (s) zöhr namazını qılarkən ikinci rükətdən sonra salamları deyib namazını bitirdi. Bəni-Xüzaə qəbiləsindən olan və Bəni-Zöhrə qəbiləsi ilə peyman bağlayan Nəzlə oğlu Əbu Əmr Peyğəmbər(s)-in yanına gəlib soruşdu: Ya Rəsuləllah! Namazı özünüz şikəstə qıldınız, yoxsa dörd rükət qılmaq yadınızdan çıxdı?

Həzrət Peyğəmbər (s) üzünü əshaba tutub onlardan soruşdu: Zül-Şəmaləyn düzmü deyir?....." (Hədisin sonunadək).

Deməli, belə məlum olur ki, Zül-yədəyn Bəni-Zöhrə ilə əhd-peyman bağlamış Əbu Əmrin oğlu həmən Zül-Şəmaləyndir.

Bu da hamıya məlumdur ki, bu şəxs (Zül-yədəyn) Əbu Hüreyrə islamı qəbul etməzdən əvvəl "Bədr" döyüşündə şəhadətə çatmışdır və onu şəhid edən şəxsin adı Üsamə Cəşəmi olmuşdur. İbni Əbdül-Birr kimi ravilər bu həqiqəti dəfələrlə öz kitablarında qeyd etmişlər.

Ey ağıl və düşüncə sahibləri! Bir anlıq papağınızı qarşınıza qoyub yaxşı-yaxşı fikirləşin: Əbu Hüreyrə islamı qəbul etməzdən beş il əvvəl şəhid olmuş bir şəxs ilə birlikdə Peyğəmbər(s)-in arxasında namaz qıla bilərdimi??

İmam Təhavi Əbu Hüreyrəyə bəraət qazandırmaq üçün belə bir bəhanəyə əl atır: "Əbu Hüreyrə hədisi nəql edərkən "biz" deyəndə özünü deyil, orada olan müsəlmanları nəzərdə tutmuşdur (yəni bunu təvazökarlıq üzündən demişdir)." Cavabında biz deyirik ki, sizin gətirdiyiniz dəlil tamamilə səhv və əsassızdır, çünki Müslüm "Səhih" kitabının "namazda səhv" fəslində bu hədisi belə nəql etmişdir: "Əbu Hüreyrə deyir: Mən Peyğəmbər ilə birlikdə zöhr namazını qılırdım. O, dörd rükətli zöhr namazını iki rükət qıldı."

Bəlkə, deyəsiz Əbu Hüreyrənin sözləri bu hədisdə məcazi məna daşımışdır?!

Xeyr! Sadəcə olaraq onlar həqiqətə müxtəlif don geydirmək istəyirlər.

Əcəb cahil və qanmaz insanlara rast gəlmişik!

***"Allah tərəfindən gəlmişik və Ona tərəf qayıdacağıq."***

### *14-cü hədis*

### *Həzrəti Peyğəmbər (s) bəzən günahsızları qırmancla vurar, döyər, söyər və təhqir edərdi!*

Buxari və Müslüm bu hədisi Əbu Hüreyrədən nəql etmişlər. Hədisdə deyilir: Peyğəmbər (s) etdiyi duaların birində buyurmuşdur:

İlahi! Məhəmməd də bir bəşərdir. Bəzən mən də onlar kimi qəzəblənir və çox sərt oluram. Sən mənimlə əhd-peyman bağladın və Sən heç vaxt öz və"dənə xilaf iş görməzsən. Hər kimi vurub, döyüb və ya təhqir etmişəmsə, bunu onların

kəffarəsi bil və günahlarını bağışla. İlahi! Sən özün onları əfv et və özünün yaxın bəndələrindən qərar ver"
***
Peyğəmbərlər nə qəzəbləndikləri zaman, nə də adi hallarda kimsəni səbəbsiz olaraq nə vurar, nə də təhqir edərlər (və ya lə"nət oxuyarlar).
Ümumiyyətlə, peyğəmbərlərin səbəbsiz olaraq (digər insanlar kimi) qəzəblənməsi qeyri-mümkündür. Allah pak və münəzzəh olduğu kimi, Onun peyğəmbərləri də məsum və pak olarlar və bir kəsi döymək, söymək, lə"nət oxumaq, təhqir etmək onların şə"ninə yaraşmaz. Onların söylədikləri hər bir sözdə və gördükləri hər bir işdə dərin hikmət olmuş və vardır.
Hamıya məlumdur ki, mömin bir şəxsi səbəbsiz olaraq döymək, söymək, qarğış etmək və ya təhqir etmək və s. böyük günahlardan biri hesab olunur və bunlardan birini həyata keçirən hər bir şəxs şəri nöqteyi-nəzərdən günahkar hesab edilir. Həmin şəxs tövbə etməli və haqq yola qayıtmalıdır. Əməli saleh möminlər bu işlərdən həzər etdikləri bir halda Allahın yer üzərindəki sonuncu Peyğəmbəri, bəşəriyyətə insanlıq və ədalət nişanəsi olan Həzrəti Məhəmməd (s) belə böyük bir səhvə yol verə bilərdimi?!
O özü bu barədə buyurur: "Müsəlmanı söymək, təhqir etmək böyük günahlardan biridir."
Əbu Hüreyrənin Peyğəmbər (s) haqqında nəql etdiyi başqa bir hədisdə deyilir: Əshab Peyğəmbər(s)-ə dedilər:
Ya Rəsuləllah! Müşriklərə qarğış et!
Həzrəti Məhəmməd (s) buyurdu: Mən nifrin etmək üçün deyil, bəşəriyyətə rəhmət olaraq peyğəmbərliyə göndərilmişəm (yəni onları günah işlərdən çəkindirib Allahın rəhmət dərgahına qovuşdurmaq üçün peyğəmbərliyə göndərilmişəm).
Kafirlərə qarşı belə bir münasibətdə olan həzrəti Məhəmməd (s) öz yaxın adamlarına qarşı kobudluq edə bilərdimi?
Həzrəti Peyğəmbər(s)-dən nəql olunmuş başqa bir hədisdə deyilir: "Nifrin edən və lə"nət oxuyan şəxslər qiyamət günü nə şəfaət olunarlar, nə də şəhadət verərlər."
Abdullah ibni Ömər Peyğəmbər (s) haqqında belə deyir: Peyğəmbər söyüş söyən və nalayiq sözlər deyən bir şəxs deyildi. O həmişə deyərdi: "Sizin ən yaxşınız gözəl əxlaqa malik olanınızdır." Ənəsdən rəvayət olunmuş hədisdə deyilir: "Peyğəmbər (s) heç vaxt başqalarına lə"nət oxumazdı və kimsəni təhqir etməzdi." Əbuzər Həzrəti Məhəmməd (s) peyğəmbərliyə təyin olunduqdan sonra qardaşına dedi:
Atını min və dərin mənalı sözlər eşitmək üçün onun yaşadığı məhəlləyə gəl. (Qardaşı) evə qayıtdıqdan sonra dedi: O böyük əxlaqa malikdir. Fərman verdiyi şəxslər ilə də çox mehribanlıqla rəftar edir.

Abdullah ibni Ömər deyir: Çalışırdım ki, Peyğəmbər(s)-in söylədiyi hər bir şeyi yazıb gələcək nəsillərə çatdırım, amma Qureyş camaatı məni bu işdən uzaqlaşmağa vadar edirdilər. Onlar mənim bu işimə irad tutaraq deyirdilər: Məgər bilməyirsən ki, Peyğəmbər (s) bəzən qəzəbli, bəzən də aram (sakit) olur? Mən bir müddət bu işdən əl çəkdim. Günlərin biri Peyğəmbər(s)-in yanına gedib əhvalatı ona danışdım. Peyğəmbər (s) məni dinlədikdən sonra barmağı ilə ağzına işarə edib dedi:

Yaz! And olsun Allaha ki, buradan (yəni ağzımdan) həqiqətdən başqa bir şey xaric olmayır."

Əmr ibni Şueyb atasından və o da öz babasından nəql etdiyi rəvayətdə deyir: Ya Rəsuləllah! Sizdən eşitdiyimiz hər bir sözü kağız (dəri) üzərinə köçürəkmi? Buyurdu: Bəli. Soruşdum: Xoşhal və qəzəbli hallarda söylədiklərinizidəmi? Buyurdu: Bəli, mən hər bir halda olsam, həqiqətdən başqa bir şey deməyirəm.

Ayişədən Peyğəmbər(s)-in əxlaqı və davranışı haqqında soruşduqda belə cavab verərdi: Bu vaxta qədər heç Qur''an oxumusunuzmu? Cavab verirlər: Bəli. Sonra Ayişə deyərdi: Onun əxlaqı və rəftarı Qur''andır.

Ayişənin belə bir cavab verməsi heç də təəccüblü deyildir. Çünki o, illər boyu Peyğəmbər (s) ilə birlikdə yaşamış və onun Qur''ana nə qədər bağlı olduğunu hamıdan yaxşı dərk edə bilmişdir.

Həzrəti Məhəmməd (s) Qur''anın qadağan etdiyi şeyləri hamıdan əvvəl özünə haram edər, əmr etdiyi şeyləri isə təxirə salmadan yerinə yetirərdi. Bəşəriyyəti haqqa və ədalətə hidayət edən Həzrəti Məhəmməd (s) Qur''anla yaşayır və hər zaman ona müraciət edərək mənən qidalanırdı.

O böyük insanın əxlaqını dərk etmək üçün aşağıdakı ayələrə diqqət yetirin:

***"Mömin kişiləri və (möminə) qadınları etmədikləri bir işdən (günahdan) ötrü incidənlər şübhəsizdir ki, öz əllərinə açıq-aydın bir günah götürmüşlər."[1]***

***"O şəxslər ki, günahlardan və rəzil işlərdən çəkinər və (birinə) qəzəbləndikləri zaman onun günahlarını bağışlayalar."[2]***

***"(Müttəqilər o kəslərdir ki,) bolluqda da, qıtlıqda da mallarını yoxsullara xərcləyər, qəzəblərini udar, insanların günahlarından keçərlər. Allah yaxşılıq edənləri sevər."[3]***

***"(Allahın layiqli bəndələri o kəslərdir ki,) cahillər onlara söz atdıqları (xoşları gəlməyən bir söz dedikləri) zaman onlarla gözəl, yumşaqlıqla danışarlar."[4]***

---

[1] "Əhzab" surəsi, ayə:58

[2] "Şura" surəsi, ayə:37

[3] "Ali-İmran" surəsi, ayə:134

[4] "Furqan" surəsi, ayə:63

***“Sən pisliyi yaxşılıqla dəf et! (Qəzəbə səbrlə, cəhalətə elmlə, xəsisliyə comərdliklə, xətaya bağışlamaqla cavab ver!) Belə olduqda, aranızda düşmənçilik olan şəxsi, sanki yaxın bir dost görərsən.”***[1]
***“İnsanlarla xoş danışın.”***[2]
***“Yalan sözlərdən də çəkinin.”***[3]
***“Həddi aşmayın, doğrudan da Allah həddi aşanları sevməz.”***[4]
***“Allah bizə yollarımızı (iman, nicat, səadət yollarını) göstərdiyi halda biz nə üçün Ona təvəkkül etməməliyik?! Bizə verdiyiniz bütün əziyyətlərə, əlbəttə, dözəcəyik. Təvəkkül edənlər də yalnız Allaha təvəkkül etsinlər!”.***[5]
***“Sizdən əvvəl kitab verilmiş kimsələrdən və Allaha şərik qoşanlardan çox əziyyətli sözlər eşidəcəksiniz. Əgər səbr edib, Allahdan qorxsanız, əlbəttə, bu məqsədə müvafiq işlərdəndir.”***[6]
***“Sənə tabe olan möminləri qanadının altına al!”***[7]
***“(Ya Məhəmməd!) Allahın mərhəməti səbəbinə sən onlarla yumşaq rəftar etdin. Əgər qaba, sərt ürəkli olsaydın, əlbəttə onlar sənin yanından dağılıb gedərdilər. Artıq sən onları əfv et, onlar üçün (Allahdan) bağışlanmaq dilə, işdə onlarla məsləhətləş, qəti qərara gəldikdə isə Allaha təvəkkül et!”***[8]

Budur həzrəti Məhəmməd(s)-in həyatı!

Həzrəti Məhəmməd(s)-in əxlaqını bəyan edən bir neçə hədis:

1-”Sizin ən güclünüz o şəxsdir ki, qəzəbləndiyi zaman özünü idarə edə bilsin.”

2-”Nəzakət və mehribanlıqdan məhrum olan şəxs xeyir əməllərdən bəhrələnməz.”

3-”Allah yaxşılıq edənləri və xeyir əməl sahiblərini sevəndir. Mehriban və nəzakətli insanlar Allahın ən sevimli bəndələridirlər. İlahi nemətlərdən bəhrələnən də məhz onlardır.”

4-”Müsəlman o şəxsdir ki, başqaları onun dilindən və əlindən amanda olsunlar.”

Allah-təala Peyğəmbər(s)-i Qur”ani kərimdə belə vəsf etdiyi bir halda:

---

[1] “Fussilət” surəsi, ayə:34

[2] “Bəqərə” surəsi, ayə:83

[3] “Həcc” surəsi, ayə:30

[4] “Maidə surəsi, ayə:87

[5] “İbrahim” surəsi, ayə:12

[6] “Ali-İmran” surəsi, ayə:186

[7] “Şüəra” surəsi, ayə:215

[8] “Ali-İmran” surəsi, ayə:159

***“Doğrudan da sən böyük əzəmətli bir əxlaq sahibisən!”*[1]**
O, günahsız və heç bir təqsiri olmayan şəxslərə qarşı kobudluq edərək, onların haqlarını tapdalaya bilərdimi?!
Əbu Hüreyrənin yalan və iftiralarından Allaha pənah aparıram!
“Onlar Allahı layiqincə tanıyıb qiymətləndirmədilər. Belə isə səbr etmək gözəldir. Allah sizin dediyiniz işlərdə mənim kömək yerimdir.”
Əbu Hüreyrə bu hədisi uydurmaqda iki mühüm məqsəd güdmüşdür:
1-Müaviyənin və Əbul Asın ailəsi ilə daha sıx əlaqə bərqərar edib gələcək planlarını asanlıqla həyata keçirmək.
2-Həzrət Məhəmməd(s)-in münafiqlər haqqında buyurduğu hədisi qüvvədən salaraq müsəlmanların nəzərindən uzaqlaşdırmaq.
Həzrəti Məhəmməd (s) özündən sonrakı nəsilləri Bəni-Üməyyənin cinayətlərindən agah etmək üçün onlara lə”nət oxuyar və nifrin edərdi.
Əbu Hüreyrə isə Bəni-Üməyyə münafiqlərini cəmiyyətdə məsum və mömin şəxslər kimi tanıtmaq üçün, onların şə”ninə müxtəlif mövzularda hədis uydurараq xilafəti özündən razı salmağa çalışırdı. Az da olsa, o bu istəyinə nail oldu, amma həqiqət həqiqət olaraq qalır.
Günlərin biri həzrəti Məhəmməd (s) yuxuda görür ki, Həkəm ibni Əbul Asın övladları onun minbərinin üstündə meymun kimi atılıb-düşür və məscidə daxil olan şəxsləri qovaraq geri qaytarırlar. Həzrəti Məhəmməd (s) bu yuxunu gördükdən sonra ömrünün sonunadək bir daha üzü gülmədi.
***“(O gecə) sənə göstərdiyimiz yuxunu və Qur”anda lə”nətlənmiş ağacı insanlar üçün yalnız bir imtahan etdik. Biz onları qorxuduruq, lakin bu qorxutmaq onların tuğyanını artırmaqdan başqa bir iş görmür.”*[2]**
Allah-təala Peyğəmbər(s)-i əməvilərin gələcəkdə törədəcəkləri cinayətlərdən agah etdi. Xilafətin qəsb edilməsi (zorla ələ keçirilməsi), Peyğəmbər(s)-in övladlarının onlar tərəfindən qətlə yetirilməsi, cəmiyyətdə fitnə-fəsadın geniş şəkildə artması və sair məsələlər məhz əməvi sülaləsinin xilafəti dövründə meydana çıxdı. Bütün bunlara əvvəlcədən agah olan həzrəti Məhəmməd (s) ömrünü qəm-qüssə içində başa vurdu ki,
***“Həlak olan aşkar bir dəlillə həlak olsun, sağ qalan da aşkar bir dəlil üzündən sağ qalsın.”*[3]**
Bir neçə misal:
Günlərin biri Həkəm ibni Əbul As Peyğəmbər (s)-in yanına gəlib ondan hər hansı bir iş üçünsə icazə istəyir. Peyğəmbər (s) üzünü çevirib buyurur: “Ona

---

[1] “Qələm” surəsi, ayə:4
[2] “İsra” surəsi, ayə:60
[3] “Ənfal” surəsi, ayə:42

icazə verin və bilin ki, hər kim onların yolunu davam etsə Allahın lə”nət və qəzəbi onlara şamil olar. Onlar bu dünyada var-dövlət və məqam sahibləri olsalar da, axirətdə böyük və rüsvay edici əzaba düçar olarlar. Onlar hiyləgər və şər insanlardır.”
Başqa bir hədisdə deyilir:
“Əbul Asın övladlarının sayı otuza çatdıqda beytül-malı* öz aralarında istədikləri kimi bölər (və ondan sui-istifadə edərlər). Onlar Allahın dinindən sui-istifadə edərək insanlara əzab-əziyyət verməkdən çəkinməzlər.”
“Bəni-Üməyyə övladlarının sayı qırxa çatdıqda Allahın bəndələrini fitnə-fəsada sövq edər və onların var-dövlətinə zorla sahib olarlar. Onlar hədlərini o qədər aşarlar ki, Allahın kitabını istədikləri kimi mənalandırar və öz mənafeylərinə uyğun olan tərzdə təfsir edərlər.”
Peyğəmbər(s)-in zamanında dünyaya təzə gəlmiş uşaqlara xeyir-dua etmək üçün o həzrətin yanına gətirirdilər. Günlərin biri Mərvan Həkəm təzə dünyaya gəlmiş uşağına xeyir-dua etmək üçün Peyğəmbər(s)-in yanına gətirirlər.
Peyğəmbər (s) uşağın üzünə baxıb buyurdu: “Bu uşaq özü heyvandır, heyvandan da törənmişdir. özü də, atası da məl”undur (Allah lə”nətinə kəlmişdir.)”
Ayişədən nəql olunmuş hədisdə deyilir:
“Peyğəmbər (s) (birinci dəfə) Mərvanın atasına (Həkəmə) lə”nət oxuduğu zaman Mərvan hələ atasının sülbündə idi. (Sonra deyir:) Mərvan da Allahın lə”nətinə gəlmiş şəxslərdəndir.
Şə”bi, Zübeyrin oğlu Abdullahdan nəql etdiyi hədisdə deyir: “Allah Peyğəmbəri (s) Həkəmə və onun övladına (Mərvana) lə”nət oxumuşdur.”
Bunu da qeyd etmək lazımdır ki, bu məzmunda nəql olunmuş hədislərə həm sünnü, həm də şiə mənbələrində rast gəlmək olur.
(Belə hədislərə mütəvatir hədislər deyilir.) Hakimin “Müstədrəküs-səhiheyin” adlı kitabına müraciət etməklə bu mövzuya toxunan kifayət qədər hədis və rəvayət əldə etmək olar. O, kitabının “Əl-fitən vəl-məlahim” fəslində “düşüncə sahiblərinin işi iblağdır” (təbliğ etmək) hədislərindən sonra deyir: “Elm sorağında olan şəxslər bilməlidirlər ki, bu fəsildə bəyan etdiyim hədislər bu mövzu haqqında mövcud olan rəvayətlərin üçdə birini belə təşkil etmir. Bəni Üməyyənin törətdikləri fitnə-fəsad islam ümmətinin qarşılaşdığı və sonralar ona aludə olduğu ilk fitnə-fəsadlar olmuşdur.”
Hakim sonra deyir: “Kitabı yazarkən onların tarix boyu törətdikləri cinayətlərə göz yuma bilmədim və onları öz əsərimdə bəyan etdim.”
Həddindən artıq azğınlaşan Bəni Üməyyə cəmiyyətdə fitnə-fəsad törətməklə yanaşı lə”nətlənmiş İbni Əbul Ası həzrəti Peyğəmbər(s)-dən belə üstün və onun məqamını hamıdan uca tutmağa çalışırdılar.

Onlar həmən kəslərdirlər ki, Təbuk* döyüşündən qayıtdıqdan sonra Peyğəmbər(s)-ə sui-qəsd hazırlamaq fikrinə düşüb, müxtəlif tədbirlərə əl atdılar. Elə bu səbəbdən də Həzrəti Məhəmməd (s) onların bu niyyət-lərindən agah olub öz ümmətini gələcəkdə qarşılaşacaqları xətərdən agah etmək üçün Bəni Üməyyəyə və digər münafiqlərə lə"nət və nifrin etdi."

***15-ci hədis***

***Namaz qılarkən şeytanın həzrəti Peyğəmbər(s)-in gözünə görünməsi***

Buxari və Müslüm bu hədisi birbaşa Əbu Hüreyrədən nəql etmişlər. Hədisdə deyilir:

*"Həzrəti Peyğəmbər (s) namazını qılıb qurtardıqdan sonra əshabın yanına gəlib dedi: Namaz qıldığım zaman Şeytan gözlərim önündə canlanmağa başladı və namazımı batil etmək üçün çox sə"y etdi, amma o buna nail ola bilmədi. Allah mənə qüvvət verdi və onu özümdən dəf edə bildim. Sonra onu məscidin sütunlarından birinə bağlamaq istədim ki, məscidə gələn hər bir kəs ona lə"nət oxusun. Amma birdən Süleyman(ə)-ın dediyi bu söz yadıma düşdü: İlahi! Səndən kimsəyə nəsib etmədiyin bir var-dövlət istəyirəm."*[1]

Peyğəmbərlərin ismətinə xələl gətirən belə hədislərin uydurulması düşmən dəyirmanına su tökməkdən başqa bir şey deyildir. Çünki, onlar daim peyğəmbərlərdə nöqsan axtarar və dinə (bütün ilahi dinlərə) ləkə yaxmaq istərlər.

Biz müsəlmanlar isə bu əqidədəyik ki, Şeytanın namaz vaxtı Peyğəmbər(s)-in gözləri önündə canlanıb, namazını batil etməyə cəhd göstərməsi mahal və qeyri-mümkündür. Allah-təala Qur"ani Kərimdə bu mətləbi belə bəyan edir: (Şeytana buyurur:)

*"Sənə uyan azğınlar istisna olmaqla, bəndələrim üzərində, onları yoldan çıxarıb günaha vadar etməyə sənin heç bir hökmün olmaz."*

Dünya müsəlmanları arasında məzhəb ixtilaflarının olmasına baxmayaraq, onlar bir çox əqidəvi məsələlərdə eyni fikir və düşüncəyə əsaslanırlar. Bu məsələlərdən biri də Peyğəmbər(s)-in həyatında baş vermiş hadisələr ilə əlaqəlidir. Belə ki, Həzrəti Məhəmməd (s) dünyaya gəldiyi zaman Şeytan yerindəcə donub qalmış və azacıq hərəkətdən belə məhrum olmuşdur.[2]

O həzrət peyğəmbərliyə təyin edildiyi zaman onu (şeytanı) vəhşət bürüyüb qorxu içinə düşmüş, hicrət etdiyi və müşriklər üzərində qələbə çaldığı zaman isə

---

[1] "Səhihi-Buxari", 1-ci cild, səh.143, "namazda icazə verilən şeylər" fəsli.

[2] "Səhihi-Müslüm", 1-ci cild, səh.204; "Namaz qılarkən Şeytana lə"nət oxunma" fəsli. Həmçinin Əhməd ibni Hənbəl, "Əl-Müsnəd", 2-ci cild, səh.298. Əbu Hüreyrədən nəql edilmiş hədis.

üzü üstə yerə yıxılaraq xar və rüsvay olmuşdur. O bütün bu hallarda duz suda əriyib yoxa çıxdığı kimi sanki məhv olur və yenidən yaranırdı.

Həzrət Məhəmməd (s) namaz qılarkən onun pak vücudundan asimana nur ucalar və bəşəriyyəti günahlardan çəkinməyə sövq edərdi. O, namaz qılarkən ətraf mühitdən tamamilə ayrılıb öz məhbubuna (Allaha) qovuşar və Onunla raz-niyaz edərdi:

*"(Ya Məhəmməd!) Qur"an oxumaq istədiyin zaman qovlmuş Şeytandan Allaha sığın ("əuzu billahi minəş-şeytanir-rəcim"sözlərini de.)"*[1]

Həzrəti Peyğəmbər (s) Şeytanın şərrindən Allaha pənah aparar və Allah da onun istədiyi bütün duaları müstəcab edərdi. O ki, qaldı Şeytana, o özü əməli saleh Allah bəndələrini yoldan azdıra bilməyəcəyini etiraf etmişdir. Amma bütün bunlara baxmayaraq xurafata uyan bəzi cahil insanlar belə nalayiq xüsusiyyətləri Həzrət Məhəmməd (s) kimi şərəfli insana aid etməyə çalışırlar. Əbu Hüreyrə özü bu haqda nəql etdiyi başqa bir hədisdə deyir: "Şeytan azan verən hər bir müsəlmanın səsini eşitcək ona üz çevirər və qəzəbindən dözə bilməyib uca səslə fəryad edər."

Üzümüzü Əbu Hüreyrəyə tutub soruşuruq: "Hər bir müsəlmanın oxuduğu azandan qaçan Şeytan ibadətdə ikən Allah dərgahına qovuşan və Onunla birbaşa rabitədə olan Həzrəti Məhəmməd(s)-i sapındıra bilərdimi?! ***Əsla!***

***"Həqiqətən iman gətirib yalnız öz Rəbbinə təvəkkül edənlərin üzərində Şeytanın heç bir hökmü yoxdur. Şeytanın hökmü yalnız ona itaət edib, Allaha şərik qoşanlar üzərindədir."***[2]

Əgər bu ayə haqqında soruşsanız:

***"Əgər sənə Şeytandan, bir vəsvəsə gəlsə, Allaha sığın. Şübhəsiz, Allah hər şeyi eşidən və biləndir."***[3] ***Cavabında deyəcəyik:***

Allah-təala Həzrəti Məhəmməd(s)-ə əta etdiyi əxlaq və ədəb qaydalarını xəlq etdiyi mələklərin və göndərdiyi peyğəmbərlərin heç birinə verməmişdir.

O, peyğəmbərliyə təyin edildiyi zaman mələklər bütünlüklə onun qarşısında səcdəyə gedib şə"ninə tərif dedilər.

Həzrət Peyğəmbər (s) Qur"anın əmr etdiyi bütün göstərişləri həyata keçirdi və haram etdiyi hər bir şeyi ilk növbədə özünə və sonra başqalarına haram və ya qadağan etdi.

O səbəbsiz olaraq nə bir söz deyər, nə də bir iş görərdi; gördüyü hər bir işi dərin hikmətə əsaslanırdı.

Bir qədər əvvəl Peyğəmbər(s)-in əxlaqını vəsf edən bu ayəyə işarə etdik:

---

[1] "Nəhl" surəsi, ayə:98

[2] "Nəhl" surəsi, ayə:99-100

[3] "Ə"raf" surəsi, ayə:200

*“Sən pisliyi yaxşılıqla dəf et! (Qəzəbə səbrlə, cəhalətə elmlə, xəsisliyə comərdliklə, xətaya bağışlamaqla cavab ver!) Belə olduqda aranızda düşmənçilik olan şəxsi sanki yaxın bir dost görərsən.”*[1]

Ən gözəl əxlaq normalarına malik olan həzrəti Məhəmməd (s) öz nadan qövmünü belə unutmayır və Allahdan onların bağışlanmalarını istəyir. O Həzrət etdiyi duaların birində buyurur: “İlahi! Mənim qövmüm nadan və cahildir. Sən onları düz yola istiqamətləndir. Sən onları hidayət et.” Allah-təala onun duasını müstəcab etdi: Məkkənin fəthi zamanı tək onun qövmünü deyil, həm də bütün ərəb qəbilələrini vahid bir ümmətə çevirdi. Bu ümmətin adı “İslam ümməti” idi.

Məkkənin fəthindən sonra Peyğəmbər belə bir bəyanat verdi: “Əbu Süfyanın evinə daxil olan hər bir şəxs əmin-amanlıqda və toxunul-maz olacaqdır.”

Əbu Süfyan müsəlman olmazdan əvvəl Peyğəmbərin ən sərt və qatı düşmənlərindən biri idi. O daim müsəlmanlara əzab-əziyyət edər, onları yurd-yuvalarından didərgin salardı. İslamın zühur etdiyi elə ilk illərdə dəfələrlə onlarla müharibə edərək çətin iqtisadi vəziyyətdə yaşamağa vadar etmişdi.

Amma bütün bunlara baxmayaraq Peyğəmbər (s) onu bağışladı və onun evini əmin-amanlıq yeri elan etdi.

“Ə”raf” surəsinin 199-200-cü ayələrində deyilir:

*“Sən bağışlama yolunu tut, yaxşı işlər görməyi əmr et və cahillərdən üz döndər! Əgər sənə Şeytandan bir vəsvəsə gəlsə (fəsad toxunsa) Allaha sığın, şübhəsiz ki, Allah (hər şeyi) eşidən və biləndir.”*

Bütün çətinliklərində Allaha pənah aparan Həzrət Məhəmməd (s) bunu öz əshabına da dəfələrlə tövsiyə edərdi: · (Allaha pənah apar) yəni bütün işlərini Ona həvalə et və yalnız Ondan kömək gözlə. Çünki, Şeytanın vəsvəsəsinə düçar olan hər bir şəxs cahil və nadan insanların təsiri altına düşər və zaman keçdikcə onlardan birinə çevrilər.

Bütün dediklərimizdən belə bir nəticəyə gəlmək olur ki, Əbu Hüreyrənin nəql etdiyi bu hədis tamamilə yalan və uydurmadır. Ravilər belə hədisləri öz kitablarında nəql etməkdə nə məqsəd güdmüşlər? Onu bir Allah bilir!

Əgər “Həcc” surəsinin 52,53 və 54-cü ayələri haqqında soruşsanız, orada deyilir:

*“Ya Məhəmməd! Biz səndən əvvəldə (şəriət sahibi olan) elə bir Rəsul və elə bir nəbi (Peyğəmbər) göndərmədik ki, o hər hansı bir şeyi arzu etdikdə Şeytan onun arzusuna, diləyinə vəsvəsə yolu ilə bir xələl qatmasın!”*

Yaxud o ayələrimizi oxumaq istədiyi zaman Şeytan onu çaşdırıb oxuduğu ayə barəsində bir fikir təlqin etməsin! Lakin Allah Şeytanın vəsvəsəsini batil puç

[1] “Fussilət” surəsi, ayə:34

edər. Sonra isə Allah öz ayələrini möhkəmlədər. Allah hər şeyi bilən və hikmət sahibidir.
(Şeytanın bu hərəkətlərinə imkan verilməsi ona görədir ki,) Allah Şeytanın vəsvəsəsini qəlblərində xəstəlik (nifaq və şəkk xəstəliyi) və ürəkləri qatı sərt olanlar (müşriklər) üçün bir sınaq vasitəsi etsin. Şübhəsiz ki, zalimlər (münafiqlər, müşriklər və kafirlər) haqdan uzaq bir ixtilafdadırlar. (Bu həm də ona görədir ki,) elm verilənlər, elmə çatanlar bilsinlər ki, haqq sənin Rəbbindəndir."
Cavabında deyəcəyik:
Həzrəti Məhəmməd (s) və digər ilahi peyğəmbərlər Allahın narazılığına səbəb olan bütün işlərdən uzaq olmuşlar. Onların gördükləri bütün işlər Allahın iradəsi ilə həyata keçərdi. Allahın sonuncu Peyğəmbəri Həzrəti Məhəmməd (s) isə qeyd etdiyimiz kimi ən gözəl əxlaqa malik olan dahi bir şəxsiyyət idi. Onun gördüyü bütün işlər islam dininin xarici misdaqına çevrilər və müsəlmanlar üçün bir qanun olardı.
Şeytanın sadiq bəndələrinə çevrilən Əbu Ləhəb və Əbu Cəhl kimi daş ürəkli şəxslər isə Həzrət Peyğəmbər(s)-in dəvətinə göz yumar, ömürlərini cəhalətdə başa vurardılar.
Peyğəmbər (s) müsəlmanlardan Allaha sidq ürəklə bəndəlik etməyi və nifaqdan uzaqlaşıb Şeytan kimi iki üzlü olmamağı tələb edirdi.
Onların (müsəlmanların) batinlərini zahirləri kimi görmək istəyən Həzrət Peyğəmbər (s) daim müsəlmanlar arasında olar və onları ixlasa (sədaqətliyə, düzlüyə) çağırardı.
O öz ümmətinin bütünlüklə haqqa hidayət olmalarını və bu yoldan heç vax uzaqlaşmamalarını istəyirdi. Onun ən böyük arzusu bu idi ki, bütün müsəlmanlar Qur"ana tabe olub onun sünnətini davam etdirsinlər. Amma təəssüflər olsun ki, ümmətin əksər bir hissəsi haqq yoldan azıb Şeytanın vəsvəsəsinə düçar oldular. Onların arasında ixtilaflar yaranmağa başladı və çox keçmədən bu ixtilaflar millətlər arası (və ya məzhəblər arası) qarşıdurmaya səbəb oldu.
Şeytan onların çirkin əməllərini və dünyanın müvəqqəti ləzzətlərini onların gözləri önündə gözəlləşdirdi və müxtəlif yollarla onları özünə tabe etdi. Onlar Şeytanın əsarəti altına keçdikdən sonra daha heç bir mübarizəyə və batini cihada (cihadi əkbərə – ən böyük cihada) fikir vermədilər. Peyğəmbər (s) ümmətinin belə acınacaqlı hala düşdüyünü görüb dərin iztirablar keçirər və gecəni sübhədək (narahatçılıqdan) oyaq qalardı. Belə bir çətin vəziyyətdə Peyğəmbər(s)-ə toxtaqlıq olsun deyə Allah-təala tərəfindən bir neçə ayə nazil oldu:

*"(Ya Məhəmməd!) Biz səndən əvvəl də (şəriət sahibi olan) elə bir rəsul, elə bir nəbi (peyğəmbər) göndərmədik ki, o xələl qatmasın. Lakin Allah Şeytanın vəsvəsəsini batil (yox) edər."*[1]

Allah tərəfindən yer üzündə yaşayan insanlara göndərilmiş peyğəmbərlərin ən ümdə vəzifələri bəşəriyyəti haqqa hidayət etmək və günahdan çəkindirmək (yəni Şeytanın vəsvəsəsindən uzaq etmək) olmuşdur. Onlar cəmiyyətdə əmin-amanlıq yaratmaq üçün hətta iki nəfər şəxsin arasında olan ixtilafı belə həll etməyə çalışardılar. Peyğəmbərlər cəmiyyətdəki fitnə-fəsadın qarşısını nisbətən alsalar da onun kökünü tamamilə kəsə bilmədilər. İnsanlarla peyğəmbərlər arasında olan rabitə azaldıqca cəmiyyətdəki pozğunluq və sabitsizlik daha da artırdı. Hərc-mərclik çoxalır, cəmiyyətdə bir çox məzhəb, təriqət və firqələr yaranmağa başlayırdı. Məsələn, Musa(ə)-ın ümməti yetmiş bir, İsa(ə)-ın ümməti yetmiş iki firqəyə bölündü.

Tarix boyu peyğəmbərlər bu ictimai çətinliklərlə qarşılaşmış, amma onun kökünü cəmiyyətdən tamamilə kəsə bilməmişlər. İslam Peyğəmbəri Həzrəti Məhəmməd (s) də digər peyğəmbərlər kimi bu çətinliklərlə qarşılaşdı. O daim iztirab keçirər və öz ümmətinin qeydinə qalardı. Allah-təala bu ayəni Peyğəmbər(s)-ə nazil etməklə onu ictimaiyyətin bu yaralı yerindən agah etdi:

*"Səndən əvvəl göndərdiyimiz peyğəmbərlərin adəti (sünnəti) kimi (onların dövründə də belə etmişdik) sən bizim adətimizdə, yolumuzda bir dəyişiklik tapa bilməzsən."*[2]

Peyğəmbər (s) bəşəriyyət üçün gətirdiyi dinin (İslam dininin) gələcəkdə xətərlə üzləşəcəyindən qorxur və günlərini nigarançılıq içində keçirirdi. Allah-təala bu ayəni nazil etdi və öz sevimli Peyğəmbərinə toxtaqlıq verdi:

*"Allah şeytanın vəsvəsəsini batil puç edər."*

Şeytanın vəsvəsəsi batil olunarsa yerini haqq və ədalət tutar və Allahın dini yenidən cəmiyyətdə bərqərar olar.

*(Allah öz ayələrini möhkəmlədər). Başqa bir yerdə deyilir:*

*"Günahkarlar istəməsələr də Allah sözləri (əmr və hökmləri) ilə haqqı gerçəkləşdirəcək, bərqərar edəcəkdir."*

Diqqət yetirmək lazımdır ki, ayədəki (nəsx) və (əhkam) ilahi kəlmələri özünün istilahi mənasında deyil, lüğəvi mənada işlənmişdir. nəsx-yəni məhv etmək, aradan aparmaq və əhkam-yəni möhkəmləndirmək, qüvvətləndirmək.

Ayənin sonunda Peyğəmbər(s)-i tam arxayın etmək üçün buyurulur:

*"Allah hər şeyi biləndir və hikmət sahibidir."*

---

[1] "Həcc" surəsi, ayə:52

[2] "İsra" surəsi, ayə:11

Onun elmi hər şeyi əhatə edir və bütün məxluqatın batinində olan arzu və istəkdən agahdır.
Peyğəmbər və əməli saleh möminlər Şeytanın vəsvəsəsindən uzaq olan kimsələrdir. Onlar öz əməlləri ilə Şeytanı daş-qalaq edər və Allahın rizayətinə səbəb olan işlərdən savayı bir iş görməzlər. Şeytan isə onlara qələbə çala bilməyib böyük rüsvayçılığa düçar olar.
*"Allah əməli saleh bəndələrini imtahan və sınaq ilə."*
*"Şeytanın vəsvəsəsi qəlblərində xəstəlik (şəkk şübhə) olanardan ayırar."*
*"(Və onlar) Allahı zikr etmək əvəzinə Şeytanın vəsvəsəsinə uyar və qəlbləri qatı və sərt daşlara çevrilər."*
*"Zalımlar haqdan uzaq bir ixtilafdadırlar. Onların qulaqları haqqı eşitməkdə kar, gözləri isə haqqı görmək də kor olar."*
*"Həm də (bu onlar) ona görədir ki, elm verilənlər bilsinlər ki, haqq Qur"an sənin Rəbbindəndir."*
Allaha iman gətirən sadiq möminlər İlahi elmdən bəhrələnərlər. Onların Allah qarşısında verdikləri imtahan başqalarından fərqli olaraq daha ağır olar. Bu səbəbdən də onlar Allah qarşısında böyük məs"uliyyət hiss edər və günah işlərdən çəkinməyə çalışarlar. "Ənkəbut" surəsinin 2 və 3-cü ayələrində bu haqda deyilir:
*"İnsanlar yalnız "iman gətirdik!" demələri ilə onlardan əl çəkilib imtahan olunmayacaqlarınımı sanırlar? (Xeyr, iman gətirmək şəhadət kəlməsini təkcə dillə demək deyildir. Biz onları yeri gəldikcə malları, övladları və canları ilə sınayacağıq ki, hansının həqiqi, hansının yalançı mömin olduğunu ayırd edib, bilək!) Biz onlardan əvvəlki keçmiş ümmətləri də imtahana çəkmişdik. Şübhəsiz ki, Allah düz danışanları da (həqiqi iman sahiblərini də), yalançıları da çox gözəl tanıyar."*
Bu haqda daha bir neçə ayə:
*"Allah pisi yaxşıdan (münafiqi mömindən) ayırmaq üçün möminləri sizin (indi) olduğunuz vəziyyətdə qoyan deyildir."*[1]
*"Bu, həm də Allahın iman gətirənləri günahlardan təmizləməsi, kafirləri məhv etməsi üçündür."*[2]
Deməli, möminlərin Allah tərəfindən imtahan olunmaları heç də səbəbsiz deyildir. Dünyada müxtəlif çətinliklərə sinə gərib səbr edən və xeyirli işlər görən möminlər axirətdə İlahi nemətlər ilə mükafatlandırılacqlar. Kafir və münafiqlər isə dünyanın müvəqqəti eyş-işrətinə uyub, axirətdə əbədi cəhənnəmi özləri üçün məskən edərlər.

---

[1] "Ali-İmran" surəsi, ayə:179
[2] "Ali-İmran" surəsi, ayə:141

*“De ki: Tutarlı dəlil yalnız Allaha məxsusdur. Əgər o istəsəydi sizin hamınızı doğru yola yönəldərdi.”*[1]
*“Həlak olan aşkar bir dəlil üzündən həlak olsun, sağ qalan da aşkar bir dəlil üzündən sağ qalsın.”*[2]
Yenidən Əbu Hüreyrənin uydurduğu hədisə qayıdırıq. O yerdə ki, Həzrəti Peyğəmbər (s) buyurmuşdu: Namazda ikən Şeytan gözlərim önündə canlanmağa başladı və namazımı batil etməyə çox sə”y etdi, amma o buna nail olmadı. Allah mənə qüvvət verdi və onu özümdən dəf edə bildim. Sonra onu məscidin sütunlarından birinə bağlamaq istədim ki, məscidə gələn hər bir kəs ona lə”nət oxusun.
Amma birdən Süleyman(ə)-ın buyurduğu bu söz yadıma düşdü: “İlahi! Səndən kimsəyə nəsib etmədiyin bir var-dövlət istəyirəm.”
İlk növbədə bunu qeyd etmək lazımdır ki, Əbu Hüreyrə Həzrəti Süleymanın dastanından düzgün nəticə çıxara bilməmişdir.
Süleyman (ə) var-dövlət dedikdə nəyi nəzərdə tutmuşdur? Görünür Əbu Hüreyrə həmişə olduğu kimi burada da ilişmişdir. Onun digər səhvi Şeytanı insan kimi cism kimi bəyan etməsidir. Biçarə belə güman edir ki, Şeytanı da istənilən vaxt tutub əsir etmək olar.
*“Biz küləyi ona (Süleymana) ram etdik. Külək onun əmri ilə istədiyi yerə rahatca gedirdi. (Biz) Şeytanlardan olan hər bir bənnanı və qəvvası (dalğıcı) eləcə də başqalarını zəncirlənmiş halda onun ixtiyarına* verdik.”[3]
Lakin Əbu Hüreyrə həmişə olduğu kimi bu hədisi də nəql etməkdə yanılmışdır, çünki “Səba” surəsinin 12 və 13-cü ayələrində bu haqda belə deyilir:
“Süleymana da küləyi ram etdik. O (külək) səhərdən günortaya qədər bir aylıq yol, günortadan axşama qədər də bir aylıq yol gedirdi. Bir gündə iki aylıq yol qət edirdi. Onun üçün mis mədənini sel kimi əridib axıtdıq. (Davud dəmiri əlində yumşaldıb, istədiyini düzəltdiyi kimi, Süleyman da misdən istədiyini düzəldirdi). Cinlərin bir qismi Rəbbinin izni ilə onun yanında işləyirdi. Onlardan hər kəs (Süleymana itaət etməyib,) əmrimizdən çıxırdısa, ona cəhənnəm odunun əzabından dadızdırardıq.
Onlar Süleyman üçün nə istəsə: məbədlər, uca qəsrlər, heykəllər, (min nəfərdən ibarət qonağın və qoşunun birlikdə oturub yeyə biləcəyi) böyük hovuzlara bənzər çanaqlar və yerindən tərpənməyən iri qazanlar düzəldirdilər.”[4]

---

[1] “Ən”am” surəsi, ayə:149
[2] “Ənfal” surəsi, ayə:42
[3] “Sad” surəsi, ayə:36-37-38
[4] “Səba” surəsi, ayə:12-13.

***16-cı hədis***

***PEYĞƏMBƏRİN YATIB YUXUYA QALMASI VƏ SÜBH NAMAZIN QILMAMASI***

Buxari və Müslüm bu hədisi birbaşa Əbu Hüreyrədən nəql etmişlər.

Əbu Hüreyrə deyir: Günlərin biri Peyğəmbər (s) ilə birlikdə səfərə çıxdım, gecəni yol kənarında olan bir məhəllədə qalmalı olduq. Həmən gün biz sübh namazını vaxtında qıla bilmədik. Gün çıxdıqdan sonra oyanıb dəstəmaz aldıq və sübh namazının qəzasını yerinə yetirdik.

Peyğəmbərlərin, xüsusilə Həzrəti Məhəmməd(s)-in namazı qəza etmələri qeyri-mümkündür.

"Muzzəmmil" surəsinin 1-4-cü ayələrində bu haqda deyilir:

*"Ey libasına (əbasına) bürünüb, yatmış Peyğəmbər! Gecə az bir hissəsi istisna olmaqla qalxıb namaz qıl! Gecənin yarısına qədər, yaxud bir qədər ondan az; Və ya bir qədər ondan çox! (Sənin gecəni oyaq qalıb namaz qılmağın onun üçdə bir hissəsindən az, üçdə ikisindən çox olmasın!) Həm də (gecə ibadət etdiyin zaman) aramla ağır-ağır Qur"an oxu."*

Həmən surənin 20-ci ayəsində deyilir:

*"(Ya Peyğəmbər!) Həqiqətən Rəbbin bilir ki, sən yatağından qalxıb bəzən gecənin üçdə ikisini, bəzən yarısını, bəzən də üçdə birini namaz qılırsan."*

*"Günortadan gün batana meyl edəndə, gecənin qaranlığında və sübh açılanda namaz qıl. Çünki sübh namazı (gecə və gündüz mələkləri, həmçinin bir çox mömin insan tərəfindən müşahidə olunur. (Ya Məhəmməd! Gecənin bir vaxtı durub ancaq sənə xas olan namazı qıl. Ola bilsin ki, Rəbbin səni bəyənilib təriflənən bir məqama (axirətdəki ən böyük şəfaət məqamına) çatdırsın."*[1]

Göründüyü kimi bütün insanlara vacib olmayan gecə və nafilə namazları Allah tərəfindən Həzrəti Peyğəmbər(s)-ə vacib edilmişdir.

Onun ruhu namaz qılmaq və Qur"an oxumaqla qidalanırdı. Namaza durarkən Həzrətin mübarək vücudu Allah xovfundan titrəyər və lərzəyə gələrdi.

*"Və yenilməz qüvvət və mərhəmət sahibinə təvəkkül et! O Allah ki, səni namaza duranda da görür, səcdə edənlər içində dolananda da (Allah səni tək namaz qılanda da görür, camaatla bir yerdə qalanda da!)"*[2]

Hamı şirin yuxuda olduğu zaman, o, gecə yarısı dəstəmaz alıb ibadətlə məşğul olardı.

*"Günəşin çıxmasından və qürub etməsindən qabaq, gecənin bir hissəsi və səcdələrdən sonra Rəbbini təqdis edib şə"ninə tariflər de!"*[1]

---

[1] "İsra" surəsi, ayə: -78-79

[2] "Şura" surəsi, ayə: 217-218-219

***

O, gecələr yuxusu gəlməsin deyə, gah üzünə su vurar, gah da sinəsinə ip bağlayardı. Namaz qılmaqdan ayaqları şişər, alın və dizləri qabar bağlayardı. Cəbrail (ə) onun daim ibadətlə məşğul olduğunu görüb yerə endi və ona belə bir tövsiyə etdi: "Ey Məhəmməd! özünə rəhm et, bütün gecəni oyaq qalıb ibadətlə məşğul olmaq səni əldən salar. Bir az da öz qeydinə qal!" Sonra bu ayəni onun üçün oxudu:

*"Bu Qur"anı sənə, məşəqqət çəkməyin üçün nazil etmədik! Yalnız Allahdan qorxanlar üçün xatırlama olsun deyə nazil etdik."*

(şəqa) cana ziyanı olan işlərə deyilir. (sə"ade) bu sözün əksidir.

Yəni ey Peyğəmbər! Biz Qur"anı sənə nazil etmədik ki, özünü əzab-əziyyətə salıb taqətdən düşəsən. özünə fikir ver və qeydinə qal! Yoxsa ibadət etməklə özünü həlak etməkmi istəyirsən?!

Müstəhəb və nafilə namazlarına bu qədər diqqət yetirən Həzrəti Məhəmməd (s) indi görün gündəlik vacib namazlarına necə əhəmiyyət verərdi.

İndi üzümüzü Əbu Hüreyrəyə tutub ondan soruşmaq istəyirik:

Ey özünü Peyğəmbər(s)-in ən yaxın səhabəsi adlandıran şəxs! Belə bir İlahi insan sübh namazını qəzaya verə bilərdimi?

Allaha pənah aparırıq belə insanların şərrindən!

***

Həzrəti Məhəmməd(s)-in şəxsiyyətini dərk etmək üçün Qur"ana müraciət etmək lazımdır. O, Allahın ən sevimli bəndəsi və insanların ən şərəflisi olmuşdur. Allah tərəfindən nazil olmuş ayələri (şəri hökmləri) elə həmən anda müsəlmanlara oxuyar və lazım gəldikdə ətraflı izah edərdi.

*"Namazlara, xüsusilə orta namazına riayət (əməl) edin və Allaha itaət üçün ayağa qalxın (namaza durun)."*[2]

Bəzən ayələr məhz möminlərin şə"ninə nazil olurdu:

*"Həqiqətən möminlər nicat tapmışlar! O kəslər ki, namazlarında (hər şeyi unudaraq ruhən və cismən yalnız Allaha) müt"i olub (Ona) boyun əyərlər! (Allahın qarşısında kiçilərlər!)"* [3]

*"Onlar namazlarına riayət edərlər, (həmişə vaxtlı-vaxtında namaz qılarlar.) Onlardır varis olanlar ki, Firdovs cənnətinə varis olarlar və orada əbədi qalarlar!"*[4]

---

[1] "Qaf" surəsi, ayə: 40

[2] "Bəqərə" surəsi, ayə: 238.

[3] "Mu"minun" surəsi, ayə: -2.

[4] "Mu"minun" surəsi, ayə:9-10-11.

*“Namazı (layiqincə) qılın! Çünki namaz möminlərə müəyyən vaxtlarda fərz (vacib) edilmişdir.”* [1]
*“(Nəfsini aludəlikdən) təmizləynən və Rəbbi-nin adını zikr edib namaz qılan kimsə hökmən nicat tapacaqdır.”*[2]
*“(Münafiqlər) namaza yalnız tənbəl-tənbəl gələr və istəməyə-istəməyə (ikrah üzündən) infaq edərlər.”*[3]
*“Vay halına o namaz qılanların ki, onlar öz namazlarından qafildirlər (səhlənkarlıq üzündən namazlarını vaxtlı-vaxtında qılmazlar) və Onlar (namazlarında) riyakarlıq edərlər.”*[4]
***
Peyğəmbər (s) möminləri gecə namazlarını qılmağa sövq edər, bu gözəl sünnəti tərk edən şəxsləri isə daha şiddətlə gecə namazlarına təşviq edərdi. Gecə namazlarını tərk edən şəxslər haqqında deyərdi: “Şeytan yatdıqları zaman onların qulaqlarını tıxar, bu səbəbdən də onlar bu gözəl sünnəti tərk etmişlər. O gecə namazlarının əhəmiyyətini möminlərə bəyan edər və yeni-yeni ibadi və əxlaqi tapşırıqlar verərdi.
Həzrəti Məhəmməd (s) öz göstərişinə əməl edən və onu başqalarına təbliğ edən ilk şəxs idi. Onun ən başlıca məqsədi insanları haqqa hidayət edib mərifət sahibi etmək idi.
Əbu Hüreyrə Həzrəti Peyğəmbər(s)-dən başqa yerdə belə bir hədis nəql edir:
“Sizlər yatdığınız zaman Şeytan boynunuzun arxasında üç düyün vurar. Sübh namazına oyandığınız və başınızı qaldırıb zikr dediyiniz zaman birinci, qalxıb dəstəmaz aldığınız zaman ikinci düyün, namaz qıldığınız zaman isə üçüncü düyün açılır. Sübh namazına vaxtında durduğunuz gün özünüzdə xoş əhval-ruhiyyə və gümrahlıq hiss edərsiniz. Qəzaya verdiyiniz gün isə müxtəlif çətinliklər ilə üzləşər və gününüzü qan-qaraçılığı ilə başa vurarsınız.”
Əgər Əbu Hüreyrənin nəql etdiyi bu hədisi doğru və düzgün qəbul etsək, onda onun nəql etdiyi (sübh namazının qəzaya getməsi) birinci hədisi istər-istəməz rədd etməliyik.
Əbu Hüreyrənin həzrəti Peyğəmbər(s)-dən bu mövzu haqqında nəql etdiyi başqa bir hədis:
“Sübh və işa (xiftən) namazlarını qılmaq münafiq və riyakarlar üçün çox ağırdır. Əgər onlar bu namazların mahiyyətini dərk etsəydilər heç vaxt onu tərk

[1] “Nisa” surəsi, ayə:103
[2] “Əl-Ə”la” surəsi, ayə:14-15
[3] “Tövbə surəsi, ayə:54
[4] “Maun” surəsi, ayə:4-6

etməzdilər. İstərdim müəzzinə* iqamə* verməyi əmr edib camaata namaz qılmaq üçün bir pişnamaz təyin edəm. Sonra əlimə bir şö”lə alıb ətrafa dolandıraraq camaatı namaza çağıram. Namaza hazır olmayanları od vurub yandırardım ki, başqalarına ibrət olsun.”
Hədisdə nəzərə çarpan bir neçə başqa irad:
1-Peyğəmbər (s) yuxuya getsəydi də onun qəlbi daim oyaq olardı. (Bu o həzrətin xüsusiyyət-lərindən biri idi.) Deməli Həzrəti Məhəmməd(s)-in sübh namazını qəzaya verməsi qeyri-mümkündür.
Rəvayətlərdən birində deyilir: “Günlərin biri Peyğəmbər (s) gecə namazlarını qılıb, vitr* namazından qabaq yatdı. Qadınlarından biri ondan soruşdu: “Ya Rəsuləllah! Vitr namazından qabaq yatacaqsınızmı?”
Buyurdu: “Gözlərim yuxuya getsə də, qəlbim həmişə oyaqdır.”
2-Əbu Hüreyrənin dediyinə görə bu hadisə Xeybər döyüşü ərəfəsində baş vermişdir. Bütün tarixçilər isə Əbu Hüreyrənin Xeybər döyüşündən sonra islamı qəbul etdiyini yazırlar. Buradan belə bir sual meydana çıxır: Əbu Hüreyrə islamı qəbul etməzdən əvvəl Peyğəmbər (s) ilə birlikdə səfərə çıxa bilərdimi?!
3-O hədisi nəql edərkən deyir: “Peyğəmbər (s) dəstəmaz alıb iki səcdə yerinə yetirdi və sonra sübh namazının qəzasını qıldı.”
Sübh namazının qəzasının qılınmasını ki heç amma əvvəldə iki səcdə yerinə yetirilməsi nə üçün olmuşdur?!
4-Səfərə çıxan hər bir dəstə dincəlmək üçün saldıqları hər bir düşərgədə əmin-amanlığın təmin olunması üçün kiçik keşikçi dəstələri ayırırdılar. Aralarında rəhbər, padşah və başqa mühüm şəxs olduqda bu məsələyə daha çox diqqət yetirilirdi. Deməli həmin səfər zamanı şübhəsiz ki, Peyğəmbər(s)-i casuslardan və yırtıcı heyvanlardan qoruyan mühafizəçilər olmuşdur. Həzrəti Məhəmməd (s) özü bu məsələyə çox ciddiyyətlə yanaşırdı. Çünki, o müsəlmanlar arasında gizlincə fəaliyyət göstərən münafiqlərin hüzurundan agah idi və çox yaxşı bilirdi ki, onlar hər zaman ona sui-qəsd hazırlayar və ya başqa hiylələrə əl ata bilərlər.
Olmaya düşərgənin keşikçiləri də həmin gün yuxuya gedib sübh namazını qəzaya verdilər? Onların (Xeybər döyüşündə iştirak edənlərin) ümumi sayı min altı yüz nəfər idi. Ordunun iki yüz nəfəri süvari, qalanı isə piyada idi. Bu qədər insanın biri də oyaq deyildimi ki, Peyğəmbər(s)-i və digər müsəlmanları namaza oyatsın?!...
***

## *17-ci hədis*

## *Canavar və inəyin səlis ərəb dilində danışmaları*

Müslüm və Buxari bu hədisi Əbu Hüreyrədən nəql etmişlər. Hədisdə deyilir: “Peyğəmbər (s) sübh namazından sonra üzünü camaata çevirib onlara belə bir əhvalat danışdı: Bir şəxs otlağa gəlib inəyini otarmağa başladı.

Yorulduğu üçün inəyi minib başqa otlağa getmək iistədi. İnək birdən dilə gələrək dedi: “Biz minilmək üçün deyil, yer şumlamaq üçün yaradılmışıq.” Kişi təəccüblənərək dedi: “Subhanəllah! İnək də danışarmı?!” Sonra Peyğəmbər (s) dedi: Mən, Əbu Bəkr və Ömər orada olmasaq da belə bir işin baş verməsinə inanırıq.”

Əbu Hüreyrənin (bu məzmunda) Peyğəmbər(s)-dən nəql etdiyi başqa bir hədisdə deyilir:

“Qoyunlarını otaran bir şəxs birdən onun qoyunlarından birini canavarın apardığını görür. Tələm-tələsik canavarın ardınca düşür. Canavarı yorulunca qovub qoyunu ondan ala bilir. Birdən canavar dilə gəlib deyir: “Onu mənim əlimdən aldın, amma bil ki, onları bu otlaqda məndən savayı kimsə otarmayırdı.” Camaat heyrətə gələrək dedilər: Sübhanəllah! Canavar da danışarmı?! Peyğəmbər (s) sonra dedi: Mən, Ömər və Əbu Bəkr belə bir əhvalatın baş verməsinə inanırıq.”

Əbu Hüreyrə qeyri-adi şeyləri o qədər sevirdi ki, onları asanlaşdıraraq yeni-yeni maraqlı dastanlar uydururdu. Əyyub(ə)-ın üzərinə qızıl çəyirtgələrin tökülməsi, cansız daşın Musa(ə)-ın paltarlarını qaçırması, inək və canavarın ərəbcə danışması və s. və i a. Bütün bunlar Əbu Hüreyrənin uydurduğu maraqlı, amma həqiqətdən uzaq olan dastanlardır.

Bir qədər əvvəl qeyd etdik ki, heyvanların danışması, cansız cisimlərin hərəkət etməsi və s. kimi qeyri-adi təbii hadisələr yalnız zəruri məsələlərin isbatında (məsələn insanlar peyğəmbərlərdən möcüzə istədikləri zaman) belə qeyri-adi işlər baş verə bilər. Yəni insanlara həm Allahın qüdrət və əzəməti, həm də peyğəmbərlərin həqqaniyyəti (Allah-təala tərəfindən göndərildiklərinin həqiqət olduğu) sabit olar.

Amma yersiz və heç bir səbəb olmadan inək və canavarın dil açıb danışması qeyri-mümkündür. Deməli, Əbu Hüreyrənin nəql etdiyi (daha dəqiq desək uydurduğu) bu hədisləri doğru və mötəbər hesab etmək olmaz. Çünki icma belə bir əqidədədir ki, möcüzə yalnız zəruriyyətdə baş verə bilər və onun əbəs yerə baş verməsi qeyri-mümkündür.

Əbu Hüreyrə nəql etdiyi hədisə həqiqət donu geydirmək üçün Peyğəmbər(s)-in, Ömər və Əbu Bəkrin adlarından istifadə etmişdir. Lakin bu heç nəyi dəyişməyir və həqiqət öz həqiqətliyində qalır.

Bəs Peyğəmbər(s)-in, Əbu Bəkr və Ömərin zamanında necə, o zaman Əbu Hüreyrə belə hədislər nəql edə bilərdimi? Əsla! Çünki, onların zamanında cəmiyyətdə ciddi nizam-intizam hökm sürürdü və Əbu Hüreyrə kimi şəxslərə qarşı ciddi tədbirlər görülürdü. Onlar fani dünyadan köçdükdən sonra İslam ümmətinə rəhbərlik Bəni-Üməyyənin əlinə keçdi və Əbu Hüreyrənin geniş fəaliyyəti üçün əlverişli imkan yarandı. Onlar Əbu Hüreyrəni öz xeyirlərinə hədis nəql etməyə sövq edir, əvəzində isə ona çoxlu məbləğdə pul ödəyirdilər.

***18-ci hədis***

***Əbu Bəkrin hicrətin 9-cu ilində həcc ziyarətinə əmir təyin edilməsi və Əbu Hüreyrənin bəraət hökmünü oxuması***

Buxari və Müslüm bu hədisi Həmid ibni Əbdürrəhman ibni Ovfdan və o da Əbu Hüreyrədən nəql etmişdir. Əbu Hüreyrənin Həmid ibni Əbdürrəhmana verdiyi məlumatlardan birində deyilir: "Həccətül-Vidadan bir il əvvəl Əbu Bəkr Siddiq, Peyğəmbər (s) tərəfindən həcc ziyarətinə əmir təyin edildi. Mən qurban günü ərəfəsində (Əbu Hüreyrə özünü nəzərdə tutur) bir neçə nəfər ilə birlikdə elan etməliyik ki, bu ildən etibarən müşriklər və paltarsız şəxslər* Kəbəni təvaf etməkdən məhrum olacaqlar."[1]

Buxarinin nəql etdiyi hədisdə deyilir: Əbu Hüreyrə deyir: Əbu Bəkr Siddiq mənə tapşırıq vermişdi ki, qurban bayramı günü zəvvarlara elan edim ki, bu ildən etibarən müşriklər və paltarsız zəvvarlar Kə"bənin təvafından məhrumdurlar. Sonra Əliyə bəraət hökmünü verməyi (oxumağı) əmr etdi. Əli də bizimlə birlikdə qurban künündə Mina əhlinə bəraət hökmünü elan etdi.

Həmid və Əbu Hüreyrə tərəfindən belə bir hədisin uydurulması heç də təəccüblü deyildir.

Əbu Hüreyrə Şama ticarət karvanı aparar və xeyli var-dövlət əldə edərdi. Əməvi xilafətinin iqamətgahı da məhz bu şəhərdə yerləşirdi. Onlar Peyğəmbər(s)-in ailəsinin əleyhinə yalan hədis və rəvayətlər uydurmaq üçün xeyli pul və ən"amlar (hədiyyələr) sərf edirdilər. Bu isə Əbu Hüreyrə və Həmid kimilər üçün ən sərfəli və ən rahat gəlir mənbəyi idi. Həmid ibni Əbdürrəhman Əli(ə)-ın və onun ailəsinin ən qatı düşmənlərindən biri idi. O, Müaviyənin göstərişi ilə düşmənçilik xarakteri daşıyan qərəzli hədislər nəql edir, əvəzində isə qiymətli ən"amlarla mükafatlanardı. Onun vücudu tamamilə əməviləşmişdi və damarlarından əməvi qanı axırdı. Həmid ibni Əbdürrəhmanın anası Ümmü Gülsum Bəni Üməyyə qəbiləsindən və Əbşəmilərdən idi. O, Əqəbət ibni Əbi Muit ibni Zəkvan ibni Üməyyət ibni Əbdu Şümrün qızı idi. Vəlid ibni Əqəbə onun doğma qardaşı idi. Anasının anası Osman ibni Əfvanın anası idi. O isə Kəriz ibni Rəbiəti bni Səyyib ibni Əbdu Şəmsin qızı Urva idi. Onun da nə qədər qəddar bir insan olduğu hamıya bəllidir. Əbdürrəhman özü isə Əli (ə) ilə daim düşmənçilik edənlərdən biri idi.

Ömər şura məsələsini meydana çıxardıqda Əbdürrəhman Osman ilə qohum olduğundan onu xilafətə Əli(ə)-dan daha münasib bildi.

Belə isə Əbu Hüreyrənin və Həmidin elə bir şəraitdə Əli(ə)-ın və onun ailəsinin əleyhinə uydurduqları hədislərə görə heç də təəccüblənmək lazım deyildir.

---

[1] "Səhihi-Müslüm", 2-ci cild, səh.517; "Müşrik və paltarsız şəxslər Kə"bəni təvaf etməsinlər" fəsli; "Səhihi-Buxari", 1-ci cild, səh.192.

Hədisi batil edən dəlillərdən biri də Əbu Hüreyrənin Bəni Üməyyə xilafətinə yol tapmazdan əvvəl bəyan etdiyi belə bir ifadədir: “Peyğəmbər (s) bəraət hökmünü elan etmək üçün Əlini bir neçə nəfərlə qurbangaha göndərdi, mən də onların içində idim.

Oğlu Mühərrər ondan soruşdu: Orada nə deyirdiniz?

Dedi: “Deyirdim ki, möminlərdən savayı başqa bir kəs cənnətə daxil olmaz. Bundan belə müşriklər və paltarsız çılpaq zəvvarlar, Kə”bəni təvaf etməkdən məhrum olacaqlar. Hər kim Peyğəmbər (s) ilə əhd-peyman bağlayıbsa nə vaxt olursa-olsun yerinə yetirə bilər. O gün o qədər qışqırdım ki, səsim tutuldu.”

Bu hədis arada heç bir vasitə olmadan şəxsən Əbu Hüreyrənin özündən nəql olunmuşdur. Göründüyü kimi burada Əbu Bəkrin adı bir dəfə də olsun çəkilməmişdir.

Həqiqət isə budur ki, Peyğəmbər (s) həmin ildə həcc zəvvarlarına əmirlik etməyi Əbu Bəkrə yox, məhz Əli(ə)-a tapşırmışdı, amma nədənsə Əbu Hüreyrə nəql etdiyi hədisdə bu vəzifəyə Əbu Bəkri təyin etmişdir.

Əgər Əbu Hüreyrə, Peyğəmbər (s) tərəfindən Əli (ə) ilə birlikdə Məkkəyə göndərilmişdisə bəs nə üçün hədisi nəql edərkən belə bir ifadədən istifadə edir: “Qurban bayramı günü Əbu Bəkr Siddiq məni bəraət hökmünü elan edəcək dəstə ilə göndərmişdi.”?

***“Onlar Allahın nurunu batil sözləri ilə (ağızlarıyla) söndürmək istəyirlər. Allah isə kafirlərin xoşuna gəlməsə də, ancaq öz nurunu tamamlamaq istər.”[1]***

## *Hədislərin şərhi*

## *Bizim dediklərimizi təsdiqləyən sünnü mənbələrindən olan məlumatlar*

## *1-ci hissə*

Mö`təbər mənbələrin birində Əbu Bəkrdən belə bir rəvayət nəql olunmuşdur: “Bir gün Peyğəmbər (s) məni yanına çağırıb buyurdu: Məkkəyə get və bu dediklərimi onlara elan et: Bundan belə müşriklər və paltarsız (üryan) zəvvarlar Kə”bəni təvaf etməkdən məhrumdurlar. Agah olsunlar ki, müsəlmanlardan savayı kimsə cənnətə daxil olmayacaqdır və Peyğəmbərə (s) və”də verən şəxslər filan vaxta qədər öz və”dələrinə əməl etməlidirlər. Bilsinlər ki, müşrik və kafirlər Allah və Onun Peyğəmbərinin qatı düşmənləridirlər. Bu tapşırıq mənə üç dəfə verildi. Sonra Peyğəmbər (s) Əlini yanına çağırıb buyurdu: özünü Əbu

[1] “Tövbə surəsi, ayə:23.

Bəkrə çatdır və de ki, Mədinəyə qayıtsın, ona tapşırdığım vəzifəni isə sən yerinə yetir. O da tapşırılmış əmri lazımınca yerinə yetirdi. Mən isə Mədinəyə qayıtdım. Peyğəmbər(s)-in yanına gəlib ağlaya-ağlaya ondan soruşdum: Ya Rəsuləllah! Məndən xoşa gəlməz bir iş gördünmü? Buyurdu: Səndən yaxşılıqdan və xeyirli işlərdən savayı bir şey görmədim, amma mənə Allah tərəfindən əmr olundu ki, bu işi ya özüm və yaxud öz ailəmdən olan mötəbər bir şəxs yerinə yetirməlidir."

Əli(ə)-da hədisi olduğu kimi nəql edir: "Bəraət" surəsindən on ayə nazil olduqdan sonra Peyğəmbər (s) Əbu Bəkrə Məkkəyə gedib bu ayələri onlara oxumağı əmr etdi. O yola düşdükdən sonra Peyğəmbər (s) məni yanına çağırıb buyurdu: "Tez özünü ona çatdır, harda gördün, "Bəraət" ayələrini ondan al və onu Məkkə əhlinə oxu." Mən də Peyğəmbər(s)-in verdiyi göstərişi lazımınca yerinə yetirdim.

Əbu Bəkr Mədinəyə qayıdıb Peyğəmbər(s)-in yanına gəldi və ondan soruşdu: Ya Rəsuləllah! Mənim barəmdə bir şeymi nazil oldu?

Peyğəmbər buyurdu: Xeyr! Amma Cəbrail (ə) mənə belə bir vəhy etdi ki, bu əmri ya sən özün, ya da öz ailəndən olan bir nəfər yerinə yetirməlidir.

Əli(ə)-dan nəql olunmuş başqa bir rəvayətdə deyilir:[1] "Peyğəmbər (s) Əbu Bəkri bir neçə nəfər ilə birlikdə Məkkəyə göndərdi. Sonra məni yanına çağırıb dedi: "Onların ardınca hərəkət et və kitabı (ayələri) onlardan alıb Məkkə əhlinə özün oxu." Mən də Əbu Bəkrə çatıb kitabı ondan alıb Məkkəyə getdim. O da Mədinəyə qayıdıb kədərli halda Peyğəmbər(s)-dən soruşdu: Ya Rəsuləllah! Mənim haqqımda sənə bir şeymi çatıb? Buyurdu: Xeyr, amma mənə belə əmr olundu ki, bu işi ya özüm ya da ailəmdən olan bir nəfər yerinə yetirsin."

Peyğəmbər (s) vəfat etdikdən sonra İbni Abbas Əli (ə) ilə düşmənçilik edənlərin qarşısında durub dedi:[2]

"...O zaman Peyğəmbər (s) Əbu Bəkrə "Bəraət" surəsini Məkkə əhlinə oxumağı əmr etmişdi. Sonra Əli(ə)-ı onun ardınca göndərdi və həmən ayələrin oxunmasını ona həvalə etdi. Peyğəmbər (s) bu əhvalatdan sonra dedi: Bu işdə mən ona, o da mənə köməklik etdi və başqa bir şəxsin bu əmri yerinə yetirməyə ixtiyarı yoxdur." Əli(ə)-a həsəd aparan şəxslər İbni Abbasın bu çıxışından sonra xəcalət çəkərək başlarını aşağı saldılar.

---

[1] Nəsai "Əl-xəsaisul-Ələviyyə, 20-ci səh; Əhməd ibni Hənbəl, "Əl-Müsnəd", Əli əleyhissəlamın hədisi.

[2] Hakim, "Əl-Mustədrək", 3-cü cild, səh.32, Əli əleyhissəlamın fəzilətləri. Nəsai, "Əl-xəsaisul-Ələviyyə, 6-cı səh. Əhməd ibni Hənbəl, "Əl-Müsnəd", 1-ci cild, səh.331; İbni Abbasdan nəql olunmuş hədislər

Əgər Əbu Bəkr həqiqətən də həcc zəvvarlarının əmiri olsaydı onlar bu asanlıqla İbni Abbasın dediklərinə təslim olmazdılar və onun müqabilində xəcalət çəkməzdilər. Təslim olmaqlarının əsas səbəbi isə əllərində heç bir tutarlı dəlilin olmaması idi.
İbni Abbas bəzən deyərdi: Bir gün Ömər ibni Xəttab ilə birlikdə Mədinənin küçələrində gəzirdik. Ömər mənə dedi: Ey İbni Abbas! Sənin dostun Əli nə qədər də məzlum və köməksizdir!
Ürəyimdə öz-özümə dedim: And olsun Allaha ki, bu işdə məni qabaqlamamısan. Sonra ona dedim:
Ey Əmirəl-möminin! Belə isə onun haqqını özünə qaytar!
Əlini əlimdən ayırıb bir qədər arxada qaldı və öz-özünə nəsə dedi. Bir qədər ona tərəf yaxınlaşdım. Ömər dedi: Ey ibni Abbas! Mənə belə gəlir ki, camaat onu xilafətə layiq bilməyib əvvəlcə Əbu Bəkrlə və sonra da mənim ilə bey"ət etdilər. Dedim: And olsun aləmlərin Rəbbinə! Allah və Onun Peyğəmbəri (s) bəraət hökmünü Əli(ə)-a həvalə etdikləri zaman onu sənin dostun və yaxın sirdaşın Əbu Bəkrdən heç də kiçik, təcrübəsiz bilməmişlər.
Ömər mənim bu sözlərimdən bərk narahat oldu və üzünü çevirib getdi.
Həsən Bəsridən Əli (ə) haqqında soruşduqda bu cavabı vermişdi: "Bu dörd xislətə (xüsusiyyətə) malik olan bir şəxs haqqında axı mən nə deyə bilərəm?!
1-O, müşriklərə bəraət hökmünü elan edən yeganə şəxs olmuşdur.
2-Təbuk döyüşündə Peyğəmbər (s) onun haqqında bu sözləri demişdir: "Əgər onda (mənimlə müqayisədə) peyğəmbərlikdən savayı bir şey də az olsaydı, o xususiyyəti də istisna edərdim." Peyğəmbər (s) buyurmuşdur: "3-Allahın kitabı (Qur"an) və Əhli-beytim mənim üçün ən qiymətli və ən əziz nemətdir."
4-Kimsə ona əmir (rəhbər) olmadı, amma o daim başqalarına əmir oldu.[1]
Əgər Əbu Bəkr həqiqətən də zəvvarların əmiri olsaydı və bəraət hökmünün elan edilməsini öz öhdəsinə götürsəydi onun şə"ninə təriflər deyən və sadiq tərəfdarlarından olan Həsən Bəsri burada onu müdafiə etməli və onun bu işə başqalarından daha layiq olduğunu bəyan etməli idi. Amma o bu rəvayəti başqalarından fərqli olaraq olduğu kimi nəql etmiş və heç bir artıq tərifə yol verməmişdir.
Həsən Bəsri Əli(ə)-ın məqamını dərk etmiş şəxslərdən idi. Belə ki, onun barəsində soruşduqda dediyi sözlərdən biri də bu olmuşdur: "Kimsə ona əmir olmadı, amma o daim başqalarına əmir oldu."
Sə"d deyir: "Peyğəmbər (s) Əbu Bəkrə "bəraət" hökmünü müşriklərə elan etməyi əmr etdi. Yola düşdükdən sonra Əli(ə)-ı yanına çağırıb dedi: özünü tez

[1] Həmidin "Nəhcül-Bəlağə"-yə verdiyi şərh, 1-ci cild, səh.369 (Vaqididən nəql olunmuş hədis)

ona çatdır, harda görsən "bəraət" hökmünü ondan al və onu Məkkə əhlinə (müşriklərə) özün oxu. Əbu Bəkr bu macəradan bərk narahat olur. Peyğəmbər (s) onu bu halda görüb buyurur: "Mən və Əlidən başqa kimsə bu işi yerinə yetirməməli idi."[1]

Malik ibni Ənəs deyir: Həzrəti Məhəmməd (s) Allah və Onun peyğəmbərinin müşriklərə verdiyi "Bəraət" hökmünü (Məkkə əhlinə çatdırmağı) Əbu Bəkrə həvalə etdi. O yola düşdükdən sonra geri çağırıb dedi: "Bu işi mən və mənim ailə üzvlərimdən başqa kimsə yerinə yetirməməlidir." Sonra Əlini çağırıb bu işi ona həvalə etdi.[2]

Cəmi ibni Ümeyr Ləysi Abdullah ibni Ömərə Əli (ə) haqqında bir neçə sual verir. Abdullah cavab verməzdən əvvəl onu bir qədər danlayır və sonra deyir: Əli haqqındamı söz eşitmək istəyirsən? Bu Allah Peyğəmbərinin məsciddəki evi, bu da Əli(ə)-ın evi. Peyğəmbər (s) Əbu Bəkr və Ömərə Məkkəyə getməyi və orada "bəraət" hökmünü müşriklərə elan etməyi əmr etmişdi. Onlar yolda bir atlıya rast gəldilər. Ona yaxınlaşıb kim olduğunu soruşdular. Atlı cavab verdi: Mən Əliyəm. Hökmləri mənə verin. Məkkəyə mən getməliyəm.

Əbu Bəkr soruşdu: Bir hadisəmi baş verib?

Əli (ə) dedi: And olsun Allaha! Haqdan başqa bir şey bilmirəm və mən nə baş verdiyindən də agah deyiləm.

"Bəraət" hökmünü onlardan alıb Məkkəyə yola düşdü. Əbu Bəkr və Ömər Mədinəyə qayıdıb Peyğəmbər(s)-in yanına gəldilər və nə baş verdiyini ondan soruşdular. Peyğəmbər (s) buyurdu: And olsun Allaha ki, sizdən yaxşılıqdan savayı bir şey görmədim, amma mənə vəhy olundu ki, bu işi ya özüm, ya da ailə üzvlərimdən bir nəfər görsün.

## *Baş vermiş həqiqətin icmalı (xülasəsi)*
## *2-ci hissə*

"Bəraət" surəsi nazil olduqdan sonra Peyğəmbər (s) onu Əbu Bəkrə verib Həcc ziyarəti zamanı onu müşriklərə oxumağı əmr etdi. Bu ayələrdə Məkkə müşriklərinin və paltarsız şəxslərin Kə"bə evini təvaf etmələrinin qadağan olunması, Peyğəmbər (s) ilə bağladıqları əhd-peymana əməl etmələri və kafirlərin (müşriklərin) cənnətdən məhrum olunacaqları bildirilirdi. Əbu Bəkr yola düşdükdən sonra Peyğəmbər(s)-ə belə bir vəhy nazil oldu: "Bu əmri ya sən özün, ya da ailə üzvlərindən bir nəfər yerinə yetirməlidir." Peyğəmbər (s) də Əli(ə)-ı yanına çağırıb əmr edir ki, özünü Əbu Bəkrə çatdırıb "Bəraət" hökmünü ondan alsın və onu Məkkə əhlinə özü oxusun. Peyğəmbər (s) o il Əli(ə)-ı həm

[1] Nəsai "Əl-Xəsaisul-Ələviyyə, 20-ci səh; Əhməd ibni Hənbəl, "Əl-Müsnəd".

[2] Həmən mənbə Malik ibni Ənəsin nəql etdiyi hədislər fəsli, "Əl Müsnəd" 3-cü cild, səh.216.

də həcc zəvvarlarına əmir təyin etdi. Əbu Bəkr bu əmrə əsasən ya onunla Məkkəyə gedər, ya da Mədinəyə qayıda bilərdi. Əli (ə) Peyğəmbər(s)-in dəvəsini minib Əbu Bəkrin ardınca hərəkət etdi. Əbu Bəkr Əli(ə)-ın onun ardınca gəldiyini görüb dayandı və ondan gəlişinin səbəbini soruşdu: Ya Əbəl Həsən, nə üçün gəldin? Dedi: Peyğəmbər (s) mənə əmr etdi ki, "bəraət" hökmünü səndən alıb Məkkəyə gedəm və onu müşriklərə elan edəm. İstəyirsən ya mənimlə gəl, ya da Mədinəyə qayıt.

Əbu Bəkr Mədinəyə qayıtmağı üstün tutur və geri dönür. Əli (ə) isə zəvvarlar ilə birlikdə Məkkəyə yola düşür.

Əbu Bəkr Mədinəyə çatdığı gün Peyğəmbər(s)-in yanına gəlib soruşur: Ya Rəsuləllah! Hamının arzu etdiyi bir işi mənə həvalə etmişdin. Onu yerinə yetirməli olduğum zaman məni geri qaytardın. Bunun səbəbi nədir? Yoxsa mənim barəmdə sənə bir şeymi deyiblər?

Peyğəmbər (s) buyurdu: Xeyr, belə deyildir. Sən yola düşdükdən sonra Cəbrail nazil olub mənə vəhy etdi ki, bu işi ya özüm, ya da ailə üzvlərimdən bir nəfər yerinə yetirsin. Mən də Əlini bu işin icrası üçün ən münasib şəxs bildim və onu sənin ardınca göndərdim.

***3-cü hissə***

***Müşriklər ilə bağlanan əhd-peymanın o il pozulmaması müsbət nəticələr verdi***

Bu əhvalatdan sonra Əli (ə) daha da məşhurlaşdı və ərəblər ona əvvəlkindən daha çox ehtiram etməyə başladılar. O istər Peyğəmbər(s)-in sağlığında, istərsə də vəfatından sonra ən mühüm şəxslərdən biri hesab olunurdu. Müsəlmanlar qarşılaşdıqları çətinliklərdə ona müraciət edər və ən mühüm məsələlərdə onunla məşvərət edərdilər.

Məkkə müşrikləri Peyğəmbər (s) ilə bağladıqları əhd-peymanı pozduqdan sonra "bəraət" hökmü nazil oldu. Onlar həcc ziyarətindən məhrum oldular. Keçmişdə Kə"bə evini lüt-üryan təvaf edən Məkkə əhli bundan belə öz çirkin əməllərindən əl çəkməli idilər. Allah və Onun Peyğəmbəri(s)-nin onlara qarşı düşmənçiliyi elan edildi. Ən başlıcası isə müşriklərin cənnətdən məhrum olmaları idi.

Müsəlmanlar böyük zəfər çaldı, müşrik və kafirlər isə xar və zəlil oldular. Allah-təala Peyğəmbər(s)-in canişini olan Əli(ə)-ın məqamını daha da ucaltdı. Onun fəziləti ərəb və əcəmə aşkar oldu. Növbəti il "Həccətül-Vidada" o, Peyğəmbər (s) tərəfindən bütün müsəlmanlara əmir təyin ediləcəkdi. Bütün bunlar əməli saleh müsəlmanlar üçün bir növ xəbərdarlıq idi. Onlar həqiqətdən agah olmalı, gələcəkdə onlara hakim (əmir) olacaq bu şəxsiyyətin ilahi məqamını dərk etməli idilər.

Peyğəmbər (s) onu Əbu Bəkrin ardınca göndərdiyi zaman buyurmuşdu: Çarə yoxdur! Bu işi ya mən, ya da sən görməlisən. Əli (ə) cavab verdi: Elə isə mən

gedərəm. Peyğəmbər (s) buyurdu: Get! Allah-təala sənin dediklərini sabit, qəlbini isə hidayət edəcəkdir.[1]

"Bəraət" hökmünün Peyğəmbər(s)-ə və ya onun ailə üzvlərindən birinə tapşırılması mətləbin olduqca əhəmiyyətli olduğuna dəlalət edir. Həqiqətin dərinliyini anlamaq üçün ilk növbədə Əbu Bəkrin yarı yoldan qaytarılması və Əli(ə)-ın onun yerinə təyin olunması səbəblərini araşdırmaq lazımdır. Peyğəmbər(s)-in buyurduğu sözərə diqqət yetirsək bu məsələnin mahiyyətini dərk edə bilərik. Peyğəmbər (s) buyurur: "Cəbrail (ə) nazil olub dedi: "Ya Məhəmməd(s)! Bu işi başqa bir kəs yerinə yetirə bilməz." Yəni bu iş yalnız sənin və ya sənin ailə üzvlərindən olan bir şəxsin görə biləcəyi bir işdir və sizlərdən qeyrisi istəsə də bu işin öhdəsindən gələ bilməz.

Əli(ə)-ın məqamının ucalığını bəyan edən hədislərdən biri də Peyğəmbər(s)-in "Həccətül-Vidada" buyurduğu xütbədən ibarətdir. Bütün məzhəblərin mötəbər saydıqları bu hədisdə deyilir: "Əli məndən, mən də Əlidənəm. Mənə aid olan işləri Əlidən başqa bir kimsə yerinə yetirməyə qadir deyildir."[2]

Hökmün (əmrin) özü zahirdə asan görünsə də onu elə bir şəraitdə minlərlə zəvvarın hüzurunda bəyan etmək heç də asan bir iş deyildi.

Peyğəmbər (s) bu ilahi vəzifəni Əli(ə)-a həvalə etdi və onu ilahi əmrlərin yerinə yetirilməsində özünə şərik etdi. Kimsəyə söyləmədiyi sözləri ona deyir və bəzi məsələlərdə yalnız onunla məşvərət edərdi.

Harun (ə) Musa(ə)-a yaxın olduğu kimi Əli (ə) da Peyğəmbər(s)-ə bir o qədər yaxın və əziz idi. Onlar arasında olan fərq yalnız bundan ibarət idi ki, Həzrəti Məhəmməd (s) Allahın peyğəmbəri, Əli (ə) isə onun naibi və canişini idi. Belə bir məqamı Allah-təala yalnız Əli(ə)-a bəxşiş etmiş və onu Peyğəmbər(s)-dən sonra insanların ən şərəflisi qərar vermişdir.

*"Bir gözünü qaldırıb (səmaya) bax heç orada bir yarıq, çat, nöqsan görə bilərsənmi?! Sonra gözünü qaldırıb iki dəfə bax. Göz zəif, yorğun düşərək yenə də sənə tərəf qayıdacaqdır."*[3]

Peyğəmbər(s)-dən Əli (ə) haqqında nəql olunmuş hədislərə diqqət yetirin:
"Əli məndən, mən də Əlidənəm".
"Əli Qur"anla, Qur"an da Əli ilədir. Bu iki şey bir-birlərindən ayrılmazdır." "Əli haqla, haqq da Əli ilədir. Bu iki şey bir-birlərindən ayrılmazdır."[1]

---

[1] "Əl-Müsnəd" Əhməd ibni Hənbəl, 1-ci cild, səh.150.

[2] "Sünəni ibni Macə", 1-ci cild, Səhabələrin fəzilətləri babı. Bu hədisi Nəsai və Termezi də öz kitablarında nəql etmişlər.

[3] "Mulk" surəsi, ayə:3-4

Bəlkə də bəziləri bizim bu dediklərimizi təəssüb adlandırsın, amma o həzrətin məqamını azacıq da olsun dərk edən hər bir şəxs bunun həqiqət olduğunu istər-istəməz etiraf edəcəkdir.
Düşmənləri ilə mehribanlıqla rəftar edən, fəqir-füqəraya əl tutan Əli (ə) haqq və ədalətin bariz nümunəsi idi. İstər Məkkədə, istərsə də Mədinədə Peyğəmbər(s)-ə ən yaxın sirdaş məhz Əli (ə) olmuşdur. Bu həqiqəti bəyan edən tək bu ayəyə işarə etmək kifayətdir:
*"İlahi, bizə nazil etdiyinə iman gətirdik və Peyğəmbərə tabe olduq. Artıq bizi şahid olanlarla bir yerdə yaz!"*

## 4-cü hissə

1-Müşriklərin Əli(ə)-a qarşı hazırladıqları hiylə və sui-qəsdlər.
2-Dəccalların* Əli (ə) əleyhinə nəql etdikləri yalan hədislər.
3-Əbu Hüreyrənin Bəni Üməyyə xilafətinə yol tapması və bu hədisin təhrif edilməsi.

Əli(ə)-ın qatı düşmənlərindən olan nakisinlər, qasitinlər, mariqinlər* və ən başlıcası Bəni Üməyyə hökuməti dəllallara pul və qiymətli hədiyyələr verməklə onları xilafətdən asılı vəziyyətə salar və Əli(ə)-ın fəziləti haqqında nəql olunmuş hədisləri tamamilə əksinə nəql etməyə məcbur edərdilər. Hamıya məlum idi ki, Əli (ə) islamı qəbul etmiş ilk şəxs olmuşdur. Onun döyüşlərdə göstərdiyi qəhrəmanlıq nümunələri ərəb və əcəm arasında dillər əzbərinə çevrilmişdi. Peyğəmbər(s)-in özündən sonra xilafəti ona tapşırması da kimsəyə gizli deyildi.

Bütün bunlar Bəni Üməyyə xilafətinə iman gətirmiş "müsəlman"larda Əli(ə)-a qarşı kin və həsəd yaranmasına səbəb oldu. Şamı ikinci dəfə (Siffeyn döyüşündən sonra) ələ keçirdikdən sonra Əli(ə)-a qarşı aparılan düşmənçilik siyasəti artıq aşkarcasına həyata keçirilməyə başladı. Bəni Üməyyə Əli(ə)-ın əleyhinə müxtəlif tədbirlərə əl atır və bunu özləri üçün şəri vəzifə bilirdilər. Aparılan əks təbliğat yollarından biri də Əli(ə)-ın əleyhinə uydurulan təhqiramiz hədislərin geniş surətdə yayılması idi. Bu işə Akilətul-Əkbad adlı bir şəxs rəhbərlik edirdi. Bəni Üməyyə özünü təmizə çıxarmaq üçün Əli(ə)-a tənələr vurar və ona aid olmayan işlərdə günahlandırmağa çalışardı. Əli (ə) ilə bey"ət edən şəxslər tədriclə dünya malına uyaraq Müaviyəni ondan üstün tutmağa başladılar. Peyğəmbər sünnətini tərk edib Bəni Üməyyə şahənşahlığına üz tutan müsəlmanlar cəmiyyətdə yeni-yeni ixtilafların yaranmasına səbəb oldular. Əli(ə)-ın ətrafında qalan sadiq möminlər isə barmaqla sayılırdılar. Onlar hər zaman əməvi xilafəti tərəfindən müxtəlif təcavüzlərə məruz qalır və ev-eşiklərindən didərgin düşürdülər. Əli(ə)-ın özü isə Peyğəmbər (s) tərəfindən

---

[1] Hakim, "Əl-Müstədrək", 3-cü cild, səh.124; Bu hədisin xülasəsini Zəhəbi də öz kitabında nəql etmişdir.

təyin olunmuş xila-fətdən uzaqlaşdırıldı. Cəmiyyətdə yaranmış puç əqidə, Bəni Üməyyə adət-ən”ənələrini Peyğəmbər sünnətindən üstün tutdu. Qur”an istənilən şəkildə təfsir edilir, Peyğəmbər(s)-in ən yaxın səhabələri isə xilafət tərəfindən müxtəlif təqiblərə məruz qalırdılar.

Belə bir çətin şəraitdə Əli (ə) ilə düşmənçilik xəttində duran Nakisinlər, qasitinlər, mariqinlər kimi qruplaşmalar günbəgün güclənir və xilafəti ələ keçirməyə cəhd göstərirdilər. Onlar namazlarında Əli(ə)-a lə”nət oxuyur və bunu özləri üçün şəri vəzifə bilirdilər.

Xilafət tərəfindən himayə olunan hədis dəllallarından biri də Əbu Hüreyrə idi.

O, Bəni Üməyyə əmirlərinin sifarişi ilə yeni-yeni hədislər nəql edir və yaxud Peyğəmbər(s)-dən nəql olunmuş hədisləri onların istədikləri tərzdə təhrif edirdi. Bu hədis də (“bəraət” hökmü haqqında nəql olunmuş hədis) təhrif olunmuş hədislər sırasındadır. Hədisin təhrif olunmuş surəti belədir: “Peyğəmbər (s) “Həccətül Vidadan” bir il əvvəl Əbu Bəkri həcc zəvvarlarının üzərində əmir təyin etdi və ona Məkkə müşriklərinə “Bəraət” hökmünü oxumağı əmr etdi. Orada deyilirdi: “Bu ildən etibarən müşriklər və paltarsız zəvvarlar Kə”bə evini ziyarət (təvaf) etməkdən məhrumdurlar. Biz bu hökmü Mina dağında müşriklərə oxuduğumuz zaman Peyğəmbər (s) Əlini bizim arxamızca göndərdi və o da “Bəraət” hökmünü bizimlə birlikdə oxudu.”

Əbu Hüreyrənin hədis uydurma və təhrif etmə qabiliyyəti çox güclü idi. O adətən hədisləri zəmanəyə uyğun və cəmiyyətin istədiyi bir tərzdə nəql etməklə, haqqı bəyan edən digər mühəddislərin əlini hər yerdən üzürdü. Çünki, cəmiyyət haqq və ədalətdən uzaqlaşdırılmışdı və onların nəql etdikləri hədisləri mötəbər saymırdılar.

Bu hədisi nəql etməkdə Əbu Hüreyrənin iki əsas məqsədi olmuşdur və bu iki məqsəd Əli(ə)-ın əleyhinə yönəlmişdi:

1-Əli(ə)-ın öhdəsinə düşən məs”uliyyəti (vəzifəni) cəmiyyətin gözündə kiçiltmək və o həzrətin məqamına xələl gətirmək. Belə ki, Əbu Hüreyrə hədisi nəql edərkən deyir: Həmin il (Həccətül-Vidadan bir il əvvəl) Əbu Bəkr həcc zəvvarlarına əmir təyin edildi. Peyğəmbər (s) “Bəraət” hökmünü tək Əliyə etibar edə bilməyib məni də (Əbu Hüreyrə özünü nəzərdə tutur) bir neçə qüvvəli şəxs ilə Məkkəyə yola saldı.

2-Əli həmin il həcc ziyarətində Əbu Bəkrin (müəyyən işlər üçün) təyin etdiyi şəxslərdən daha çox fəaliyyət göstərə bilmədi. Çünki Əli öhdəsinə düşən vəzifəni lazımınca yerinə yetirə bilsəydi başqaları da belə edərdi.

Həqiqətin təhrif olunduğunu başa düşmək üçün bunu bilmək kifayətdir ki, Peyğəmbər (s) Əbu Bəkri yarı yoldan qaytarıb Əli(ə)-ı Məkkəyə göndərmişdi. Belə ki, hədisdə deyilir:

“Bu əmri ya mən yerinə yetirməliyəm, ya da sən!” Əli (ə) dedi: “Elə isə bu işi mən yerinə yetirərəm.”

Əldə olan kifayət qədər mötəbər hədis və rəvayətlər Əbu Hüreyrənin uydurduğu bu hədisi də batil edir. Bir zamanlar Bəni Üməyyənin sifarişi ilə nəql edilmiş bu hədislər qüvvədə olsa da hal-hazırda Bəni Üməyyə maraqlarını müdafiə edən şəxslərdən başqa onlara müraciət edən kimsə tapılmayır.

## *5-ci hissə*

Müaviyənin zamanında ən gəlirli işlərdən biri də Peyğəmbər(s)-in ailəsinin əleyhinə yalan hədislərin uydurulması idi. Bəni Üməyyə xilafətinə yaxınlaşmaq və var-dövlət sahibi olmaq istəyən hər bir şəxs bu yol ilə istəyinə nail ola bilərdi. Hədis ticarəti müsəlmanları çaşqın vəziyyətə salmış, cəmiyyətdə misli görünməyən təlatümə səbəb olmuşdu. O dövrün ən məşhur hədis dəccalları bunlar idi: Həmid ibni Abdullah, Məhəmməd ibni Kə”b Fərzi, Əbu Hüreyrə və s. Bəni Üməyyə xilafətinə bu işdə böyük xidmətlər göstərən hədis dəccallarının sayı günbəgün artmaqda idi. Minbərlərdə oxunan təhrif olunmuş hədislər nadan Şam camaatı tərəfindən həqiqət kimi qəbul olunurdu. Dəccallar nəql və sonra bəyan etdikləri hədislərdə onlara sübut etməyə çalışırdılar ki, Əli (ə) və onun övladları dindən çıxmış, azğın şəxslərdir və gündəlik namazlardan sonra onlara lə”nət oxumaq hər bir şəxsin şəri borcudur. Təəssüflər olsun ki, onlar sadəlövh Şam əhlinin bir çoxunu özlərinə tərəf çəkə bilib, Əli(ə)-ın və onun məsum ailəsinin qatı düşmənlərinə çevirdilər.

Barmaqla sayılan məzlum və sadiq möminlərin belə bir şəraitdə sükutdan başqa gücləri bir şeyə çatmayırdı. Onlar haqq-ədalətin ayaqlar altına atıldığını görür, amma cür”ət edib xilafətə qarşı etiraz edə bilmirdilər.

Onlardan bu hədislər barəsində sual edildikdə çarəsizlikdən kinayə və ya üstü örtülü yollar ilə cavab verməli olurdular.

Verilən suallar da adətən Siddiqin (Əbu Bəkrin) və Faruğun (Ömər ibni Xəttabın) fəzilətləri haqqında olardı. Bəni Üməyyənin hiylə və şərrindən yaxa qurtarmaq üçün daim nəzarət altında olan əshab təqiyyə edər və hər kəslə ünsiyyətdə olmazdılar.

Beləliklə haqq-ədalət batil əqidələr ilə əvəz olundu. Bu hədis dəllallarına daha çox gəlir gətirdi və az bir zaman ərzində cəmiyyətdə yayılmağa başladı. Onlar hədis bazarının qızışdığını görüb onu (hədisi) Əli(ə)-dan, əmisi oğlu İbni Abbasdan, ən yaxın səhabə olan Cabir ibni Abdullah Ənsaridən və İmam Baqir (ə) kimi mötəbər şəxslərin adından nəql etməyə başladılar. Zaman keçdikcə uydurulmuş hədislər kitablarda yazılır və müsəlmanlar arasında rəğbətlə qarşılanırdı. Sadəlövh müsəlmanlar bu hədisləri Peyğəmbər(s)-dən nəql olunmuş hədislər ilə birlikdə oxuyur və qorunub saxlanmasında çox sə”y göstərirdilər.

Əli(ə)-ın qatı düşmənlərindən biri olan Əbu Zər”ə ibni Raşid hədis tarixinə ən böyük zərbə vuran dəllallardan biri olmuşdur. Nasibilərdən olan bu şəxs tək Əli

(ə) ilə deyil, Bəni Haşimlərlə də düşmənçilik edər və onların əleyhinə hədis nəql edərdi. O bu hədisləri adətən öz şeyxi (ustadı) Yunis ibni Yəzid Əbəlidən nəql edərdi. O isə Müaviyənin azad etdiyi qullardan biri idi.[1]

Bu əsassız hədisi İbni Abbasın ayağına yazan şəxs Əli(ə)-ın qatı düşmənlərindən biri olan Məczat oğlu Əbül Qasim Muqsəm olmuşdur. Məşhur ravilərdən biri olan Hakim onu Buxarinin mötəbər bildiyi şəxslərdən biri bilib özünün "Əl-Mustədrək" adlı kitabında bu hədisi ondan nəql etmişdir.

Buxari özü Muqsəmi zəif ravilərdən hesab etmiş və kitabında onların (zəif ravilərin) adlarını ayrıca qeyd etmişdir.

Zəhəbi özünün "Əl-mizan" adlı kitabında Buxari və İbni Həzmə istinad edərək Muqsəmin zəif ravi olduğunu bəyan etmişdir.

İbni Sə"d özünün "Təbəqat" adlı kitabında (5-ci cild, səh.346) yazır: "Muqsəm çox hədis nəql etmişdir, amma onların əksəriyyəti zəif və etibarsızdır. Elə bu səbəbdən də Müslüm və Buxari ondan bir hədis olsun belə nəql etməmişlər."

Buxari Malik oğlu Əbdül Kərimdən nəql etdiyi rəvayətdə deyir: Günlərin biri Muqsəm ibni Abbasdan mənə belə bir rəvayət nəql etdi:

"Bədr döyüşündə Peyğəmbər (s) ilə birlikdə döyüşənlər, Bədrdə olub döyüşdə iştirak etməyən və onu (Peyğəmbər(s)-i) tərk edib döyüş meydanından qaçanlarla bir deyillər."

Buxari hədisin təfsirini İbni Abbasdan (Muqsəmin vasitəsilə) öz kitabında iki yerdə nəql etmişdir:

1-Bədr döyüşünün şərhində.[2]

2-"Nisa" surəsini təfsir edərkən.[3]

Buxari bu hədisdən başqa Muqsəmdən heç bir şey nəql etməmişdir.

Hədisi Cabir ibni Abdullah Ənsariyə istinad edən şəxs Nəcihul Mələtin oğlu Əbu Saleh İshaq olmuşdur. O öz nadanlığı və yalançılığı ilə hər yerdə şöhrət tapmışdı. Vəziyyətdən sui-istifadə edərək hədis nəql etməyə başlamış və bu yol ilə xeyli var-dövlət əldə edə bilmişdi. Zəhəbi "Mizan"da onun nə qədər yalançı və nalayiq insan olduğu və imamlar (ə) haqqında uydurduğu təhqiramiz hədislər haqqında dəyərli məlumatlar vermişdir.

---

[1] Əbu Nəsr Kəlabazi, Əbu Bəkr İsfahani və Əbul-Fəzl Şeybani (Qeysərani kimi məşhur idi) öz kitablarında Yunis İbni Yəzidin həyatı haqqında geniş məlumatlar vermişlər. (Qeysəraninin kitabına müraciət et, səh.458) Yunis Əbəlinin nəql etdiyi hədislərdən biri də Peyğəmbərin əmisi Əbu Talibin vəfatı hədisini məhz Əbu Zər"ədən nəql etmişdir.

[2] "Səhihi-Buxari", 3-cü cild, səh.2.

[3] "Səhihi-Buxari", səh.81.

Hədisi İmam Baqir (ə)-a istinad edən şəxs İshaq oğlu Məhəmməd olmuşdur. Onun nəql etdiyi hədis başdan-ayağa yalan olmaqla yanaşı heç bir dəlilə əsaslanmayır. Əli(ə)-ın məqamını dərk etməyən bu nadan insanlar tarix boyu heç bir ravinin nəql etmədiyi hədis və rəvayətləri öz kitablarında müxtəlif yollar ilə nəql edərdilər.

### *19-cu hədis*
### *Ömərin mələklər ilə söhbəti*

Buxari[1] bu hədisi Əbu Hüreyrədən və o da Peyğəmbər(s)-dən nəql etmişdir. Hədisdə deyilir: "Sizlərdən əvvəl bəni İsrail övladlarından elə şəxslər var idi ki, peyğəmbər olmamaqlarına baxmayaraq mələklər onlar ilə söhbət edərdilər. Mənim ümmətimdən elə bir şəxs olarsa, Ömər özü olacaqdır."

Əbu Hüreyrənin Peyğəmbər(s)-dən nəql etdiyi başqa bir hədisdə deyilir: "Keçmiş ümmətlər arasında elə şəxslər var idi ki, mələklər ilə birbaşa əlaqədə olar və onlar ilə söhbət edərdilər. Əgər mənim ümmətimdən onlar kimi bir şəxs olsa, Ömərin özü olacaqdır."

Əbu Hüreyrə bu hədisi Ömər vəfat etdikdən bir neçə il sonra Peyğəmbər(s)-in dilindən nəql etmişdir. (Ömər ibni Xəttab isə Peyğəmbər(s)-dən on iki il sonra vəfat etmişdir).

Hökuməti əldə saxlamaq üçün Peyğəmbər(s)-in ailəsi haqqında təhqiramiz hədislər nəql olunmalı, Əbu Bəkr və Öməri məsumluq dərəcəsinə çatdırmaq lazım idi. Xəlifə Ömərin zamanında belə bir hədisin nəql olunması qeyri-mümkün idi, çünki onu hamı yaxşı tanıyırdı və artıq heç bir tərif və tənqidə ehtiyac yox idi.

Müaviyə isə tam başqa bir insan idi. Ona yalnız şan-şöhrət və islam ümməti üzərində güclü hakimiyyət qurmaq lazım idi. Haqqı batildən ayıran əql sahibləri yaxşı bilirlər ki, mələklər ilə ünsiyyətdə olan yalnız peyğəmbərlər və onların məsum naibləri (canişinləri) olmuşlar. Peyğəmbərlər vəhy yolu ilə, onların naibləri isə Allahdan ilham alaraq mələklərlə ünsiyyətdə olmuşlar. Xəlifə Ömər isə nə Peyğəmbər, nə də peyğəmbər(s)-in naibi deyildi. Deməli onun mələklər ilə ünsiyyətdə olması (danışması) qeyri-mümkündür.

Mələklər ilə ünsiyyətdə olan naiblər isə heç olmazsa Harun, Yuşə və Şəm"un (ə)-ların kəsb etdikləri məqama nail olmalı idilər.

### *20-ci hədis*
### *Peyğəmbər (s)-in malının qalan hissəsi sədəqədir*

Müslüm və Buxari bu hədisi Əbu Hüreyrədən, o da Peyğəmbər (s)-in adından nəql etmişdir. Hədisdə deyilir: "(Mən vəfat edəndən sonra) qadınlarımın payına

---

[1] "Səhihi-Buxari", 2-ci cild, səh.194, ömərin fəzilətləri fəsli.

düşən hissəni onların özlərinə verin və xidmətçilərin zəhmət haqlarını tam şəkildə ödəyin. Yerdə qalan miqdarını isə imkansızlara sədəqə verin. Mənim ailə üzvlərimə bir dinar da olsun verilməməlidir.”

Əbu Bəkr bu hədisə istinad edərək Həzrəti Zəhra(ə)-ı payına düşən mal-dövlətdən məhrum etdi.

Müslüm və Buxari öz kitablarında Ayişədən belə bir hədis nəql edirlər: Peyğəmbər(s)-in qızı Fatimə atasından ona qalmış irsi almaq üçün atam Əbu Bəkrin yanına gəlib, haqqını tələb etdi. Atam ona dedi: Peyğəmbər (s) özü buyurmuşdur ki, öz var-dövlətimdən ailəm üçün heç bir şey saxlamayıram. Bizlərdən (peyğəmbərlərdən) hər nə qalarsa fəqir-füqəra arasında sədəqə olaraq paylanmalıdır. (Ayişə deyir:) Atam Əbu Bəkr onu (Fatimə(ə)-ı) payına düşən irsdən məhrum etdi. Fatimə bu sözləri eşitdikdən sonra qəzəblə Əbu Bəkrin evini tərk edərək ömrünün sonunadək onunla bir kəlmə də olsun danışmadı.

Həzrəti Fatimeyi Zəhra (ə) Peyğəmbər(s)-dən sonra yalnız altı ay yaşadı və dünyasını dəyişərkən həyat yoldaşı Əli(ə)-a vəsiyyət etdi ki, onu gecə ikən dəfn etsin və Əbu Bəkr dəfn mərasiminə dəvət edilsin.

Nəql olunmuş rəvayətlərdən birində deyilir:

Həzrəti Fatimə(ə)-ın Əbu Bəkrin yanına gəldiyini görən xəlifənin “sadiq tərəfdarları” həzrətin səsini boğmaq üçün səs-küy yaratmağa başladılar. Fatimə (ə) bir qədər dayandı və ətrafdakılar səslərini kəsib nə baş verəcəyini çox maraqla izləməyə başladılar. Allaha şükr və səna etdikdən sonra Fatimə (ə) canları lərzəyə salan bir xütbə oxudu:

Bayaqdan alışan gözlər aşağı dikildi və kimsəyə aman verməyən “müsəlmanlar” hərəkətsiz qalaraq artıq bir söz deməyə cəsarət etmədilər.

Həqiqəti olduğu kimi dərk etmək üçün həzrəti Fatimə(ə)-ın o günlər söylədiyi xütbəni ilk növbədə təhlil etməli, onlar arasında (Həzrəti Fatimə və Əbu Bəkr) baş vermiş ixtilafların səbəblərini araşdırmaq lazımdır.[1] Onlar arasında baş vermiş söhbət isə belə olmuşdur:

---

[1] Bu xütbə İmamlar (əleyhimussəlam) tərəfindən əshaba oxunmuş və onların vasitəsi ilə bizlərə çatdırılmışdır. Bu hədis Təbərsinin “İtqan” və Əllamə Məclisinin “Biharul-ənvar” kimi mötəbər əsərlərində də nəql edilmişdir.

Əbu Bəkr Əhməd ibni Əbdül Əziz Covhəri özünün “Səqifə” və “Fədək” adlı kitablarında bu hədisi Əli əleyhissəlamın qızı Zeynəbi Kubradan nəql etmişdir. Bəzi mənbələrdə hədis İmam Cə”fər Sadiq və İmam Baqir əleyhiməssəlam və həmçinin Abdullah ibni Həsən ibni Hüseyndən də nəql edilmişdir. Adları çəkilən bu şəxslər isə hədisi Həzrət Fatimə əleyha səlama istinad etmiş və ondan nəql etmişlər. (Həmidin “Nəhcül-Bəlağə”-yə verdiyi şərhə müraciət edə bilərsiniz: 4-cü cild, səh.87.) Həmçinin Əbu Abdullah ibni İmran Mərzbani, Ürvət ibni Zübeyr Ayişəyə istinad edərək hədisi həzrəti Fatimə əleyha səlamdan nəql etmişlər. (Həmin mənbəyə müraciət edə bilərsiniz:

Fatimə (ə) Əbu Bəkrin yanına gəlib dedi: Ey Əbu Bəkr! Əgər sən bu gün ölsən, səndən kim irs aparacaqdır?
Dedi: Əyalım və övladlarım.
Fatimə (ə) buyurdu: Bəs nə cür olur ki, sən Peyğəmbərdən irs apara bilirsən, amma onun övladı yox?!
Dedi: Ey Peyğəmbərin qızı! Məgər mən nə etmişəm ki, məndən bu qədər narazısan?
Buyurdu: Fədək Peyğəmbərdən bizə irs qaldığı bir halda onu bizdən aldın və haqqımızdan məhrum etdin....
"Səqifə" və "Fədək" (Müəllif: Əbu Bəkr Əbdul Əziz Covhəri) və "Nəhcül-Bəlağə"nin şəhrinə müraciət edə bilərsiniz (4-cü cild, səh.87)
Covhəri Əbu Sələməyə istinad edərək deyir:
Fatimə (ə) atasından ona qalan irsi tələb etdiyi zaman Əbu Bəkr ona dedi: Allah Peyğəmbərindən bu sözləri eşitdim: "Peyğəmbərlər özlərindən sonra irs qoymazlar." Mən o şəxslərin xərcliyini (payına düşən malı) verirəm ki, Peyğəmbər (s) sağlığında özü onlara xərclik verərdi.
Fatimeyi Zəhra (ə) buyurdu: Sənin qızın səndən irs apara bilir, amma Peyğəmbərin qızı öz atasından yox?!
Əbu Bəkr dedi: Bəli! Elədir ki, var.
Bu rəvayəti Əhməd ibni Hənbəl də özünün "Əl-Müsnəd" adlı kitabında nəql etmişdir. (1-ci cild, səh.10), "Əbu Bəkrin nəql etdiyi hədislər" fəsli.)
Covhəri özünün "Səqifə" və "Fədək" adlı kitablarında Əbu Talibin qızı Ümmü Haniyə istinad edərək belə bir rəvayət nəql etmişdir: Fatimə (ə) Əbu Bəkrin yanına gəlib dedi: Sən öldüyün zaman kim səndən irs aparacaqdır?
Dedi: Əyalım və uşaqlarım.
Fatimə (ə) buyurdu: Necə olur ki, sən Peyğəmbər(s)-dən irs apara bilirsən, amma biz onun övladları yox?
Əbu Bəkr dedi: Ey Peyğəmbərin qızı! Atan sizin üçün özündən sonra irs qoymamışdır.
Buyurdu: Amma Allah-təala bizim üçün ayırdığı paya (xilafətə) indi sən sahib olmusan!
Dedi: Allah Peyğəmbərindən bu sözləri eşitdim:
"O pay müsəlmanların ixtiyarında olmalıdır."
O gün Həzrəti Fatimə (ə) belə bir xütbə oxudu:

---

4-cü cild, səh.93) Əli ibni Hüseyn ibni Əli ibni Əbi Talibə istinad etmiş və o da atasından, o da cəddindən, o da Həzrəti Fatimə əleyha səlamdan nəql edir:

"Əbu Talib ailəsinin böyükləri ata-babalarından öyrəndikləri xütbələri öz övladlarına təlim etdiklərini gördüm."

***“Nə üçün Allahın kitabından üz çevirib onu kənara qoydunuz?”*** Sonra bu ayələrə istinad etdi:

“Süleyman Davuda varis oldu (irs apardı).”[1]

***“(Zəkəriyya dedi: Pərvərdigara,) mənə öz dərgahından bir oğul bəxşiş et ki, o həm mənə, həm də Yəqub nəslinə varis olsun. Pərvərdigara! Həm də elə et ki, o Sənin razılığını qazanmış olsun.”***[2]

***“Qohumlar Allahın kitabında irs aparmaq (varislik) baxımından bəziləri digrində daha üstündürlər.”***[3]

***“Allah övladlarınız haqqında sizə tövsiyə edərək buyurur ki, oğlana iki qız qədər pay (irsdən) düşür.”***[4]

***“Sizin hər birinizi ölüm haqlayan zaman qoyub gedəcəyiniz maldan valideynlərinizə, yaxın qohumlarınıza verilməsi üçün ədalət üzrə (malın üçdə birindən çox olmamaq şərtilə) vəsiyyət etməyiniz zəruridir. Bu müttəqilərə vacibdir.”***[5]

Həzrəti Fatimə (ə) bu ayələri tilavət etdikdən sonra buyurdu: Bəlkə Allah atama nazil etmədiyi ayələri sizə nazil etmişdir?

Yoxsa siz Qur”anı atamdan və əmim oğlundan daha yaxşı dərk edirsiniz? Belə ki, deyəsiniz iki din ardıcılları bir-birindən irs apara bilməz?! (Xütbədən bir hissə.)

Fatimə (ə) Qur”an ayələrinə istinad edərək Əbu Bəkri həqiqətdən agah etmək istəsə də, təəssüflər olsun ki, bir şeyə nail ola bilmədi. Onlar (hakim qüvvələr) Qur”an ayələrini özlərinə sərf edən bir tərzdə təfsir edib Fatimənin, atasından ona çatacaq irsdən məhrum etdilər. Beləliklə ayədəki “irs” kəlməsi mal-dövlət mənasında yox, peyğəmbərlik, və elm, hikmət mənalarında təfsir edildi və haqq-ədalətin üzərindən xət çəkildi.

Deməli, o zaman onlara ayənin həqiqi mənası deyil, məcazi mənası sərfəli idi və bunu cəmiyyətdə yaranmış şərait tələb edirdi.[6]

---

[1] “Nəml” surəsi, ayə:16

[2] “Məryəm” surəsi, ayə:6

[3] “Ənfal” surəsi, ayə:75

[4] “Nisa” surəsi, ayə:11

[5] “Bəqərə” surəsi, ayə:180

[6] Hakimiyyəti zorla ələ almış Əbu Bəkrçilər müsadirə yolu ilə istədikləri hər bir şeyi ələ gətirir və etiraz edən şəxslərə uydurulmuş hədislər və (məna baxımından) təhrif edilmiş Qur”an ayələri ilə cavab verirdilər. Necə ki, Əbu Bəkr Fatimə əleyha səlamın etirazına belə bir bəhanə ilə cavab vermişdir: “Ey Peyğəmbərin qızı! And olsun Allaha, O, bizim üçün atandan əziz bir şey xəlq etməmişdir. O dünyadan köçdüyü zaman özümə qərar

“Allahdan başqa heç bir qüdrət sahibi yoxdur.”
***

Ayəyə bir qədər diqqət yetirsək görəcəyik ki, mal-dövlət (irs) deyildikdə məqsəd peyğəmbərlik deyil, məhz həmən dünyəvi (gündəlik istifadə olunan) mal-dövlətdir. Mərhum Ələmul-Huda özünün Şafi adlı kitabında bu mətləbi şərh edərkən deyir: Əgər Zəkəriyya(ə)-ın özündən sonra varisi-oğul övladı olmasaydı ətrafındakı qüdrət sahibləri tutduqları mövqeydən sui-istifadə edərək onun var-dövlətini mənimsəyib pis məqsədlər üçün istifadə edə bilərdilər. Bu səbəbdən də o, Allah-təaladan ona övlad əta etməsini dua edir və onun duası Allahın dərgahında qəbul olunur.

Peyğəmbə (s) kimsənin öz övladına göstər-mədiyi mehr-məhəbbəti Fatimə(ə)-a göstərər və onu hamıdan əziz tutardı. Həzrəti Peyğəmbər (s) hər dəfə Fatimə(ə)-dan söz düşdüyü zaman üç dəfə bu sözləri təkrar edərdi: “Atası Zəhraya fəda olsun!”

Dünyaya iki alim imam gətirmiş (İmam Həsən və İmam Hüseyn(ə)) Həzrəti Zəhra (ə) müsəlman qadınına xas olan ən yüksək əxlaqa malik idi. Onun tərbiyəsi ilə şəxsən Peyğəmbər (ə) məşğul olar və onu aləmlərin sirlərindən agah edərdi.

Yoxsa onlar (xilafət və onun havadarları) belə güman edirdilər ki, Peyğəmbər (s) irs (varislik) kimi mühüm bir məsələni Fatimə(ə)-a təlim vermədən dünyadan köçmüş və o həzrət bu şəri məsələdən agah olmamışdır?! Yoxsa müsəlman

---

tapa bilməyirdim. Yaşamaqdan cana gəlib yerlə göyün birləşməsini istəyirdim. And olsun Allaha! Ayişənin ehtiyac içində yaşamasına razı olaram, amma sənin yox! Sən elə güman edirsən ki, haqqa don geydirib sənə zülm edirəm, amma bu belə deyildir! Dediyin mallar isə Peyğəmbərin şəxsi mülkü deyil və ümum müsəlmanların beytül-malına aiddir. O, öz sağlığında bu malları ehtiyac içində yaşayan fəqir-füqəraya sədəqə verərdi. Dünyadan köçdükdən sonra isə bu iş mənim öhdəmə düşdü və hal-hazırda onu fəqir-füqəra arasında mən bölürəm. Fatimə əleyha səlam buyurdu: And olsun Allaha! Bundan belə səninlə bir kəlmə də danışmayacağam. Daim sənə nifrin edib haqqında pis qarğışlar edəcəyəm.

Əbu Bəkr dedi: Amma mən Allahdan sənin üçün dua edəcəyəm!

Fatimə əleyha səlam vəfat etdiyi zaman vəsiyyət etdi ki, Əbu Bəkr onun üçün meyyit namazı qılmaqdan və dəfn mərasimində iştirak etməkdən məhrum edilsin.

Əbu Bəkr Çovhəri özünün “Səqifə” və “Fədək” adlı kitablarında bu hədisi olduğu kimi nəql etmişdir. (“Nəhcül-bəlağə”nin şərhinə müraciət et: 4-cü cild, səh.90.)

Əbu Bəkr Həzrəti Fatimənin misal çəkdiyi ilk iki ayəni (Davud və Zəkəriyya əleyhiməssəlamın dastanı) müqabilində cavabsız qalıb “Dediyin mallar isə Peyğəmbərin şəxsi mülkü deyildir” -deyərək Fatiməni razı salmağa sə”y etdi. Həzrəti Fatimə isə ona heç bir cavab verməyib evini tərk edir və ömrünün sonunadək ona nifrin edəcəyini özünə söz verir.

ümmətinin ən adil qazisi, Peyğəmbərin elm şəhərinin qapısı, Peyğəmbər(s)-in kürəkəni və nəhayət əmisi oğlu olan Əli (ə) da bu həqiqətdən agah deyildi?! O ailədə böyüyüb boya-başa çatmış atasının dayağı olan İmam Həsən(ə), İmam Hüseyn(ə), Həzrəti Əbul-Fəzl Abbas necə?

Axı necə olur ki, Peyğəmbər (s) varislik məsələsini, daha dəqiq desək, “Peyğəmbərlər özlərindən sonra irs qoymazlar” hədisini öz qəbiləsinə (yəni Bəni Haşimə) yox, təkcə Əbu Bəkr kimi yad bir şəxsə nəql etmişdir?! Onda belə çıxır ki, Peyğəmbər (s) özündən sonra qoyub gedəcəyi var-dövləti (irsi) özü-özündən gizlədib onu tam başqa bir şəxsə həvalə etmişdir. Bu isə Peyğəmbər (s) sünnəti ilə tamamilə ziddir. Çünki, o, dini (şəri) hökümləri müəyyən şəxslərə deyil, hamıya nazil olmuş ilk ayələri belə kimsədən gizlin saxlamadı, əksinə olaraq onu islamı yeni qəbul etmiş müsəlmanlara oxuyar və geniş şəkildə izah edərdi.

Həzrəti Fatimə (ə) bu fəsahətli xütbədə “Yoxsa demək istəyirsiniz ki, mən və atam iki din ardıcıllarıyıq və iki din ardıcılı bir-birindən irs aparmır?” deməklə sönmüş ürəkləri yenidən şö”ləndirdi, amma öz haqqına nail ola bilmədi. Səbəbi isə artıq məlumdur: “Hədis”. Elə bir hədis ki, onu Əbu Bəkrdən savayı kimsə (Həzrəti Məhəmməd(s)-dən) eşitməmiş və nəql etməmişdir. Əlbəttə bəziləri belə güman edə bilərlər ki, bu hədisi Malik ibni Ovs ibni Hədəsan da nəql etmişdir.[1]

Bəli! Deyirlər ki, xəlifə Ömərin zamanında Əli (ə) və İbni Abbas şikayət üçün onun yanına gəlirlər. Osman, Əbdürrəhman, Zübeyr və Sə”d kimi məşhur səhabələr də orada olurlar. Ömər onlardan soruşur:[2] “Məgər Peyğəmbər(s)-in buyurduğu “Biz özümüzdən sonra irs qoymarıq və bizdən qalan hər bir şey sədəqədir” hədisini eşitməmisinizmi?” Onlar da məcbur olub Ömərin dediklərini təsdiq etdilər.

Göründüyü kimi Əbu Hüreyrə bu məclisdə iştirak etməmişdir və iştirak edə bilməzdi də; çünki, oraya ən hörmətli və adlı-sanlı səhabələr toplaşıb müsəlmanların gündəlik çətinliklərini həll edirdilər. Əbu Hüreyrə isə o ad-sandan məhrum idi. Onun fəaliyyəti, Müaviyə xilafəti ələ keçirdikdən sonra başladı. O zaman ki, Əbu Bəkr, Ömər, Osman və digər görkəmli şəxsiyyətlər vəfat etmiş, Əbu Hüreyrə üçün hədis uydurmağa əlverişli şərait yaranmışdı. Bəni Üməyyə onu hər tərəfli təmin edərək hər yerdə tanıtmağa çalışardı. Onların sayəsində Əbu Hüreyrə az bir zamanda məşhurlaşdı və Əməvi xilafətinin ən yaxın adamlarından birinə çevrildi. Xəlifə Əbu Hüreyrəni tərif edər və

[1] “Nəhcül-bəlağə”nin şərhi (Həmidi), 4-cü cild, səh.91

[2] “Səhihi-Buxari”, 2-ci cild, səh.124

həvəsləndirməyə xüsusi fikir verərdi. Yeni-yeni hədis uydurmaq üçün onun məvacibini günbəgün artırardı.
Beləliklə, Əbu Hüreyrə islam aləmində adlı-sanlı səhabələrdən biri kimi tanınmağa başladı.

***21-ci hədis***

***Əbu Talibin kəlmeyi-şəhadət deməkdən imtina etməsi***

Əbu Hüreyrə deyir: "Peyğəmbər (s) əmisi Əbu Talibə dedi: Şəhadət ver (yəni "la ilahə illəllah, Muhəmmədən Rəsulullah" kəlməsini de) ki, qiyamət günü sənin bu işinə şahid olum. Əbu Talib dedi: Əgər Qureyş "dərədə mühasirədə qalmaq* onu bu işə vadar etdi" deməsəydi, dediyin hər bir şeyi iqrar edərdim. Elə o zaman bu ayə nazil oldu:

***"Ya Məhəmməd! Şübhəsiz ki, sən istədiyini doğru yola yönəldə bilməzsən; Allah özü istədiyini doğru yola salar."[1]***

Əbu Hüreyrə başqa bir yerdə bu rəvayəti belə nəql edir: Peyğəmbər (s) əmisi Əbu Talib ölüm ayağında olduğu zaman ona dedi: La ilahə illəllah de ki, qiyamət günü sənin bu işin üçün şahid olum. Amma Əbu Talib kəlmeyi-şəhadəti iqrar etmədi. Bu səbəbdən də Allah-təala bu ayəni Peyğəmbər(s)-ə nazil etdi.[2]

***

Həzrəti Əbu Talib (Allah ona rəhmət eləsin!) besətin onuncu ilində (bəzilərinin dediyinə görə 9-cu və ya 8-ci ilində) yəni hicrətdən üç il əvvəl vəfat etmişdir. Əbu Hüreyrə azı on il bundan sonra Hicaza gəlmiş və islamı qəbul etmişdir. Deməli, Əbu Hüreyrə bu cəryəanda şəxsən iştirak etməmişdir və nəql etdiyi bu hədis də digər hədislər kimi yalan və iftiradır. Dinsiz və ağlı dininə hakim olmayan şəxslərdən Allaha pənah aparıram! İslamın görkəmli şəxsiyyətləri haqqında dəyərli təhqiqatlar aparılmış və Həzrəti Əbu Talib (Allah ona rəhmət eləsin!) haqqında bir neçə kitab təlif edilmişdir.[3]
Məgər dillərdə əzbər olan bu misal Əbu Talibin dəfələrlə təkrar etdiyi şüar deyildimi: "Ey Allah şahidi, mənim üçün şəhadət ver ki, Əhməd Nəbinin (Peyğəmbərin), dinindəyəm!"

"Əl-Həccətu Ələz-zahib ila tənfir Əbi Talib" adlı kitabı nəşr edildi. kitabın sonunda Peyğəmbər(s)-in əmisi Həzrəti Əbu Talibin (Allah ona rəhmət eləsin) müsəlman olaraq dünyadan köçməsi haqqında yazılmış bir neçə kitabın adını

---

[1] "Əl-Qəsəs" surəsi, ayə:56

[2] Bu iki hədisi Müslüm öz "Səhih" kitabında (1-ci cild, səh.31) Yəzid ibni Keysandan, o da Əbu Hazimdən, və o da Əbu Hüreyrədən nəql etmişdir.

[3] 1351-ci hicri şəmsi (1972-ci miladi) ilində "Əl-Mətbəul-Ələviyyə adlı mətbəədə İmam Şəmsəddin Əbu Əli Fəxar ibni Şərif: Ey Allah şahidi, mənim üçün şəhadət ver ki, Nəbinin (Peyğəmbərin) Əhmədin dinindəyəm." Kimi qeyd etmişdir.

çəkmişdir. “Əbdul Ovfun böyük övladı” Əllamə Seyyid Məhəmməd ali Şərufun Musəvi Amilini 1970-(1349-cu) ildə yazdığı (Bağdadda çap olmuş) “Və Şeyxul Əbtəh” haqqında yazılmış ən yaxşı kitab hesab etmək olar. Kitab fəlsəfə, tarix və sair elmi mövzuları əhatə edir. Əllamə Seyyid Məhəmməd cənablarının təlif etdiyi bu kitab özünün gözəl ədəbi üsulu ilə bu mövzuda yazılmış digər kitablardan daha fərqli və cəzb edicidir.

Kitabda Əbu Talib (Allah ona rəhmət etsin) haqqında düzgün məlumatlar verilmiş və onun haqqında uydurulmuş bütün iftiralar qətiyyətlə tənqid edilmişdir. Bu elmi əsər işıq üzü gördükdən sonra çox az bir zamanda bütün islam aləmində yayılmağa başladı və beş ay sonra Hindistanın Ləkənhur əyalətində məşhur alim Seyyid Zəfər Mehdi tərəfindən ordu dilinə tərcümə olundu. Sonralar “Məcəllətul Suhəyl Yəmən” adlı jurnalın beş nömrəsində tərtib ilə dərc edildi.

Bəni Haşimin ən görkəmli və ən nüfuzlu şəxsiyyəti haqqında belə nalayiq sözlər demək yalnız insanın cəhalət və nadanlığı üzündən ola bilər.

Bu qəsidə Soltanul-üləma və Ümiduil-Şüəra Şeyx Əbdül Hüseyn Sadiqi Amilinindir.

*22-ci hədis*

***"Yovmud-dar" günü qorxudulma***

Buxari və Müslüm bu hədisi Əbu Hüreyrədən nəql etmişlər. Hədisdə deyilir:[1]

"Və ən yaxın qohumlarını qorxut!" ayəsi Peyğəmbər (s)-ə nazil olduğu zaman ayağa qalxıb buyurdu: "Ey Qureyş əhli! Mən sizləri tanrılarınızdan azacıq da olsun, ehtiyacsız etməyirəm! Ey Əbdu Mənaf övladları! Ey Abbas! Ey Səfiyyə! Mən sizin Allaha olan ehtiyaclarınızı əsla azaltmayıram. Ey Peyğəmbər qızı Fatimə! Mənim var-dövlətimdən hər nə ürəyindən keçir, istə, amma bil ki, heç vaxt sənin ehtiyacını Allahdan azaltmayacağam və Ondan ehtiyacsız etməyəcəyəm."

Bu ayə təqribən Əbu Hüreyrənin Yəməndən Hicaza köçüb islamı qəbul etməsindən iyirmi il əvvəl, yəni Həzrəti Məhəmməd(s)-ə peyğəmbərlik təzə verildiyi ərəfələrdə (Məkkədə) nazil olmuşdur. Deməli, Əbu Hüreyrənin nəql etdiyi bu hədis də digər hədislər kimi Peyğəmbər(s)-in ailəsi ilə düşmənçilik edən əməvi xilafəti tərəfindən sifariş edilmişdir.

Tarix isə bu ayə haqqında bizə tam başqa bir məlumat verir: Ayə nazil olduğu gün Peyğəmbər (s) yaxın qohumlarını evinə dəvət edib kiçik bir məclis qurdu. Məclisdə Peyğəmbər(s)-in əziz əmiləri: Əbu Talib, Abbas, Həmzə (Allah onlardan razı olsun!) və Qur"anda lə"nət edilmiş digər əmisi Əbu Ləhəb və s. də iştirak edirdilər.

Peyğəmbər (s) kiçik bir xütbə oxudu və onları Allahın birliyinə dəvət etdi. Onun məclisdə buyurduğu sözlərdən biri də bu idi: "Sizlərdən hansı biriniz mənə bu işdə köməklik edə bilər? Həmin şəxs mənim vəzirim (köməkçim), varisim və canişinim (xəlifəm) olacaqdır!"

Məclisdə yaşca hamıdan kiçik olan Əli (ə) ayağa qalxıb dedi: "Ya Rəsuləllah! Mən o böyük işdə sənə yardımçı olmağa hazıram!"

Peyğəmbər (s) onu hamıya görsədərək buyurdu: "O mənim varisim, qardaşım və bu dünyada sizin aranızda xəlifəmdir. Onun sizə verdiyi bütün əmrlərə itaət edin və dediyi hər bir sözü diqqətlə dinləyin."

*23-cü hədis*

***Həbəşilərin məsciddə Peyğəmbər (s)-in qarşısında oynamaqları***

---

[1] Buxari bu hədisi "Vəsiyyətlər" fəslində (2-ci cild, səh86) Zühəridən, o da Səid ibni Musəyyibdən, o da Əbu Sələmədən, o da Əbu Hüreyrədən nəql etmişdir. Müslüm isə Əbdül Məlik ibni Uməyrdən, o da Zühəridən, o da ibni Museyyibdən, o da Əbu Sələmədən və o da Əbu Hüreyrədən nəql etmişdir. Əhməd ibni Hənbəlin "Müsnəd"ində digər rəvayətlərə də işarə edilmişdir.

Buxari Əbu Hüreyrədən belə nəql edir: “Həbəşilər məsciddə Peyğəmbər(s)-in qarşısında atılıb düşdükləri (oynadıqları) zaman Ömər məscidə daxil oldu, yerdən bir ovuc xırda daş götürüb onlara tərəf atdı.

Peyğəmbər (s) onun bu hərəkətini görüb buyurdu: “Ey Ömər! Yaxın gəl və onlara baş qoşma!”[1]

Hamıya məlumdur ki, Peyğəmbər (s) mənasız işlərdən (oyunlardan) hamıdan çox çəkinər və onun haramlığını hamıdan daha yaxşı dərk edərdi. Deməli o həzrət kiminsə məsciddə oyunla məşğul olmasına yol verə bilməzdi.

Bütün həyatını insanların düzgün təlim-tərbiyəsinə sərf edən Həzrəti Peyğəmbər (s) bir an da olsun fəaliyyətini dayandırıb faydasız işlərlə məşğul olmazdı. O öz əshabına daim fəaliyyətdə olmağı və mənasız işlərdən çəkinməyi tövsiyə edərdi.

***“Onlar çox böyük-böyük danışırlar. Ağızlarından çıxan söz necə böyük küfrdür. Onlar ancaq yalan deyirlər.”[2]***

### *24-cü hədis*

### *Hökmün icrasından əvvəl dəyişilməsi*

Buxari Əbu Hüreyrədən nəql edir: “Peyğəmbər (s) bizi yanına çağırıb belə bir göstəriş verdi: “Yola düşün! Əgər filan şəxsləri tapsanız od vurub yandırın!” Biz yola düşmək istərkən buyurdu: “Yandırmaq tək Allaha aid olduğu bir halda axı mən necə onların yandırılmasını əmr edə bilərəm?! Bəs onları yandırmaqla deyil, digər üsulla öldürün.”[3]

Əbu Hüreyrənin nəql etdiyi bu hədis batil və əsassızdır. Çünki bir hökmün icrasından əvvəl dəyişdirilməsi Allah və Onun Peyğəmbəri üçün mahal və qeyri-mümkündür. Digər tərəfdən isə Peyğəmbər(s)-in verdiyi hər bir əmr və dediyi hər bir söz Allah əmri və Allah kəlamıdır. Necə ki, Qur”ani kərimdə deyilir:

***“O kefi istəyəni həvayi-nəfs üzündən danışmır. Bu ancaq nazil olan bir vəhydir.”[4]***

Belə bir əsassız hədis nəql etmək insanın nadanlıq və cəhalətini göstərməyirmi?!

***“Allah onların dediklərindən çox-çox uca və çox yüksəkdir.”[5]***

### *25-ci hədis*

### *Çox vaxt tələb olunan işin qısa bir müddət ərzində görülməsi*

---

[1] “Səhihi-Buxari”, 2-ci cild, səh.120. Kitabul cihad və seyr, “Əl-ləhvu bil-hirab” fəsli.

[2] “Kəhf” surəsi, ayə:5

[3] “Səhihi-Buxari”, 2-ci cild, səh.114

[4] “Nəcm” surəsi, ayə:3

[5] “İsra” surəsi, ayə:43

Buxari bu hədisi Əbu Hüreyrədən və o da Peyğəmbər(s)-dən nəql etmişdir. Hədisdə deyilir: “Qur”an oxumaq Davud (ə) üçün çox asan bir iş idi, belə ki, o atını (və ya digər minik heyvanını) yəhərləmək istədiyi zaman Qur”an oxumağa başlayar və işini qurtarmazdan əvvəl Qur”anı xətm edərdi (tamamlayardı).”[1]
Bu hədis iki səbəbdən batildir:

1) Qur”ani kərim yalnız peyğəmbərlərin sonuncusu Həzrəti Məhəmməd(s)-ə nazil olmuş və ondan əvvəl heç bir peyğəmbərə Qur”an ayəsi nazil olmamışdır. Bəs Davud (ə) hansı Qur”anı oxumuşdur?
Bəzilərinin dediyinə görə Qur”an deyildikdə burada Zəbur və Tövrat nəzərdə tutulmuşdur və onları “Qur”an” adlandırmaqda məqsəd onun kimi möcüzəli olmalarıdır. Deməli, Qur”an deyildikdə həzrəti Məhəmməd(s)-ə nazil olan Qur”ani-kərim deyil, Zəbur və Tövrat kimi müqəddəs kitabları nəzərdə tutmaq lazımdır.[2]

Onların verdikləri bu cavab insanda şübhə hissi yaradır, çünki Əbu Hüreyrənin dediyi sözləri istədikləri kimi mənalandırıb və onun heç vaxt düşünmədiyi şeylər haqqında xəbər verirlər.

2) Hər hansı bir işi görmək üçün insanın müəyyən qədər vaxta ehtiyacı vardır və əql bunu təsdiq edir ki, vaxtından tez hər hansı bir işi görmək mahal və qeyri-mümkündür.
Heyvanın yəhərlənməsinə sərf olunan vaxt ərzində də Qur”an xətm etmək təbii ki, qeyri-mümkün olan bir işdir. (İstər Qur”an olsun, istərsə də Zəbur və Tövrat). Deməli Əllamə Qəstəlaninin yuxarıda gətirdiyi dəlili doğru və düzgün hesab etmək olmaz. O özünün “İrşadus-sari” kitabında bu hədisi şərh edərkən deyir: “Bu hədisdən biz belə bir nəticəyə gəlirik ki, Allah-təala yeri genişləndirdiyi kimi, zamanı və vaxtı da uzadır və genişləndirir.”
Sonra Nüvəvinin dilindən bu sözləri deyir: “Onlardan bir nəfər Qur”anı gecələr üç dəfə, gündüzlər isə dörd dəfə xətm edərdi. 876-cı ildə Əbu Tahiri Qüdsdə gördüm. O gecə, və gündüz Qur”anı on dəfədən çox xətm edərdi. Əbu Şərifin (Allah onun elminin xeyrini hifz etsin) oğlu Şeyxül İslam Burhan bizə deyərdi ki, gecə və gündüz on beş dəfə Qur”anı xətm edir. Əlbəttə bu dediklərimi yalnız o şəxslər dərk edə bilər ki, ilahi feyz ona kömək (şamil) olmuş olsun.”
Mən isə deyirəm: Belə bir iş əsla mümkün deyildir. Yalnız o zaman mümkün ola bilər ki, dünya hal-hazırdakı vəziyyətində adi toyuq yumurtasının içinə yerləşmiş olsun!!

[1] “Səhihi-Buxari”, 3-cü cild, səh.104. “Biz Davuda Zəburu verdik” fəsli. Həmçinin 2-ci cild, səh.164. Məxluqatın yaradılışı və peyğəmbərlər hədisləri.”

[2] “İrşadus-sari” (“Səhihi-Buxari”yə verilən şərh.) 8-ci cild, səh.500

Alimlər bunu çox yaxşı dərk edirlər ki, zaman və məkanı ötmək həqiqətdən xaricdir. Çünki belə olduqda yeni-yeni çətinliklər meydana gəlir. Digər tərəfdən isə Davud(ə)-ın (fərzən) gördüyü bu iş heç də möcüzə deyildir, çünki möcüzə əqldən deyil, adətdən (yəni adi haldan) xaricdir və göründüyü kimi bu əməldən, adətdən deyil, məhz əqldən xaricdir.

***26-cı hədis***

***Siçana çevrilən kəniz***

Bu hədisi Müslüm və Buxari[1] Əbu Hüreyrədən və o da Peyğəmbər(s)-dən nəql etmişdir. Hədisdə deyilir:
"Bəni İsraildən olan bir kəniz günlərin biri gözlənilmədən yox oldu. Onun necə olduğu və nə etdiyi kimsəyə məlum deyildi. Amma mən onu bir siçan surətində görürəm. Onun qarşısına dəvə südü qoyulduğu zaman içər, qoyun südü içməkdən isə imtina edərdi."
Müslüm və Buxari bir müsəlman kimi islamın qarşılaşdığı böyük bəlalardan biri olan xurafatın qarşısını almalı və həqiqəti öz kitablarında sonrakı nəsillərə çatdırmalı idilər. Amma təəssüflər olsun ki, belə yanlış və xurafi hədisləri digər mötəbər hədislər sırasında nəql etmiş və ələ gətirdikləri sənədlərin (hədislərin) doğru və yalan olduğuna diqqət yetirməmişlər.

***27-ci hədis***

***Zərərinə olan bir sözü, Fəzldən eşitdiyini deyir***

Müslüm bu hədisi Əbdül Məlik ibni Əbu Bəkr Əbdürrəhmandan və o da Əbu Bəkrdən nəql edir:
"Günlərin biri Əbu Hüreyrə bizə belə bir rəvayət nəql etdi: Ramazan ayında səhəri cünub (cənabətli) halında açan şəxs daha oruc tutmamalıdır."[2]
Əbu Bəkr deyir: Atam Əbdürrəhman ibni Hərs üçün bu rəvayəti nəql etdim, amma o bunu qəbul etmədi və ayağa qalxıb getdi. Mən də onun ardınca getdim. O, Ayişə və Ümmü Sələmənin yanına gəlib onlardan bu haqda dəqiq cavab verməklərini istədi. Onların hər ikisi belə cavab verdi: "Peyğəmbər (s) istər yuxuda olsun, istərsə də adi halda səhərə kimi cünub halında qalar və həmən günün səhəri oruc tutardı." Əbu Bəkr deyir: Oradan çıxıb Mərvanın yanına getdik. (Mərvan o zaman Müaviyə tərəfindən Mədinəyə vali təyin olunmuşdu.) Əbdürrəhman əhvalatı ona danışdı. Mərvan Əbu Hüreyrənin rüsvayçılığının qarşısını almaq üçün dərhal göstəriş verdi ki, tez Əbu Hüreyrənin yanına gedib

---

[1] "Səhihi-Buxari", 2-ci cild, səh.149, Məxluqatın yaradılışı fəsli, "Səhihi-Müslüm", 2-ci cild, səh.536, Siçana çevrilmiş kəniz fəsli.

[2]Göründüyü kimi Əbu Hüreyrə burada nağılbaz surətində canlandırılmışdır. Nağılbaz o şəxslərə deyilir ki, camaatın toplaşdığı yerlərə gəlib orada qəribə və maraqlı əhvalatlar və qədim nağıllar danışar və onların danışdıqları dastanların əksəriyyəti yalan olar.

onu macəradan xəbərdar edək. Biz də Əbu Hüreyrənin yanına gedib onu baş vermiş əhvalatdan agah etdik. Əbu Hüreyrə bizi dinləyib qurtardıqdan sonra dedi: O iki qadın doğrudanmı sizə belə cavab verdi? Əbdürrəhman dedi: Bəli. Əbu Hüreyrə dedi: Bəs onlar bizdən daha çox və daha yaxşı bilirlər! Sonra əvvəldə Fəzl ibni Abbasdan eşitdiyi sözü geri götürüb dedi: Bu sözləri mən Peyğəmbər(s)-dən deyil, Fəzldən eşitmişəm. Əbu Bəkr deyir: Beləliklə Əbu Hüreyrə nəql etdiyi birinci rəvayəti geri götürdü.[1] Amma o nəql etdiyi birinci rəvayəti inkar etdi və belə bir rəvayəti nəql etdiyini boynundan atdı, sonra sözünü dəyişib müxtəlif bəhanələrə əl atdı.

Yalançı və kələkbaz insanlar da belə olarlar. Onlar bəzən iki ziddiyyətli işi bir-biri ilə əlaqələndirməyə və ona həqiqət donu geydirməyə çalışarlar. Qur”an onları belə vəsf edir:

*“Həm də ağıl sahibləri (onunla həm qorxsunlar,) düşünüb ibrət alsınlar.”*[2]

### *28-ci hədis*

### *BİR-BİRİ İLƏ ZİDD OLAN İKİ HƏDİS*

Buxari öz “Səhih” kitabının 1-ci cildinin 412-ci səhifəsində Əbu Sələmdən, o da Əbu Hüreyrədən, o da Peyğəmbərdən belə nəql edir:

“İslamda “ədva”, “səfər” və hamə[3] mövcud deyildir.” Əbu Hüreyrə deyir: Çöl ərəblərindən biri soruşdu: “Ya Rəsuləllah, bir qotur dəvə başqa bir dəvə ilə yol getdi və qoturluq ona da sirayət etdi. Bu halda nə etmək olar?” Peyğəmbər (s) buyurdu: “Birinci dəvədə qoturluq haradan yaranmışdı?...” (Yəni Əbu Hüreyrənin iddiasına görə Peyğəmbər (s) xəstəliyin keçici olmasını rədd etmişdir. Amma Əbu Hüreyrənin nəql etdiyi sonrakı hədisdə isə islamda keçici xəstəliyin oması təsdiq olunur)

Buxari bu rəvayəti nəql etmiş, elə bunun ardınca Əbu Sələmdən nəql edir ki, Əbu Hüreyrənin əvvəldəki sözündən sonra belə dediyini eşitdim ki, Rəsuli Əkrəm buyurdu: “Sağlam insanla xəstə insan heç vaxt görüşməməlidir.” Əbu Sələmə deyir: Əbu Hüreyrə! Məgər demədinmi ki, İslamda ədvi yoxdur və onu rədd edir? Amma Əbu Hüreyrə əvvəldəki sözünü tənzib etdi. Və mövzunu dəyişərək başqa yerə döndərdi.

### *29-cu hədis*

---

[1] “Səhihi-Müslüm” 1-ci cild, səh.142, Oruclu kitabı Cunub halında səhər tutulan orucun düzgünlüyü haqqında.

[2] “İbrahim” surəsi, ayə:52

[3] Səfər ayında, yaxud onun axrıncı çərşənbəsində müsibət baş verməsinə etiqad bəsləmək.

Hamə-Cahilliyyət dövründə bir xəyali quşun adıdır onlar inanırdılar ki, ölən şəxsin ruhu həmin quş şəklinə düşür.

***Yeni doğulmuş iki uşağın qeyb haqqında söhbət etmələri***

Bu hədisi Buxari və Müslüm Əbu Hüreyrədən və o da Peyğəmbər(s)-dən nəql etmişdir. Hədisdə deyilir: "Bəni İsrail qəbiləsində Cəric adlı bir şəxs var idi. Namaz qıldığı zaman anası onun yanına gəlib çağırmağa başlayır. Cəric öz-özünə fikirləşir: Namazımı davam edim, ya anama cavab verim?

Anası onun cavab vermədiyini görüb ona belə bir nifrin (qarğış) edir: "İlahi! Onu, zinakar qadınla olmayınca (yəni zina etməyincə) dünyadan aparma!" Peyğəmbər (s) sonra buyurdu: Günlərin biri Cəric öz ibadətgahında namaz qıldığı zaman bir qadın ona yaxınlaşıb onunla yaxınlıq etməyi təklif etdi. Amma Cəric ona əhəmiyyət verməyib ibadətini davam etdi. Sonra həmən qadın bir çobanın yanına gedib onunla yaxınlıq etdi və ondan bir uşaq dünyaya gətirdi. Qadın uşağı götürüb camaat arasına gətirdi və onu Cəricin oğlu olduğunu bildirdi. Əvvəllər Cərici mömin bir şəxs kimi tanıyan yerli camaat (Bəni İsrail camaatı) qadının sözünə inanaraq onu evindən çıxarıb, möhkəmcə döydülər. Çarəsiz qalan Cəric öz ibadətgahına gedib namaz qılıb dua etməyə başladı. Sonra uşağın yanına gəlib ondan soruşdu. Ey körpə! Sənin atan kimdir?

Uşaq cavab verdi: (Filan) çoban. Bu əhvalatı öz gözləri ilə müşahidə edən Bəni İsrail camaatı tutduqları işə peşman olub acizanə Cəricin yanına gəlib dedilər: İcazə ver, sənin evini yenidən bərpa edək, biz onu hətta saf qızıl ilə də bərpa etməyə (tikməyə) hazırıq. Cəric dedi: İndi ki, belədir, onu olduğu kimi (yəni palçıq ilə) bərpa edin!

Orada bir yəhudi qadın öz uşağına süd verirdi. Qadın qarşılarından gözəl-göyçək bir cavan atlının keçdiyini görüb dedi: "İlahi, mənim bu oğlumu da onun kimi gözəl və yaraşıqlı et!" Uşaq ağzını anasının döşündən ayırıb üzünü cavana tərəf tutub dedi: "İlahi! Elə etmə!" Sonra yenidən süd əmməyə başladı. Əbu Hüreyrə deyir: Mənə belə gəlir ki, Peyğəmbər (s) hədisin bu yerində (nə isə fikirləşərək) barmağını ağzına qoyub sovurmağa başladı. Sonra hədisin ardını nəql etməyə başladı: Uşağın anası bir kənizin yanından keçərkən dedi: "İlahi! Mənim bu ciyərparamı bu kəniz kimi (fəqir və yoxsul) etmə!"

Uşaq yenidən ağzını anasının döşündən ayırıb dedi: "İlahi! Məni elə həmən kəniz kimi et." Ana uşağından soruşdu: "Axı sən nə üçün mənim dediklərimi əksinə istəyirsən?" Uşaq cavab verdi: "Gördüyün o gözəl cavan zülmkarın biridir, bu qadın isə günahsız bir Allah bəndəsidir. Camaat onu oğru kimi tanıyır və haqqında olmayan sözlər danışırlar."

Nə Cəric, nə də süd əmər o iki körpə peyğəmbər olmamışlar. Digər tərəfdən isə körpə bir uşağın elə kiçik yaş həddində danışmasına heç bir ehtiyac yox idi. Çünki, bu iş yalnız peyğəmbərin həqqaniyyətini və ya başqa mühüm bir işi isbat etmək üçün baş verə bilər. Belə bir hadisəni isə "xariqul-adə yəni insanların adət etdikləri şeylərdən xaric və qeyri-adi iş adlandırırlar. Məsələn, Həzrəti İsa (ə) öz

həqqaniyyətini isbat etmək üçün Allahın izni ilə hələ bələkdə ikən danışar və onları Allahın birliyinə çağırardı.

***"Üzünü Allahın fitri olaraq insanlara verdiyi dinə-islama tərəf tut. Allahın dinini, Onun yaratdığı tövhid dini olan islamı heç vəchlə dəyişdirmək olmaz. Doğru din budur, lakin insanların əksəriyyəti haqq dinin islam olduğunu bilməz."***[1]

### 30-cu hədis

### Zəkat fitrəsinin Əbu Hüreyrəyə tapşırılması və Şeytanın üç gün ardıcıl zəkat fitrəsini oğurlamaq üçün gəlməsi

Buxarinin Əbu Hüreyrədən nəql etdiyi hədisdə deyilir:[2]

"Peyğəmbər (s) bir il zəkat fitrəsini yığmağı mənə tapşırdı. Mən bütün günü adətən orada oturar və beytül-mala aid olan bəzi işləri yerinə yetirərdim. Günlərin biri bir nəfər şəxs gəlib mənim orada olmadığımı zənn edərək yemək şeylərini yığmağa başladı. Mən onu yaxalayıb Peyğəmbər(s)-in yanına aparacağıma and içdim. O əl-ayağıma düşüb yazıq-yazıq yalvarmağa başladı: Mən kasıb bir adamam, uşaqlarım aclıqdan əziyyət çəkir, xahiş edirəm məni burax. Əbu Hüreyrə deyir: Ona yazığım gəldi və çarəsiz qalıb azad etdim. Səhər açıldıqda Peyğəmbər (s) məni görüb buyurdu: Ey Əbu Hüreyrə! Dünən gecə tutduğun oğru necə oldu! Dedim: Ya Rəsuləllah! Onun çox fəqir və yoxsul olduğunu görüb ürəyim yandı və çarəsiz qalıb azad etdim. Peyğəmbər (s) buyurdu: O sənə yalan deyib, yenə qayıdacaqdır. Səhəri gün yenə beytül-malın yığıldığı otaqda gizlənib onu gözləməyə başladım. Çox keçmədi ki, həmən şəxs gəlib yenə də yemək məhsullarını yığmağa başladı. Yenə onu oğurluq üstə yaxalayıb Peyğəmbər(s)-in yanına apara-cağıma and içdim. O yenə ağlayıb yalvarmağa başladı və dedi ki, fəqir bir adamam, bu işi çarəsizlikdən görürəm və and içdi ki, bu yemək şeylərini aclıqdan əziyyət çəkən ailəsi üçün aparır. Bu dəfə də mənim ona ürəyim yandı və çarəsiz qalıb azad etdim. Səhər açıldıqda Peyğəmbər (s) məni görüb soruşdu: Ey Əbu Hüreyrə! Dünən gecə yaxaladığın əsir necə oldu? Dedim: Ya Rəsuləllah! O öz kasıblığından və fəqirliyindən çox şikayətləndi və mən bu dəfə də çarəsiz qalıb azad etdim. Peyğəmbər (s) buyurdu: O sənə yalan söyləmişdir və çox keçməz yenidən qayıdar. Mən bu dəfə də bir yerdə gizlənib onun gəlməyini gözlədim. Çox keçmədən o üçüncü dəfə yenidən gəlib, yemək şeylərini yığmağa başladı. Onu tutub dedim: Bu dəfə səni mütləq Peyğəmbər(s)-in yanına aparacağam. Dedi: Əl saxla, icazə ver, sənə bəzi şeylər deyim, ola bilsin nə vaxtsa lazımın olsun. "Gecə yerinə girdiyin

---

[1] "Rum" surəsi, ayə:30

[2] "Səhihi-Buxari", 2-ci cild, səh.29, vəkalət kitabı

zaman "Ayətəl kürsü"nü ("Bəqərə" surəsinin 254-255-256-cı ayələrini) oxu. Belə etsən Allah-təala səni bütün pisliklərdən və xoşa gəlməz hadisələrdən hifz edər (qoruyar).

Bil ki, şeytan bu ayələri oxuyan şəxsə yaxın düşə bilməyir. Əbu Hüreyrə deyir: Onun bu dəyərli məsləhətlərini dinlədikdən sonra azad etdim. Səhər açıldıqda Peyğəmbər (s) məni görüb soruşdu: Ey Əbu Hüreyrə! Dünən gecə tutub, yaxaladığın əsir necə oldu? Mən də başıma gələn əhvalatı olduğu kimi başdan-ayağa Peyğəmbər(s)-ə nəql etdim. Sonra Peyğəmbər (s) buyurdu: Heç bilirsən bu üç gecəni sən kimlə həmsöhbət olubsan? Cavab verdim: Xeyr. Buyurdu: O şeytan idi!"

Əbu Hüreyrə tərəfindən nəql olunmuş bu xurafi hədisə yalnız onun kimi sadəlövh insanlar inanar. Belə bir hadisə həqiqətən baş vermiş olsaydı belə, Əbu Hüreyrəyə bəraət qazandırmaq ağılsızlıq olardı. Çünki o Peyğəmbər(s)-in üç dəfə verdiyi mühüm bir xəbəri qulaq ardına vurub beytül-mal oğrusunu azadlığa buraxmış və oğurluğun bir neçə dəfə təkrar olmasına şərait yaratmışdır. Onun digər böyük səhvi üç dəfə Allaha and içib və bir dəfə də olsun yerinə yetirməməsidir.

Əbu Hüreyrə bu şəri məsələdən agah deyildimi və o özü başqalarının bu səhvə yol vermələrinə razı ola bilərdimi?

Onun üçüncü böyük səhvi müsəlmanların zəkata ayırdıqları vəsaitləri layiqincə qorumamasıdır.[1] Müsəlmanların zəkatını yığmağı və onun qorunmasını öhdəsinə götürmüş hər bir şəxs öz üzərində böyük məs"uliyyət hiss etməli və onu öz var-dövlətindən daha diqqətlə qorumalı idi. Amma təəssüflər olsun ki, (öz dediyi kimi) bu məs"uliyyətli vəzifənin öhdəsindən gələ bilməmişdir.

Bir qədər əvvəl bəhs etdiyimiz hədislərə nəzər salsaq görəcəyik ki, Əbu Hüreyrə şeytanı müxtəlif xüsusiyyətlər (sifətlər) ilə vəsf etmişdir. Məsələn, nəql etdiyi hədislərin birində deyir: "Şeytan azan səsi eşitdiyi zaman dözə bilməyib uca səslə nalə çəkir." Başqa bir hədisdə onu cism halında təsvir edərək onun məscid sütunlarına bağlandığını bəyan edir. Şərhini verdiyimiz bu hədisdə isə onu gah oğru, gah da nəsihət verən aqil bir şəxs kimi vəsf etmişdir.

Bəyan etdiyi sözlərin mahiyyətinə varmayan şəxslərdən Allaha pənah aparıram!

### *31-ci hədis*

### *Həzrəti Peyğəmbərin(s) duası ilə Əbu Hüreyrənin anasının islamı qəbul etməsi və Peyğəmbər (s)-in onlar haqqında etdiyi dua*

[1] Əbu Hüreyrənin özünün dediyinə görə Peyğəmbər ona Ramazan ayının fitrə zəkatını hifz etməyi həvalə etmişdir. Zərkeşin və başqalarının dediyinə görə Əbu Hüreyrəyə zəkatı paylamaq yox, yalnız onun qorunması tapşırılmışdır. "İrşadu-sari" ("Səhihi-Buxari"nin şərhi) 5-ci cild, səh.231)

Müslüm Əbu Hüreyrəyə istinad edərək bu hədisi nəql edir. Əbu Hüreyrə deyir: “Anam iman gətirməyən müşriklərdən biri idi. Hər zaman mən ona İslamı qəbul etməyi təklif edirdim, amma təəssüflər olsun ki, bir nəticə verməyirdi. Günlərin biri onu çağırdığım zaman Peyğəmbər(s)-in ünvanına xoşa gəlməz sözlər deyərək mənə çox ağır cavab verdi.

Onun bu sözlərindən çox narahat oldum və kədərli halda Peyğəmbər(s)-in yanına gedib əhvalatı ona danışdım, ondan anamın haqq yola hidayət olması üçün dua etməsini xahiş etdim. Peyğəmbər (s) belə bir dua etdi: “İlahi! O qadının haqq yola gəlməsinə kömək ol və özün onu hidayət et!” Peyğəmbər(s)-in anam haqda etdiyi bu duanı eşidib sevincək halda eşiyə çıxıb özümü evə çatdırdım. Evə çatdığım zaman küçə qapısının (arxa tərəfdən) bağlı olduğunu gördüm. Anam ayaq səslərindən mənim gəldiyimi hiss edib səsləndi: “Gözlə, bu saat gəlirəm!” İçəridən su səsini eşidib onun qüsl aldığını başa düşdüm. Qüsl alıb qurtardıqdan sonra uzun paltarını geyib üzünə məqnə (üz örtüyü) atdı.

Qapını açdığı zaman ondan bu sözləri eşitdim: “Əşhədu ənla ilahə illəllah və əşhədu ənnə Muhəmmədən Rəsulullah.”

(Şəhadət verirəm ki, Allahdan başqa məbuz yoxdur və şəhadət verirəm ki, Məhəmməd Onun Rəsuludur). Sevindiyimdən gözlərim yaşardı və dərhal Peyğəmbər(s)-in yanına qayıtdım. Onu gördükdə dedim: Ya Rəsuləllah! Müjdələr olsun! Allah-təala etdiyin duanı qəbul etdi və Əbu Hüreyrənin anasını haqqa hidayət etdi. O da sevinərək Allaha şükr və səna etdi. Sonra ondan belə bir xahiş etdim: Ya Rəsuləllah! Elə bir dua et ki, Allah bizi möminlərin dostu və möminləri də bizim dostlarımız qərar versin. Peyğəmbər (s) bu duanı etdi. “İlahi! Bu bəndəni və onun anasını Sənə yaxın olan möminlərin yanında əziz, möminləri də onlar ilə rəuf və mehriban et.” Peyğəmbər(s)-in etdiyi bu duadan sonra dünyaya mənim adımı eşitməmiş mömin bəndə gəlməmişdir. Məni görməyən möminlər isə haqqımda xoş sözlər danışar və qəlblərində mənə qarşı sevgi bəsləyərlər.”

Bu hədis bir neçə səbəbə görə insanda şübhə doğurur:

1-Əbu Hüreyrə haqqında olan bu hədisi tarix və hədis kitablarında onun özündən savayı kimsə nəql etməmişdir. Deməli, bu, hədis deyil, yalnız Əbu Hüreyrənin təxəyyülü əsasında uydurulmuş adi bir dastandır.

2-Onun dediyinə görə anası iman gətirməyən inadkar müşriklərdən olmuşdu. Belə olduğu bir halda o hansı ümidlə “Məsqətur-Rə”si” (yəni Yəməni) tərk edib “Darul-Hicrətə (yəni Mədinəyə) hicrət etmişdir? Yəməndə qalıb bütlərlə raz-niyaz edib ibadətlə məşğul olar və özünə bu qədər əzab-əziyyət rəva bilməzdi.

Bəs Əbu Hüreyrənin sadiq tərəfdarları bu haqda nə deyir? Əgər onlar öz əsərlərində Əbu Hüreyrənin anasının islamı qəbul edib hicrət etdiyi haqda hər hansı bir mətləbə toxunublarsa, bizə də bir yol göstərsinlər. Allah özü şahiddir ki, bu qadın haqqında bir dənə də olsun hədis və rəvayət nəql olunmamışdır.

Əldə olan yeganə mənbə, ikinci xəlifənin (Ömər ibni Xəttabın) Əbu Hüreyrəyə dediyi sözlərdir. Xəlifə Ömər Əbu Hüreyrəni Bəhreyn imarətindən kənar etdiyi zaman dedi: “Anan Üməymə səni yalnız eşşək otarmaq üçün doğmuşdur.” Buradan belə məlum olur ki, Əbu Hüreyrənin anasının adı Üməymə olmuşdur.
Mütərcim və nəzər sahibləri öz əsərlərində bu qadın haqqında məlumat vermişlərsə də yalnız onun nəql etdiyi bu hədisə istinad etmişlər.

3-Məlum olduğu kimi Əbu Hüreyrə mühacirlər arasında ən kasıb şəxslərdən biri olmuşdur. Onlar Məkkədən Mədinəyə mühacirət etdikdən sonra kimsənin evinə pənah aparmayıb təzə tikilmiş məscidin (Peyğəmbər (s) məscidinin) həyətində özləri üçün kiçik bir yer düzəltdilər.

Sonralar bu yerə “Suffə” və orada sakin olanlar “Suffə əhli” deyildi. Onlara “islam qonaqları” da deyilirdi və Əbu Hüreyrə onlardan biri idi. O özü etiraf edirdi ki, Mədinədə onun keçirdiyi həyat tərzi çox ağır və dözülməz olmuşdur. Əbu Hüreyrə özü haqda danışarkən bu əhvalatı hər zaman yad edərdi:

“Günlərin biri Peyğəmbər(s)-in minbəri ilə Ayişənin hücrəsi (otağı) arasında aclıqdan halsızlaşıb yerə yıxıldım. Camaat məni dəli bilib ayaqlarını mənim üzərimə qoyub o tərəfə bu tərəfə keçirdilər. Amma mən nə dəli idim, nə də divanə; sadəcə olaraq aclıqdan bu hala düşmüşdüm.
Belə olduğu bir halda Əbu Hüreyrə hansı evdən danışır?

4-Fərz edək ki, Əbu Hüreyrənin nəql etdiyi bu hədis mötəbərdir.
Amma bunu Əbu Hüreyrə ilə heç cür əlaqələndirmək olmaz. Həzrəti Peyğəmbər(s)-in Allah dərgahındakı məqamı hamıya bəllidir. O (Allah) istədiyi hər bir şəxsi zülmətdən çıxarıb haqqa hidayət edər. Amma məsələ burasındadır ki, bu hədisi Əbu Hüreyrədən savayı ikinci bir şəxs nəql etməmişdir və bu qadının (işarə etdiyimiz mənbədən başqa) adı heç yerdə çəkilməmişdir.

5-Əbu Hüreyrə hədisdə belə bir mətləbə işarə edir: Peyğəmbər (s) bizim möminlərlə və onların da bizim ilə dost olmaqları üçün dua etdi və Allah-təala onun duasını müstəcab (qəbul) etdi. Əgər həqiqətdə də belə olubsa, o, Peyğəmbər(s)-ə və onun məsum ailəsinə ehtiram etməli və onlara mehr-məhəbbət göstərməli idi. Tarixə nəzər saldıqda isə bunun tam əksinin şahidi oluruq. Məsum imamlar və islam ümmətinin digər böyük şəxsiyyətləri Əbu Hüreyrəyə daim nifrət etmiş və onu nadan və yalançı bir insan kimi tanımışlar. Əbu Hüreyrə nəql etdiyi hədislərdə bu böyük şəxsiyyətlərə töhmət vurmuş və onlar haqqında bacardığı qədər yalan uydurmuşdur. Həqiqətdə isə onun kimi “mömin” adlandırdığı bizə artıq məlumdur.

Əli (ə) onun haqqında bu sözləri buyur-muşdur.

“Bilin ki, sizin aranızda Peyğəmbər (s) haqqında ən çox yalan söyləyən şəxs Əbu Hüreyrə Duvəsidir. Əgər onun dedikləri doğru və düzgün olsaydı bütün möminlər ona ehtiram etməli və xətrini əziz tutmalı idilər.”[1]
Xəlifə Ömər onu Bəhreyn imarətindən kənarlaşdırdığı zaman bu sözləri ona demişdir: “Ey Allahın və onun kitabının düşməni! Allahın malına xəyanət etdin?!”
Allah və Allah kitabının düşməni möminlərin dostu ola bilərdimi?
Xəlifə Ömər hələ Peyğəmbər(s)-in zamanın-da Əbu Hüreyrəyə (tutduğu nalayiq işlərə görə) möhkəm zərbə vuraraq yerə yıxmışdı.[2]
Peyğəmbər (s) vəfat etdikdən sonra xəlifə Ömər onu Bəhreyn imarətindən kənarlaşdırdı və beytül-mala xəyanət etdiyi üçün onu şəxsən özü şallaq zərbələri ilə cəzalandırdı. Cəzalandırdıqdan sonra beytül-maldan oğurladığı on min dinarı geri qaytardı. Xəlifə Ömər onu tək müsəlmanların malını mənimsəməkdə deyil, uydurduğu saysız-hesabsız hədislər üçün də cəzalandırardı.

Mərhum Həmidinin “Nəhcül-Bəlağə”yə verdiyi şərhdə[3] deyilir: “Xəlifə onun hədis nəql etməkdə həddini aşdığını görüb bir neçə şallaq zərbəsi vurdu və ona acıqla bu sözləri dedi: “Peyğəmbər (s) haqqında çox hədis nəql etdin; bəlkə də onları özün uydurursan.”[4]
Əldə olan mənbələrdən belə məlum olur ki, Əbu Hüreyrənin əlaqəsi tək xəlifə ilə deyil, həm də o dövrün tanınmış alimi olan Abdullah ibni Abbas və Peyğəmbər(s)-in həyat yoldaşı Ayişə ilə bir o qədər də yaxşı olmamışdır.

Deməli, nə Əbu Hüreyrə onlara mehr və məhəbbət göstərmiş, nə də onlar Əbu Hüreyrəyə. Bəli! Etiraf etmək lazımdır ki, Bəni Üməyyə hakimiyyəti ələ aldıqdan sonra Əbul As və Əbu Süfyan ailəsi Əbu Hüreyrə ilə sıx dostluq əlaqəsi yaratmışdı və bir-birləri ilə can deyib, can eşidirdilər. Onlar arasında yaranmış bu sıx əlaqənin səbəblərinə gəldikdə isə, artıq hər bir şey bəllidir. Bəni Üməyyə itirdikləri hər bir şeyi Əbu Hüreyrənin nəql etdiyi hədislərdə taparaq öz razılıqlarını ona qiymətli ən”amlarla bildirirdilər.

---

[1] Bu mövzu haqqında nəql olunmuş hədislərə mütəvatir hədislərdə də rast gəlmək olar. (Mütəvatir-həm şiə, həm də sünnü ravilərinin çoxlu yolla nəql etdikləri hədislərə deyilir.) Məsələn, bu hədisi İmami-Mötəzilə Əbu Cə”fər İskafi öz kitablarında Əli əleyhissəlamdan nəql etmişlər.
Həmidinin “Nəhcül-Bəlağə”yə verdiyi şərhə müraciət et: 1-ci cild, səh.360.
[2]“Səhihi-Müslüm”, 1-ci cild, səh.34
[3]Həmidinin “Nəhcül-bəlağə”yə verdiyi şərh, 2-ci cild, səh.360.
[4] İbni Əsakirin Saib ibni Yəziddən nəql etdiyi hədis; “Kənzul-Ummal”, 5-ci cild, səh.229, 4857-ci hədisə müraciət edə bilərsiniz.

Mərvan Mədinəni tərk etdiyi zaman Əbu Hüreyrəni öz yerinə təyin etdi.[1]
Əbul As və Əbu Süfyan sülaləsi iqtidarda olmasaydı, təbii ki, Əbu Hüreyrə də heç bir şeyə nail ola bilməzdi.

Əbu Hüreyrə xəstələndiyi zaman Mərvan tez-tez onu yoxlamağa gələr və tezliklə sağalması üçün dua edərdi. Sonuncu dəfə onun yanına gələrkən eşikdə bir nəfərlə qarşılaşır və ona deyir: "Artıq onun əcəli çatıbdır."[2]

Cənazəsini apardıqları zaman Mərvan şəxsən dəfn mərasimində iştirak etdi. Osmanın iki oğlu onun cənazəsini götürüb "Bəqi" qəbiristanlığına aparır və Vəlid ibni Ütbət ibni Əbi Süfyan onun üçün meyyit namazı qılır.
Onun ölüm xəbəri Müaviyəyə çatdıqda Əbu Hüreyrənin ailəsi üçün on min dinar ianənin ayrılmasını əmr edir və onlara xüsusi qulluq etməyi təkid edir.
Bəli! Əbu Hüreyrəni sevən şəxslər Bəni Üməyyə və bu sülaləyə iman gətirmiş kəslər olmuşdur. O da öz növbəsində bu sülaləyə layiqincə xidmət etmiş və qəlbən onlara bağlı olmuşdur!!

### *32-ci hədis*

### *Mühacirət zamanı Əbu Hüreyrənin qulunun qaçması*

Buxari Əbu Hüreyrəyə istinad edərək nəql edir: (Əbu Hüreyrə deyir:) "Peyğəmbər(s)-in yanına getdiyim zaman öz-özümə deyirdim:
Yarı yolda məni müşahidə edən qul məndən aralanıb qaçmağa başladı. Peyğəmbər (s) ilə bey"ət etdiyim zaman birdən həmən qulu onun yanında gördüm. Peyğəmbər (s) mənim gəldiyimi görüb buyurdu: Ey Əbu Hüreyrə! Bu sənin qulundurmu? Cavab verdim: Bəli. Amma mən onu Allah rizayəti üçün azad etmişəm."

Əbu Hüreyrə uydurduğu bu hədislər ilə bəzi sadəlövh insanları çaşqın bir vəziyyətə salmışdır. Çünki o dediyi sözlərin mahiyyətinə varmayıb istədiyi mövzuda hədis nəql etmişdir. Bəzən o özünün yetim və fəqir böyüdüyünü, (islam yolunda doğma vətənini tərk edib Mədinəyə köçməsini və orada ehtiyac içində yaşadığını) bəzən də elə həmən şəhərdə (yəni Mədinədə) xidmətçi və qul sahibi olduğunu (və o qulu azad etdiyini) bəyan edir.

Bəlkə də Əbu Hüreyrənin nəql etdiyi bu hədis onun həyatının son illərinə təsadüf edirmiş. O zaman ki, o Əbu Süfyan sülaləsi tərəfindən himayə olunur və xoş güzəran keçirirdi. Məgər o günlər aclıqdan çəkdiyi əzab-əziyyət Əbu Hüreyrənin yadına düşmürdümü? Axı o özü aclıqdan küçələrdə yıxılıb qaldığını, Peyğəmbər (s) məscidində huşunu itirib yerə yıxıldığını və camaatın onu dəli

---

[1] İbni Sə"din "Təbəqat" kitabına (Əbu Hüreyrənin şərhi-halı) və ibni Qutəybənin "Məarif" kitabına müraciət et. Əhməd ibni Hənbəlin "Müsnəd"ində də bu mətləbə işarə edilmişdir."

[2] İbni Sə"din "Təbəqat"ına bax (Əbu Hüreyrənin şərhi-halı)

bilib üzərindən o tərəf bu tərəfə keçdiyini dəfələrlə başqalarına danışar və bundan özünə təsəlli tapardı. Əbu Hüreyrə özü etiraf edirdi ki, küçələrdə qalar və gəlib gedənlərdən sədəqə alaraq ona bir qarınlıq yemək verməklərini istəyərdi.

Bəni Üməyyə ravisinin nəql etdiyi bu hədis də digər hədisləri kimi yanlış və əsassızdır. Çünki, Əbu Hüreyrə xoş güzəran keçirdiyi zaman Peyğəmbər (s) artıq dünyadan köçmüşdü. İslam dinini isə o nisbətən cavan yaşlarında qəbul etmişdi. O zaman Əbu Hüreyrə çox fəqir və yoxsul bir adam idi və qul saxlamağa onun heç bir maddi imkanı yox idi. Sonra necə olur ki, Peyğəmbər (s) Əbu Hüreyrəni tanımazdan əvvəl həm onun öz adını bilir, həm də qulunu tanıyırdı?

Əbu Hüreyrə bu macəranın Peyğəmbər(s)-ə bey”ət edib, islam dinini qəbul etdiyi zaman baş verdiyini bildirir. Yoxsa Əbu Hüreyrə o dövrün tanınmış adlı-sanlı şəxslərindən biri olmuşdur, ya onun haqqında Peyğəmbər(s)-ə əvvəlcədən xəbər vermişlər?

Bu hədis dəllalını təmizə çıxarmaq istəyən şəxslərdən bütün bu suallara cavab vermələrini tələb edirəm!

Deyin görək Əbu Hüreyrə kimi yoxsul bir insan elə bir çətin şəraitdə qul saxlaya bilərdimi?

Yoxsa deyəsiniz ki, Əbu Hüreyrə elə bir (İlahi) məqama çatmışdı ki, Peyğəmbər(s)-ə onun haqqında ayə nazil olmuşdu və onu qabaqcadan tanıyırmış?!

***33-cü hədis***

***Sədəqə verməyin savabı haqqında uydurulmuş bir hədis***

Bu hədisi Müslüm Əbu Hüreyrədən və o da Peyğəmbər(s)-dən nəql etmişdir. Hədisdə deyilir:

“Günlərin biri səhra ilə yol gedən bir şəxs birdən buludların arasından belə bir səs eşidir: “Filan kəsin bağına tərəf hərəkət et və oranı suvar.” Buludlar özlərində olan suyun hamısını həmən bağa yağdırdı.

Bir qədər getdikdən sonra yol kənarındakı bağda işləyən bir nəfəri görüb ona tərəf yaxınlaşdı və ondan adını soruşdu: Ey Allah bəndəsi, adın nədir? “Filan kəs” deyərək cavab verdi. (Bu, buludlar arasından eşitdiyi həmən ad idi) və o da onun adını nə üçün soruşduğunu istədi. Dedi: Bir qədər əvvəl yol ilə gedərkən buludlar arasından bu sözləri eşitdim: Filan kəsin bağına tərəf hərəkət et və oranı suvar”. Buludlar da sənin bağına tərəf hərəkət etmiş və gördüyün kimi yalnız buranı suvarmışdır. Eşitdiyim ad da sənin adın idi. İndi nə etmək

fikrindəsən? Dedi: İndi ki, belədir, mən bağdan götürəcəyim məhsulun üçdə birini sədəqə verərəm.[1]

Əbu Hüreyrənin nəql etdiyi bu cərəyan ilə nə insan fitrətinin, nə də təbii qanunların heç bir əlaqəsi yoxdur. Amma nədənsə sədəqə verməyin savabını (əhəmiyyətini) bəyan etmək üçün qeyri-adi prosesi adi hala çevirmiş və həmişə olduğu kimi hədisə həqiqət donu geydirmək üçün onu Peyğəmbər(s)-in dilindən nəql etmişdir.

### *34-cü hədis*

### *Əhdə vəfa haqqında nəql edilmiş başqa bir dastan*

Bu hədisi Buxari Əbu Hüreyrədən və o da Peyğəmbər(s)-dən nəql etmişdir. Hədisdə deyilir:

"Bəni İsraildən olan bir nəfər min dinar borc pul axtarırdı. Bir qədər soraqlaşdıqdan sonra bu məbləğ pulun kimdə ola biləcəyini ona xəbər verdilər. Onun yanına gedib istədiyi miqdar pulu borc alır. Pul sahibi zamin istədikdə dedi: (Allahın zamin olması yetər). Beləliklə onlar razılaşıb bir-birlərindən ayrılırlar. Borcun qaytarılma vaxtı gəlib çatdıqda dəniz kənarına gəlib, pul sahibi başqa bir məmləkətdə yaşadığından onun yanına getmək üçün gəmi axtarır. Amma həmin gün bir dənə də olsun gəmi tapa bilməyir. Çarəsiz qalıb yerdən bir taxta parçası tapır, içini ovub pulları məktubla birlikdə taxtanın içinə qoyur və ağzını möhkəm bağlayıb dənizə atır. Sonra deyir: "İlahi! O məndən zamin istədi, mən də Səni ən etibarlı zamin bilib "Allahın zamin olması yetər" dedim. İndi mən onu Sənə tapşırıram." Bunu deyib əlindəki taxta parçasını suya atır.

Elə həmən gün pul sahibi (öz məmləkətində) dəniz sahilinə gəlir və borc verdiyi yəhudini gözləməyə başlayır. Amma həmən gün sahilə bir dənə də olsun gəmi yaxınlaşmayır. Birdən suda bir taxta parçası görüb evinə aparır. Taxtanı yardıqda içində borc verdiyi pulları və bir məktub görür.[2]

Hansı şəriət və hansı əql insana icazə verə bilər ki, min dinar pulu (sahibinə çatmaq üçün) dənizə atsın?! Taxta sahilə çatmasaydı necə? Deməli, həmən şəxs ömrünün sonunadək borclu qalmalı və pul sahibinin haqqını qaytarmamış olardı. Bəni İsraildən olan bir sadəlövh şəxs belə bir iş görsəydi belə, Peyğəmbər (s) bu əhvalatı kimsəyə danışmazdı və əgər danışsaydı belə, müqabilində məntiqə əsaslanan bir dəlil gətiməli idi ki, məbada müsəlmanlar özlərini çətin vəziyyətə salıb, başqalarından asılı hala salmasınlar.

---

[1] "Səhihi-Müslüm", 2-ci cild, səh.533 yoxsullara sədəqə fəsli."

[2] "Səhihi-Buxari", 2-ci cild, səh.26, "Borc verməkdə zəmanət" fəsli.

Deməli, belə bir hadisə baş vermiş olsaydı belə Peyğəmbər (s) onu müsəlmanlar üçün geniş surətdə izah edərdi və digər tərəfdən, bu işin Peyğəmbər (s) tərəfindən yerinə yetirilməsi qeyri-mümkün və məhaldır. Amma Əbu Hüreyrə üçün belə bir dastan nəql etmək bir o qədər də çətin olmamışdır. Çünki, onu yalnız bir şey maraqlandırırdı: mümkün qədər çox müştəri yığıb bu yol ilə var-dövlət sahibi olmaq. Əbu Hüreyrə həmişə olduğu kimi bu hədisi də Peyğəmbər(s)-in dilindən nəql etmişdi, bunun da səbəbi artıq hamıya məlumdur.

### *35-ci hədis*

### *İlahi nemətlərə edilən şükr və küfr haqqında nəql edilmiş rəvayət*

Bu hədisi Buxari[1] Əbu Hüreyrədən və o da Peyğəmbər(s)-dən nəql etmişdir. Hədisdə deyilir: Bəni İsrail övladlarından olan üç nəfər dəri, tük tökmə xəstəliklərinə və korluğa düçar olur. Allah-təala onları sınaqdan keçirmək üçün mələklərdən birini dəri xəstəliyinə tutulmuş şəxsin yanına göndərir. Mələk ondan soruşur: Ən çox sevdiyin şey nədir?

Cavab verir: Gözəl bir rəng və sağlam dəri.

Mələk onun bədəninə sığal çəkir və həmən anda onda olan xəstəlik dəf olur və dərisi gözəl bir rəng alır. Sonra mələk ondan soruşur: Hansı heyvanı daha çox xoşlayırsan?

Cavab verir: Dəvəni.

Mələk ona on aylıq bir dəvə verib bərəkətli olması üçün xeyir-dua etdi. Sonra tük tökmək (keçəl) xəstəliyinə düçar olmuş şəxsin yanına gəlib soruşdu: Ən çox sevdiyin şey nədir?

Cavab verir: İstəyirəm mənim də hamı kimi sağlam tüküm olsun və insanlar məndən uzaq gəzməsin.

Mələk ona sağlam tük verib yenə soruşdu: Hansı heyvanı daha çox xoşlayırsan?

Cavab verir: İnəyi.

Mələk ona bir inək verib bərəkətli olması üçün xeyir-dua etdi. Nəhayət üçüncü (kor) şəxsin yanına gəlib soruşur: Ən çox sevdiyin şey nədir?

Cavab verir: İki sağlam gözdən mənim üçün daha yaxşı nə ola bilər?! Allahdan gözlərimə nur verməsini istəyirəm ki, insanlar ilə ünsiyyətdə olub onlar kimi xoş həyat tərzi keçirim.

Mələk onun gözlərinə sığal çəkdi. Sonra ondan soruşdu: Hansı heyvanı daha çox xoşlayırsan?

Cavab verir: Qoyunu.

Allah-təala onun bu arzusunu da yerinə yetirib ona dişi bir qoyun əta edir.

Onlar öz heyvanlarını çoxaldıb var-dövlət sahibi olurlar.

---

[1]"Səhihi-Buxari", 2-ci cild, səh.170, "Məxluqatın yaradılışı" fəsli, "İsrail oğulları haqqında deyilmiş dastanlar" babı.

Günlərin biri mələk özünü dəri xəstəliyinə tutulmuş bir hala salıb, bir zamanlar bu xəstəlikdən əziyyət çəkən şəxsin yanına gəlir. Ona yardım etməsini istəyir və yoxsul olduğundan şikayətlənərək deyir: Mən yoxsul bir adamam, bütün ümid qapıları üzümə bağlanmışdır. Yolda qalmışam, indi mənim dadıma yalnız Allah və sonra da sən yetişə bilərsən. And verirəm sənə gözəl dəri əta edən Allaha! Dəvələrindən birini mənə ver ki, yolumu davam edə bilim.
Dedi: Bəli, boynumda böyük haqq vardır.

Mələk dedi: Sanki mən səni tanıyıram. Sən əvvəllər yoxsul olub insanların köməyindən məhrum olan şəxs deyilsənmi?
Dedi: Xeyr! Gördüyün bu var-dövlət mənə ata-babalarımdan qalmışdır.
Mələk dedi: Bax, sənə deyirəm! Yalan desən, Allah səni əvvəlki vəziyyətinə qaytarsın!

Sonra özünü keçəl halına salıb bir zamanlar bu xəstəliyə düçar olmuş və sonralar şəfa tapmış şəxsin yanına gəlir, dəvə sahibinə dediyi sözləri onun yanında da təkrar edir. Mələk ondan da həmən sözləri eşidir və həmən duanı onun üçün də təkrar edir. Üçüncü dəfə özünü korluğa vurub bir zamanlar dünya nurundan məhrum olmuş və sonralar Allahın lütfü ilə gözləri açılmış şəxsin yanına gəlib deyir: Mən bütün var-dövlətimi itirmiş yoxsul bir Allah bəndəsiyəm. İndi səni, gözlərinə nur vermiş və dünya zülmətindən nicat verən Allaha and verirəm, qoyunlarından birini mənə ver ki, qarşıda olan uzaq yolu qət edə bilim.
Dedi: Bəli! Mən kor ikən Allah mənə görən gözlər verdi və yoxsul ikən var-dövlət sahibi etdi, istədiyin qədər bu var-dövlətdən götür. Səndən Allaha xatir heç bir şey istəmirəm.

Mələk onun bu sözlərini eşidib dedi: Bil ki, Allah səni imtahan edirdi və sən bu imtahandan üzü ağ çıxdın, digər iki nəfər isə Allahın qəzəbinə gələrək sahib olduqları bütün var-dövlətdən məhrum olacaqlar.
Bu hədis Əbu Hüreyrənin ən sevimli və çox nəql etdiyi hədislərdən biri idi. "İlahi nemətlərə şükr etmək və küfrdən uzaq olmaq" Əbu Hüreyrənin uydurduğu hədislərin (mövzu baxımından) mühüm hissəsini təşkil edir.

Görünür, onun müsəlmanlar üçün ürəyi çox yanırmış, odur ki, bu mövzuda hədis nəql etməyi özünə şəri vəzifə bilmişdir.

### *36-cı hədis*
### *Zülmkarlar haqqında nəql edilmiş dastan*

Bu hədisi Müslüm və Buxari Əbu Hüreyrəyə istinad edərək Peyğəmbər(s)-dən nəql etmişlər.[1] Hədisdə deyilir:

"Bir qadın pişiyi kiçik həyət heyvanlarını yeməsin deyə tutub qıçlarını iplə bağlayır və bir neçə gün ac-susuz saxlayır. Bu səbəbdən də Allah-təala onu cəhənnəm odu ilə cəzalandırır."

Ayişə Əbu Hüreyrənin nəql etdiyi bu hədisi qəti şəkildə rədd edərək deyir: "Mömin, Allah dərgahında hörmət və ehtiram sahiblərindən olar və Allah onlara bir pişiyə görə cəhənnəm odu ilə əzab verməz. Əgər Peyğəmbər(s)-dən hədis nəql edirsənsə bax gör nə deyirsən!!"

Bu da Əbu Hüreyrənin "zülmkarlar" haqqında uydurduğu başqa bir hədis.

[1] "Səhihi-Müslüm" və "Səhihi-Buxari"yə şərh verən nəzər sahibləri Ayişənin Əbu Hüreyrəyə tutduğu bu iradı öz kitablarında dərc etmişlər. "İrşadus-sari", 7-ci cild, səh.86.

***37-ci hədis***

***Mehr-məhəbbət haqqında nəql edilmiş beşinci dastan***

Bu hədisi Buxari və Müslüm[1] Əbu Hüreyrədən və o da Peyğəmbər(s)-dən nəql etmişdir. Hədisdə deyilir:

"Zinakar və əxlaqsız bir qadın su quyusunun yanından keçərək susuzluqdan can verən bir it görür. Ayaqqabısını quyuya sallayıb, su çıxardaraq itə verir. Allah-təala da o qadının bütün günahlarını bu xeyirli əməlinə görə bağışladı."

***38-ci hədis***

***Eyni mövzuda nəql edilmiş başqa bir rəvayət***

Bu hədisi Buxari və Müslüm Əbu Hüreyrədən və o da Peyğəmbər (s)-dən nəql etmişlər. Hədisdə deyilir: "Susuzluqdan əziyyət çəkən bir şəxs yol kənarında su quyusuna rast gəlir. Su içib doyduqdan sonra yolunu davam edir. Birdən susuzluqdan torpaq yeyən və ölüm ayağında olan bir itə rast gəlir. Ayaqqabısını quyuya atıb, it üçün su çıxarır. Allah-təala da bu xeyirli işə görə onun bütün günahlarını bağışlayır."[2]

***39-cu hədis***

***Həris və əmrə itaət etməyən şəxslərin bağışlanması***

Müslüm Müəmmərdən nəql etdiyi hədisdə deyir:

Bir gün Zühərini gördüm, onunla bir qədər söhbət etdikdən sonra dedi: Gəl, sənə maraqlı bir hədis nəql edim:[3]

Həmid ibni Əbdürrəhman Əbu Hüreyrədən və o da Həzrəti Peyğəmbər (s)-dən nəql etdiyi hədisdə deyilir: Bütün həyatı boyu günah işlər görmüş, zülm etməkdə həddini aşmış bir şəxs ölüm ayağında oğul-uşağını başına yığıb deyir: "Mən öldükdən sonra cəsədimi yandırın və külümü suya (dənizə və ya çaya) atın. And olsun Allaha, əgər O məni tapsa,[4] məni kimsəni cəzalandırmadığı bir əzaba düçar edəcəkdir."

Həmən şəxs ölür və övladları onun vəsiyyətini yerinə yetirirlər. Allah-təala yerə əmr edir: "Sənə daxil olan hər bir şeyi geri qaytar!" Bir anın içində həmən şəxs

---

[1] "Səhihi-Buxari", 2-ci cild, səh.150.

[2] "Səhihi-Buxari", 4-cü cild, səh.36 "Kitabul-adab"; həmçinin 2-ci cild, səh.35, "Kitabul-Musaqat."

[3] Zühərinin bu hədisi maraqlı adlandırmaqda həqiqətən də haqqı vardır. Çünki bütün nəzər sahibləri bu hədisi eşitdikdən sonra heyrətə gəlmişlər.

[4] Diqqət yetirin! Buradan belə məlum olur ki, həmən şəxsin Allaha imanı olmamışdır. Çünki "miada" (öldükdən sonra dirilmək) etiqadı olan şəxsin bu sözləri deməsi qeyri-mümkündür.

yenidən dirilib camaat arasında oldu. Sonra Allah-təala ona belə xitab etdi: Səni bu işi görməyə vadar edən nədir?
Dedi: Səndən olan qorxu, ey Rəbbim!
Allah-təala onun bu sözlərinə görə bütün günahlarını bağışladı.
Zühəri Həmid ibni Əbdürrəhmandan, o da Əbu Hüreyrədən və o da Peyğəmbər(s)-dən nəql etdiyi hədisdə deyir: "Zinakar və əxlaqsız bir qadın kiçik həyət heyvanlarını yediyi üçün pişiyin ayaqlarını iplə bağlayıb bir otağa saldı və bir neçə gün onu ac-susuz saxladı. Allah-təala onu bu zülmünə görə cəhənnəm oduna atdı."[1]
Bir pişiyi (bağlayıb) ac-susuz saxlayan qadını cəhənnəm oduna atan Allah ömrü boyu günah işlər görmüş zülmkar bir şəxsi iqrar etdiyi bir kəlməyə görə bağışlayarmı?
Ayişə bu barədə deyir: "Allah günahsız bir qadını cəhənnəm oduna atmaz və əgər atarsa bu iş onun imansız olduğundan irəli gəlir."
Bu şəxs isə göründüyü kimi Allaha iman gətirməmişdi və qiyamət gününə etiqadı olmamışdır. O belə zənn etmişdir ki, yandıqdan sonra məhv olub gedəcək və Allah dərgahına bir daha qayıtmayacaqdır. Allah hər şeyə qadir, qüdrət və hakimiyyəti bütün məxluqata şamildir. Amma bununla belə o belə bir faydasız vəsiyyət edir. Deməli, o, Allah-təalanın rəhmətindən məyus olmuş və Onun izzət və cəlalını inkar edən inadkar bir kafir olmuşdur. Belə bir kafirin bağışlanması isə bütün nəzər sahiblərinin fikir və əqidəsi ilə tamamilə ziddiyyət təşkil edir.
İnsan gördüyü pis işlər üçün tövbə etməli, bir an olsun belə Allahın rəhmətindən məyus və ümidsiz omamalıdır. Çünki, Qur"ani kərim bu haqda biz müsəlmanlara bu əmri vermişdir:
***"Allahın mərhəmətindən ümidinizi kəsməyin; Allahın mərhəmətindən yalnız kafirlər ümidini üzər"***[2]
Fərz edək ki, bu zülmkar və imansız şəxs belə bir vəsiyyət etmiş və övladları da onun vəsiyyətini yerinə yetirmişlər, Allah-təala da onun etiraf etdiyi işə görə bütün günahlarını bağışlamışdır. Bəs Peyğəmbər (s) necə, belə bir şəkk və anlaşılmazlıqla dolu olan hədisi müsəlmanlara izah (şərh) etmədən nəql edə bilərdimi?
Günahkarlar necə, bu hədisə istinad edərək öz fitnə-fəsadlarını artırmazlarmı?

***40-cı hədis***

[1] "Səhihi-Müslüm", 2-ci cild, səh.444, "Allahın rəhməti qəzəbindən daha çoxdur" fəsli.
[2]"Yusif" surəsi, ayə:87

***Bir şəxs tövbə etdikdən sonra yenidən günah iş görür və bu işi bir neçə dəfə təkrar edir Allah-təala ona belə xitab edir: "Ey bəndəm! İstədiyin hər bir işi gör, sən bağışlanmısan!"***

Əbu Hüreyrə deyir: "Günah iş görmüş bir Allah bəndəsi peşman olub tövbə edir və Allahdan bağışlanmasını diləyir: "İlahi! Günah iş gördüm, özün məni bağışla." Allah-təala tərəfindən ona xitab olunur: "Günah et!" Başa düşür ki, Allah ya onun günahlarını bağışlamış, ya da onu tənbih edir. Yenidən günah iş görür və yenə Allahdan bağışlanmasını istəyir: "İlahi! Günah iş gördüm, özün keç günahımdan." Yenə Allah tərəfindən ona xitab gəlir: "Ey bəndəm! Günah et." Bu dəfə o artıq yəqin edir ki, onu həm bağışlayan, həm də əzab verən Allah vardır. Üçüncü dəfə günah iş görüb həmən duanı edir. Bu dəfə də Allah-təala tərəfindən ona xitab olunur. "Ey bəndəm! Günah et!" Bu dəfə o özündə yəqinlik hasil edir ki, insanı həm cəzalandıran, həm də mükafatlandıran Allah vardır. Axırda belə bir nəticəyə gəlir ki, günahı nə qədər çox olsa Allah onu yenə bağışlayacaqdır."[1]

Əbu Hüreyrə bu hədisi nəql etməklə Allahın bəndələrinə olan rəhmət və mərhəmətini isbat etməyə çalışmışdır, halbuki, buna heç bir ehtiyac yoxdur. Çünki bu məsələ islamın zühur etdiyi elə ilk günlərdən Qur"an, hədis, əql və nəql vasitəsi ilə bizim üçün sübut olunmuş və bu haqda yüzlərlə elmi əsər təlif edilmişdir.

Digər tərəfdən isə hamıya məlumdur ki, "rəhmət" (Allah-təalanın bəndələrinə olan rəhməti) tək islam dininin deyil, o cümlədən digər dinlərin də əsasını təşkil edir.

O ki, qaldı günahkar insanlara (günahdan çəkinməyənlərə), onlar Allah-təalanın rəhmət dərgahından məhrum olarlar. Belə ki, Qur"ani kərimin "Haqqə" surəsində[2] bu haqda deyilir:

***"Əgər o (Peyğəmbər) özündən bəzi sözləri uydurub Bizə istinad etsəydi, Biz ondan mütləq şiddətli intiqam alardıq! Sonra onun şah damarını qopardıq! Və heç biriniz də (Bizim əzabımızı) ondan dəf edə bilməzdiniz."***

Allaha hamıdan yaxın olan peyğəmbərlər və arif insanlar daim günah işlərdən həzər etdikləri bir halda, bu şəxs hansı qeyri-adi xüsusiyyətlərə malik olmuşdur ki, hər nə günah iş görmüşsə də Allah ona "Ey bəndəm, günah et" demiş və o da tövbəsini dəfələrlə sındırmaqla günahda israr etmişdir?

Bəli! Əbu Hüreyrənin bu məzmunda uydurduğu hədis istənilən qədərdir. O başqa bir yerdə Peyğəmbər(s)-dən belə bir hədis nəql edir: "Mələkul-Movt (Həzrəti Əzrayıl) (can almaq üçün) ölüm ayağında olan bir şəxsin yanına gəlir.

---

[1] "Səhihi-Müslüm", 2-ci cild, səh.445 "Kitabut-Tövb."

[2] "Haqqə" surəsi, 44-47-ci ayələr

Onun heç bir xeyirli əməl sahibi olmadığını görüb qəlbini yarır, amma bir şey tapmayır. Məcbur olub ağzını aralayır və dilinin bir tərəfində "la ilahə illəllah" kəlməsini görür.

Həmən şəxs elə bu səbəbdən də Allah-təalanın rəhmət dərgahına qovuşur."[1]

***Əbu Hüreyrənin Peyğəmbərlər haqqında uydurduğu digər hədislər:***

1-"İqamə deyilib səflər düzüldü. Peyğəmbər (s) namaz üçün mehrabından çıxdığı zaman yadına düşür ki, cünub halındadır.[2]

Pak və məsum Peyğəmbərimiz (s) bu sözləri buyurur: "Dəstəmaz üzərindən yenidən dəstəmaz almaq nura nur verən başqa bir nurdur."

Bütün İlahi peyğəmbərlər Əbu Hüreyrənin uydurduğu bu iftiralardan pak və münəzzəhdirlər. Onların davamçıları olan əməli saleh möminlər və ariflər də həmçinin. Bu xüsusiyyətləri isə Əbu Hüreyrə yaxşı olardı ki, özündə və özünün timsalında olan şəxslərdə axtaraydı.

Həzrəti Məhəmmədin bütün peyğəmbərlərdən üstünlüyünü qadağan edən uydurma hədislər:

2-"Həzrəti Məhəmməd (s) Yunis ibni Mətadan (Yunis ibni Məta-həmin Yunis peyğəmbərdir) üstün və əfzəldir-demək yalan və iftiradır."[3]

Peyğəmbərlərin sonuncusu Həzrəti Məhəmməd(s)-in bütün peyğəmbərlərdən üstün və şərəfli olması hamıya məlumdur. İslam dininin zəruri hesab etdiyi bu məsələni sübuta yetirmək üçün əldə istənilən qədər sənəd və rəvayət vardır. Əbu Hüreyrənin nəql etdiyi bu əsassız hədisləri isə yalnız özü kimi sadəlövh və nadan insanlar qəbul edər.

3-"Heç bir insanın dünyada gördüyü xeyirli işlər onun cənnətə daxil olmasına səbəb olmayır. Ondan soruşduqda: "Sizin əmələri-nizdəmi?" "Bəli! Mənim əməllərim də-deyərək cavab vermişdir."[4]

Amma Qur"ani kərim bu haqda bizə tam başqa bir məlumat verir:

***"Mömin olub axirəti istəyən və onun uğrunda çalışanların zəhməti (Allah dərgahında) qəbul olunur."[5]***

4-"Çobanlardan savayı kimsə Allah tərəfindən peyğəmbərliyə göndərilməmişdir."

---

[1] "Tarixi-Bağdad", 9-cu cild, səh.125 Sə"d ibni Həmidin şərhi-halı.

[2] "Səhihi-Buxari", 1-ci cild, səh.41 "Cünub yadına düşmüşsə çölə çıxmalı və təyəmmümə də ehtiyacı olmamalı idi" babı.

[3] "Səhihi-Buxari", 2-ci cild, səh. "xüsumat" fəsli.

[4] "Səhihi-Buxari", 4-cü cild, səh.6, "Kitabul-Mərza", "Xəstənin ölüm arzulaması" fəsli.

[5] "İsra" surəsi, ayə:19

5-"Həzrəti İbrahim yetmiş yaşında dülgər baltası ilə xətnə (sünnət) edilmişdir."[1]

6-"İsa ibni Məryəm (ə) oğrunu iş başında tutub deyir: "Oğurluq edirsənmi?" Oğru deyir: "And olsun o bir olan Allaha ki, oğurluq etmirəm!" İsa (ə) onun dediyinə inanır və özünün səhvə yol verdiyini başa düşür."[2]

7-Allah insanı xəql etdiyi zaman əli ilə onun kürəyinə sığal çəkdi. O andan qiyamət gününə qədər dünyaya gələcək insanlar insanın belindəki zərrəciklərdən vücuda gələcəkdir. Sonra bütün insanların iki gözünün ortasında nur yerləşdirdi və onları Adəm(ə)-a təqdim etdi. Adəm (ə) Allah-təaladan soruşdu: İlahi, bunlar nədir?

Ona belə bir nida gəldi: "Onlar səndən törəyəcək nəsillərdir." öz nuru ilə hamıdan fərqlənən bir şəxs Adəm(ə)-ı heyrətə saldı və Allah-təala tərəfindən nida gəldi: "O sənin oğlun Davuddur." Adəm (ə) soruşdu: "İlahi! O bu dünyada neçə il yaşayacaqdır?"

Allah-təala tərəfindən nida gəldi: "Altmış il, ya Adəm!" Adəm (ə) dedi: "Ya Rəbbim! Mənim ömrümdən qırx il əksildib onun ömrünə əlavə et ki, yüz il yaşaya bilsin." Allah-təala tərəfindən nida gəldi: "(Sənin istədiyin şey) elə indicə yazılıb və heç zaman əvəz edilməyəcəkdir. Adəm(ə)-ın ömrü sona çatdıqda Həzrəti Mələkul-Movt (Əzrail(ə)) ruhunu bədənindən ayırmağa gəlir. Adəm (ə) təəccüblə ondan soruşur: "Məgər mənim ömrümdən hələ qırx il qalmayıbmı?" Mələk cavab verir: "Sən ki, onu övladın Davud(ə)-a bəxş etdin!" (Bunu eşitdikdən sonra) Adəm (ə) və onun övladları hər şeyi inkar etdi.[3]

Başqa bir hədisdə peyğəmbərlərin şə"ninə xas olmayan xüsusiyyətlər zikr etmişdir. Məsələn, Adəm (ə) və Musa(ə)-ı cəbri* və qədəri* kimi qələmə vermiş və onlar arasında baş vermiş mübahisənin Adəm(ə)-ın xeyrinə sona çatdığını isbat etməyə çalışmışdır.[4]

Qeyd etdiyimiz kimi Əbu Hüreyrə tərəfindən bu məzmunda nəql edilmiş hədislər istənilən qədərdir. Lakin biz bu bölümdə yalnız onlardan ikisinə işarə edirik.

1-(Əbu Hüreyrə deyir:) Ə"la ibni Həzrəmi və mən min nəfərlik bir dəstə ilə Bəhreynə gedirdik. Yolda qarşımıza kimsənin keçə bilmədiyi bir gölməçə çıxdı.

---

1 "Səhihi-Buxari", 4-cü cild, səh.65 "İl-İsti"zan" kitabının sonu Əl-Xitan fəsli.

2 "Səhihi Buxari", "Məryəm" surəsi, 167-ci ayəsinin şərhi

3 Hakim, "Əl-Müstədrək", 2-ci cild, səh.325, "Ə"raf" surəsi, ayə:172
"Ey Peyğəmbər! Xatırla ki, bir zaman Rəbbin Adəm oğullarının bellərindən gələcək nəsilləri çıxardı" ayəsinin təfsiri.

4 "Səhihi-Buxari", 2-ci cild, səh 163 "Məxluqatın yaradılışı", Musa əleyhissəlamın vəfatı fəsli.

Ə”la atın yüyənindən yapışıb, suya tərəf getdi. Onu müşahidə edən min nəfərlik qoşun da onun ardınca hərəkət etməyə başladı. And olsun Allaha! Nə bir kəsin başmağı və nə də bir atın dırnağı (su üzərindən keçərək) islanmadı.[1]

Əgər bu hədis mötəbər olsaydı onu min nəfərlik ordudan heç olmasa bir nəfər başqası da nəql edər və hədis mütəvatir hədislər sırasında olardı. Amma görünür, bu hadisəni tək Əbu Hüreyrə görmüş və hədisi nəql etmək təkcə ona nəsib olmuşdur.

2-Əbu Hüreyrə “səfər xurcunu” dastanını nəql edərkən deyir: Müsəlman olduqdan sonra kimsənin qarşılaşmadığı üç böyük müsibətlə üzləşdim.

Həzrəti Peyğəmbər(s)-in vəfatı, mən o zaman çox gənc və fəal idim və daim o həzrətin xidmətində olardım, sonra Osmanın ölümü və onun ardınca baş vermiş “Xurcun əhvalatı”. “Xurcun əhvalatı nədir?”-deyə soruşulduqda Əbu Hüreyrə bu rəvayəti nəql edərdi: Peyğəmbər(s)-in ordusunda idim, bir qədər yol getdikdən sonra Peyğəmbər (s) məni yanına çağırıb soruşdu: Ey Əbu Hüreyrə! Yeməyə bir şeyin varmı?

Dedim: Bəli, ya Rəsuləllah! Xurcunda bir qədər xurma vardır.

Buyurdu: Gətir onları.

Mən də xurmaları çıxarıb ona verdim. Həzrəti Peyğəmbər (s) əlini xurmalara vurub dua etdi və sonra dedi: On nəfər çağır gəlib xurmalardan yesinlər.

Dediyi kimi də etdim. Bu iş dəfələrlə təkrar oldu. Nəhayət bütün ordu yeməklə təmin edildi. Xurmanın qalanını isə mən yenə xurcuna qoydum. Peyğəmbər (s) buyurdu:

Ey Əbu Hüreyrə, istədiyin zaman əlini xurcuna salıb xurma götürə bilərsən.

Mən o xurmalardan həzrəti Peyğəmbər(s), Əbu Bəkr, Ömər və Osman sağ olduqları müddət ərzində istifadə edirdim və xurmalar əsla azalmayırdı.

Osman vəfat etdiyi zaman həmən xurma kisəsi yoxa çıxdı. Bilmək istəyirsinizmi mən o kisədən nə qədər xurma yedim? (Desəm, bəlkə də inanmayacaqsınız). İki yüz dəvə yükü!!!

Peyğəmbər(s)-in az miqdar yeməklə ordunu doydurmasında heç bir şəkk və şübhə ola bilməz. Çünki, bu onun peyğəmbərlik nişanələrindən biri olmuşdur.

Amma bu hədis Əbu Hüreyrənin Bəni Üməyyə xilafətinə yaxınlaşmaq üçün uydurduğu hədislərdən biridir. Çünki Bəni Üməyyənin fəziləti haqqında hədis nəql etmək onun xilafət qarşısında insaniyyət və bəlkə də şəri borcu olmuşdur.

---

[1] İbni Əbi Rəndə kimi məşhur olmuş Əllamə Şeyx Əbu Bəkr ibni Məhəmməd Vəlid Fəhri Tərtuşi 502-ci ildə İskəndəriyyə (Misr) şəhərində vəfat etmişdir. özünün “Həyatul-həyəvan” adlı kitabında bu haqda “Ə”la”-nın həyatı haqqında dəyərli məlumatlar vermişdir. Həmçinin “Əl-İstiyab” və “Əl-İsabə-nin müəllifi onun haqqında dəqiq məlumatlar vermişdir.

Əhli sünnət kitablarında Əbu Hüreyrədən nəql edilmiş digər hədisləri bu "dastan" ilə müqayisə etdikdə hədisin batil olduğu dərhal nəzərə çarpır.[1]

Əbu Hüreyrənin kisəsində xurma yox, başqa şeylər var idi. Bu kisə onun elm xəzinəsi idi!

O istədiyi zaman istədiyi əşyanı onun içindən götürüb kimsədən çəkinmədən istifadə edərdi. Bu səbəbdən də ondan "Bu dediyin sözləri Peyğəmbər(s)-dən eşitdinmi?"-deyə, soruşuqda "Xeyr! Bu Əbu Hüreyrənin kisəsindəndir"-deyərək cavab verərdi.

Bizim kisəmiz isə Əbu Hüreyrənin nəql etdiyi əsrarəngiz hədisləri bəyan etmək üçün çox kiçikdir. Elə buradaca bəyan etmək niyyətində olduğumuz mətləbə son qoyuruq və bununla kifayətlənirik. Şükr olsun Allahın birliyinə!

### *12-ci fəsil*

Əbu Hüreyrənin adəti üzrə başqalarından eşitdiyi hədisləri heç bir vasitə və əlamət olmadan birbaşa Peyğəmbər(s)-ə nisbət verər və Peyğəmbər(s)-in özündən eşitdiyi hədislərlə onların arasında heç bir fərq qoymadan nəql edərdi. Bu səbəbdən də onun nəql etdiyi bütün hədislər mürsəl* hədislər hökmündədir və bu hədislərdən sənəd və dəlil kimi istifadə etmək olmaz.

Əgər onda bu adətin olub-olmamasında şəkk edirsinizsə aşağıdakı hədislərə diqqət yetirin:

1-"Peyğəmbər (s) əmisi Əbu Talibə dedi: "Allahdan başqa məbud yoxdur"-de ki, qiyamət günü (Onun dərgahında) sənin üçün şəhadət verim." Dedi: Əgər Qureyş..."[2]

Alim və təhqiqatçılar bunu yaxşı bilirlər ki, Əbu Talib Əbu Hüreyrənin Məkkəyə gəlməsindən on il əvvəl vəfat etmişdir. Deməli, Əbu Hüreyrə şəxsən orada olmamış və onların arasında baş vermiş söhbəti eşitməmişdir. Amma Əbu Hüreyrə bu hədisi elə nəql edir ki, sanki şəxsən orada olmuş və bu söhbətlərin canlı şahidi olmuşdur.

2- (Və ən yaxın qohumlarını qorxut) ayəsi nazil olduqda Peyğəmbər (s) ayağa qalxıb buyurdu: "Mən sizi Allahdan ehtiyacsız etməyirəm və..."[3]

Hamıya məlumdur ki, bu ayə islamın zühur etdiyi ilk günlərdə (hətta islam dininin Məkkənin özündə yayılmasından öncə) Məkkə şəhərində Allah elçisinə

---

[1] Hədisin məfhumunu dərk etmək üçün Əhməd İbni Hənbəlin, Əbu Bəkr Beyhəqinin və İbni Kəsirin kitablarına müraciət et.

[2] "Səhihi-Müslüm", 1-ci cild, səh.31, "Əl İman" fəsli (ötən fəsildə biz bu mətləbə işarə etmişdik.)

[3] "Səhihi-Buxari", 2-ci cild, səh.86. Həmçinin Müslüm və Əhməd də bu hədisi nəql etmişlər.

(s) nazil olmuşdur. O zaman Əbu Hüreyrə Yəmən müşriklərindən biri idi və iyirmi il sonra Hicaza gəlib İslamı qəbul etmişdir.
Göründüyü kimi Əbu Hüreyrə hədisi elə bir tərzdə nəql edir, sanki şəxsən özü o məclisdə olmuş və baş vermiş əhvalatın canlı şahidi olmuşdur.

3-"Peyğəmbər (s) namaz qılarkən qunut tutaraq bu duanı oxuyardı: "İlahi! Səlmə ibni Hişamı, Vəlid ibni Vəlidi, Əyyaş ibni Əbu Rəbiəni və hicrət etmələrinin qarşısı alınan bütün məzlum və möminləri bu çətinlikdən azad et!"[1]
Peyğəmbər (s) onların azad olması və bu çətinliklərdən yaxa qurtarmaları üçün dua edərkən Əbu Hüreyrə islamı qəbul etməmiş cahil bir ərəb idi. O bu hadisədən yeddi il sonra islam dinini qəbul edib, müsəlmanların sırasına qoşuldu. Bəs necə olur ki, Əbu Hüreyrə Peyğəmbər(s)-in namaz qıldığını görür və onun qunutda oxuduğu duanı belə yadında saxlaya bilir?!

4-"Əbu Cəhl dedi: "Aya Məhəmməd (s) sizin yanınızda üzünü yerə sürtür?" Dedilər: "Bəli."[2]
Əgər Əbu Cəhl belə bir söz söyləmiş olsaydı bu Əbu Hüreyrənin Hicaza gəlməsindən iyirmi il əvvəl olmalı idi. O zaman Əbu Hüreyrə Hicazda nə edirdi?! Bu sual bizə hələ də qaranlıq qalır! Axı necə olur ki, Əbu Hüreyrə "Rəci"" hadisəsində şəhid olmuş sərkərdə Asim Ənsari ibni Sabiti öz gözləri ilə görmüş və onun haqqında rəvayət nəql etmişdir?[3]
Bir halda ki, bu hadisə dördüncü hicri ilində, yəni Əbu Hüreyrənin islamı qəbul etməsindən üç il əvvəl baş vermişdir.

Sözün qısası, əgər Əbu Hüreyrənin hədis söyləmək sənətinə diqqət yetirsəniz siz də bizim əldə etdiyimiz nəticəyə gələcəksiniz. Dediklərimizi sübuta yetirmək üçün bir neçə dəlillə kifayətlənirik.
Müasir Misir təhqiqatçısı Əhməd Əmin apardığı təhqiqatlardan belə nəticəyə gəlmişdir. O deyir: "Belə məlum olur ki, Əbu Hüreyrə Peyğəmbər(s)-dən eşitdiyi hədislərlə kifayətlənməyib başqalarından eşitdiyi hədisləri də o həzrətdən nəql edərdi."[4]
Mənə belə gəlir ki, Əbu Hüreyrə özü də bu həqiqəti etiraf etmişdir. O, Peyğəmbər(s)-dən nəql etdiyi hədislərdən birində deyir: "Hər kim Ramazan ayında səhər açılana kimi cünub halında qalarsa o günün orucunu tutmamalıdır." Ayişə və Ümmə Sələmə isə onun uydurduğu bu hədisi rədd edərək Əbu

---

[1] "Səhihi-Buxari", 2-ci cild, səh.105, "Müşriklərin məğlubiyyəti üçün onlara nifrin edilsin." babı
[2] "Səhihi-Buxari", 2-ci cild, səh.115, "Cihad və səfər" fəsli.
[3] "Səhihi-Buxari", 2-ci cild, səh.115 "Cihad və səfər fəsli."
[4] Əhməd Əmin, "Fəcrul-İslam" kitabı, 262-ci səh, 2-ci fəsil."

Hüreyrəyə öz etirazlarını bildirdikdə. Əbu Hüreyrə Fəzl ibni Abbasa (o zaman artıq vəfat etmişdi) üzünü çevirib dedi: Peyğəmbər(s)-dən yox, Fəzldən. Sizdə belə bir sual yarana bilər ki, mötəbər ravi* başqalarından eşitdiyi hədisi vasitəçinin adını çəkmədən birbaşa Peyğəmbər(s)-ə istinad etməkdə məgər səhvə yol vermiş olurmu?

Cavabında biz deyəcəyik: Bunun heç bir eybi yoxdur, amma həmən hədisi hər hansı bir mövzu üçün dəlil və sübut hesab etmək olmaz və belə hədislər ravinin adil olmasına baxmayaraq "səhih"* hədis hesab edilməyir.

Hədisi nəql edən şəxslərin (vasitəçilərin) adı və onların adil olmaları məlum olmayınca hədis mürsəl hesab olunur. Deməli, hədisin "səhih" olması üçün ravilərin adil olmaları əsas şərtlərdən biridir və buna diqqət yetirmək olduqca mühümdür. Belə bir nəticəyə gəlirik ki, Əbu Hüreyrənin nəql etdiyi hədislərin bir çoxu (ravilərin adı və ədaləti göstərilmədiyi üçün) mürsəl və etibarsızdır və onlardan sənəd kimi istifadə etmək olmaz. Bu mürsəl hədislər sənədli hədislərlə qarışdırıldığı üçün qəbul olunmuş qaydalara əsasən sənədli və mötəbər hədisləri də şübhə altına düşür və onun nəql etdiyi bütün hədisləri etibarsız edir.

### *13-cü fəsil*

### *Olmadığı yerlərdə olduğunu iddia etməsi*

Əbu Hüreyrə deyir: "Günlərin biri Peyğəmbər(s)-in qızı (Osmanın həyat yoldaşı) Rüqəyyənin evinə getdim. Rüqəyyə əlində daraq qarşıma çıxdı və dedi: Elə indicə Peyğəmbər (s) burada idi və mən onun saçını darayırdım.

Sonra məndən soruşdu: Əbu Əbdullah (Osman) necə adamdır?

Dedim: O yaxşı adamdır.

Buyurdu: Onu hamıdan əziz tut. Xasiyyət baxımından mənə hamıdan yaxın olan odur.

Hakim özünün "Əl-Mustədrək" adlı kitabında bu rəvayəti nəql edərkən deyir:[1] Bu hədis sənəd baxımından etibarlı, mətn baxımından isə bir o qədər də dəqiq deyildir. Çünki Rüqəyyə hicrətin 3-cü ilində Bədr döyüşü ərəfəsində vəfat etmişdir. Əbu Hüreyrə isə hələ o zaman islamı qəbul etməmişdi. O islamı yalnız Xeybər döyüşündən sonra qəbul edib müsəlman oldu.

Zəhəbi özünün "Təlxisul-Mustədrək" adlı kitabında bu hədisə işarə edərək Hakimin sözlərini olduğu kimi bəyan etmişdir.

Əbu Hüreyrə Peyğəmbər(s)-in yol verdiyi səhv(!) haqqında deyir: "Günorta (zöhr) ya ikindi (əsr) namazını Peyğəmbər(s)-lə birlikdə qılırdıq. O ikinci rükətdən sonra salamları deyib namazı bitirdi. Zülyədəyn Peyğəmbər(s)-in yanına gəlib ondan soruşdu: Ya Rəsuləllah! Namazı özünüz bilərəkdən iki rükət qıldınız, ya yadınızdan çıxdı?

---

[1] "Əl-Mustədrək", 4-cü cild, səh.48, Rüqəyyənin şərhi-halı.

11-ci fəsildə bu mətləbi şərh edərkən dedik ki, Zülyədəyn Əbu Hüreyrə islamı qəbul etməzdən əvvəl Bədr döyüşündə şəhid olmuşdur.[1]

O çox vaxt fəxr edərək deyərdi: "Xeybər qalasını fəth etdik, amma oradan qənimət məqsədi ilə qızıl-gümüş götürmədik. Oradan əldə etdiyimiz yalnız bir neçə baş inək, dəvə və başqa əşyalar oldu."[2] Bir halda ki, o Xeybər döyüşündən sonra islamı qəbul etmiş və bəzi döyüşlərdə (nəzərə çarpmaz dərəcədə) iştirak etmişdir. Bu səbəbdən də "Səhiheyn"ə şərh verən hədis alimləri Əbu Hüreyrənin belə çaşdırıcı hədisləri ilə qarşılaşarkən heç bir bəhanə tapa bilməyib deyirlər: "Xeybər qalasını fəth etdik" dedikdə onun məqsədi tək özü yox, müsəlmanlar olmuşdur və burada hədisin məcazi mənasına diqqət yetirmək lazımdır.[3]

Başqa bir yerdə deyir: "Xeybərdə Peyğəmbər(s)-lə birlikdə idik. Peyğəmbər (s) onunla birlikdə olaraq müsəlmanlıq iddiası edən şəxs barəsində dedi: "Bu şəxs cəhənnəm əhlindəndir." Döyüş başlayan zaman həmən şəxs ağır yaralandı. Deyilənlərə görə bu səhnəni görən bəzi şəxslərdə Peyğəmbər(s)-ə qarşı inamsızlıq yarandı. Yaralanmış şəxs gücünün tükəndiyini və ağrılarının dözülməz olduğunu görüncə ox qabından bir ox çəkib özünü öldürdü.[4]

Halbuki:

1-Əbu Hüreyrə Xeybərdə olmadığı bir halda orada olduğunu və döyüşdə iştirak etdiyini iddia edir. Bu səbəbdən də şərhçilər çarəsiz qalıb deyirlər: "O bunu məcazi mənada demişdir. Onun məqsədi burada tək özü deyil, müsəlmanlardır. Çünki o, islam dinini Xeybər döyüşündən sonra qəbul etmişdir." (Qəstəlaninin nəzəri)[5]

2-özünü öldürən şəxs Qəzman ibni Hərs münafiq və qələbə əzmində olan bir döyüşçü idi.[6]

---

[1] 13-cü hədisə müraciət et.

[2] "Səhihi-Buxari", 3-cü cild, səh.37, Xeybər döyüşü.

[3] "Səhihi-Buxari", 3-cü cild, səh.34, Xeybər döyüşü; 2-ci cild, səh.120, "Cihad" fəsli, "Allah öz dinini hətta zinakar şəxslərlə belə möhkəmləndirir" bölümü.

[4] "Səhihi-Buxari", 3-cü cild, səh.34, Xeybər döyüşü; 2-ci cild, səh.120, "Cihad fəsli", "Allah öz dinini hətta zinakar şəxslərlə belə möhkəmləndirir" bölümü.

[5] "İrşadus-sari", 6-cı cild, səh.322.

[6] Vaqidi, ibni İshaq və başqaları öz kitablarında bu şəxs haqqında ətraflı məlumat vermişlər. İbni Həcər və bir çox şərhçi onun haqqında yazırlar: "Qəzman o şəxsdir ki, Ühüd döyüşündə kimsəyə aman vermədən müşriklərlə ağır mübarizə aparırdı. Əshab Peyğəmbərin yanına gəlib dedilər: "Ya Rəsuləllah! Hələ bizə onun kimi köməklik edən olmamışdır."

Həzrəti Peyğəmbər buyurdu: "Amma o cəhənnəm əhlindəndir." Qəzman döyüş əsnasında ağır yaralanır. Ağrıdan yaxa qurtarmaq üçün qılıncını yerə basdırır və özünü

Amma bu hadisə Ühüd döyüşündə, yəni Əbu Hüreyrə islamı qəbul etməzdən əvvəl baş vermişdir. Ərəblər arasında məşhur olan bir atalar misalında deyilir: “Habil ilə Qabili səhv salıb,[1] axırda böyük bir yalan əmələ gəlib.”

Başqa bir yerdə deyir: Süffə səhabələrindən yetmiş nəfəri çox acınacaqlı bir vəziyyətdə idi. Onların əyinlərinə geyinməyə bir dəst paltarları belə yox idi.[2] O yetmiş nəfərin hamısı “beri məun” günündə şəhid oldu və Peyğəmbər (s) bu hadisədən çox kədərlənib, bir ay namazlarında onların qatillərinə lə”nət oxudu.

Bu hadisə hicrətin dördüncü ilində, yəni Əbu Hüreyrənin müsəlman olmasından bir neçə il əvvəl baş vermişdir. O bu vaxtlar hələ Yəməndə yaşayır və Hicaza köçməyi belə fikirləşməyirdi. Amma bütün bunlara baxmayaraq o Peyğəmbər(s)-in namazda etdiyi duaları da eşidir və onun səhabələri ilə yaxından da tanış olur!

Qəstəlani deyir: Əbu Hüreyrənin dediyi yetmiş nəfər, şəhid olmuş həmən yetmiş nəfər səhabədir. Daha doğrusunu Allah bilir.

Göründüyü kimi bu hadisələrin heç birində Əbu Hüreyrə şəxsən iştirak etməmiş, Peyğəmbər(s)-in (şəxsən) özündən hədis eşitməmişdir.

O Kə”bul Əhbar kimi etibarsız şəxsdən belə eşitdiyi hədisləri Peyğəmbər(s)-ə aid etmişdir. Misal olaraq: “Allah insanı özünə oxşar surətdə yaratdı. Onun uzunluğu altmış zira, eni isə yeddi zira idi.”[3]

Bu səbəblərdən də Allaha iman gətirmiş hər bir müsəlman onun nəql etdiyi hədislərdən mümkün qədər uzaq olmağa çalışmalıdır.

Belə məntiqsiz hədislərə “Səhiheyn” və digər hədis kitablarında çox rast gəlmək olur. Məsələn, Müslüm (Səhihi-Müslümdə) Əbu Süfyanın fəziləti haqqında Əkrimət ibni Əmmar Yəmamidən belə rəvayət edir: “Müsəlmanlar Əbu Süfyanla oturub durmudular. O Peyğəmbər(s)-in yanına gedib dedi: Ya Rəsuləllah! Səndən xahişim budur ki, bu üç şeyə razılıq verəsən.

Buyurdu: Olsun! (İstədiklərini de!)

Dedi: Ərəb qadınlarının içində ən gözəli və ən xoş xasiyyətli olan qızım Ümmü Həbibəni sənin ilə evləndirim.

Buyurdu: Bəli, razıyam.

Dedi: Müaviyəni öz yanında katibliyə götür. Buyurdu: Götürdüm.

Dedi: Mənə cihad əmri ver və mən də bundan belə əvvəllər müsəlmanlarla vuruşduğum kimi bundan sonra kafirlərlə döyüşüm.

---

onun üzərinə atır. Beləliklə Qəzman ölür. “Səhihi-Buxari”, 2-ci cild, səh.101, “Cihad fəsli”, “kimsə deməsin ki, filankəs şəhiddir” bölmü

[1] Yəni “ara elə qarışıb ki, doğrunu yalandan ayırmaq olmur.”

[2] “Səhihi-Buxari”, 2-ci cild, səh.60 (Kitabın 3-cü fəslində biz buna işarə etdik.)

[3] 11-ci fəsildə bu hədis haqqında geniş izahat vermişik.

Buyurdu: Buna da razıyam (Döyüş!)[1]

Müslüm Əbu Süfyanın fəziləti barəsində bu hədislə kifayətlənmiş və şükr olsun Allaha ki, bundan başqasını tapa bilməmişdir. Bu hədis əksər tarix və şərhçilərin nəzərinə görə batil və əsassızdır.

Çünki, Əbu Süfyan Məkkə fəth olduqdan sonra müsəlman olmuş və bundan qabaq o Peyğəmbər(s)-in qatı düşmənlərindən biri hesab olunurdu. Onun qızı "Rəmlə" isə hicrətdən əvvəl müsəlman olmuş və qohum-əqrəbasından ayrılaraq Həbəşəyə mühacirət edən yeni müsəlmanlardan idi və Rəmlə atasının xəbəri olmadan Peyğəmbər(s)-lə ailə qurmuşdu. Peyğəmbər(s)-lə qatı düşmənçilik mövqiyyətində duran Əbu Süfyan bu xəbəri eştidikdə dedi: Bu şəxs aradan getməyəcək (yəni məğlub olmayacaq).

O Peyğəməbərlə barışıq elan etmək üçün Mədinəyə tərəf yola düşdü. Mədinəyə çatdıqda qızı Ümmi Həbibənin evinə getdi. O Peyğəmbər(s)-in yerində oturmaq istərkən qızı kilimi onun altından çəkdi. Əbu Süfyan təəccüblənərək soruşdu. Məndən qaçırsan? Dedi. Bəli! Bura Peyğəmbər(s)-in yeridir. Sən isə murdar və müşriksən.

Bütün islamşünas alimlər bu əhvalatı doğru hesab edir. Əgər bu barədə geniş məlumat əldə etmək istəsəniz Ümm Həbibənin şərhi halı haqqında yazılmış əsərlərə və tərcümə olunmuş kitablara müraciət edin.

Müslümin "şərh halında" bu hədisin izahında Nəvəvinin söylədiklərinə diqqət yetirsəniz kifayət edər.

Şükr olsun Allaha ki, bizləri haqqa hidayət edib aqil və alim insanlardan qərar vermişdir. Salam olsun həzrəti Məhəmməd(s)-ə və onun Əhli-Beytinə.

### *14-cü fəsil*

Əbu Hüreyrə hədis nəql etməkdə özü üçün elə bir yol seçmişdir ki, onun nəql etdiyi hədisləri oxuyan hər bir şəxs dərhal şəkkə düşərək onlardan uzaq olmağa çalışır. Hələ o özü sağ olarkən nəql etdiyi hədisləri tənqid atəşinə tutan şəxslər onu rahat burxmayırdılar. O bu etirazları eşidərkən deyərdi: Deyirlər Əbu Hüreyrə çox danışan və çərənçidir. Allah özü daha yaxşı bilir, hamı ilə o özü haqq-hesab edəcək. Deyirlər nə üçün mühacir və ənsar onların söylədiklərini deməyirlər (təsdiq etməyirlər).

Gördüyünüz kimi, o özü hədislərinin başqaları tərəfindən inkar və tənqid olunduğunu etiraf edir və narahatçılıqla deyir: "Allah özü daha yaxşı bilir və istədiyinə əzab verən də məhz onun özüdür." Onun fikrincə hədis nəql etmək

---

[1] " Səhihi-Müslüm", 2-ci cild, səh.361. Bu hədis Yəmaənin uydurduğu hədislərdən biri hesab olunur. Nüvəvi bu hədisi şərh edərkən ibni Həzmin bu hədisin batil olması haqqında nəzəriyyəsin işarə etmişdir. Zəhəbinin bu haqda dedikləri sözlər olduğu kimi "Mizanul-Etiqad" kitabında Əkrəmənin şərh-halının sonunda dərc edilmişdir.

onun dini vəzifəsi olmuşdur və əgər bu onun dini (şəri) vəzifəsi olmasaydı onların pis fikrə düşməmələrinə görə hədis nəql etməzdi. Başqa bir yerdə deyir: “And olsun Allaha, əgər bu ayə nazil olmasaydı.

“Kitabda insanlara aşkar etdiyimiz dəlillərdən sonra göndərdiyimiz nişanələri və doğru yol göstərən ayələrimizi gizlədən şəxsləri Allah və bütün lə”nət edənlər onlara lə”nətlyir”, ağzımı açıb sizinlə kəlmə kəsməzdim.”[1]

Əbu Rəzi deyir:[2] “Günlərin biri Əbu Hüreyrə əllərini alnına vura-vura bizim yanımıza gəlib dedi: Ey camaat! Elə güman edirsiniz ki, Peyğəmbər(s)-ə yalan qoşmaqla özüm haqq yoldan çıxıb sizləri haqqa hidayət edirəm?!

O “Amul-Cəmaət” də Müaviyə ilə birlikdə İraqa gəldi və böyük kütlənin onların pişvazına çıxdığını gördükdə heyrətə gəldi. Kufə məscidinə gedərək dizi üstə oturub, əllərini zərb ilə başına vura-vura dedi: Ey İraq camaatı! Yoxsa güman edirsiniz ki, Allaha və Onun Peyğəmbərinə yalan qoşmaqla özümü cəhənnəm oduna atıram?!” (Hədisin ardını isə Əli(ə)-ın düşmənlərinə yaxın olmaq üçün o həzrətin əleyhinə nəql etmişdir.)[3]

Bunu bilmək kifayətdir ki, Peyğəmbər(s)-ə yaxın olan böyük səhabələr onun nəql etdiyi hədisləri rədd edir və onun özünü isə tənqid atəşinə tutardılar. Əhməd Əmin Əbu Hüreyrə haqqında deyir: Səhabələrdən bir qismi Əbu Hüreyrəni Peyğəmbər(s)-dən hədis nəql etməkdə ifrata vardığı üçün tənqid edirdilər.[4]

Hətta “Səhihi-Müslüm”də də Əbu Hüreyrəyə qarşı tutulan irad və tənqidlər haqqında iki hədis nəql edilmişdir.

Müasir Misir alimi Mustafa Sadiq Rafii bu haqda deyir: “Əbu Hüreyrə yalnız üç il Peyğəmbər(s)-in yanında olmasına baxmayaraq bütün səhabələrdən çox hədis nəql etmişdir. Bu səbəbdən də Əli(ə), Ayişə, Ömər və Osman daim onu tənqid edir və ifrata varmaqda günahlandırırdılar. Ayişə onu hamıdan çox tənqid edirdi.[5]

Həmçinin Nizam deyir: “Əli (ə), Ayişə, Ömər və Osman Əbu Hüreyrəni yalançı hesab edirdilər.”

---

[1]“Bəqərə” surəsi, ayə:159 “Səhihi-Buxari”, müzariə fəslinin əvvəli və buyuy fəslinin sonu. Hədis Səhihi-Müslümdə də nəql edilmişdir. İnşəallah növbəti fəsildə bu hədisi imkan daxilində şərh edəcəyik.”

[2] “Səhihi-Müslüm”, 2-ci cild, səh.217, “ayaqqabıla-rınızın birinci sağ tayını geyinin” fəsli.

[3] İmam Əbu Cə”fər İskafi Əmamidən belə rəvayət edir. “Nəhcül Bəlağə”nin şərhinə (Həmidi) müraciət edin. 1-ci cild, səh.359, Misir çapı.

[4] “Fəcrul-İslam” kitabı, 6-cı bölüm, 2-ci fəsil, 262-ci səh.

[5] “Adabul-Ərəb”, 1-ci cild, səh.282, Rəvayət bölümü.

Bir halda ki, İbni Qüteybə Əbu Hüreyrəni müdafiə etmək üçün Nizama qarşı çıxmış, amma onun sözlərini qəbul etməkdən başqa bir çıxış yolu görməmişdir.

İbni Qüteybə deyir:[1] Nizam bu sözləri Əbu Hüreyrənin şəxsiyyətini ləkələmək məqsədi ilə demişdir. Əli(ə), Ayişə, Ömər və Osman Əbu Hüreyrəni tənqid edərək onun sözlərini qətiyyətlə rədd edirdilər. O təqribən üç il Peyğəmbər(s)-in yaxın səhabələrindən biri olmuşdur. Bu müddət ərzində o özündən islamı tez qəbul etmiş səhabə və digər şəxslərdən daha çox hədis nəql etmişdir. Bu səbəbdən də onun bu işinə görə tənqid edir və yalançı hesab edirik.[2] Ona bəzən deyərdilər: Axı sən tək başına necə bu qədər hədis nəql edirsən? Sənin tək bu qədər hədis nəql edən ikinci bir şəxs varmı? (O yenə deyir:) Ayişə hamıdan çox onu bu iş üçün tənqid edir və onun bu işdən çəkinməyini dəfələrlə təkid edirdi. Ömər də ifrata varan ravilərə və şahidsiz hökm verən şəxslərə qarşı sərt mövqe tutar və onlarla mübarizə edərdi.

Allah həqiqəti ibni Qüteybənin dili ilə aşkar etdi və özü istəmədən Nizamın dediklərini qəbul etdi. Haqq necə olursa-olsun aşkara çıxmalı və öz yerini tutmalıdır. Ancaq ibni Qüteybə elə düşünür ki, səhabələrin ondan uzaq olub ona qarşı acıqlı olmalarının səbəbi odur ki, Peyğəmbər onun böyük bir məqam sahibi olmasını vurğulamışdır. Ona qarşı olan paxıllıq üzündən onun sözlərini dəyərsiz və puç saymışlar. Əgər böyük səhabələr onun tam dəqiqliyini tanısaydılar və əgər onların yanında doğru danışanlardan olsaydı onu yalançı və iftiraçı kimi tanımaz və ittiham etməzdilər. Qeyd etdiyimiz kimi, Əbu Hüreyrə demişdir:[3] "Aclığın şiddətindən minbər ilə Ayişənin otağı arasında taqətdən düşüb yerə yıxıldım. Bir nəfər məni dəli bilib ayağını mənim boynuma qoydu. Halbuki mən dəli deyildim; aclıqdan bu hala düşmüşdüm."

Əlbəttə, bu sözlər ibni Qüteybənin onun barəsində danışdığı dəyərlər və tutduğu məqam ilə üst-üstə düşür.

Xülasə, böyük səhabələrin və tabeinin Əbu Hüreyrənin əleyhinə olan tənələri və inkarları barəsində heç bir kəsin şəkk-şübhəsi yoxdur. Axır zamanlar sünnülər bütün səhabələrin istisnasız olaraq ədalətli olmasını qəbul etmişlər. Bu səbəbdən də heç vaxt onların yaşayış tərzlərini araşdırmamış və onlara tabe olmağı vacib saymışlar. Beləliklə də öz ağıllarını qandallamış, göz, qəlb və qulaqlarını fəaliyyətdən salmış və aşağıdakı Qur"an ayəsinin bariz nümunəsinə çevrilmişlər.

---

[1] Həmin mənbə, 48-ci səh.

[2] İbni Qüteybə bununla Nizama cavab vermək və təsdiq etmək istəmişdir. O, Əli əleyhissəlamın, Ayişənin adını çəkməklə kifayətlənməmiş, öz kitabında bu haqda olan bütün mətləblərə işarə etmişdir.

[3] "Müxtəlэfil-hədis"in təbiri, səh.5

*“Onlar kar, lal və kordular.”*

Əhli beyt (ə) heç vaxt səhabələrə, onların özlərinin bir-biri barəsindəki nəzərlə baxırdılar. Onların Əbu Hüreyrə barəsində nəzərləri Əli(ə), Ömər, Osman və Ayişənin nəzəri ilə müxalif deyildir. Onların ardıcılları və bütün şiələr Əli(ə)ın vaxtından indiyə qədər o həzrətlərin tutduğu yoldan nə bir addım artıq, atmış nə də geri qalmamışlar. Şiələrin nəzəri elə Əhli-betin nəzəridir. Bəlkə də mötəzililərin əksəriy-yətində də nəzəri elə bu cürdür İmam Cə”fər İskafi deyir: Bizim böyük alimlərimizin nəzərində Əbu Hüreyrə ağılsız, onun rəvayətləri isə etibarsızdır. Ömər onu qamçı ilə vurub dedi: “Çoxlu rəvayət nəql edirsən, Allahın elçisi barəsində yalan söyləmə! Süfyan, Suri Mənsurdan, İbrahim Teymidən belə nəql edir:

“Əbu Hüreyrənin yalnız behişt və cəhənnəm barəsində söylədiyi hədisləri qəbul edirdilər. (Yenə davam edərək deyir:) Əbu Üsamə öz əmisindən rəvayət edir ki, İbrahim doğru hədis söyləyən idi, elə ona görə də eşitdiyimiz hər hədisi ona söyləyirdik. Bir gün Əbu Salehin Əbu Hüreyrədən nəql etdiyi bir hədisi ona söylədim. İbrahim dedi: “Əbu Hüreyrəni kənara qoy!” Onlar onun çox sözlərini rədd etmişlər. İskafi deyir: “Əli (ə) buyurub: Ən böyük yalançı və Peyğəmbər(s)-in adından yalan danışan şəxs Əbu Hüreyrədir.”

İskafi Əbu Yusifdən nəql edir ki, Əbu Hənifəyə dedim: Əgər Peyğəmbərdən bizim rə”yimizlə uyğun gəlməyən bir hədis və ya fikir eşitsəm nə etməliyəm?

Əbu Hənifə dedi: Əgər o xəbəri inanılmış və etibarlı ravidən eşitsən gərək ona uyğun əməl edək, öz rə”yimizi geri götürək.

Dedim: Ömər və Əbu Bəkr barəsində nə deyirsən?

Dedi: Onların söylədikləri qəbul olunur.

Dedim: Əli (ə) və Osman necə?

Dedi: Onlar da həmçinin.

Elə ki, gördü bir-bir səhabələrin adını çəkirəm, dedi: Bütövlükdə səhabələrin hamısı adildir-bir neçə nəfərdən başqa.

Sonra həmin bir neçə nəfərə misal olaraq, Əbu Hüreyrə və Ənəs ibni Malikin də adlarını çəkdi.

Məlum oldu ki, Əbu Hənifə və onun səhabələrinin rə”yləri Əbu Hüreyrənin söylədiyi hədislə zidd olardısa, onun sözünü rədd edərdilər. Belə ki, onun “Misrat” barəsində söylədiyi hədisi də rədd etmişlər. (Misrat-yəni dəvəni, inəyi və ya qoyunu bir neçə gün sağmırlar ki, onu satan zaman müştəri onun çoxlu süd verəcəyini fikirləşsin.) Əbu Hənifə və onun səhabələri onun bu hədisinə əməl etməmişlər.

Əbu Hüreyrə Peyğəmbər(s)-dən nəql edir: “Dəvə və qoyunu satan zaman onların döşlərini südlə dolu saxlamayın. Əgər bir şəxs belə bir heyvanı alırsa, onun südünü sağandan sonra iki yoldan birini seçməlidir: ya al-verin düzgünlüyünü qəbul etməli, ya da bir qab xurma ilə birlikdə qaytarmalıdır.”

Əbu Hənifənin davamçıları ona əhəmiyyət verməyərək belə dedilər: Əbu Hüreyrə fəqih (şəriət alimi) deyil, onun söylədiyi hədis bizim rə”ylə üst-üstə düşmür. Heyvanın südünü sağmaq təcavüz sayılır. Təcavüzün də müqabilində ya gərək malın (əmtəənin) özünü qaytarasan, ya da onun dəyərini ödəyəsən. Amma Əbu Hüreyrənin söylədiyi söz (bir qab xurma ilə heyvanı geri qaytarmaq) dediklərimizdən heç biri ilə uyğun gəlmir.[1]

Biz həmçinin bilirik ki, Əbu Hənifə və bütövlükdə onun səhabələri belə bir əqidədədirlər ki, əgər namaz qılan şəxs səhvən və ya namazı qurtardığını küman edərək artıq bir söz işlədərsə, onun namazı batil olar. Əbu Hənifə fiqhi Süfyan Surinin nəql etdiyi rəvayətə əsasən bu məsələdə həmin əqidədədirlər. Belə məlum olur ki, Əbu Hüreyrənin sözü onlar üçün dəyərsizdir. Belə ki, onun nəql etdiyinə görə Allahın elçisi dörd rükətli namazın ikinci rükəti bitdikdən sonra səhvən salam verib, namazı bitirmiş və durub otağına gedərək, yenidən geri dönmüşdür. Camaat ondan “Namazı sındırdın, ya ki, unudaraq axıra yetirmədin”-deyə soruşduqda buyurdu: “Heç biri deyil.” Camaat yenidən dedi: “Siz namazı iki rükət qıldınız.” Allahın elçisi (s) söhbətdən sonra xatircəm olub, onlarla yenidən iki rükət namaz qılaraq iki səhv səcdəsi yerinə yetirdi.[2] Buna görə Malik, Şafei, Əhməd, Ovzəi və başqaları demişlər ki, əgər namazda səhvən bir söz işlətsə namazı batil etməz. Lakin, Əbu Hənifə Əbu Hüreyrənin sözlərini dəyərli saymayıb belə namazın batil olmasına fitva vermişdir.[3]

Sonda Əbu Hüreyrənin səhabələr arasında olan məqamını bariz şəkildə göstərəcək hədislərə işarə edəcəyik.

1-Əbu Hüreyrə deyir: Elə ki, mən söyləyən hədis Ömərin qulağına çatdı məni yanına çağırtdıraraq belə dedi: Filan kəsin evində olarkən sən də bizimlə idinmi?

Dedim: Bəli. Allah Peyğəmbəri (s) həmin gün belə buyurdu:[4]

---

[1] Hənəfi fiqhinə müraciət edin. Bu sözləri Fazil Misri Əhməd Əmin, həmçinin “Fəcrül-İslam” kitabının 263-cü səhifəsində yazmışdır.

[2] Bu hədis on birinci fəsildə qeyd olunub. Bizim haşiyədə yazdığımıza diqqət yetirin.

[3]“Nüvəvinin “Səhihi-Müslüm”ə yazdığı şərhində Əbu Hənifənin nəzərincə belə namazın batil olmasını və Suridən nəql edərək belə namazın düzgün olmasını qeyd etmişdir. Sonra deyir ki, Əbu Hüreyrənin hədisinə əməl edənlər belə təqdirdə namazın batil olmadığını qəbul edirlər. (4-cü cild, səh.234.)

[4] Müsəddəd onu “Müsnəd”ində Xalid ibni Yəhyadan, o da atasından, atası da Əbu Hüreyrədən nəql etmişdir. Həmçinin ibni Həcər “Əl-İsabədə Əbu Hüreyrənin həyatına həsr etdiyi bölümdə nəql etmişdir.

*“Hər kəs mənə qəsdən yalan nisbəti versə, yeri cəhənnəmdir.”*

Buradan belə məlum olur ki, Əbu Hüreyrə Ömərin yanında söz söyləyə biləcək bir şəxs deyildi və ya Öməri məcbur edə bilməzdi ki, oturub onun söylədiklərinə qulaq assın. Ömər Əbu Hüreyrənin söylədiyi hədisləri başqalarının dilindən eşidib, təəccüblənərək onu bu işdə günahlandırmışdır. O, bu hərəkəti ilə Əbu Hüreyrəni cəhənnəm atəşindən qorumaq istəyirdi.

2-Yenidən Ömər onu tənbih edərək dedi:[1] “Peyğəmbər(s)-dən hədis söyləməkdən əl çəkəcəksən, ya da səni Dusa və ya Qirədəyə sürgün edəcəyəm!”

3-Ömər Əbu Hüreyrəyə Peyğmbər(s)-in adına yalan qoşaraq hədis söyləməsinə görə şallaq vurub dedi:[2] “Nə qədər danışmaq olar! Səni Peyğəmbər(s)in adına yalan qoşmaqdan çəkindirərəm!”

4-Ona şallaq vuraraq yaraladı və mənimsədiyi on min dinarı ondan alaraq rüsvay edib, Bəhreynin valiliyindən uzaqlaşdırdı. Həmçinin sərt sözlərlə onu danladı.[3]

5-Peyğəmbər(s)-in sağlığında da Ömər onu o qədər vurdu ki, arxası üstə yerə yıxıldı.[4]

6-Əbu Hüreyrə barəsində Əli(ə)-dan sual etdikdə, belə buyurdu:[5] “Bilin ki, o, camaatın ən çox yalan söyləyənidir. İnsanlar arasında Peyğəmbərə (s) ən çox yalan qoşan şəxs Əbu Hüreyrədir.”

7-Həzrəti Əli(ə)-a dedilər ki, Əbu Hüreyrə... Həzrət buyurdu:[6] “Onun sözünü qəbul etmirəm və onunla müxalifəm.”

8-Əbu Hüreyrə rəvayət nəql edərkən hərdən bu sözlərdən istifadə edərdi: “Mənim dostum Peyğəmbər (s) və ya dostum Peyğəmbər (s) mənə dedi...” Elə ki, Əli (ə) bu sözləri eşitdi ona belə buyurdu:
Ey Əbu Hüreyrə! Allahın elçisi haçandan səninlə dost olub?

Əli (ə) onu təkzib edib, hədislərini qəbul etməzdi, çünki, onun sözlərini məqbul saymırdı. Bəli, Əli (ə) Qur”an ilədir, Qur”an da Əli (ə) ilə. Onlar bir-

---

1 İbni Əsakir bunu rəvayət etmişdir. “Kənzül-Ümmal”, 5-ci cild, səh239, 4885-ci hədis. Bu söz tamamilə hədislərin hamısını tərk etməyə sövq edir.

2 Necə ki, bundan öncə xatırlatdıq, Əksafi onu nəqq etmişdir.

3 4-cü fəslə bax.

4 “Səhihi-Müslüm”, 1-ci cild, səh.34.

5 Bundan öncə Əbu İskafi bu sözü rəvayət etmişdir.

6 Bu hədisi İbni Qüteybə “Müxtələfil-Hədis”də nəql edib: 27-ci səh.

birindən Peyğəmbərin(s)-in yanına gedənəcən ayrılmayacaqlar.[1] Əli (ə) haqq ilədir, haqq da Əli (ə) ilə.[2]
9-Elə ki, Ayişə Əbu Hüreyrənin söylədiyi hədisi eşitdi onu yanına çağırıb dedi: "Peyğəmbər(s)-dən söylədiyin bu hədislər nədir? Olmaya Peyğəmbər(s)-dən bizim eşitdiklə-rimizdən başqa bir şey eşitmisən?! Ya bizim gördüyümüzdən əlavə bir şey görmüsən?!"
Əbu Hüreyrə ona dedi: Anacan, güzgü və sürmə qabı səni ona diqqət etməkdən yayın-dırıb.[3]

10-Əbu Hüreyrə nəql etdiyi hədislərin birində deyir ki, it, arvad və qatır namazı batil edər. Ayişə bu sözü eşitdikdə onu yalançı adlandıraraq dedi: Allahın elçisi (s) taxtın üstündə namaz qılarkən mən taxtın üstündə onunla qiblə arasında otururdum.

11-Əbu Hüreyrə bir tay ayaqqabı geyinməyi qadağan olması barədə hədis söyləyir. Ayişə bu sözü eşitdikdə ayaqqabının bir tayını geyinib yola düşür və belə deyir: İstəyirəm Əbu Hüreyrənin sözünün əksinə çıxam.

12-Əbu Hüreyrə Peyğəmbər(s)-dən belə nəql edir ki: "Hər kəs səhər cünub halında (cənabətli) oyansa, oruc tutmasın." Ayişə və Həfsə onun bu sözünü təkzib etmişlər. Əbu Hüreyrə həmçinin onların sözünün düz və özünün səhv etməsini etiraf etmiş, sözünü geri götürərək belə demişdir: "Mən bu hədisi Peyğəmbər(s)-dən yox, Abbasın oğlu Fəzldən eşitmişəm." Halbuki, Fəzl o vaxt dünyasını dəyişmişdi.

13-İki şəxs Ayişənin yanına gəlib ona dedilər: Əbu Hüreyrə deyir ki, Peyğəmbər (s) buyurub: Qadınlar və dörd ayaqlıların falı pisdir, onlar nəhsdirlər. Ayişə coşaraq dedi: "And olsun Qur"anı Peyğəmbər(s)-ə göndərənə ki, yalan deyir. Peyğəmər (s) belə söz deməyibdir."[4]

14-Əbu Hüreyrə Ayişənin otağının kənarında əyləşib Peyğəmbər(s)-dən danışırdı. Bu vaxt Ayişə namaz qılmaqla məşğul idi. Namazı sona çatdırdıqdan sonra ona belə dedilər: Əbu Hüreyrə səni təəccübləndirmir ki, oturub otağın kənarında Peyğəmbər(s)-dən hədis nəql edir?

---

[1] Hakim "Müstədrək"də, Təbəri "Ovsət"də Ummu Sələmədən nəql etmişlər. "Kənzül-Ümmal" 6-cı cild, səh.153

[2] Əbu Səid Xidri Peyğəmbərdən nəql edir ki, haqq bu kişi ilədir, haqq bu kişi ilədir. (Həzrət bu vaxt Əli əleyhissəlama işarə edirdi.) Əbu Yəli "Müsnəd"ində, İbni Mənsur "Sunən"ində bu rəvayəti nəql etmişlər. "Kənzül-Ümmal", 6-cı cild, səh.157.

[3] Hakim onu "Müstədrək"də düzgün hesab edib (3-cü cild, səh.509.)

[4] İbni Qüteybə, "Müxtələfil-hədis", 129-cu səh. və ondan sonra.

Ayişə cavabında dedi: Əgər namazım qurtarınca burada qalmış olsaydı onun sözlərini təkzib edər və yaxşıca danlayardım.[1]

15-Peyğəmbərdən belə bir rəvayət nəql etmişdir ki, "Əgər sizlərdən biriniz yuxudan oyanıb əlini su dolu qaba salıb yumazdan əvvəl bilməyə əli harada olub..."

Ayişə onu danlayaraq sözlərini rədd etdi[2] və dedi: Bəs onda "mihras"ı[3] nə edək?

16-Əbu Hüreyrə Peyğəmbər(s)-dən nəql edir ki, cənazəni aparanda dəstəmaz alın.

İbni Abbas onun sözlərini təkzib edib dedi: Quru taxtaları aparanda (yəni cənazəni) dəstəmaz lazım deyil.[4]

17-Ömərin oğlu Peyğəmbər(s)-dən rəvayət edir ki, ov itindən və qoyun itindən başqa bütün itləri öldürün. Ona dedilər: Əbu Hüreyrə deyir ki, əkin sahəsini qoruyan iti də öldürməyin. Ancaq o Əbu Hüreyrənin sözünə əhəmiyyət verməyərək onu rədd edib dedi: Əbu Hüreyrənin özünün belə bir iti var, ona görə də onu Peyğəmbər(s)-in hədisinə əlavə edib ki, həm öz itini, həm də əkin sahəsini qorumuş olsun. Bu hədisi Müslüm də nəql etmişdir.[5]

Həmçinin "Səhihi-Müslüm"də[6] eyni bu hədisə oxşar bir hədis nəql olunmuşdur: "Hər kəsin ov itindən, sahəni qoruyan itdən və qoyun itindən başqa iti olsa hər gün bir qirat onun savabından azalar. Bu sözləri Ömərin oğluna söylədikdə, o cavabında dedi: Əbu Hüreyrə bədbəxtin əkin sahəsində bir iti var. Onu da Peyğəmbər(s)-in hədisinə əlavə edib ki, öz mənfəətini qoruya bilsin.

Salim ibni Abdullah ibni Ömər də Müslümün nəql etdiyi rəvayətə əsasən onu bu işdə ittiham etmişdir.[7]

18-İbni Ömər Əbu Hüreyrənin kirpi barəsində söylədiyi hədisi təsdiq etməyərək bu məsələyə şübhəli yanaşdığını bildirmişdir.

---

[1] "Səhihi-Müslüm", 2-ci cild, səh.358, Əbu Hüreyrənin fəziləti bölümü və hədis barəsində tədqiqat.

[2] Əhməd Əmin, "Fəcrül-İslam", 259-cu səh. Ayişənin Əbu Hüreyrəyə etimadı olmadığına görə onun sözlərini təkzib etməsi doğrudur. Amma "mihras" təbiri ilə onun sözünü kəsməsinin heç bir dəlili yoxdur.

[3] "Mihras" böyük bir daşdır, onun içini su ilə doldururlar ki, dəstəmaz alanda istifadə etsinlər. Bu daş o qədər ağır olur ki, yerindən tərpətmək çox çətindir.

[4] Əhməd Əminin "Fəcrül-İslam" kitabı, 259-cu səh.

[5] "Səhihi-Müslüm", 1-ci cild, səh.625, "itlərin öldürülməsi" fəsli.

[6] Həmin mənbə, 1-ci cild, səh.627, "İt saxlamağın qadağanı" fəsli.

[7] "Səhihi-Müslüm", 1-ci cild, səh.626

19-İbni Ömər eşitdi ki, deyirlər: Dəfn mərasimində iştirak edən şəxs bir qirat (250 ml. q) savab qazanar. O Əbu Hüreyrənin sözünü qəbul etməyərək dedi: “Əbu Hüreyrə həddən artıq söz danışır.” Ayişənin yanına gedərək bu barədə ondan da soruşdu. Ayişə təsdiq edəndən sonra qəbul etdi.[1]

Amir ibni Şürəyh ibni Hani Əbu Hüreyrədən “Hər kəs Allahın görüşünə tələsərsə, Allah da onu görməyə tələsər. Və hər kəs Allahdan üz döndərsə Allah da onunla görüşmək istəməz” hədisini eşitdikdə qəbul etmədi. Ona görə də bu hədis barəsində Ayişədən soruşduqda, Ayişə ona bu hədisi nəql edərək, Peyğəmbər(s)-in bu hədisdən məqsədini və məramını dolğun şəkildə izah etdi.[2]

Əgər səhabələrin Əbu Hüreyrənin söylədiyi hər bir hədisə olan münasibətlərini sadalasaq, çox vaxt aparar. öz sözümüzü sübuta yetirmək üçün bu qədər kifayətdir.

Bunu bilmək kifayətdir ki, Ömər, Osman, Əli (ə) və Ayişə onu təkzib edərək, sözünü qəbul etməmişlər. Bütövlükdə hədis nəql edən alimlər bu əqidədədirlər ki, təarüz yarandığı zaman bir şəxsin ədalətli olması əsas tutulur. Ancaq burada təarüz yoxdur.

Səhabələrin ilk baxışda (qayda üzrə) ədalətli olması barəsində demək lazımdır ki, bu müddəanın isbata yetməsi üçün heç bir dəlil yoxdur. Səhabələr belə bir qaydanı tanımırlar. Əgər belə bir fərziyyəni (yəni qayda üzrə ədalətli olmağı) qəbul etməli olsaq, bu ancaq halı naməlum olan bir şəxs barəsində deyilə bilər. Amma bu Ömər, Osman, Əli (ə) və Ayişənin təkzib etdiyi bir şəxsə aid ola bilməz. Biz tam qətiyyətlə bilirik ki, Əbu Hüreyrənin ədalətsiz (fasiq) olması üçün əlimizdə olan dəlillər kifayətdir. Şiələrin səhabələr barəsində sözü həmişə orta mövqedən olub. Bu əqidəni aydınlaşdırmaq üçün “Carullahın suallarına cavab” kitabında ayrı bir fəsil[3] dərc etmişik. O fəsli təsdiq edən başqa bir xüsusi fəsil də dərc etmişik.[4] Təhqiq etmək istəyən alim və tədqiqatçılara bu mənbəyə müraciət etməyi məsləhət görürük.

## *ON BEŞİNCİ FƏSİL*

### *Əbu Hüreyrənin rəqibləri müqabilində etirazı və dəlilləri*

Əbu Hüreyrə ona irad tutan şəxslərlə üz-üzə gələrək deyirdi:[5] Deyirlər ki, Əbu Hüreyrə həddən artıq hədis söyləyir! Axirətdə Allah haqq-hesab çəkəcək!

---

[1] “Səhihi-Müslüm”, 1-ci cild, səh.349, “cənazəyə namaz qılmaq” fəsli.

[2] “Səhihi-Müslüm”, 2-ci cild, səh.422, “Allahı sevəni Allahı da onu sevər” fəsli.

[3] “Əl-Əcvibə, səh.11-dən 15-ə qədər.

[4] “Əl-Əcvibə, səh.23-dən 27-ə qədər.

[5] “Səhihi-Buxari”, 2-ci cild, səh.34; Müslüm də öz kitabında, Əhməd “Müsnəd”ində bu hədisi başqa təbirlə rəvayət etmişlər.

Deyirlər ki, bəs necə olur ki, ənsar (Mədinədə islam dinini qəbul edənlər) və mühacirlər (Məkkədən Mədinəyə hicrət edələr) sən söyləyən hədislər kimisini nəql etmirlər. Onların başı al-verə qarışmışdır və ənsar da öz işləri ilə məşğul idilər! Amma mən əliboş, miskin bir adam idim. Bir tikə çörək üçün həmişə onunla (Peyğəmbər(s)-lə) yoldaş olmuşam! Mən onun yanında olanda onlar orada deyildilər. Ənsar və mühacirlər onun sözlərini yaddan çıxardıqları halda mən onları zehnimdə saxlayıb qorudum.
Günlərin birində mən Peyğəmbər(s)-in belə buyurduğunu eşitdim: “Sizlərdən bir nəfər yoxdurmu ki, qulağını açıb məni diqqətlə dinləsin və mən deyən sözləri yadından çıxarmasın?!” Qulaqlarımı açıb Peyğəmbər (s) deyən sözlərə diqqət yetirdim. O sözləri eşitdikdən sonra yaddaşıma həkk etdim. And olsun onu peyğəmbərliyə seçən Allaha ki, onun dediyi sözlərin heç birini əsla unutmadım. And olsun Allaha, əgər aşağıdakı Qur’’an ayəsi olmasaydı bu haqda heç kiçicik bir söz də danışmazdım:

Əbu Hüreyrə özünü nə qədər bəzəsə də bir o qədər axmaq görünür. O belə düşünür ki, bu sözləri deməklə söylədiyi hədisləri rəqiblərinin tənqid atəşindən yayındıracaq və özünün günahsızlığını isbat edəcək. O bu vasitə ilə nə qədər çox fəal olmuşsa da bir o qədər də geridə qalmışdır.[1]

Sanki Allah-təala göndərdiyi Qur’’an ayəsi ilə Əbu Hüreyrənin müxaliflərinin gətirdiyi dəlilləri təsdiqləmək və onların tərəfini saxlamaq istəmişdir. And olsun düzgünlüyün şərəfinə və and olsun doğru danışanların şərəfinə, Əbu Hüreyrənin söylədiyi yalanın bənzərinə heç bir xurafatçının sözündə rast gəlmədim. Əgər şeyxeyn (Buxari və Müslüm) onun söylədiyini özlərinin “Səhih” kitab-larında dərc etməsəydilər ona əhəmiyyət verməzdim. Onlar ona görə bu işi görüblər ki, bütün səhabələrin nəzərlərini kor-koranə qəbul etmişlər. Onlar bu əqidələri ilə əqli və nəqli dəlillərin hamısı ilə müxalifətçilik etmişlər. Biz bu məsələyə “Tühfətül-Mühəddisin” kitabında bütün təfsifatı ilə aydınlıq gətirmişik.
Biz aşağıdakı dəlillərə görə Əbu Hüreyrənin bu hədisini batil və yararsız hesab edirik:

1-O təsəvvür edir ki, alış-veriş mühacirlərin başını qatmışdır. Ənsarın da başı öz işlərinə elə qarışıb ki, onlar Peyğəmbər(s)-in sözlərinə diqqət yetirməyiblər.

Buna görə də o bu məsələdə mühacir və ənsarı qabaqlayaraq onlardan önə keçmişdir. Bu necə də dəyərsiz bir sözdür! Necə mümkündür ki, aşağıdakı ayənin nazil olmasından sonra mühacirlər Yaradandan üz döndərib başları bazarda ticarətə qarışsın? Budur ayə:

---

[1]Bağlarında işləyiblər, çünki onların xurma bağları olub.

Allah kəlamı ilə uyğun olmayan sözlər puç və əsassızdır, onlardan uzaq olmaq lazımdır. Məgər Əbu Hüreyrə kimdir ki, Peyğəmbər(s)-in yaxın adamları onun yanında olmadığı halda yalnız o, həzrətin yanında olub?
Heç kis onun sözlərini yadda saxlamadığı bir halda fəqət Əbu Hüreyrə Həzrətin dediklərini əzbərləyib?

Hələ utanıb çəkinmədən deyir ki, istəyirdim ac qarnımı doyuzdurum. O bu sözləri Ömər, Osman, Əli(ə), Təlhə, Zübeyr, Salman, Əmmar, Miqdad və Əbuzər dünyadan gedəndən sonra dilinə gətirib.

Bu necə də yalan və düzgün olmayan hədisdir! Hər kəs çox gözəl bilir ki, Əli (ə) Peyğəmbərin yanında hansı mənsəbə malik idi. Onların arasında xüsusi yaxınlıq var idi. Hələ kiçik yaşlarında ikən Həzrət onu dizi üstə alar, sonra bağrına basar və yanında əyləş-dirərdi. Onu gül tək qoxulayar, və onun üçün yemək hazırlayardı.

Heç vaxt ondan pis söz eşitməz, pis rəftar görməzdi. Allah-təala özünün Peyğəmbər(s)-i vasitəsi ilə Əli (ə) südəmərlik dövrünü başa vurduqdan sonra özünün böyük mələklərindən birinə yaxınlaşdırdı ki, gözəl, bəyənilmiş əxlaq sahibi olmaq üçün ona yardımçı olsun. Əli (ə) anasından ayrı düşmüş körpə kimi həmişə Peyğəmbər(s)-in arxasınca düşürdü. Həzrət hər gün ona bir şey öyrədər, elmin sirrlərindən agah edərdi.

Əli (ə) və möminlərin anası Həzrəti Xədicə(s.ə) Həra mağarasında Peyğəmbərin yanında olublar. Vəhyin nurunu görüb peyğəmbərliyin gözəl ətrini duymuşlar. Bundan sonra o elm şəhərinin qapısı, ümmətin ən layiqli hakimi, Peyğəmbər(s)-in sirlərinə agah olan köməkçi və Peyğəmbər hikmətinin varisinə çevrilmişdir. Bu sadaladıqlarımızdan sonra Əbu Hüreyrənin yadında saxladığı sözləri Əli(ə)-ın unutmağı mümkündürmü? Və ya elə sözləri gizlətsin ki, Əbu Hüreyrə aşkar edə?

***“Allah pakdır və bu böyük bir böhtandır.”***

Lakin mühacirlərin çox kiçik bir hissəsi bazarda ticarətlə məşğul idilər. Aşağıda adı sayılanlara diqqət yetirin: Əbuzər, Miqdad, Əmmar və yetmiş nəfərdən ibarət siffə əhli olublar. Əbu Hüreyrənin dediyinə görə onların paltarları olmayıb, ancaq boyunlarından bir parça atıbmışlar.[1]
Necə ola bilər ki, Əbu Hüreyrənin söylədiyi hədisləri onlar söyləyə bilmirlər?!

Ənsarların da hamısı dövlətli və mal-dövlət sahibi olmayıblar. Salman Farsinin necə şəxsiyyət olduğuna diqqət yetirin ki, Peyğəmbər (s) onun barəsində belə buyurub: “Salman biz Əhli-beytdəndir.” Belə ki, “Əl-İstiy”ab” kitabının Salman Farsinin həyatı barəsində yazılmış fəslində belə deyilir: “Əgər din göylərdə olsa belə Salman onun arxasınca gedər.” Həmçinin həmin kitabda

[1]Həmin kitab, 3-cü fəsil

dərc olunmuşdur ki, Ayişə onun haqqında deyib: “Salman Peyğəmbər(s)-ə o qədər yaxın idi ki, az qalmışdı ünsiyyəti də bizdən çox ola.” Yenə həmin kitabda deyilir: Əli (ə) buyurdu: Salman Farsi bilik və elm dəryasına sahib olan Loğmana bənzəyir.”
Kə”bul Əhbar deyir: “Salman elm və hikmət mədənidir.” Bunlardan əlavə Salmanın fəziləti və xüsusiyyəti barəsində bir çox hədislər nəql olunmuşdur.

Əbu Əyyub Ənsari də həmçinin belə bir şəxs olmuşdur. Hamı bilir ki, o elm öyrənmək və ona əməl etməkdən başqa heç bir işlə məşğul olmayıb. Və heç bir şey də ona bu işdə mane ola bilməzdi. Əbu Səid Xidri, Əbu Füzalə Ənsari və başqaları da belə şəxsiyyətlərdən olmuşlar.
Allah onların hamısına rəhmət etsin!

Belə ki, hikmətlilərin ağsaqqalı və Peyğəmbərlərin sonuncusu Məhəmməd(s)-in işləri plansız surətdə deyildi; bütün işlərində dəqiqlik və nizam-intizam olub. Hər bir işi öz vaxtında və yerli-yerində həyata keçirirdi. Xalqa elm öyrədərkən başqa iş görməzdi. O biri işləri üçün xüsusi vaxt ayırardı. Dərs verilən zaman ənsar və mühacirlərdən biri də kənarda qalmazdı. Çünki, onlar xurafatçılar və hədis uyduran şəxslərdən daha artıq dərəcədə Peyğəmbər(s)-in elminə məftun olmuşdular.

2-Əgər Əbu Hüreyrənin nəql etdiyi “Peyğəmbər (s) deyib: “Heç kəs paltarını yerə sərməsin, mən sözümü deyib qurtarım. Ondan sonra mənim sözümü yaddan çıxartmasın”“ hədisi düzgün olsaydı, bütünlükdə hamı ona tərəf yüyürərdilər. Bu belə olsaydı, elm əldə etmək üçün nə uzun-uzadı səfərə çıxmaq, nə də pul xərcləmək lazım idi. Bəs necə olur ki, onlar məqsədə çatmaq üçün paltarlarını sərmədilər? Necə olur ki, belə bir fürsəti əldən verib bu böyük mənfəətdən vaz keçirdilər? Necə olur ki, onlar Peyğəmbər(s)-in dəvət etdiyi şeydən üz döndərib uzaqlaşdılar? Əsla! Heç bir zaman onlar belə rəftar etməyiblər. Çünki, bu məsələ onların Peyğəmbərin əmrinə itaət etmələri ilə heç üst-üstə düşmür.

3-Əgər Əbu Hüreyrənin təsəvvürü həqiqət olsaydı gərək səhabələr əldən çıxmış böyük mənfəətə peşman olaydılar. Gərək hər kəs onların Peyğəmbər(s)-in göstərişinə əhəmiy-yətsiz yanaşmalarından heyfsilənərək onları utandıraydılar. Əgər belə olsaydı gərək çoxlu sayda adamlara tənə vurulaydı. Gərək hamı təkcə Əbu Hüreyrənin bu işi görməsinə qibtə edəydi ki, yalnız o, Peyğəmbərin sözlərinə qulaq asmışdır. Halbuki bu belə deyildir. Bilmək lazımdır ki, bu sözlər Əbu Hüreyrənin özündən uydurduğu sözlərdir.

4-Əgər doğrudan da hadisə Əbu Hüreyrənin dediyi kimi olsaydı, gərək başqa şəxslər də onu xəbər verərdilər.
Üstəlik səhabələr və onlara tabe olanlar bu məsələni dinin və peyğəmbərliyin bir əlamətlərindən hesab edəydilər və bu barədə xəbərlər təvatür həddinə gərək çatmış olaydı. Həqiqətdə isə heç də belə olmamışdır. Əbu Hüreyrədən başqa heç

kimin bu hadisədən xəbəri yoxdur. Buradan belə nəticəyə gəlmək olar ki, bu da Əbu Hüreyrənin qabaqcadan düzüb-qoşduğu bir xurafatdır.

5-Əbu Hüreyrənin söylədiyi bu hekayətdə həmahənglik yoxdur, üstəlik ziddiyyətlərə də rast gəlmək olur. Belə ki, Ə"rəc[1] onun dilindən deyir ki, Allahın elçisi bir gün səhabələrə buyurdu: "Sizin aranızda bir nəfər varmı ki, paltarını sərib mən söylədiklərimi onun arasına toplasın? Və heç vaxt mənim sözlərimi yadından çıxartmasın?" Əbu Hüreyrə deyir: "Ancaq mən öz paltarımı yerə sərdim ki, Peyğəmbər (s) sözünü deyib sona yetirsin. Sonra onu topladım. And olsun ona peyğəmbərliyi verən Allaha ki, bu günə qədər o sözlərdən heç birini unutmamışam."

Məqbəri başqa bir yerdə ondan belə rəvayət edir:[2] "Dedim: Ey Allahın elçisi, hərdən sizdən sözlər eşidirəm. Amma dedikləriniz yadımda qalmır." Həzrət buyurdu: "Paltarını aç yerə sər." Ondan sonra onun arasına ovuc-ovuc nəsə tökdü,[3] sonra buyurdu: "Üstünü ört", mən də belə etdim. Peyğəmbər(s)-in bu əməlindən sonra heç vaxt unutqan olmadım.

Göründüyü kimi Ə"rəcin söylədiyi hekayətdə o səhabələrin arasında olmuşdur. öncə Peyğəmbər (s) onları unutqan olmaqdan qorumaq üçün onlara paltarlarını yerə sərməyi tövsiyə edir. Ancaq Məqbərinin söylədiyi hədisə görə bu hadisə fəqət onun özü ilə Peyğəmbər (s) arasında baş verib. Və söhbətə Əbu Hüreyrə başlamış, hafizəsinin zəifliyindən Peyğəmbər(s)-ə şikayət etmişdir. Ə"rəcin söylədiyinə görə ancaq Peyğəmbər(s)-in həmin vaxt dediyi sözləri nəzərdə tutur. Belə ki, o deyir: O hadisədən sonra orada deyilən sözün heç birini unutmadım.[4]

Lakin Məqbərinin nəql etdiyi rəvayət ümumiyyət təşkil edir. Yəni heç nəyi yaddan çıxartmayacaqsan–istər hədis olsun, istərsə də başqa şey. Çünki, o hədisdə deyir: "Ondan sonra mən heç bir şeyi yaddan çıxartmadım."

Buna görə də bu hədisi şərh edənlər heyranlıqla onun barəsində cəfəngiyyat uydurmuşlar. Belə ki, ibni Həcər "Fəthul-bari"də belə deyir: Bu hadisə iki dəfə

---

[1]Ə"rəc elə Əbdurrəhman ibni hormuzdur "Səhihi-Buxari", 2-ci cild, səh.34. Əbu Sələmət ibni Əbdurrəhman Əbu Hüreyrədən aşağıdakı ibarətlə nəql edir: "Peyğəmbər buyrudu: Kim paltarını mən sözlərimi qurtarana qədər yerə sərsə və mən qurtarandan sonra götürüb geyinsə hər şeyi yadında saxlar və dərindən başa düşər."

[2] O, Səid ibni Səid olub. Buxarinin "Səhih"inə bax. 1-ci cild, səh.24, "elmi əzbərləmək" bölümündə.

[3]Qəstəlani bu sözün şərhində deyir: Peyğəmbər Allahın bərəkətindən əli ilə yaddaşı bir əşya kimi paltarın arasına tökdü. "İrşadus-sari", 1-ci cild, səh.379

[4].Termezi "Came"də, Əbu Nəim "Hilyətul-övliya"da bu yazıya işarə etmişlər. Orada belə deyilir: "Məgər bir nəfər yoxdurmu öz vacibi əməllərini öyrənə, ya öyrədə, ta behiştə daxil ola?"

baş verib.[1] Birinci dəfə həmin məclisdə deyilən sözləri yaddan çıxartmamaq üçün, ikinci dəfə isə ümumiyyət təşkil edib–istər hədis olsun, istərsə də başqa bir şey.

Göründüyü kimi bu tutarlı dəlil deyil.[2]

Bundan əlavə Müslüm Yunisdən, o da ibni Müseyyibdən[3] onu başqa bir formada nəql edirlər ki, Əbu Hüreyrə deyir: "O zamandan bəri Peyğəmbər(s)-in heç bir sözünü yaddan çıxartmadım." Bu söz həm Ə"rəcin, həm də Məqbərinin söylədiklərindən tam fərqlidir.[4]

İbni Sə"d həmin sözlərin oxşarını "Təbəqat" adlı kitabında Əmrdən nəql edir ki, Əbu Hüreyrə deyir: Allahın elçisi mənə dedi: "Paltarını çıxar və yerə sər." Mən də o deyən kimi etdim. Peyğəmbər (s) mənimlə bütün günü söhbət etdi. Sonra paltarımı yenidən geyindim. Bu hadisədən sonra Həzrətin heç bir sözünü yaddan çıxartmadım. Əvvəlki hədisdə isə "bütün gün" sözü yoxdur. İbni Cündinin söylədiyi bu hədis öndəkilərdən fərqlənir.

Əbu Yəli Əbu Sələmənin vasitəsi ilə bunu başqa surətdə nəql etmişdir. O belə rəvayət edir: Əbu Hüreyrə unutqan olmasından Peyğəmbər(s)-ə şikayət edir. Həzrət ayaqlarını bir az aralı qoyaraq Əli(ə)-a söykənmişdi. Həzrət buyurdu: Əbu Hüreyrə, yaxın gəl. O da o qədər yaxına getdi ki, onun barmaqları Peyğəmbərin barmaqlarına toxundu. Həzrət buyurdu: Əyləş.

---

[1]Qəstəlani "İrşadus-sari"də bu hədisi şərh edərək deyir: Bəlkə onunla Peyğəmbər arasında belə macəra iki dəfə baş verib. Ə"rəcin söylədiyi həmin hadisəyə aiddir, amma Məqbərinin söylədiyi ümumiyyət təşkil edir. Və bu aydın möcüzələrdəndir. Çünki Peyğəmbər huşsuzluğu ondan uzaqlaşdırdı. Amma bu da elə bir məsələdir ki, onun paltarı yerə sərmək ilə əldə edilməsi çox çətin bir işdir.

[2]Əgər belə bir şey baş versəydi, onun barəsində xəbər gərək təvatür həddinə çataydı. Halbuki deyilir bu hadisə neçə dəfə baş verib. Necə olur ki, Əbu Hüreyrədən başqa səhabələr onu unudaraq onun barəsində bir söz deməmişdir?

[3]"Səhihi-Müslüm", 2-ci cild, səh.358, "Əbu Hüreyrənin fəziləti" fəsli.

[4]Ə"rəcin söylədiyindən daha da əhatəli olması məlumdur. Çünki Ə"rəcin hədisində unutqanlıq yalnız Peyğəmbərin həmin vaxtda danışdığı sözlə əlaqəlidir. Ancaq Məqbərinin söylədiyi hədislə müqayisədə onun cüz"i bir hissəsinə aid olur. Buna görə unutqanlıq burada ümumiyyət təşkil edir. Yunisin Zührinin vasitəsilə rəvayət etdiyi hədis hafizəli olmaq barəsində həzrətin söylədiyi bütün hədislərə şamil edilir.

Qəstəlani "İrşadüs-sari"də bəyan edir ki, Müslüm bunu başqa bir tərzdə bəyan etmişdir.

İbni Sə"d "Təbəqat", 4-cü cild, səh.56

O da oturdu. Buyurdu: paltarının bir ucunu irəli gətir. Əbu Hüreyrə paltarının bir küncünü irəli uzatdı. Həzrət ona belə buyurdu: Əbu Hüreyrə! Sənə tapşırdığım budur ki, sağ ikən, bir neçə adətdən əl çəkməyəsən.

Əbu Hüreyrə dedi: Ey Allahın elçisi, hər nə istəyirsən mənə tapşır.

Peyğəmbər buyurdu: Cümə günü səhər tezdən durmağı və cümə qüslu almağı sənə tapşırıram. Boş-boşuna danışmaqdan uzaqlaş hər ay üç gün oruc tutmağı sənə tövsiyə edirəm. Eşitdiyimə görə çox oruc tutursan. Sənə tapşırıram ki, əgər gecəni sübhəcən Allaha ibadətlə məşğul olsan, iki rükət sübh namazını əldən vermə çünki, bunun çox əhəmiyyəti vardır. (Və o bu sözü üç dəfə təkrar edərək dedi:) Paltarını geri çəkib özünə bağla. Əbu Hüreyrə də elə o cür etdi.[1]

Əbu Yəli həmçinin "Əl-isabədə Əbu Hüreyrənin həyatını şərh edərkən Vəlid ibni Cəmi"nin vasitəsi ilə Əbu Hüreyrədən nəql edir: Hafizəmin kütlüyündən və unutqan olmağımdan Peyğəmbər(s)-ə şikayətlənirdim. Buyurdu: Üst paltarını çıxart, mən də çıxartdım. Sonra yenidən dedi: Onu sinənə bağla. Mən də elə etdim və o vaxtdan bəri heç bir hədisi unutmadım.

Yenə "Əl-isabədə Əbu Yəli Yunis ibni Übeydin vasitəsi ilə, o da Həsən Bəsrinin vasitəsi ilə Əbu Hüreyrədən nəql edir: "Peyğəmbər (s) buyurdu: Əgər bir nəfər məndən bir, iki və ya üç kəlmə eşitsə, paltarını açaraq o sözləri onun arasında toplasın. Və onları yadda saxlayaraq başqasına öyrətsin. (Əbu Hüreyrə deyir:) Paltarımı onun qarşısına sərdim, belə ki, o söhbət edirdi. Sonradan onu sinəmə bağladım. Ümidvar idim ki, heç bir sözü unutmayacağam."

Yenə də "Əl-isabədə Əhməd Mübarək ibni Füzalənin vasitəsilə, o da Həsəndən eyni hədisi nəql etmişdir.

Əbu Nə"im[2] Abdullah ibni Yəhyanın vasitəsilə Əbu Hindin oğlu Səiddən, o da Əbu Hüreyrədən rəvayət edir: Peyğəmbər (s) buyurdu: Ey Əbu Hüreyrə! Dostlarının məndən istədikləri mənfəətdən istəyirsənmi?

Dedim: Ey Allahın elçisi! Allahın sənə öyrətdiyi elmi mənə öyrətməyini istəyirəm. Sonra davam edərək deyir: Kürəyimə bağladığım təkcə paltarımı açaraq özümlə Peyğəmbərin (s) arasına sərdim. Paltarın üstünü bit-birə basmışdı. Həzrət danışdıqca mən də ona qulaq asırdım. Həzrət sözlərini qurtardıqdan sonra buyurdu: Paltarı götür özünə bürü. Mən o gündən bəri onun heç bir sözünü unutmadım.

Hər kəs bu hədislərin hamısına diqqətlə nəzər yetirsə görər nəinki mənaları, hətta kəlmələri də bir-birindən fərqli surətdə nəql olunub.

6-Əbu Hüreyrə deyir. "Təkcə paltarımı çıxardıb sərdim." Əgər Əbu Hüreyrənin bu sözü düzgün olsa deməli tamamilə çılpaq olub hətta ovrəti də

---

[1]Bu hədis və bundan sonra gələn hədislərin hamısı "Əl-isabədə dərc olunmuşdur.

[2]"Hilyətul-övliya", səh.381 Əbu Hüreyrənin həyatı

bayırda qalıb. Ancaq Qəstəlani və Zəkəriyya Ənsari Əbu Hüreyrənin bu hədisini izah edərkən yazırlar ki, Əbu Hüreyrə paltarının bir ucunu sərmişdir ki, bədəni bayırda qalmasın.

7-Bu hekayə əfsanə, uydurma və xurafata daha çox bənzəyir. Yalançılar və təhrifatçıların sözünə oxşayır. Çünki, Peyğəmbər(s)-in möcüzələrini ləyaqətsiz, dəyərsiz sözlərlə qarışdırmaq Allaha yaraşmayan bir işdir. Onun möcüzələri həqiqət nuru və gözəl üslubla insanları çirkinliklərdən uzaqlaşdırdı. özünü öyənlər onun qarşısında məğlub olub tutduğu ədalətli yol qarşısında baş əydilər.

Peyğəmbər (s) Əli(ə)-ı Yəmənə hakim təyin edən zaman əlini onun sinəsinə qoyub buyurdu:[1] Ey Allahım! Onun ürəyini hidayət et, dilini ötkəm və qüdrətli et.

Həzrət Əli (ə) buyurur: And olsun Allaha ki, Peyğəmbər(s)-in o duasından sonra heç vaxt iki nəfər arasında hakim olarkən şəkk-şübhədə aciz qalmadım. Elə ki, Allah-təala bu ayəni sevimli Peyğəmbərinə nazil etdi:

Peyğəmbər (s) Əli(ə)-a xitab edərək buyurdu: Allahdan istədim ki, səni eşidən qulaq qərar versin.

Əli (ə) buyurur: O duadan sonra mən heç nəyi unutmadım. Axı necə ola bilərdi ki, mən həzrətin o böyük duasından sonra bir şeyi unudam!

Həmçinin Peyğəmbər (s) Xeybər döyüşündə (o zaman Əli (ə) qoşunun bayraqdarı olub) Əli(ə)-a işarə edərək belə dua etdi: “Ey Allahım! Onu dözülməz istidən və soyuqdan özün qoru.

Əli (ə) buyurur: And olsun Allaha ki, o duadan sonra heç bir isti və soyuq məni narahat etmədi. Bu hadisədən sonra o, qışda nazik, yayda isə qalın paltar geyinib gecələr evdən bayıra çıxardı ki, Peyğəmbər(s)-in möcüzəsini isbat etsin.

Cabir borclu olmasından Peyğəmbərə şikayət etdi. Onunla birlikdə xurma bağına getdilər. Həzrət xurmaların başına fırlanaraq onun bərəkətli olmasından ötrü əllərini göyə qaldıraraq dua etdi. Sonra orada əyləşdi. Borc sahibləri gəldilər və Həzrət onların hər birinin borcunu ödədi. Axırda hətta həmin xurmadan Cabirin özü və ailəsinə də yetişdi. Peyğəmbər (s) əgər bir kəsin xeyrini istəsəydi bu minvalla dua edərdi. Heç bir xeyri olmayan şəxslərin də əleyhinə dua (nifrin) edərdi. Belə ki, Müaviyə barəsində bu duanı etmişdir: “Allah onun qarnını heç vaxt tox etməsin!” Əbul Asın oğlu Həkəm barəsində də buna oxşar dua etmişdir. Heç kəsin Peyğəmbər(s)-in Əbu Hüreyrə deyən tərzdə dua etməsindən xəbəri yoxdur. Axı bu necə mümkün ola bilərdi, halbuki, onun hikməti yolunu azmışların yoluna nur saçır, onun hikmətinin vasitəsilə hidayət kəşf olunur, çətinliklərin düyünü açılır, zəlalətin və azğınlığın qarşısı alınır.

## *ON ALTINCI FƏSİL*

---

[1]“Əli-istiy”“ab”, Əli əleyhissəlamın həyatı.”

## *Onun fəzilətlərinə bir baxış*

Biz Əbu Hüreyrənin fəzilət və üstünlüyü barəsində olan bütün sözlərin üzərində çoxlu araşdırma apardıqdan sonra belə bir nəticəyə gəldik ki, bu sözlərin hamısı heç də onun öz sözlərindən fərqlənmir. Nümunə üçün aşağıdakı sözlərə diqqət yetirib bunun həqiqət olduğuna varacaqsınız. "Əl-istiy"ab" kitabının müəllifi Əbu Hüreyrənin barəsində belə deyir: O, Xeybər müharibəsi zamanı islamı qəbul edib, həmin döyüşdə Peyğəmbər(s)-lə birlikdə döyüşdü. Əbu Hüreyrə o andan belə elm öyrənmək üçün həmişə Peyğəmbər(s)-in yanında olub. Elm öyrənmək üçün bir an belə ondan üz döndərməyib. Ancaq qarnının tox olması ilə kifayətlənib. Peyğəmbər(s)-in əlindən tutaraq, daim onun arxasınca olub. Ona görə də hamıdan çox Peyğəmbərin hədislərini o yadında saxlayıb. Mühacirlərin başı ticarətə, ənsarların başı isə öz işlərinə qarışanda Əbu Hüreyrə Peyğəmbər(s)-in yanından ayrılmayıb. Allahın elçisi (s) özü şəhadət verib ki, Əbu Hüreyrə onun elminə və hədisə məftun olmuşdur. Bir gün Əbu Hüreyrə Peyğəmbər(s)-ə belə dedi: Ey Allahın elçisi! Mən çoxlu sayda sizin hədislərinizi eşitmişəm amma qorxuram unudam.
O buyurdu: "Paltarını yerə sər."

Əbu Hüreyrə deyir: Mən belə etdim və Həzrət ovcu ilə ardıcıl olaraq o paltarın arasına nə isə tökürdü. Sonra dedi: Gey paltarını! Mən o vaxt paltarı geydikdən sonra indiyə qədər heç nəyi yaddan çıxartmadım. Tədqiqatçılar gözəl bilirlər ki, onun barəsində söylənən bu üstünlük Əbu Hüreyrənin öz söylədiyi hədislərin məzmununa oxşayır. Əbu Hüreyrənin özündən başqa bu sözləri təsdiqləyən heç bir mənbə və sənəd yoxdur. Digər xüsusiyyətləri də belədir.

İndi isə onun yazdıqlarını aydınlaşdıraq. Onun Xeybər döyüşündə islamı qəbul etməsi doğrudur. Çünki başqaları da bunu söyləmişlər. Ancaq Peyğəmbərin yanında olaraq döyüşü seyr etdiyini özündən başqa heç kim nəql etməyib. Hətta ona tərəfdarlıq edən tədqiqatçılar da bu hədisi başqa üslubda təbir ediblər. Bu sözləri, yəni Peyğəmbər(s)-dən ayrılmazdı və bu yaxınlıqdan məqsədi ancaq elm və hədis öyrənmək imiş, əli daim Peyğəmbər(s)-in ovcunda olub, bircə tox qarınla kifayət-lənərmiş, onun özündən başqa heç kəs söyləməyib. Belə ki, o özü deyir:[1] Mən Mədinə şəhərinə yetişdikdə Peyğəmbər (s) Xeybərdə idi. O vaxtlar mənim otuzdan yuxarı yaşım var idi. Peyğəmbər (s) dünyadan köçənə qədər orada qaldım. Daim onunla gəzərdim. Hətta həyat yoldaşlarının evinə qədər onun arxasına düşərdim.[2] Onun qulluğunda durardım. Onunla birlikdə

---

[1]Bax: İbni Sə"din "Təbəqat" və Əsqəlaninin "Əl-isabə kitabları

[2]Əgər bir adam bilsə ki, Peyğəmbər bir kişinin onun həyat yoldaşlarının evinə girməsindən narahat olardı, heç vaxt bu hadisəyə inanmaz."

döyüşər və onunla birlikdə həcc ziyarətinə gedərdim.[1] Onun hədislərini ən gözəl bilən mən idim. And olsun Allaha, məndən öncə onunla birlikdə olan kəslər mənim ondan heç vaxt ayrı düşmədiyimi görüb həzrətin hədislərini məndən soruşurdular. Məsələn: Ömər, Osman, Əli(ə), Təlhə, Zübeyr kimilər.

Bəlkə ağıllı və düşüncəli insanlar Əbu Hüreyrənin belə danışığından heyrətə düşərlər. Belə ki, onun danışdığı həqiqətdən çox-çox uzaqdır. Dərindən fikirləşən şəxslər çox gözəl bilir ki, Əbu Hüreyrənin o vaxtlar böyük səhabələr və alimlər qarşısında ağzını açmağa belə cür"əti olmayıb. Yalnız səhabələr dünyadan köçəndən sonra fürsət əldə edib. Şamın, İraqın, Misrin, Afrikanın, İranın və başqa ölkələrin fəth olunması nəticəsində səhabələr getdikcə azalıb. Fəth olunmuş torpaqların da müsəlmanları islamın ilkin başlanğıcından xəbərsiz olduqlarına görə Əbu Hüreyrə və onun silahdaşları belə sözlər danışmaq üçün cür"ətlənmişlər. Onlar (islamı təzə qəbul edən şəxslər) yeni bir dünyaya düşmüş kimi hər nə deyilsəydi qəbul edirdilər. Çünki, belə fikirləşirdilər ki, Əbu Hüreyrə və onun kimilər Peyğəmbər(s)-in sağ qalmış səhabələridir və onların vəzifəsi yeni dini təbliğ etməkdən ibarətdir və onlar etibarlı adamlardırlar. Bir tərəfdən Əməvi hökuməti də onların arxasında dayanaraq himayə edirdilər. Belə ki, hər ürəkləri istəyən sözləri deyirdilər. Hətta dəyərsiz, haram, batil, ağılsız söz olsa da belə. Əlbəttə bunlar hamısı onların istəkləri üzündən baş verirdi. Onlar bu vasitə ilə Allahın dininə qarşı çıxaraq xalqa zülm edib, Allahın malını öz aralarında bölüşdürmək istəyirdilər. Yalançı Əbu Hüreyrə də onlara sığınaraq yalan və xurafat düzüb qoşaraq onları şad edirdi. Bunun da müqabilində onun cibinə pul basıb qarnını doyuzdururdular. Əlxüsus Müaviyənin hakimiyyəti dövründə Əbu Hüreyrə onların danışan dili, şayiə yayanı və casuslarından biri olub.

"Vay o şəxslərin halına ki, öz əlləri ilə istədikləri kimi kitab yazıb sonra onun müqabilində bir az pul almaqdan ötrü "bu Allah tərəfindəndir" deyirlər. öz əlləri ilə təhrif olunmuş kitab yazdıqlarına görə vay onların halına. Qazandıqları şey üçün vay onların halına."[2]

Müslümün, Buxarinin və Əhmədin gördükləri işlərdən nə qədər heyrətləndiyimi bir Allah bilir. Necə olub ki, onlar qulağı, gözü bağlı Əbu Hüreyrənin sözlərinə inanıblar. Onlar deyə bilərlərmi Əli(ə), Ömər, Osman, Təlhə, Zübeyr harda Əbu Hüreyrədən bir sual soruşublar? Oyaq olandamı, yuxudamı və yaxud xəyallar aləmində soruşublar? Hansı hədisi soruşublar? Əbu Hüreyrədən başqa kim bu hekayəni nəql edib? Ümumiyyətlə hansı

---

[1]Onun dediyi təbirə görə daim Peyğəmbərlə həccdə olub, amma Peyğəmbər hicrətdən sonra yalnız bir dəfə həcc ziyarətində olub.

[2]"Bəqərə" surəsi, ayə:79

tərcüməçi və ya qeyri-ərəb tədqiqatçısı indiyədək o səhabələrdən birinin Əbu Hüreyrədən hədis rəvayət etməsini qeyd edib?[1] Onlar heç Əbu Hüreyrənin hədisinə qiymət vermişlər, ya yox?

Biz heç vaxt Əbu Hüreyrənin onların hüzurunda hədis söyləməsinə rast gəlmədik. Halbuki onlar əvvəldə qeyd etdiyimiz kimi onun hədislərini qeyri-məqbul sayaraq rədd etmişlər. Yenə də İbni Əbdul Birrin Əbu Hüreyrə barəsində yazdıqlarını davam etdirək. Belə ki, o demişdir: "Hədis əzbərləməkdə ən üstün səhabə Əbu Hüreyrə olmuşdur." Əbu Hüreyrənin öz sözündən başqa təsdiq edəcək bir sənəd yoxdur. O deyir: "Hədis mövzusunda mən ən bilikli idim. Biz bu sözləri öncədən də söyləmişdik. Orda deyir ki: "Bəzi vaxtlar Əbu Hüreyrə Peyğəmbər(s)-lə birlikdə olduğu zaman mühacir və ənsar orada olmayıblar." Bu sözlər də onun öz sözlərindən götürülmədir. Əbu Hüreyrə həmin hədisdə paltarın sərilməsindən söz açır ki, biz oradan kənara çıxaraq tədqiqatçıların diqqət nəzərinə çatdırırıq. Orada ki, demişdir: Peyğəmbər (s) şəhadət verib ki, Əbu Hüreyrə elmə və hədisə məftun olanlardandır. Bu da həmçinin onun öz sözlərindən götürülmədir. Orada ki, deyilir: "Peyğəmbər(s)-ə dedim: Ey Allahın elçisi! Hamıdan artıq sizin şəfaətinizdən bəhrələnəcək şəxs kimdir? Buyurdu: Güman etməzdim ki, sən məndən belə bir sual soruşarsan. O şəxs səndən özgə bir kəs ola bilərmi! Bu da sənin hədisə olan heyranlığın və məftunluğundan irəli gəlir."[2]

Əbu Hüreyrənin söylədiyi xurcun hekayəsini onun həyat tərzi barəsində yazan yazıçılar nəql etmişlər. Belə ki, onun bir xurcunu varmış və onun içərisində bir az xurma olub, amma buna baxmayaraq iki yüz dəfə bəlkə də çox o xurmadan yeyib hətta başqalarını da qonaq edib. Və ya başqa bir macərada evdən qaçmış qulu Allah yolunda azad etmişdir. Ya da başqa bir hekayə ki, Peyğəmbərin elmindən ikisi onun əlindədir. Birini açaraq göstərmiş o birisi isə bağlı qalmışdır və ya həzrət Peyğəmbər(s)-in onun özünü və anasını dua etməsi. Və ya onun su üzərində hərəkət edərək yol getməsi belə ki, nə ayağı islanıb, nə də paltarları. Bu söylənilənlərin hamısı gülməli olsa da bir tərəfdən də ağlanılmalıdır.

## *ON YEDDİNCİ FƏSİL*

---

[1]Hakim Əbu Hüreyrənin həyatını şərh edərkən ondan hədis rəvayət edənlərin adlarını çəkmişdir. Onların sayı təxminən 28 nəfərdir ki, Əli əleyhissəlam, ömər, Osman, Təlhə və Zübeyrin adlarına orada rast gəlmək olar. Ondan hədis söyləyənlər də ancaq behişt, cəhənnəm və əxlaq barəsindəki hədisləri söyləmişlər."

[2]Buxari bu hədisi Səid Məqbərinin vasitəsi ilə Əbu Hüreyrədən nəql etmişdir. Həmçinin ibni Həcər "Əl-isabədə rəvayət edir ki, üç il ki, mən Peyğəmbərlə oturub-durdum, məndən çox heç kim onun hədislərinə vurulmamışdı.

İmam Əhməd Məhəmməd ibni Ziyadın vasitəsilə Əbu Hüreyrə[1] barəsində belə deyir: Müaviyənin hökuməti zamanı Mədinə şəhərinin valisi Mərvan idi. O hərdən hakimiyyəti Əbu Hüreyrəyə tapşırardı. Bu zaman, Əbu Hüreyrə ayaqlarını yerə döyərək deyərdi: Yol verin, əmir gəlir, əmir gəlir! (Burada o özünə işarə edirdi.)

İbni Qüteybə Dinəvəri özünün "Məarif" kitabında[2] Əbu Rafedən Əbu Hüreyrənin həyatı barəsində belə nəql edir ki, Mərvan hərdən Əbu Hüreyrəni Mədinədə öz yerində hakim təyin edərdi. Belə hallarda Əbu Hüreyrə ulağın üzərinə palan atıb, üstündə əyləşərdi. Adətən onun başında xurma lifindən toxunmuş bir papaq olardı.

Hər kəsin yanına çatdıqda: "Yol verin! Əmir gəlir" deyərmiş. Bəzən də gecələr uşaqlar oynayan zaman özünü onların arasına atıb oynatdıqları əşyanı tapdalayardı....[3]

Əbu Nəim[4] Sə"ləbə ibni Malikdən nəql edir: Əbu Hüreyrə Mərvanın canişini olduqdan sonra kürəyində bir qucaq odun bazara tərəf yollandı. Bazara tərəf yollanarkən mənə belə dedi: Ey Malikin oğlu! Yol ver. Dedim: Bu qədər bəsdir. Cavabında dedi: Çiynində odun aparan əmirə yol ver.

Həmin Əbu Nəim[5] Əhməd ibni Hənbəlin vasitəsilə Osman Şəhamdan, o da Fərqəd Səbxidən nəql edib ki, Əbu Hüreyrə Kə"bə evinin ətrafına dolanaraq deyirdi: Vay olsun mənə bu qarınla, haçan onu doldururam mənə əziyyət verir, boş saxlayanda da məni təhqir edir."

Zəməxşəri "Rəbiul-Əbrar" da deyir: Əbu Hüreyrə dua edərmiş ki, "ey Allahım mənə yaxşı çeynəyən, parçalayan dişlər və yaxşı yeməyi həzm edən mədə ver."[6]

Yenə "Rəbiul-Əbrar"da[7] yazılıb ki, Əbu Hüreyrə dovğanı çox sevərmiş, ona görə də onu Müaviyə ilə yeyərdi. Ancaq namazını Əli(ə)-ın arxasında dayanıb qılarmış. Ondan bu işlərinin mahiyyətini soruşduqda deyərmiş: "Müaviyənin

---

[1]İbni Hənbəl: "Müsnəd", 2-ci cild, səh.43."

[2]İbni Quteybə Dinvəri, "Əl-Məarif", 94-cü səh.

[3]İbni Sə"d, "Təbəqat", 4-cü cild, ikinci hissə 60-cı səh.

[4]Əbu Nəim İsfəhani, "Hilyətül-övliya" 1-ci cild, səh.382."

[5]Yuxarıdakı mənbə."

[6]Bunu "Rəbiul-Əbrar"dan nəql etmişdir. Şeyx Abbas Qumi də bunu nəql etmişdir.

[7]Şeyx Abbas Qumi "Əl-kuna vəl-əlqab", Əbu Hüreyrənin həyatı.

dovğası yağlıdır, amma Əli(ə)-ın arxasında qıldığım namaz düzgündür.” Buna görə onu “Şeyxül-Məzirə” yəni dovğa şeyxi adlandırırdılar.[1]

Əbu Osman Nəhəndi deyir: Əbu Hüreyrə bir dəstə adamla səfərə çıxmışdı. Bir məhəlləyə çatdıqdan sonra nahar süfrəsi saldılar. Əbu Hüreyrə bu zaman namaz qılırdı, onu da yeməyə dəvət etdikdə dedi ki, oruc tutmuşam. Lakin onlar süfrənin ətrafından qalxan zaman o yeməyə başladı. Oradakılar heyranlıqla Əbu Hüreyrəni çağırmağa göndərdikləri şəxsə baxmağa başladılar, həmin şəxs soruşdu: Nəyə görə mənə belə baxırsınız? And olsun Allaha ki, özü mənə dedi oruc tutmuşam. Əbu Hüreyrə bunları eşitdikdə dedi: O doğru söyləyir. Mən Peyğəmbər(s)-dən eşitmişəm: Hər kəs ramazan ayında və hər ayın üç gününü oruc tutarsa bütün il boyu oruc tutmuş şəxsin savabını qazanar. Mən də ona görə yedim ki, bu ayın əvvəlki üç gününü oruc tutmuşdum. Bu rəvayəti Əbu Nəim nəql etmişdir.[2]

Buxari[3] Məhəmməd ibni Sirindən nəql edir ki, Əbu Hüreyrənin yanında oturmuşduq. O kətan parçadan çox gözəl paltar geyinmişdi. Burnunu əli ilə tutaraq bizə dedi: Bəh-bəh! Heç vaxt yadımdan çıxmaz. Bir gün Peyğəmbər(s)-in minbəri ilə Ayişənin otağı arasında huşumu itirib yerə sərildim. Kimsə məni dəli zənn edərək, ayağını mənim boğazıma qoydu, amma mən dəli olmamışdım. Sadəcə olaraq aclığın sonsuz həddi məni bu hala salmışdı.

“Lisanul-ərəb”də “s-d-r” bölümündə onun bu sözləri nəql olunmuşdur. Həmçinin Əbu Kəsirin oğlu Yəhyanın rəvayət etdiyi hədisdə deyir: “Südr” kiçik şeytanlıq deməkdir. Yəni şeytanın kiçik işlərindən ibarətdir.[4]

“Həyatul-həyəvan” kitabında Dəmiri “əqrəb” bölümündə Əbu Hüreyrənin şahmat oynamasına işarə edərək deyir. Sulukinin dediyinə görə “Əmirəl-Möminin Ömər ibni Xəttab, Əbu Busr və Əbu Hüreyrə şahmat oynamağa icazə vermişdilər. Sonra davam edərək deyir: Fiqh kitablarında Əbu Hüreyrənin şahmat oynamağı haqqında rəvayət nəql olunub. Acuri Əbu Hüreyrədən nəql

---

[1]Məzirə elə dovğa deməkdir. Bu hekayədən məlum olur ki, “Siffeyn” müharibəsində olub. Bu döyüşdə riyakarlar kimi ikiüzlü olmuşdur. O bu rəftarı ilə istəyirmiş ki, hər hansı bir tərəf qələbə çalsa ona tərəf gedə bilsin. Suriya ilə İraq arasında bir yer var ki, Siffinə yaxın bir yerdir və “Əbu Hüreyrənin dayandığı yer” kimi məşhur olub. Deyilir ki, Əbu Hüreyrə bəzi vaxtlar Əli əleyhissəlam ilə namaz qılar, amma yeməyi Müaviyə ilə yeyərdi. Ancaq döyüş başlayanda dağa çəkilərdi. Ondan bu rəftarı barədə soruşanda dedi: Əli elmlidir. Müaviyə isə yağlıdır, amma Əsləm dağı təhlükəsiz yerdir.

[2]“Hilyətul-övliya”, 1-ci cild, səh.385, Əbu Hüreyrənin həyatı.

[3]“Səhihi-Buxari”, 4-cü cild, səh..157; “Hilyətul-övliya”, 1-ci cild, səh.379.

[4]“Lisanul-ərəb”, 6-cı cild, səh.30, s-d-r bölümü.

edir ki, Peyğəmbər buyurub: "Nərd və şahmat oynayanların yanından ötəndə onlara salam verməyin."[1]

### *On səkkizinci fəsil*

### *Əbu Hüreyrənin vəfatı və onun varisləri*

Əbu Hüreyrə Əqiqdə[2] öz sarayında dünyadan köçmüşdür. Osman ibni Əffanın oğlanları Əbu Hüreyrənin sağlığında onların atalarına[3] etdiyi hörmətə görə onun cənazəsini Mədinə şəhərinin Bəqi qəbiristanlığına qədər çiyinlərində aparmışlar. Bu vaxt Vəlid ibni Ütbə Mədinə şəhərinin hakimi təyin olunmuş, Mərvan isə artıq Mədinənin hakimiyyətindən kənarlaşdırılmışdı.[4]

Vəlid ibni Ütbə Əbu Hüreyrəyə ehtiram əlaməti olaraq əsr namazını qıldıqdan sonra ona meyyit namazı qılmışdır. Həmin vaxtda İbni Ömər və Əbu Səid Xidri kimi görkəmli şəxsiyyətlər də camaatın arasında olmuşlar.[5]

Vəlid əmisi Müaviyəyə Əbu Hüreyrənin ölüm xəbərini çatdırdı. Müaviyə Vəlidə yazdı ki,[6] bax gör onun yaxın adamlarından kimləri qalıbsa, onlara on min dirhəm pul ver. Onlarla ehtiramla davran, çünki, Əbu Hüreyrə Osmanın ağır günlərində onunla birlikdə evində olub.

Əbu Hüreyrə hicrətin əlli yeddinci ilində, yetmiş səkkiz yaşında dünyadan köçmüşdür. Bəziləri onun vəfatının əlli səkkizinci, bəziləri də əlli doqquzuncu ildə baş verdiyini qeyd etmişlər. Biz onun iki övladı olduğunu bilirik. Mühərrir ibni Əbu Hüreyrə adında bir oğlu və kitablarda adı çəkilməyən bir qızı olub. Əbu Hüreyrə ona deyərmiş ki, qızım! De ki, əgər atam məni qızıla bürüsə odun hərarətindən qorxar. Həmçinin Mühərririn Nəim adlı bir oğlu olub. O da deyərmiş: "Babam Əbu Hüreyrənin bir sapı varmış, onun min dənə düyünü olub. Hər gecə düyünlərin sayı qədər zikr edərmiş, amma yata bilməzmiş."[7]

Yenə ondan rəvayət edilir: "Bir şəxs Peyğəmbər (s)-ə dedi: Nəyin ticarətini etsəm daha yaxşı olar? Buyurdu: Parça sat. Gözəl paltarlar sat. Çünki belə şəxslər daim gözəl və xoşbəxt olmasını istər." İbni Sə"d "Təbəqat" kitabında

---

[1]Dəmiri bu hədisin sənədini zəif bilir. Bütün imamlar həmçinin Malik Əhməd və Əbu Hənifə onu haram bilmişlər."

[2]İbni Həcər Əsqəlani "Əl-isabədə həmçinin ibni Əbdül-Birr "Əl-istiy"ab"da və Hakim "Müstədrək"də rəvayət etmişlər.

[3]İbni Sə"d, "Təbəqat" 4-cü cild, ikinci hissə səh.63."

[4]Bax:"Əl-istiy""ab", "Əl-isabə, "Təbəqat", "Müstədrək".

[5]Əvvəldəki mənbələr

[6]"Müstədrək", "Təbəqat", "Əl-isabə və başqa kitablar.

[7]"Hilyətul-övliya", 1-ci cild, səh370. Əbu Hüreyrənin qızı barəsində izah və Mühərrir barəsində şərh.

Mühərririn həyatı barəsində məlumat vermiş və onun Dusdan olduğunu bəyan etmişdir.[1] O da Ömər ibni Əbdül-Əzizin xilafəti zamanı dünyadan köçmüşdür. Onun barəsində məlumat çox azdır[2]

***Kitabın yekun fəsli***

Kitabı Peyğəmbər(s)-in Əbu Hüreyrə haqqında buyurduğu iki kəlmə ilə sona çatdırırıq O buyuruduğu bu hədislərdə öz ümmətini Əbu Hüreyrə kimi ünsürlərlə tanış etmiş və onlara belə nalayiq insanlardan uzaq olmağı tövsiyə etmişdir. Bu məzmunda nəql olunmuş birinci hədis üç nəfərin: Əbu Hüreyrə, Rihal ibni Ənfəvə və Fərat ibni Həyyan barəsindədir. Onlar Peyğəmbər(s)-in məclisini tərk edərək çölə çıxmışdılar. Peyğəmbər (s) onlara işarə edərək buyurmuşdur:[3] ***"Sizlərdən hər birinizin ağzınızdakı dişlər cəhənnəm odunda Ühüd dağından böyük olacaqdır*** (yəni axirətdə böyük və rüsvay edici əzaba düçar olacaqsınız.)"

Əbu Hüreyrə və Fərat bu əhvalatdan sonra dedilər:[4] "Bundan belə bizim üçün heç bir əmin-amanlıq yoxdur."

Rihal ibni Ənfəvə isə sonralar mürtəd oldu və Müsəyləmə Kəzzab ilə birlikdə öldürüldü. Onlar hədisi elə yozmaq istəyirdilər ki, hər üçünə yox, yalnız birinə aid olsun. O həmin Rihaldır ki, Müsəyləmə ilə birlikdə həmrə"y olub mürtədləşərək dindən çıxdı və onunla birlikdə də öldürüldü. Məlum məsələdir ki, onlar bu yozumla həqiqəti dəyişmək (boğmaq) və insanları haqq yoldan azdırmaq məqsədi ilə həyata keçirmək istəmişlər.

Çünki hədis (məna baxımından) ümumiyyət təşkil edir. Aşağıdakı ayələrə diqqət yetirin:

***"Məgər sizlərdən biriniz istəməzmi ki, müxtəlif meyvələrlə dolu olan bir bağçası olsun?!"***[5]

***"Onlardan birinə Rəhman olan Allaha isnad etdikləri ilə müjdə versən."***[1]

---

[1]İbni Sə"d, "Təbəqat" 5-ci cild, səh.188.

[2]Əbu Hüreyrə hicrətin doqquzuncu ili, həccdə hakim olması barəsində bir-biri ilə ziddiyyət təşkil edən iki hədis söyləmişdir. Onun birini oğlu Mühərrir, o birisini isə Həmid Əbu Hüreyrədən söyləmişlər. Bu hədislərin hər ikisi "Səhihi-Buxari"də və "Səhihi-Müslüm"də dərc olunub. Biz də on birinci fəsildə on səkkizinci hədisi rəvayət edib ona şərh yazmışıq.

[3]Seyf ibni ömər Əhməd ibni Fərat ibni Həyyanın vasitəsi ilə özünün "Əl-Futuh" adlı kitabında bu mətləbə işarə etmişdir. "Əl-istiy"ab" və "Əl-isabənin müəllifləri də Fəratın şərh-halında bu mətləbə işarə etmişlər.

[4]"Əl-istiy""ab" və "Əl-isabə, Fəratın şərh-halına müraciət et.

[5]"Bəqərə" surəsi, ayə:266

***“Onlardan hər biri min il ömür sürmək istəyər.”***
***“Onlardan birinə qızı olduğu müjdə verildikdə qəzəblənib üzü qapqara qaralar.”[2]***
Və bu kimi sair Qur”an ayələri.

Ərəblər bir kəsi tərifləyərkən deyərlər:
*Onların əllərindən qızıl yağır (yəni çox bərəkətlidir).*
*Onlardan birinin qəlbi sevgi və məhəbbətlə doludur.*
Danlandıqları zaman isə deyərlər.
*Onların üzlərindən üzlülük yağır.*
*Onlardan birinin qəlbi daşdan da bərkdir.*

Göründüyü kimi yuxarıdakı ayə və misallarda (əhəd) sözü ümumiyyət mənası daşımışdır. Qeyd etdiyimiz hədisdə həmən məna daha çox nəzərə çarpır. Əgər Həzrəti Peyğəmbər (s) onlardan birini nəzərdə tutsaydı gərək hər hansısa bir əlamət və ya nişanə ilə həmən şəxsi başqalarına tanıtdıraydı və bunu gizli saxlamaq və ya təxirə salmaq o həzrətə yaraşmayan bir işdir. Çünki, belə bir söz demək onlardan günahsız olan şəxslərin haqlarının tapdanması ilə nəticələnərdi. Belə ki, insanlar ümumi halda onlardan birinin günahkar olduğunu amma o şəxsin konkret şəkildə kim olduğunu bilməsəydilər onların hər üçü etibar və sədaqət baxımından cəmiyyətin nəzərindən düşər və cəmiyyətdə mövcud olan ictimai qanunlardan məhrum olardılar. Bundan belə kimsə onlara (istər ibadi məsələlərdə, istərsə də əqidəvi) müraciət etməz və müsəlmanların ümumi işlərində onlarla məşvərət etməzdilər. Necə ki, ağlın hökm etdiyi qanuna əsasən bütün insanlar onlardan uzaqlaşmalı idilər.

Bu nəzəriyyəni üsul alimləri də sübuta yetirmişlər. Burada belə bir sual meydana gəlir: Əgər o üç nəfərdən biri cəhənnəm əhlindən olacaqdırsa bəs o iki şəxsin günahı nə idi ki, onun günahlarına qurban olaydılar? Aqil və saf düşüncəli bir şəxsin günahsız insanlar haqqında belə bir hökm verməsini qəbul etmək olarmı? Elə bir hökm ki, insanlar onları ömürlərinin sonunadək cəhənnəm əhli hesab edər və onlarla ictimai və siyasi məsələlərdə məşvərət etməyi özlərinə ar biləydilər! Əsla və əbəda! Əgər onların hər üçü eyni xüsusiyyətə malik olmasaydılar Həzrəti Peyğəmbər (s) mütləq həmən günahkar şəxsə işarə edər və onu hamıya tanıtdırardı. Məsələn deyərdi: “Bu şəxsin (adını çəkmək şərti ilə) dişləri cəhənnəmdə Ühüd dağından böyük olacaq.” Bəlkə bəz”iləri belə fikirləşirlər ki, Həzrəti Peyğəmbər (s) Rihalın adını çəkmədən ona işarə etmiş, amma biz buna yaxşı diqqət yetirməmişik.

Biz bu sualın cavabında deyirik.

---

[1]“Zuxruf” surəsi, ayə:17
[2]“Nəhl” surəsi, ayə:58

Bunun kimdənsə gizli qalmasını bir təhər başa düşmək olar, amma Rihala böyük ehtiyacları olan Əbu Hüreyrə və Fərat necə? Onlar da bundan xəbərsiz idilərmi? Bir halda ki, bu iki nəfər onun mürtəd olmasından həzər edərdilər.
Bəs bu hansı məsələ idi ki, hətta o iki şəxsdən (Əbu Hüreyrə və Fərat) belə gizli qalmışdı. Rihal öldürüldükdən sonra onlar şükr səcdəsi edib dedilər: Peyğəmbər(s)-in bu sözündən sonra Rihal öldürülənə qədər biz özümüzə qarşı heç bir əhəmiyyət hiss etmirdik.[1]

O zaman bu məsələ bəyan edilsəydi də, edilməsəydi də məxfi və gizli qalacaqdı və heç bir çətinliyi həll etməyəcəkdi. Çünki, icmali elm məhsurə şübhə[2] olarsa hər iki halda olduğu kimi qalaraq lazımi şəkildə və istənilən qaydada ona əməl edilməlidir.
Bəziləri deyə bilər ki, şübhə və icmal Peyğəmbər(s)-in buyurduqlarında olduğu zaman bu hadisə hələ baş verməmişdi və yalnız Rihal Müsəyləməyə qoşulduqdan və öldürüldükdən sonra Peyğəmbər(s)-in dediklərini başa düşüb həmən şəxsin kim olduğunu bildilər. Bütün bunları başa düşdükdən sonra icmal və şübhə aradan gedərək hər bir şey məlum və aşkar oldu. Cavabında deyirik:

1-Peyğəmbər (s) buyurmuşdu: "Sizlərdən birinizin dəyirman dişi cəhənnəm odunda yanacaqdır." (Yəni sizlərdən biriniz cəhənnəm odunun böyük və dözülməz əzabına düçar olacaqdır.) Göründüyü kimi hədis dəqiq məna daşıyır və zehndə ilk növbədə elə həmən məna canlanır. Belə ki, "Nəhl" surəsinin 58-ci ayəsində deyilir:
"Onlardan birinə qızı olduğu müjdə verildikdə..." Buradan da həmən mənanı əldə etmək olur. Deməli hədisin mətnində (məna baxımından) heç bir nöqsan və icmal yoxdur.
Peyğəmbər(s)-in bu bəyanatı bu üç nəfər şəxsə şamildir, çünki onların necə şəxsiyyət olduqları hamıya, xüsusilə Peyğəmbər(s)-ə yaxşı bəlli idi.

2-Ehtiyac duyulduğu zaman mühüm bir bəyanatı deməmək Peyğəmbər(s)-in əxlaqından uzaq olduğu kimi, onu təxirə salmaq da o həzrət üçün mahal və

---

[1]"Əl-İstiy""ab" və "Əl-isabə, Fəratın şərh halı

[2]Məhsurə şübhə–yəni şübhə olunan ehtimallar məlum və məhduddur. Məsələn, üç stəkan sudan birinin murdar olduğunu bilsək, amma onun xüsusi və konkret şəkildə hansı olduğunu müəyyən edə bilməsək, gərək hər üçündən ehtiyat edək. Yəni bu üç stəkanın birinin murdar olmasına icmali (ümumi) halda yəqinimiz vardır. Əqlin hökmü ilə də murdar şeyi içməməyimizə yüz faizlik əmin olmaq üçün hər üçündən uzaq olmalıyıq.

Adları qeyd olunan şəxsləridən birinin cəhənnəm əhli olması barəsində icmali elmimiz var, yəni həzrət onlardan birinin (şəxsən təyin olunmadan) cəhənnəm əhli olmasını bəyan edir, biz də həmin şəxsin bəlasına düçar olmamaq üçün hər üçündən ehtiyat edirik. *Mütərcim.*

qeyri-mümkündür. Diqqət yetirsəniz görəcək-siniz ki, Peyğəmbər (s) bu bəyanatı ehtiyac duyulduğu zaman elan etmişdir. Onlar islam dinini qəbul etdikdən sonra ilk növbədə yalan hədislər nəql etməyə, yalan yerə şəhadətlər verməyə, başqalarına pişnamaz olmağa, xəlifələrin (müxtəlif məntəqələrdə) canişinləri olmağa, hakimiyyətə çatmağa və islamın ictimai hüquqlarından istifadə etməyə cəhd göstərmişlər. Əgər onları bu işlərdən çəkindirmək vacib olmasaydı Peyğəmbər (s) təxirə salmadan belə bir bəyanat verməzdi.

3-Fərat ibni Həyyan müsəlmanlar arasında fəaliyyət göstərmiş müşriklərin xüsusilə Əbu Süfyanın casuslarından biri idi. "Əl-istiy"ab" və "Əl-isabənin müəllifləri öz əsərlərində bu mətləbə işarə edərək deyirlər: Müsəlmanlar Peyğəmbər(s)-in verdiyi bu əmrdən sonra onları öldürmək istədikdə islamı qəbul etməklə canlarını qurtara bilmişlər. Peyğəmbər (s) buyurdu:[1] "Mən sizlərdən bəzilərinizi islama xatir öz ixtiyarınıza buraxıram. Bu şəxslərdən biri də Fərat ibni Həyyandır. Axı necə olur ki, Rihalın mürtəd olması (dindən çıxması) bu hökmün ona şamil olmasına dəlalət edə bilir, amma Fəratın islamı zahirən qəbul etməsi və ya Əbu Hüreyrənin barəsindəki "Cəhənnəm odunu özü üçün məkan təyin etmişdir (seçmişdir)" bu məsələyə dəlalət etməyir?!

### *İkinci hədis*

***Bu hədis Səmrət ibni Cündəb Fəzari, Əbu Məhzurə ibni Cəməhi və Əbu Hüreyrəyə şamildir.***

Hədisdə deyilir: "Sizlərdən hər biriniz başqalarından gec ölərsə cəhənnəm oduna düçar olacaqdır." Peyğəmbər (s) özünün belə bir hikmətli üsulu ilə münafiqləri müsəlmanların işlərinə dəxalət etməkdən uzaqlaşdırmışdır. Həzrət onların qeyri-insani əxlaq və xasiyyətləri ilə tanış olduqdan sonra müsəlmanlarda onlara qarşı kin və nifrət yaratmaq istəyirdi. Peyğəmbər(s)-in əsas məqsədi öz ümmətini onların xətərindən agah etmək və idarə (hakimiyyət) işlərindən uzaq saxlamaq idi. Bu səbəbdən də onlardan axırda öləni cəhənnəm odunun əzabı ilə xəbərdar etdi. Necə də gözəl və məntiqli sözdür!

Həzrəti Məhəmməd (s) bu işin onların hər üçünə eyni səviyyədə şamil olduğunu bəyan etdi və bu hədisdə onların heç birinin nə adına, nə də hər hansısa bir əlamətinə işarə etmədi. Bu məsələni müsəlmanlara bəyan edib dünyasını

---

[1]"Əl-istiy"ab" və "Əl-isabə, Fəratın şərh-halı həmçinin "Əl-Mustədrək", 4-cü cild, səh.366 kitabul-hüdud. Burada onun haqqında deyilir: Fərat Əbu Süfyanın casuslarından və onunla əhd-peyman bağlamış şəxslərdən biri olmuşdur. Peyğəmbər həmən şəxsin qətlinə dair göstəriş vermişdi. Fərat ənsarın yanından keçərkən onlara dedi: Mən müsəlmanam. Onlardan biri Peyğəmbərə dedi: Ya Rəsuləllah! O deyir ki, mən müsəlmanam. Buyurdu: "Sizin içərinizdə elə şəxslər vardır ki, onları öz imanlarının öhdəsinə buraxaram. Fərat ibni Həyyan da onlardan biridir." Zəhəbi də öz kitabında bu hədisin düzgünlüyünü etiraf etmişdir.

dəyişdi. Bu müddət ərzində onun ümmətinin aqil və alim şəxsləri, onları ədalət və etimad şərt olunan işlərdən mümkün qədər uzaq saxlamağa cəhd göstərirdilər. Məsələn ,ictimai hüquq, şəhadət və mühüm məsələlərdə onların heç bir fəaliyyəti və təsiri olmadı. Onların gördükləri işlər (yəni bu üç nəfərdən uzaqlaşmaq) tamamilə düzgün və məntiqli idi. Çünki bu məhsurə şübhədir və insan əqli belə bir vəziyyətdə hökm edir ki, bütün şəkk və şübhədən (burada həmən üç nəfər şəxsdir) mümkün qədər uzaq olmaq lazımdır. Əgər o üç nəfər şəxsi (eyni səviyyədə) müsəlmanlardan uzaqlaşdırmaq üçün xüsusiyyətlərini bəyan etmək vacib olmasaydı Peyğəmbər (s) onu dərhal və heç bir məcaz işlətmədən bəyan etməzdi. Bu məsələni kimdənsə gizli saxlamaq isə müsəlmanların ictimai haqlarını tapdalamaq demək olardı. Belə bir xüsusiyyət isə Həzrəti Məhəmməd(s)-in əxlaqı ilə müqayisədə mahal və qeyri-mümkündür.

Bəziləri deyə bilər ki, nəql olunmuş bu hədisdə bir zamanlar bəzi əlamət və nişanələr olmuşdur və zaman keçdikcə biz bu əlamətlərdən tədriclə məhrum olmuşuq. Cavabında deyirik ki, əgər belədirsə bəs nə üçün o üç nəfər şəxsin hər biri bu bəyanatı eşitdikdən sonra təşviş və iztiraba düşmüşlər? Bir qədər bundan əvvəl qeyd etdik ki, Peyğəmbər əvvəlcədən bəyan etməsəydi və ya onlardan birinin adını (və ya əlamətlərini) çəksəydi də hər iki vəziyyətdə bizim üçün heç bir fərqi olmayacaqdı və (hər iki vəziyyətdə) eyni nəticə əldə edəcəkdik. Çünki hər hansı bir əlamətin (nişanənin) bizə bəlli olması və ya bizdən gizli olması həm elmi-icmali (xülasə) şəkildə qalmasına və həm də şübhənin məhsurə şəklində qalmasına səbəb olacaqdı, Belə olduqda gərək şübhənin ehtimal verilən hər bir tərəfindən uzaq olaq.

Deyə bilərsiniz ki, Peyğəmbər(s)-in söylədikləri icmali (xülasə) xarakter daşıyırdı. Çünki, üç nəfərdən ikisi hələ dünyadan köçməmişdi. Bəs onlardan ikisi dünyadan köçdükdən sonra necə? Peyğəmbər (s) də bu nöqtəyə işarə etmişdir ki, sizin axırıncı ölənininiz cəhənnəm əhlindən olacaqdır. Buradan belə bir nəticəyə gəlirik ki, Peyğəmbər(s)-in nəzərdə tutduğu şəxs həmən axırıncı şəxsdir və bununla da hər bir icmal və nöqsan həll olmuş olur.

Cavab veririK:

Əvvəla dedik ki, Peyğəmbər (s) üçün ehtiyac duyulduğu zaman hər hansı bir mətləbi gizlətmək və ya bəyanı təxirə salmaq mahal və qeyri-mümkündür. Sonra isə dedik ki, Peyğəmbər (s) hədisi ən münasib anda və ehtiyac duyulduğu zaman bəyan etmişdir. Yəni elə həmin zaman hətta ondan öncə xəbərdarlıq edib. Hətta işləri əldə etmək üçün etibari ədalətə ehtiyac duyulurdu fərz etsək, onların üçü də etibarlı olub ki, onlar o yerdə bu işi görüblər. Əgər Peyğəmbər (s) onların üçünün də müsəlmanlara hakim olmalarını istəməsəydi mümkün deyildi ki, onların ikisinin iradəsiz olmasını sübut etmək üçün bir işarə belə etməmiş olsun. Və bu məsələlərin həllini gələcək günlərin öhdəsinə buraxsın. O iki nəfər dünyadan köçənə qədər xalq onları etibarsız kimi tanısaydı nələr ola bilərdi?

Peyğəmbər(s)-ə yaraşan xüsusiyyət deyil ki, hər hansı bir insanın həyatının bir anını belə hədərə versin! O ki, qaldı iki nəfərin həyatını (ömrünü) bütün xalqın gözündən sala və bu vəziyyətdə dünyadan köçələr. Və həzrətin sözü o iki günahsızın ölümü ilə digərlərinə sübut olmaya!! Mümkün deyil! Mümkün deyil!

İkincisi budur ki, Allah özü şahiddir, biz bütün bacardığımızı onların hansının o birisindən gec ölməsini öyrənmək üçün sərf etdik. Sonunda buna nail ola bilmədik. Çünki, onların ölümünün tarixi barəsində verilən məlumatların heç biri düzgün deyil. Bütövlükdə bu dəlillərə istinad etmək etibarsızdır. Dəqiq düşünən şəxslər də çox gözəl bilirlər ki, ziddiyyət və əks nəzər meydana gəldikdə belə şeylərə istinad etmək olmaz.[1]

Üçüncüsü budur ki:

***"Sizin əziyyətə, məşəqqətə düşməyiniz ona (Peyğəmbərə) ağırdır, o sizin iman gətirməyinizi çox istəyir, möminlərə şəfqətli və mərhəmətlidir."***

Belə bir əxlaq sahibi olan Peyğəmbər (s) necə mümkündür ki, o cür söz demiş ola. (Yəni əgər sizin ikinizdən hər hansı biri gec vəfat etsə cəhənnəmə düşəcək.) Mümkün deyil ki, o belə sözü deməklə özünün qədir-qiymətini dəyərsiz etsin. Çünki,

***"Həqiqətən o, böyük əxlaq sahibidir."***

Onun hər kəsə bu sözlərlə tənə vurması da mümkün deyil. Əgər o üç nəfərdən biri xeyirli və ya zərərsiz olsaydı heç də belə təbirlə onlara işarə etməzdi. Deməli, bu iş Allahın istəyi və xalqın xeyri üçün vəhy nazil olduqdan sonra baş vermişdir.

*"O həvayi-nəfs üzündən danışmır."*

O zaman bu üç nəfərin barəsində dediyimiz qətiyyətli söz hamıda qorxu hissi oyadır. Əbu Hüreyrə barəsində bunu bilmək kifayətdir ki, o cəhənnəm odunu özü üçün məkan təyin etmişdir. Və Səmrət ibni Cündəb barəsində bunu bilmək kifayətdir ki, o bir çox namaz qılan və zəkat verən müsəlman şəxslərin qanını tökmüşdür.[2] O, aşkarda cəmiyyətin içində şərab satar,[3] ənsarı incidər, Peyğəmbər(s)-ə itaət etməz, onun qarşısında yekəxanalıq edərdi. Bununla belə

---

[1]Burada ziddiyyət ona görədir ki, bəziləri Səmrətin ölümünü 58-ci il, Əbu Hüreyrənin vəfatını 59-cu il söyləmişlər. Bu məlumat Əbu Hüreyrənin 57-ci ildə ölümünü göstərən xəbər ilə qüvvədən düşmüşdür. Başqa deyilənlər də o üç nəfərin ölümü barəsində elə belədir. Amma başqa bir yerdə bu üç nəfərin ölümünü 59-cu ildə baş verdiyini yazmışlar. Halbuki hansı ayda və hansı gündə baş verdiyi məlum deyil.

[2]Əlavə məlumat üçün Həmidinin "Ən-nəhc" 1-ci cild, səh.363-ə müraciət edə bilərsiniz, həmçinin "Tarixi-Təbəri" və "Əlfusul-mühimmədə 50-ci illərin hadisə-lərini şərh etmişdir.

[3]"Müsnəd" (İmam Əhməd Hənbəl) 1-ci cild, səh.25 ömər ibni Xəttabın hədisi."

Peyğəmbər (s) onu sülhə, rahatlığa dəvət edərdi. Onun imanı olmaması üzündən[1] Peyğəmbər (s) ona behişt müjdəsi verməyi rədd etmişdir. Hətta o Peyğəmbər(s)-i xar və hörmətsiz etmək üçün onun dəvəsinin boynunu qıraraq[2] məğrurluq etmişdir. Bunlar hamısı onun çox pis adam olmasının bariz nümunəsidir.

Amma Əbu Məhzurə barəsində onu bilmək kifayətdir ki, o Məkkənin ipə-sapa yatmayan adamlarından olub və Məkkənin fəthindən sonra islamı qəbul edib. Hüneyn savaşından sonra qalibiyyətlə geri dönən Peyğəmbər(s)-in göstərişləri onun çox acığına gəlirdi. Peyğəmbər(s)-in azan verənini uca səslə lağa qoyub yamsılayardı. Peyğəmbər(s)-in ona verdiyi gümüş pul kisəsini, hətta Hüneyn müharibəsində əldə olunan qənimətləri Məkkənin islama boyun əyməyən şəxslərinə payladı.

Peyğəmbər(s)-in düşmənlər və riyakarlar qarşısında belə bir güzəştli rəftarı, onların dəstə-dəstə islam dinini qəbul etməsinə bais oldu.

Hamı, o cümlədən Əbu Məhzurə və ona bənzər adamlar məcbur oldular ki, islamı qəbul etsinlər. Məkkə şəhərindən kənara çıxmadı və elə oradaca da vəfat etdi. Və Allah-təala onun barəsində daha gözəl bilir.

İbni Əbül-Birr Peyğəmbər(s)-in qorxutması ətrafında "İstiy"ab" kitabında Səmrət barəsində belə deyir: Səmrət 58-ci ildə Müaviyənin hakimiyyəti zamanı Bəsrə şəhərində iflic xəstəliyini müalicə etmək üçün qaynar su ilə dolu olan qazanın üzərində əyləşdi. Birdən qaynar suyun içinə düşüb öldü. Yazıçı davam edərək deyir: Bu hadisə doğrudan da Peyğəmbər(s)-in dediyi sözün ona, Əbu Hüreyrəyə və üçüncü bir şəxsə aid olduğunu çatdırır. Həzrət orada belə buyurub: "Sizlərdən kim axırıncı ölərsə atəşdə yanacaqdır."

Mənim fikrimcə Peyğəmbər(s)-in sözünü belə təfsir etmək (yəni atəş sözünü adi atəşlə müqayisə etmək) heç də düzgün deyil. Hətta o üç şəxsin hər biri tez ölməyi arzulayırdı. Belə ki, sübut olunduğu kimi onlardan hər biri o biri ikisindən tez ölmək arzusunda idi. O zaman da hələ məlum deyildi ki, Səmrət doğrudanmı onların hər ikisindən sonra vəfat edib ya yox?

Əlǝlxüsus Əbdül-Birr onun ölümünü 58-ci il bilir. Çünki Vaqidinin, ibni Nəmirinin, ibni Übeydin, ibni Sirinin, ibni Cəririn, və başqalarının dediyinə görə Əbu Hüreyrə 59-cu ildə vəfat etmişdir. Əbu Məhzurə də həmin ildə dünyadan köçmüşdür. Hətta bəziləri Əbu Məhzurənin vəfatının 79-cu ildə olduğunu qəbul

---

[1]"Kitabi-Kafi", ticarət bölümü, zirar fəsli; həmçinin "Mən la yəhzuruüul-fəqih" kitabında yazılıb: "O Peyğəmbərlə razılaşmadı, behiştdə xurma bağına razılıq vermədi. İbni Əbil Hədid "Nəhcül-Bəlağə"-nin şərhi, 1-ci cild, səh363, Səmərətin həyasızlıqları barəsində söhbət gedən bölüm.

[2]"Rözətul-Kafi"

etmişlər. İbni Kəlbi aşkar deyir ki, Əbu Məhzurə Səmrətdən sonra dünyasını dəyişib. Nəticədə ibni Əbdül Birrin bu sözdən "sizdən biriniz digər ikinizdən sonra ölsə oddadır" əldə etdiyi məna (təbir) heç də düzgün deyil.

Nəhayət son sözümüzə yetişdik. Bu işimizlə çalışdıq ki, müqəddəs Peyğəmbər (s) sünnətinə əl uzadıb onu çirkaba aludə edənlərin işlərini süzgəcdən keçirək. Allaha çox şükür olsun ki, O bizi bu işdə müvəffəq etdi. İstəyizim də odur ki, möminlər bundan bəhrələnsin və qiyamət günü üçün əlimizdən tutsun. Salavat və salam olsun Peyğəmbərə və onun ailəsnə.

***

***Bu yazı 1362-ci hicri ili, Ramazan ayının 23-ü, cümə axşamı günü (1943-cü miladi ili, sentyabrın 23-ü) Sur Şəhərində Əbdül Hüseyn ibni Şərifin tərəfindən qələmə alınmışdır.***

***O, Əli (əleyhissalam)-ın 40-cı nəvəsidir. Onun ata-babalarının adları bu ardıcıl-lıqladır:***

***1-Əbdül Hüseyn (müəllifin özü)***
***2-Yusif (müəllifin atası)***
***3-Cavad (müəllifin babası)***
***4-İsmayıl***
***5-Məhəmməd***
***6-Məhəmməd***
***7-Şərəfuddin***
***8-Zeynul Abidin***
***9-Əli***
***10-Nuriddin***
***11-Nuriddin Əli***
***12-Hüseyn***
***13-Əli***
***14-Məhəmməd***
***15-Tacuddin***
***16-Əbul-həsən***
***17-Məhəmməd (Şəmsuddin adı ilə məşhurdur)***
***18-Əbdüllah Cəlaluddin***
***19-Əhməd***
***20-Həmzə***
***21-Sə"dullah***
***22-Həmzə***
***23-Əbissəadat***
***24-Məhəmməd***
***25-Əbu Məhəmməd***
***26-Nəqib Nüqəba (Bağdadda Əbu Talib ailəsindəndir)***

*27-Əbil Hərs Məhəmməd*
*28-Əbil Həsən Əli (Deyləmə adı ilə məşhurdur)*
*29-Tahir Əbdüllah*
*30-Əbul Həsən Məhəmməd Mühəddis*
*31-Təyyib Tahir*
*32-Hüseyn Qüti"*
*33-Musa Əbu Sübhət*
*34-Mürtəza*
*35-İmam Kazim*
*36-İmam Sadiq*
*37-İmam Baqir*
*38-İmam Zeynul Abidin*
*39-İmam Əbi Əbdillah Seyyiduş-şühəda ("Kisa" səhabələrinin 5-cisi və Peyğəmbərin nəvəsi)*
*40-Əmirəl-möminin Seyyidil-vəsiyyin Əliyyibni Əbi Talib (səlavatullahi və səlamuhu əleyhim əcməin)*